**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FOLKLOR İNSTİTUTU**

# GƏDƏBƏY FOLKLOR ÖRNƏKLƏRİ

## I KİTAB

**BAKI – 2016**

**TƏRTİB EDƏNLƏR: AMEA-nın müxbir üzvü**
**Muxtar KAZIMOĞLU (İMANOV)**
**fil.ü.f.d. Səbinə İSAYEVA**

**REDAKTORU: fil.ü.f.d., dos. İlkin RÜSTƏMZADƏ**

**Gədəbəy folklor örnəkləri**. I cild. Bakı, "Elm və təhsil", 2016, -360 səh.

folklor.az

Q $\frac{4603000000}{\text{N-098-2016}}$ Qrifli nəşr

© Folklor İnstitutu, 2016

# ÖN SÖZ

“Gədəbəy folklor örnəkləri” adlı çoxcildliyin 1-ci cildi barədə qeyd edilməli məsələlərdən biri şifahi söyləyicilik ənənəsinin kitabda nə dərəcədə qorunub saxlanması məsələsidir. Çünki istənilən folklor toplusu kimi, bu toplunun da dəyəri şifahi söyləyiciliyin qorunub saxlanması ilə çox bağlıdır. Müxtəlif janrları əhatə edən mətnlər birbaşa söyləyicilərin dilindən qeydə alındığına görə kitabda tərtibçilər qarşısında duran əsas çətinlik məhz şifahi deyilişin forma və məzmununa mümkün qədər sadiq qalmaqdan ibarət olub. Bu yerdə “çətinlik” sözünü işlətməyimiz heç də təsadüfi deyil. İş burasındadır ki, günü bu gün folklor nümunələri toplayıb nəşr etməyin öz problemləri var. Bir problem folklora marağın öləzidiyi və folklor daşıyıcılarının get-gedə azaldığı bir şəraitdə əldə edilən nümunələrin təhriflərə yol vermədən araya-ərsəyə gətirilməsi ilə bağlıdırsa, başqa bir problem şifahi deyilişdən kitaba təbii biçimdə gətirilmiş mətnləri oxucunun necə qarşılaması ilə bağlıdır. Sirr deyil ki, sıravi oxucular, yaxud elmin başqa sahələri ilə məşğul olan həmkarlarımız, hətta folklorşünas dostlarımızın bəziləri belə folklor nümunələrini necə var, o şəkildə nəşr etməyi düzgün yol saymırlar. Əlbəttə, geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş folklor toplularını ictimai fikrə uyğun redaktədən keçirmək dünyada qəbul olunmuş bir qaydadır, bu qayda bizdə də geniş tətbiq olunub və bu gün də tətbiq olunmaqdadır. Folklor toplusu geniş oxucu kütləsi yox, mütəxəssislər üçün nəzərdə tutulursa, bu yerdə artıq ictimai fikrə uyğun redaktə aparmaq arxa plana keçir, şifahi ifa tərzini nəzərə almaq kitab tərtibində başlıca meyara çevrilir. Sıravi və qeyri-sıravi oxucunun necə qarşılamasından asılı olmayaraq, dünya folklor elminin vacibdən vacib bildiyi həmin meyara əməl etmək bizim də borcumuzdur.

Şifahi deyilişin mühüm forma göstəriciləri sırasında dil faktoru mühüm yer tutduğuna görə kitabdakı mətnlərin tərtibində dialekt və şivə xüsusiyyətlərinə xüsusi fikir verilib; Gəncəbasar bölgəsi, o cümlədən Gədəbəy üçün çox səciyyəvi olan "sagır nun" səsinin yazıda ifadəsi belə vacib sayılıb: "İman gəley, gələndə göröy Salatın qarı çörəh pişirey. Deey:

– Ana, axşamın xeyir.

Deey:

– Axşamın xeyir, a bala. Kimsin$_{ı}$, nəçisin$_{ı}$?

Deey:

– Ana, qəriv adamım, qonağım, ajmışım.

Deey:

– Oğul, qonax Allah qonağıdı, xoş gəlifsin$_{ı}$.

Çörəyin birini isdi-isdi buna verey, şirəli cəmin birinə də nəhrə yağını qoyoy ki, oğul, ala, bunnan düymənc elə də ye". Bu nümunə əsasında şifahi nitqə xas səciyyəvi cəhətləri xatırlatmaq istəsək, ilk növbədə *gəlir, görür, bişirir, deyir, verir, qoyur* kimi indiki zaman fellərinin; *kimsən, nəçisən* kimi sual əvəzliklərinin; *adamam, qonağam* kimi isimlərin; *acmışam, gəlibsən* kimi keçmiş zaman fellərinin yerli ləhcəyə uyğun tələffüz olunmasını (*gəley, göröy, pişirey, deey, verey, qoyoy; kimsin*$_{ı}$, *nəçisin*$_{ı}$*; adamım, qonağım; ajmışım, gəlifsin*$_{ı}$ şəklində deyilməsini), *düymənc* tipli dialekt sözlərinin işlənməsini qeyd etməliyik. Ancaq unutmamalıyıq ki, ləhcəyə uyğun tələffüz şəklinin az-çox saxlanması və ara-sıra dialekt sözlərinin işlənməsi ilə iş bitmir. Çünki bir çox hallarda xalq ədəbiyyatı mətnləri üzərində ləhcəçilik əməliyyatı aparılmasının, bu əməliyyatın saxtakarlıq vasitəsinə çevrilməsinin şahidi oluruq. Bir də görürsən tərtibçi zalım oğlu hansısa kitabdan götürdüyü əfsanə, rəvayət, nağıl, dastan mətnlərini ədəbi dil normalarından çıxarıb hansısa bölgənin ləhcəsinə uyğun bir şəklə salır və onları həmin bölgədən yenicə toplanmış

mətnlər kimi oxucuya təqdim edir. Bu o deməkdir ki, folklor mətninin təbiiliyi məsələsində ləhcə elementlərini dilin yeganə göstəricisi saymamalı və həmin məsələdə başqa mühüm elementlərə də diqqət yetirməliyik. Başqa mühüm elementlər hansılardır? Canlı xalq danışıq dilinə məxsus cümlə quruluşu, nağıletmə tərzi, dialoqların təbii çatdırılma forması və s. Bir az əvvəl Növrəs İman barədəki rəvayətdən nümunə gətirdiyimiz parçaya yenidən qayıtsaq, həmin nümunədə feli sifət, feli bağlama, məsdər tərkiblərindən istifadə edilmədiyini, əksər hallarda yığcam cümlələr işləndiyini, yığcam və ritmik cümlələrin hansısa söz və ifadə ilə bir-birinə bağlandığını müşahidə etmiş olarıq. “Gəley, gələndə göröy” qəlibi nümunə gətirilən parçada cümləni cümləyə bağlamağın xalq danışıq dilinə xas səciyyəvi formasıdır. Mətnin bir hissəsini o biri hissəsinə bağlamağın bu formasına “Gədəbəy folklor örnəkləri”ndən istənilən qədər misal çəkmək olar: “Ağaşnan möhkəm vuror. Vuranda bu dönör olor adam”. Göründüyü kimi, “Vuror. Vuranda...” qəlibi cümlənin son sözünü o biri cümlənin əvvəlində təkrar edib mətndaxili əlaqə yaratmağın başqa bir nümunəsidir.

Diqqət yetirilsə, aydın olar ki, söhbət edən iki adamdan birinin dediyindən o birinin dediyinə keçməyin “İman deyir”, “Səltənət qarı deyir” şəkli yuxarıda misal çəkdiyimiz rəvayət parçasında işlənməyib. Yəni toplayıcılar və tərtibçilər Növrəs İmanla Salatın qarı arasındakı dialoqu informatorun söylədiyi kimi – “deey (deyir)” keçid şəkli ilə təqdim ediblər. Yeri gəlmişkən qeyd edək ki, dialoqların o cür təqdim edilməsi kitabdakı mətnlərin bir çoxu üçün səciyyəvidir: “Deer:

– Bə sənin$_{\imath}$ adın$_{\imath}$ nədi?

Deer:

– Mənim adım Əvəzəxeyirdi… Gəl sənnən şərt kəsəh.

Deer:

– Nə şərt?

Deer:

– Ya sən böyüh ol, ya mən böyüh olom”.

Yerli ləhcədə danışan söyləyici dialoqlarda bəlağətdən, ibarəçilikdən büsbütün uzaqlaşır. Padşahla dialoq belə bəzən iki sadədil əkinçinin söhbəti səviyyəsinə endirilir: “Deer:

– A Məhəmmət, balıx hanı?

Deer:

– Ay dədə, balığı suya tulladım.

Deer:

– A bala, niyə? Deməli, sən balığı mənnən çox isdeermişsən$_ı$?.. Cəllatdar aparsın bunun boynunu vursun$_ı$!

Görən, bilən deer:

– Əə, öyü yıxılmışın oğlu, bu yaşın$_ı$da sən oğlun$_ı$un boynunu vurdursan$_ı$, san$_ı$a irəhmət tüşörmü? Munu burax, qoy çıxsın$_ı$, varsın$_ı$ getsin”. Qəzəbli padşaha müraciət edərkən ətrafdakı adamların, tutalım, “qibleyi-aləm sağ olsun” əvəzinə “əə, öyü yıxılmışın oğlu” şəklində müraciət etməsi şifahi təhkiyədə loru deyim tərzinin qabarıq olmasını göstərir.

Mətnlərin tərtib edilməsində əsas istinad nöqtəsi informatorların – söyləyicilərin necə və nə danışmasıdırsa, onda bu adamların kimlərdən ibarət olmasına diqqət yetirmək zərurəti yaranır. Zərurət yaranır ki, söyləyicilərin savad dərəcələri, danışıqda ədəbi dil elementlərinə meyilli olub-olmamaları, mətni dolğunluğu ilə çatdırmağa səriştələrinin kifayət edib-etməməsi və s. məsələlər nəzərə alınsın. Bu kimi məsələlər nəzərə alındıqda mətnlərdən bir qismində başqa mətnlərlə müqayisədə xalq danışıq dilinin sönük, məzmunun zəif, süjetin qırıq-sökük çatdırılması təəccüb doğurmur, əksinə, belə hal şifahi nağıletmənin söyləyicidən asılı olaraq müxtəlif səviyyələrdə ortaya çıxmasından xəbər verir. Şifahi təhkiyənin söyləyici səriştəsindən asılı olaraq müxtəlif səviyyələrdə

ortaya çıxmasını eyni nümunənin ayrı-ayrı söyləyicilər dilindən yazıya alınması faktlarında daha aydın görmək olur. Amma bu məsələnin götür-qoy edilməsinə folklorun ilkin şərtlərindən olan variantlaşmadan başlasaq, daha münasib olar. Çünki folklor toplularına münasibətdə sıravi və ya qeyri-sıravi oxucuların narazılıqla qarşıladığı məsələlərdən biri də variantlaşma məsələsidir. Bəli, bəzi oxucular nə vaxtsa, hansı kitabdansa oxuduqları əfsanə və rəvayəti, nağıl və dastanı, atalar sözü və məsəli, tapmaca və bayatını… məzmunca "bir az" fərqli şəkildə başqa kitablarda – yeni toplanmış materiallar sırasında gördükdə "Buna nə ehtiyac var?!" deyib, yeni toplanmış materialın məzmunca da "yeni" olmasını mühüm tələb kimi irəli sürürlər. Bu tələbdə, başqa sözlə desək, bu ictimai sifarişdə səmərəli cəhətin olması danılmazdır. Səmərəli cəhət orasındadır ki, bu tələb folklor toplayıcısını indiyəcən diqqəti cəlb etməmiş, yazıya alınmamış və toplulara salınmamış nümunələrin aşkara çıxarılması istiqamətində səyi daha da artırmağa səsləyir. Amma xatırlatdığımız tələbin və ya ictimai sifarişin zərərli cəhətinin də olması unudulmamalıdır. Unudulmamalıdır ki, "yeni" nümunə axtarışı folklorun variantlaşma kimi mühüm prinsipinin diqqətdən kənarda qalmasına gətirib çıxara bilər. O da unudulmamalıdır ki, hər "yeni" nümunənin də uydurma yox, həqiqi mətn olduğunun başlıca göstəricilərindən biri həmin nümunənin hardasa variantının olub-olmamasıdır. Tutalım, bir kənddə qeydə alınmış "yeni" nümunənin qonşu kəndlərdə, yaxın bölgələrdə variantına rast gəlmiriksə, onda həmin nümunənin kollektiv şüur süzgəcindən keçməsinə, folklor nümunəsi olmasına inanmaq çətinləşir. Variantlaşmanı konkret olaraq Gədəbəydən toplanmış örnəklər üzərində dəyərləndirmək istəsək, üç cəhəti xüsusi qeyd etməliyik:

a) qabaqcadan məlum olan motiv, süjet və obrazlarda "bölgəyə məxsus" detalların özünü göstərməsi;

b) "bölgəyə məxsus" nümunələrdə qabaqcadan məlum olan motiv, süjet və obrazlarla müəyyən səsləşmələrin olması;

c) eyni folklor nümunəsi ilə (məsələn, hansısa rəvayət, nağıl, bayatı və atalar sözü ilə) bağlı bir yox, bir neçə mətnin təqdim edilməsi.

Kitabdan variantlaşmanın hər üç istiqamətinə aid çoxlu misallar çəkmək olar. Amma buna ehtiyac görmədən bir nağıl üzərində ötəri dayanmaqla kifayətlənmək istəyirik. Üzərində az-çox dayanmaq istədiyimiz nağıl "Qarğa ilə keçəl"dir. 1980-ci illərin əvvəllərində yazıya alınan bu nağılın "bölgəyə məxsusluğu" nağılda qarğa obrazının xüsusi yer tutması ilə bağlıdır. Bu nağılda qarğa elə-belə, epizodik bir obraz yox, qarğalar padşahıdır, hadisələrin gedişatına əsaslı təsir göstərən fəal yardımçı qüvvədir. Nağılın baş qəhrəmanı, yəni bir tikə çörəyə möhtac olan, fərasətsizliyi ilə ənənəvi kələkbaz obrazlarından daha çox Tənbəl Əhməd tipli obrazlara bənzəyən keçəl məhz qarğanın sayəsində bir dəfə sehrli qazan, bir dəfə sehrli eşşək, bir dəfə isə sehrli toxmaq əldə edir. Keçəl sehrli qazanın hesabına dünyanın naz-nemətinə, sehrli toxmağın köməyi ilə şər qüvvələrə – qazanı onun əlindən almaq istəyən padşaha, eşşəyi onun əlindən almaq istəyən dəyirmançıya qalib gələ bilir. Qarğanın bu qədər xüsusi yer tutduğu bu nağıla indiyəcən toplanıb çap olunmuş Azərbaycan nağılları sırasında rast gəlmirik. Şərti olaraq "bölgəyə məxsus" nümunə adlandırdığımız və bununla ilk dəfə məhz Gədəbəydən toplanmasına işarə etdiyimiz "Qarğa ilə keçəl"ə əsaslanıb bu nağıldakı qarğanın qabaqcadan bizə məlum olan obrazlarla heç cür səsləşmədiyini iddia etmək mümkündürmü? Əlbəttə, mümkün deyil. Əvvəla, ona görə mümkün deyil ki, dünya mifologiyası və folklorunda qarğa obrazının mühüm yer tutduğu saysız-

hesabsız süjet və motivlər var. İkinci tərəfdən ona görə mümkün deyil ki, Azərbaycan inanclar sistemində və Azərbaycan folklorunun ayrı-ayrı janrlarında qarğanın sakral aləmə bağlı olmasına aid çoxlu faktlarla qarşılaşırıq. Gədəbəydən toplanıb yazıya alınmış "Qarğa ilə keçəl"i konkret olaraq nağıllarımızla müqayisədə gözdən keçirəndə qarğanın yardımçı qüvvə timsalında təqdim edilməsinin ənənədən gəlməsinə, başqa nağıllarımızdakı müvafiq epizodlarla (məsələn, "Nardanxatın" nağılının bu kitaba salınmış iki variantından birində qarğanın bələdçilik edib, Nardanxatını qardaşlarına qovuşdurması epizodu ilə) səsləşməsinə bir daha inanmış oluruq.

"Gədəbəy folklor örnəkləri" kitabında təqdim olunmuş mətnlərin, heç şübhəsiz, bir vaxtlar xüsusi ifa konteksti olub. Nağılları uzun qış gecələrində xüsusi nağılçılar çoxlu adamın toplaşdığı məclislərdə danışıblar. Aşıqların böyük şövqlə apardığı dastan məclisləri saatlarla çəkib, bəzən günlərlə davam edib. Bayatılar yas məclislərində avazla oxunub... Təəssüf ki, folklor nümunələrini o cür təbii kontekstində dinləyib yazıya almaq bu gün müşkülə dönüb. Səbəbin biri o cür məclislərdən çoxunun sıradan çıxmasıdırsa, biri də biz folklorşünasların folklor daşıyıcıları ilə qaynayıb-qarışa bilməməyimizdir. Qaynayıb-qarışmaq, səmimi ünsiyyətə girmək mümkün olsa, yas məclislərində, dar dairə üçün nəzərdə tutulan xüsusi mərasimlərdə iştirak edib, qeydlər götürmək də mümkün olar. Bu gün az-çox mümkün olan söyləyici və toplayıcı dialoqudur. Bəli, bu gün əldə edilən folklor nümunələrinin böyük əksəriyyəti məhz həmin dialoq kontekstində ortaya çıxır. Toplayıcı ordan-burdan söz salıb, əfsanə və rəvayətdən, nağıl və dastandan, atalar sözü və məsəldən, tapmaca və bayatıdan misallar çəkib, söyləyicinin yaddaşını tərpətməyə, onu dilləndirməyə çalışır. Folklor daşıyıcısının "dil açıb" danışması məhz toplayıcının yarada bildiyi isti münasibət hesa-

bına baş tutur. Belə isti münasibətin əlamətləri kitabdakı bəzi mətnlərdən də görünməkdədir: “Hər kəş öz yoluna davam elleer. Gedellər, gedellər. Böyüh qardaş, a qızım, başqa bir ölkədə bir doxdura rasd olor.

…Kişi həkimliyi bu oğlana tam örgəder. Son$_ı$ra qızınnan muna toy elləməli olor, a bala”. Bu mətndə “a qızım”, “a bala” söyləyicinin toplayıcıya xitablarıdır. Söyləyici xitablarla kifayətlənməyib, bəzən söylədiyi mətnin sonunda toplayıcıya “alxış” da edir: “Qızım, bəxdi gələn qızdardan ol. Qoy munnan, bax bu nağıllardan san$_ı$a bir bəxşiş olsun, sənin$_ı$ ruzun$_ı$ bol olsun, canın$_ı$ sağ olsun, Allah san$_ı$a ağ günnər versin”. Xatırlatdığımız xitablar və xeyir-dualar folklor mətnlərinin söyləndiyi şərait barədə təsəvvür yaratmaq baxımından mühüm əhəmiyyət daşıyır. Folklor mətninin hansı şəraitdə söylənməsinin, hansı kontekstdə ifa olunmasının vacib bir məsələ olduğunu nəzərə aldığındandır ki, toplayıcı diktofona yazdığı mətnləri sonradan vərəqlərə köçürərkən ilk baxışda maraqsız görünən, amma şifahi söyləyiciliyin göstəricisi olan bir çox elementləri ixtisar etmək yolu tutmur. Belə elementlər sırasında mimika və jestləri qeyd etmək olar. Danışdığı müxtəlif məzmunlu əhvalatlara, söylədiyi və ya ifa etdiyi lirik parçalara münasibətdə informatorun üz cizgilərində hansı dəyişiklik müşahidə edilir? Yaxud əl-qol hərəkətləri danışıq prosesi ilə nə dərəcədə ahəngdarlıq yaradır? Bu cür suallara yeri gəldikcə aydınlıq gətirməyin faydalı olacağı nəzərə alındığına görə kitabda xüsusi toplayıcı və tərtibçi qeydlərinə yer verilir. Məsələn, kitabda toplayıcının belə bir ətək yazısı ilə tanış oluruq: “Söyləyici  bayatıları avazla – mahnı kimi oxuyur”. Toplayıcının bu qeydi bir tərəfdən bayatının məclisdən asılı olaraq şeir kimi qiraətlə oxunmamasından xəbər verirsə, digər tərəfdən də söyləyicinin zahirdə üzə çıxan daxili yaşantısına işarə edir. Kitabdakı mətnlərin bir neçəsində isə söyləyicinin

əl-qol hərəkətlərinə işarə edən cümlələrə rast gəlirik: “Baxdı ki, burda bir dev oturuf. Qənirsiz gözəl bir qız saçınnan göydən asılıf. Dev də əlində bir yekə qurvağeyi belə-belə sığallıyır”. “Dev” sözünün ləhcədə (“döy” şəklində) deyilməməsi ilə “qənirsiz gözəl” ifadəsinin işlənməsi ilə savadlı adam tərəfindən söyləndiyi bəlli olan bu mətndə “belə-belə sığallıyır” cümləsi işarə ilə danışmaq nümunəsidir və toplayıcı qeydindən də göründüyü kimi, həmin cümlə əllə sığal çəkmək mənasındadır.

Əlbəttə, folklor konteksti çox geniş anlayışdır və folklor mətninin hansı situasiyada söylənməsi, yaxud ifa olunması həmin anlayışın yalnız bir cəhətidir. Folklor kontekstində mühüm cəhətlərindən biri də folklor nümunəsinin hansı situasiyada yaranması məsələsi ilə bağlıdır. Şifahi yaradıcılıq üçün mühüm olan bu məsələ imkan daxilində “Gədəbəy folklor örnəkləri”ndə də nəzərə alınıb. Təsadüfi deyil ki, kitabda bir çox deyimlərin, atalar sözü və məsəllərin, aşıq şeiri nümunələrinin, lətifələrin, etnoqrafik nəğmələrin yaranma situasiyası ilə bağlı söyləyici şərhləri, yaxud xüsusi mətnlər vardır. “Xoruzunu qoltuğuna vermək” deyimi, “Saman düşdü, Zaman öldü” məsəli, Aşıq Ələsgərin “Düşərsən” rədifli qoşması, küləyin kəsməsi, günün çıxması, yağışın yağması, bəd nəzərin sovuşması ilə bağlı nəğmələr kitabda yaranma konteksti xüsusi olaraq aydınlaşdırılan xeyli miqdarda nümunə sırasındadır.

Aşıq ədəbiyyatına aid nümunənin folklorun digər nümunələri ilə eyni sırada xatırlanması fürsətindən istifadə edib bir məsələyə də toxunmaq istəyirik. Bu məqamda toxunmağa ehtiyac duyduğumuz məsələ tək Gədəbəydə yox, ümumən Gəncəbasar bölgəsində aşıq sənətinin yeri və çəkisi ilə bağlı məsələdir. Aşıq sənətinin bu bölgədə nə qədər mötəbər yer tutması, ağır çəkisinə görə necə sayılıb-seçilməsi şəksiz-şübhəsizdir. Amma bu mötəbərlik və sayılıb-seçilmək biz folk-

lorşünaslara əsas vermir ki, Gəncəbasar folklorunun digər sahələrinə biganə yanaşaq, gəncəbasarlının yaşayış, davranış və düşüncə tərzində bola-bol qorunub saxlanan etnoqrafik zənginliyə göz yumaq. Əgər oğuzlar (yerli ləhcə ilə desək, uğuzlar) haqda rəvayətlər ən çox bu bölgədən toplanırsa; Hal (Hal anası, Hal arvadı) haqda məlum və məşhur mətnlərə bu bölgədə "yeni" portret cizgiləri əlavə olunursa; ruhların çağırılması ilə səciyyəvi olan şaman mərasimlərinin izlərini bu bölgədə tapmaq heç bir çətinlik törətmirsə; biz folklorşünasların əli ilə dolaşığa salınmış Novruz kələfinin açılıb-çözülməsində bu bölgədən toplanmış materiallar köməyimizə gəlirsə, onda doğrudan da, bu bölgədəki etnoqrafik zənginliyə biganə qalmağa haqqımız yoxdur.

***Muxtar Kazımoğlu (İmanov)***
***AMEA-nın müxbir üzvü***

## MİFOLOJİ MƏTNLƏR

### 1-8. YERİN-GÖYÜN BİNASI

**1.**

Bavamın, dədəmin deməyinə görə, yerin, göyün yeddi qatı var. İndi biz neçənci qatındayıx, bilmerəm. Ancax dünya qızıl öküzün belindədi. Qızıl öküz, deerdi, tükünü tərpədəndə zəlzələ olor.

**2.**

Yer yeddi təbəqədi. Yeddi yerdə yaşayış var. İndi də var. Bizdən aşağı var haa, indi bu qayda orda yer də var, göy də var. Yeddi mərtəbə yaşayış var.

**3.**

Deellər, guya ki, öküz quyruğunu buluyanda görörsən$_{ı}$ ki, dünyada zəlzələ baş verir, təlatümlər baş verir. Allah eləməmiş, belə bir istilihdə o öküzü böyələh[1] sanşsa, onda yer kürəsi pütün kutarardı e öküzün belində. Mən onu eşitmişəm ki, bu zəlzələ-zad öküz quyruğunu tərpədəndə əmələ gəler.

**4.**

İnsan dünyaya Allah-taala tərəfinnən göndərilif. Dünyaya ilk dəfə Adəmnən Həvva gəlif. Adəmnən Həvva çörəh nə olduğunu bilmellərmiş. Eləjə bir gül varmış, o gülü iyliyəllərmiş. O gülü iyliyəndə insan toxlanarmış. Şeytan alladır, çörəyi yidirdir. Onnan son$_{ı}$ra da Allah-taaladan səda gəler ki, bunu xaric eləməh lazımdı. Şeytan yidirdif insanı. Bular bir-birinə neçə illər yaxın gəlmillərmiş. Onnar görüşənnən son$_{ı}$ra bax bu insannarın meydana əlməsi olor. Özü də kişi kotan əkermiş, arvat ona çörəh aparıf, meyillənif, bax onnan da insannar əmələ gəlif.

---

[1]Böyələh – milçəkdən bir az iri, sancan həşərat

**5.**

Bir qadın yuxa pişireymiş, çörəh pişireymiş. Yanında da körpə uşax varıymış. Bu qadın təntiyif bu yuxoynan uşağın nəcisini siley. O da Allah-təlaya çox ağır gəley. Göy çəkiley oxarı[2]. Ona kimi bu itnən, pişih uluuy. Uluuy ki, amanın bir günüdü, o heş, bə bizə yazığın$_{ı}$ gəlsin. İndi ona görə deellər ki, itnən pişiyin üzünə yiirih çörəyi.

**6.**

Yernən göy bir-birinə çox yaxın oluflar. O qar ki yağır ha, o vaxdı uzun un yağıf guya. Bir arvat yuxa yayanda, deməyinən uşağını yuxoynan təmizdiyəndə o yernən göy uzaxlaşıf, bu qayda qalıf. İtdər ulaşıf, nə bilim, çox şey oluf. Bu qədər qalxannan son$_{ı}$ra Allah-taala day qoymor göy qalxa. Onnan belə qalıf.

**7.**

Yuxanı yayer qarı. Həə, bu itə atmer. Bu çörəh isdi çörəhdi də, bunnan atmalısan itə. Bu, pişirer yığer orəə, itə vermer. Verməəndə göy guruldööf də qalxıf gedif – tam gedermiş ey. İtdər ulaşıf, pişihlər mauldoyuf, onnarın üzünə Allahtala orda saxleef göyü. Deef, daa dünya bərqərər olmaz. Onnan son$_{ı}$rasına cinsdər artıf.

**8.**

Ayın anası kündə yayermış. Ay gəlif şuluxlux salıf, ona mane olanda anası ona şillə vuruf. Ayın üzündəki ləkə o külün yeridi.

---

[2] Oxarı – yuxarı

## 9-13. UĞUZLAR

### 9.

Uğuzdar bizdən çox qavağ oluf. Uğuzun anası bizim kimi balacaboy adamları görsədif deef ki, oğul, dünyoyu bunnar yəəjəh. Uğuza deef ha!

Uğuz da deef:

– Ana, bunnarı mən çəhməmin boğazında əzdireyrim.

Deef:

– Oğul, dünyöyü bunnar yəələnəjəh[3], dünya bunnara qalajax.

Bax o dediyim daşdar, qəəlar[4] uğuzdarın oluf. Bizim kimi adamlar onnarın yanında bir hörümçəh hesav olunuf. O qədər hündür, o qədər qüvvəli insannarıymış ki uğuzdar.

### 10.

Boyu iki metir adamlar yadıma gəlir. Bir kişi vardı, oqqədənə böyüydü ki, qəbirə də sığışmırdı. Onu üş dəfə qəbirdən çıxartdılar, qəbri genəltdilər. Çox yekə barmaxları vardı. Biçin vaxdı adi adamın bir-iki saata pişdiyini bu bir dəfəyə piçirdi.

### 11.

İri, hündürboy adamlar bizim ellərdə də yaşıyıf. Cavannığımda olardan görmüşəm. Nə indiki əkqavılar oların əyağına olmazdı, nə də indiki paltarrar. Olar bizim kətdəniydilər. Çox yiirdilər. Vedrəynən yiirdilər. Quruşqada[5] doymurdular, suyu cürdəydə[6] bir dəfəyə dörd-beş litir içirdilər. İndiki pitinin beş-altısını yiirdilər. Mən belə görmüşəm. Oların qəbirrəri iri olur-

---

[3] Yəələnəjəh – yiyələnəcək

[4] Qəəlar – qayalar

[5] Quruşqa – rus dilindəki kruşka sözünün şivə variantıdır.

[6] Cürdəy – cürdək, su qabı

du. Bu sahat da oların əjdaddarının iri qəbirrəri yadımdadı. Ermənistanda qəbirrəri var, bilirəm.

**12.**

Bir vaxdar buralarda iri adamlar yaşıyırdılar. Cəngavər kimiydilər. Yaxşı döyüşürdülər. Qəti yorulmazdılar. Oraxnan nə cür taxıl, ot piçirdilər, gəl görəsən. Bizim bir qucax otumuzu olar bir əlində pühməliyirdi[7].

**13.**

Deməli, mən cavan oğlanıydım. Bir iri adam vardı. Onun bir qoluyla pişdiyini götürə bilmirdim. Helə cəngavar adamıydı. İndi elə adamlara vəhşi diyillər. Çox qavarıx[8] yiirdilər. İndiki on nəfər adam oların birinin işdəməyinin əvəzini verə bilməzdi. Ermənilər oların yanında uşax kimi görünürdü. Olardan yaman qorxurdular. Bığ saxlıyırdılar. Yekəydilər e, çox yekə. Bax, bu uzun kişi onun olsa-olsa, ortasınnan ancax olardı. Bu uzunnan iki dənəsini bir-birinin üsdünə qoy, gör nə çıxar.

Toyda zurna havasına yaman oynuyurdular. Oynuya-oynuya dedihləri sözdər yadımdadı:

Ay haşabaş,
Gəl yavaş-yavaş.
Gör neynədi,
Beşi on beş eylədi.

Olardan birinin adı Məmmədtağıydı. Çox hündür adamıydı e. Bizim kimi adamları çiyninnən tuturdu, vurmurdu e, əyaxlarını göydə yelliyə-yelliyə götürüf çıxardırdı eşiyə. Zarafatcılıydı.

---

[7] Pühməliyirdi – bükürdü
[8] Qavarıx – tutumlu, çox

# 14-22. HAL

## 14.

Bu Mustafa kişinin Haravaçıda[9] dəyirmanı varıymış. Bir gün bu çıxanda görör kün, bir gəlin dəyirmanın noyunda bir ciyar yuur. Geder yanna. Başa tüşör kü, bu Haldı. "Pıssımıllah" eliyir də, munu tutor. Tutanda soruşor:

– Bu nə hak-hesafdı, nə ciyar yuursan?

Deer kin, Fərzalıda[10] bir gəlin doğuf. Onun ciyarını suya çəkerəm ki, ölsün. Bu kişi munnan əl çəhmer. Nə qərtə[11] yalvarer, nə qərtə yoncuyursa[12] da, mümkün olmor. Axır bu Hal davanınnan bir qırıx kəser də, bu kişiyə verer, özü də xalasının goruna and içer kin, sənin yeddi arxa dolananın$_{ı}$a dəymiyjəm, özüm də pusahat[13] gedif Gərməşöylüdə[14] bir it qancıxlıyıf, onun ciyarını çıxardıf o gəlinə qoyajam. Bu kişi Halı buraxdığınnan üzü Fərzalıya haydı, geder. Gəler görör yas qazannarı asılıf, ağlaşma-şivən qopuf. Təzdən deer ki, hələ bir az durun görəh, bir-iki sahat gözdüyəh. Buna qulağ asellar, bir-iki sahat işi ləngidellər. İki sahat keçer, üçüncü sahatda gəlin ahsırer[15] da oyaner. Təzdən yas qazanı toy qazanı olor. Həmən gəlin bu yaxınatan yaşeerdı. O kişinin də yeddi arxa dolananında doğurdan doğuş üsdə ölən gəlin olmor.

## 15.

Bir gün Qələndər kişi fermanın malını qoruyurmuş. Ferma sədriymiş. Özünə bir daldeyda[16] taxdadan dam qayırıf da

---

[9] Haravaçı – Gədəbəy rayonunda Arabaçı kəndi
[10] Fərzalı – Gədəbəy rayonunda kənd
[11] Nə qərtə – nə qədər
[12] Yoncumaq – dil tökmək
[13] Pusahat – bu saat
[14] Gərməşöylü – Gədəbəy rayonunda Gərməşovlu kəndi
[15] Ahsırer – asqırır
[16] Daldeyda – gizli yerdə

gejə burdaja yatermış. Malın yanında yater dana, qorxor ku, gejə malı aparallar. Uzanıpbış, ojax da yanermış. Başını aynadan bir Hal çıxardıf da, haylıyıf deer:

– Ay Qələndər, ay Qələndər! Niyə durorsanı? Mal qartovu basdı.

Onun anıarı yanı[17] da qartovuymuş. Bu yüyürör geder. Görör oralarda mal-zad yoxdu. Malın ağzı da açıx döy, qayrılıdı. Təzdən bu barmağını tişdiyer ki, yağın bu, Haldı. Gəler tüfəngi dolduror da, ujunu aynıya sarı hazır qoyor. Bir də əler, başını saler, deer:

– Hi, hi gördünımü, səni yaxşı allatdım.

Çattttt! Tüəng açıler. Qanı tökülə-tökülə bu qaçer. Qələndərin əmisi Camal kişi də öydə yatdığı yerdə tüəngin səsini eşider. Deer, tova, malı da apardılar, Qələndəri də vurdular tüəhnən. Tez duror, tuman-köynəhdə yavıyı ötürör, tərpəner. Qapının ağzına ələndə örör, işıx yaner. Kişi də içərdə uzanıf. Qələndər yazıx da Camalı yörəndə elə biler ki, bu Haldı. Tüəngin ujunu muna sarı döndərer ki, vursun. Camal haylıyır kı, ayə, nağayrersanı? Dəlimi olufsanı? Bu da tüəngin ujunu təntiyir[18] də yuxarı tutor, xatadan uzax qaler. Təzdən Qələndər başına ələni Camala danışer. Camal da aparer onu öyündə yatızdırer.

### 16.

O vaxdı bavalarımız bir Hal tutuflar. Səhər qalxellar ki, at pütün sudu. Həə, deməzsənımi, bunu Hal gejələr miney. Bə bunu nağayrax? Gəl bunun belinə bir dənə keçə atax, onun üsdünə qır tökəh. Qırı töküflər, Hal gəlif atı minəndə yapışey. Səhər ağsakqal gəlif baxey ki, atın belində balaja bir qaraltı var. Gedif bir xam iyneyi gətiriflər, yaxasına sancanda o böyüyüf. Bəyaxdan balaja bir şeydi. Hal atın belində tutulannan

---

[17] Anıarı yan – o yan

[18] Təntiyir – özünü itirir

son$_ı$ra bunu işdədellər. Onu buraxanda tovalatma verellər ki, bə Hal yeddi arxa dönəninə yaxın tüşmüyəjəh.

### 17.

Bir gün qıza deellər ki, apar bu Halı, su gəti. Bu qız gətirif aparermış. Hal buna deey ki, ağız, noolar, suyu dolduranda əlimə tikan batdı, gə bu tikanı iyneynən çıxart. Qız iyneyi çıxardanda Hal itey gözünnən. Çünki Hal xam iyneynən gözə görükördü. Anası da Hal olanda xamır yoğurufmuş. İndi bu çörəyi pişirey, çörəh kutarmey, çörəyi pişirey, çörəh kutarmey. Günnərnən belə olor. Qıza qarğeey anası. Deey ki, niyə Halı buraxdın$_ı$? Qız da ağlıya-ağlıya vedreyi götürüf suya gedəndə Hal onun gözünə görükmədən deey:

– Gedif anan$_ı$a deyərsən$_ı$ ki, xamırı kəssin, üş dəfə xamırın üsdünə qoysun. Kəssin, bir də vursun, kəssin, bir də vursun. Onnan son$_ı$ra xamır kutarajax.

Qız gəley, anasına Halın dediyini deey. Xamır onnan da kutarey.

### 18.

Bizim qon$_ı$şunun uşağı olurdu, amma sağ qalmırdı, ölürdü. Bir dəfə heylə olanda man$_ı$a bir berdanka[19], iki zəncir verdilər. Dedilər ki, uşağı Hal aparıf. Getdim dəyirmanın yanına. İki güllə atdım, zəncirrərin də birini dəyirmanın o tərəfinnən, birini də bu tərəfinnən saldım suya, çıxdım gəldim. Onnan son$_ı$ra arvadın uşağı ölmədi.

### 19.

Hal atnan öc olor[20]. Bir kişi görör ki, at toylada o yan-bu yana qaçır. Görör ki, bir əcinnə atı minif də çaper. Kişi qəfil-

---

[19] Berdanka – tüfəng növü

[20] Öc olmaq – incitməyə çalışmaq, yola getməmək, xasiyyətləri tutmamaq

dən əlin atıf tutor. Gəlir danışer ki, belə bir şey tutmuşam. İyneyi sancellar üsdünə. Saxleellar bunu. Deellər ki, buna xəmir yoğurtdurun$_{ı}$, qoy bərəkətdi olsun. Elə eleellər. Xəmir kutarmax bilmer. Axırda xəmiri yarıda qırellar. Halın əli elə bərəkətdiymiş ha.

**20.**

Mən özüm uşağa yatmışdım. Belə dalıüsdə yaterdım. Bir də ördüm, bax bu sinəmin üsdünə bir yekə arvat minif, and olsun Allaha. Mən kravatdayam, qaynənəm də yerdən salıf yater. Bunu nə qərtə eleerəm, sinəmin üsdən tüşmör ki, tüşmör. Fikirrəşdim ki, bu tərəf divarda iynə var. Dedim, bu iyneyi bu sahat sənin göydən$_{ı}$ə doldurajam. Əlimi belə iynəyə uzadan kimi yoxa çıxdı, and olsun Allaha. Yoxa çıxdığınnan uşaxdan bir kışqırıx çıxdı. Uşax bərk çığırdı, ağladı. Arvat ayıldı dedi ki, uşağa nağayrdın$_{ı}$? Dedim, belə-belə, başıma bir iş gəldi. Dedi:

– San$_{ı}$a ajığı tutuf da, gedif uşağı vuruf.

Təzdən durdu, uşağın qorxuluğunu götdü, nağayrdı, onnan son$_{ı}$ra uşax yaxşılandı.

**21.**

Yetmiş beş yaşdı Südabə nənə söylöör ki, mənim nənəm Səri qarıgil o vax Hal tutuflar. Hal qaşmasın deyə, onun üsdünə sancax keçiriflər. Adını da Məryəm qoyuflar. Ona xamır qatdırıllarmış, inəyin altını təmizdədəllərmiş, evi-eşiyi yığışdırtdırallarmış. Pütün işdəri ona gördürəllərmiş. Əli o qədər bərəkətdiymiş ki, xamırı kündələdihcə, kündənin sayı artarmış. Kündədən bir qırıx götürüf tavıya atıf deyərmiş, bərəkət. Onu suya göndərməzdər ki, sancağını kimsə çıxardar. Bir gün Səri qarıgilə qonax gələr, evdə su olmaz. Məryəmi suya göndərər. Bulaxda suyu dolduranda bulağa bir uşax gələr. Uşağa deyər ki, mənim sancağımı çıxart. Uşax da sancağını çıxardar,

o vaxdan Məryəm qaçıf gedər. Nənəm söylöördü kü, həmişə ona and verdirirdim ki, yeddi arxa dönəninıə dəymiyəjəm denən. Halın məmələri çox yekəydi, qarnının üsdünə sallanırdı, vız-vız saşdarı, ağzında təh-tüh dişdəri varıydı.

## 22.

Bir gün Kəbleyi Əfkər kişi dəyirmana gedəndə görör ki, dəyirmanda çoxlu qız-gəlin çalıf oynuyur. Bilir ki, bular Haldı. Üsdündə xam iynə varmış. Bulardan birin tutuf. Bir il, para il saxlıyıf. Bir gün bu Hal xamır qatanda yanındakı uşağı alladıf, iyneyi çıxartdırıf qaçıf. Evin adamları xamırı yuğurullar, kutarmer. Həmən Halı çağırıf deellər ki, qatdığın xamır kutarmer axı. O da deef ki, kündədən kəsif tavağa atmax lazımdı ki, xamır kutarsın. Sonıra da ona tova dedirdiflər. Tova eliyif ki, sizinı nəslə dəymiyjəm. O çörəhdən də saxlıyıflar, balaca, körpə uşaxların üsdünnən assınlar ki, Hal olara toxunmasın. Hal qız uşağı da olur, oğlan uşağı da.

## 23-28. CİN

## 23.

Dayım danışerdı ki, əmimnən qoyun otarerdıx. Gejədi. Mənim cavan, dimrik[21] vaxdımdı. Deer, qoyunu arxaşdadıx[22]. Gördüm ki, qəyanın divinnən işıx gəler. Bir damdıra[23] vurollar, gəl görəsən. Gördüm işıx da, damdıra vurannar da bizə sarı gəler. Əmim dedi, görən kimin toyudu. Sonıra əmim dedi, toy-zad döy, qorxma, cinnərdi, onnarın adətidi, zurna çalıf, işıx yandırıf oynoollar.

[21] Dimrik – yekələnmiş, bir az böyümüş
[22] Arxaşdadıx – qoyunları yataq yerinə gətirdik.
[23] Damdıra – dambadurum, nağara səsinə oxşar səs-küy

## 24.

Bizim kətdə bir Söyün kişi var. Deer, gəvə toxuyullarmış. Nətər olufsa, qız-gəlin yatışannan sonıra baxır görör ki, cinnər işdiyir gəvədə. Kişi qalxer qomarer[24], xam iynəni birinin üsdünə sancer. Bir beş ay, üç ay deer, bularnan yaşıyıf bu Cin. Bulağa-zada gedəndə qavağına çıxana deermiş, mənim bu iynəmi çıxart. Hamı bilirmiş bu Cindi dana. Sonıra da deef, mən əli-uşaxlı gəlmişəm da, duz-çörəh qoyur, əlini duza, çörəyə basır ki, taa bir də sizin tayfıya, yeddi arxa dönəninə sataşmıyjam. Bir nəfər iyneyi çıxarder, Cin yox olur, qayva çəkiler.

## 25.

Bizim kətdə bir kişi varıymış. Gedermiş səfərə. Görör dərədə toydu, bir vurhavurdu. Kişi deer, mən də tüşöm göröm, bu nə toydu. Gedif belə baxıf, görüf vallah, qız-gəlinin hamısı burda. Şıppıltıdan qulax tutulor. Baxer birinin əynində gəlinnərinin paltarıdı. Əlini yağa buluyuf belə vuror. Deer, qoy göröm genişdığa çıxanda bu düzdü, yoxsa yalan. Mənimkidi, yoxsa gözümə belə görünör. Gətirif kişiyə çörəh qoyollar. Deellər, toydu, yi. Axı bizdə ədətdi[25], çörəh yiəndə "Pissimillah" deellər. Kişi də "Bismillah" deer, çörəyi götürəndə görör heş-zad yoxdu. Nə çal-çağır var, nə toy. Oturuf yerdə, qavağında da at məsi[26].

Kişi geri dönör, gəler öyə. Arvadına deer, gəlinnərin paltarını gətir göröm. Arvat gətirəndə paltarı o yana çevirir, bu yana çevirir. Görör əlinin nişanəsi burdadı. Deer, həə, Cin yığnağına, Cin toyuna getdim tüşdüm.

İncafara[27] çörəyi yimiyif. Yisə, dəli oluf tüşərmiş çöllərə.

---

[24] Qomarer – qovur
[25] Ədət – adət
[26] At məsi – at peyini
[27] İncafara – yaxşı ki

## 26.

Gərəh yerə qaynar su töhmüyəsən. Çünki Cinin balaları həmişə çılpax şəkildə yerdə gəzillər. Qaynar su oları yandırar. Bular çox balaca olullar. Bular şenniyi[28] sevir kalafalıxda[29].

## 27.

Mənim babam bir gün Krasnı bazarınnan gəlermiş. Gələndə görüf ki, Mor-mor kəndinin[30] üsd yanında tomba dam[31] var. Görüf ki, burda bir dəsdə zurnaçı, dəfçi çalıf-oynuyullar, toy eliyillər. Buna deeflər ki, ay əmi, xoş gəldin$_ı$, səfa gəldin$_ı$, tüş atdan, əyləş burda, nə yaxşı gəlmisən$_ı$. Bu burda əyləşif. Mənim atamın atası oluf − Kəblayı Əmirasdan kisi. Bu burdan yığışer gəler, o ordan yığışer gəler, bunun yerini sakit eliyillər, qavağına xörəh gətirellər. Deellər ki, əmi, o dediyin sözu, danışdığın sözu bir də bizim yanımızda danışma. Deyəndə bu da bir az fikirrəşir ki, mən nə danışmışam ki, burda da danışım. Bu qavağına qoyduxları yiməyi, bilmerəm dolmeymış, nəymiş, qavağına çəkif "Bismillah" deyəndə görür ki, bu qırr elədi. Gördü ki, qavağında sini-zad yoxdu, bir yarpax var, üsdündə ki də at p...du.

Cin gəlir. Sən demə, bunun birini bu qayda, mənim bavam kimi bir adam bu mələhlərdən tutmuşmuş. Bu da adamdı da, qorxur, gözü qaralır. Görür ki, kolun divində bir ağ şey var. Bu gəler, bir az da ağlını başına topluyuf yola çıxer. Görür ki, bircə atdı, bircə özüdü, heş kim yoxdu. Ata qalxanda görör ki, kolun divində bir qaraltı var. Buna yaxınnaşer. Görör bu qalxmadı. Qavaxcan qorxor, kəlmeyi-şəadətini də dilinə gətirer. Atdan tüşüf buna yaxınnaşanda görör ki, bir qız uşağıdı, ana-

[28] Şenniyi – çalıb oynamağı
[29] Kalafalıx – uçuq-sökük ev yeri
[30] Mor-mor – Gədəbəy rayonunda kənd
[31] Tomba dam – yerdən qurulan yaşayış yeri, ev. Qara dam da deyilir.

dangəlmə lüt. Qız deer ki, məni cinnər tutmuşdu, götürmüşdü, indi də bax man$_{1}$a toy eleerdilər burda, köçürördülər. Bu qızı götürüf gəler. Deer:

– Olar, cinnər nağayrellar, neynellər?

Deer:

– Olar atın yanına çox gedillər. Atın yalmanına minellər, gedif fırranellar, döyrannarın çəkif qaytarıf gətirellər.

Deer:

– Onda gedəh gösdər, görəh tuta bilerihmi?

Qızı da götürüf gəler öyə. Qız da uşax oluf, on yaşı-zadı oluf. Arvadı deer:

– Ayə, a kişi, bu nədi, bunu hardan gətirmisən$_{1}$?

Deer:

– Ay arvat, tapıf gətirmişəm.

Day heş bu sirri arvada demer. Deer:

– Çöldən tafdım, ağladı-sızdadı, götdüm gəldim, uşağımız çoxdu, qoy bu da biri olsun, heş-zad olmaz.

Əmə bunnar axşam olanda oğrun-oğrun gedellər atın axurunda gözdööllər ki, görəh Cin havax gələjəh. Bir də göröllər ki, iki gəlin girdi qapıdan, zanqıltılı-zunqultulu, yaxalıxlı. O zamannar qola da qayırallarmış qolbax – qüvvəsi olan qızıldan, qüvvəsi olmuyan gümüşdən. Çıxartdılar, biri atın çənəsinnən, o biri də atın boynunnan tutdu, atın yalını hördülər. Sıçrıyıf da biri mindi ata. Deer, biz də tutdux bunu, tez iynələdih buraxdıx. Başını da qırxmışdılar, dırnaxlarını da kəsmişdilər, özüm bu gözümnən gördüm. Harda kın, zahı yatan arvat olordu, gəlif o Cinin başının tükünnən aparerdılar ki, hal zahı yatan arvada yaxın gəlməsin.

**28.**

Gədəbəydən gələndə gördüm kü, dəyirmanı keçəndə bir dəsdə adam bayram eleer. Elə bildim ki, bizim kəndin uşaxları-

dı. Sonıra gördüm ki, yox, bular ayrı adamlardı. Paltarrarı heş bizim paltarrara oxşamırdı. Çəhmələri qıfqırmızıydı, hamısının beli qurşaxlıydı, qayışdarı qırmızıydı. Hamısı kişiyə oxşuyurdu. Qavaxcan qorxdum. Sonıra yadıma tüşdü ki, belə yerdə "Bissimillah" deyəllər. "Bissimillah" dedim, hamısı yoxa çıxdı.

## 29. TƏPƏGÖZ

O vaxdarda balaja olmuşux. Ata-bavamız qoçax kişi oluf. İki yoldaşımışdar, yol gedillərmiş. Gəley, gəley yalın başında – Ojax yalıymış, görəllər Təpəgöz dəyirmənin daşını qapıya yığıf, ojax qaleef içərdə. Bavam elə söylööf, Allah keçənnərinıizə rəhmət eləsin. İnan Allaha, deey, daa biz qaçıf gəleyrih, bizi çər dolduroy[32]. Bunun yoldaşının adı yadımda qalmeyıf. Deey, ayə, öyün yıxsın, biz gəldih nə zuluma tüşdüh. Adamların başdarını ojağın qırağına düzüf, beş-altı da qoyun, dəmir şişdər də yanında. Onatən deey, bu yoldaşıma him elədim ki, pencəyi əyninınən çıxart, çiyninıə atginan. Oana-buana deey, durdux da, dəmir şişi, deey, götürdüyümüznən basdıx Təpəgözün təh gözünə – Təpəgözün bircə gözü var, deey. İnan Allaha, deey, Təpəgöz dəli oluf, qoyun da fırraney, o da fırraney – heç o yadımnan çıxmeyıf. Bax qoyun da fırraney, biz də fırraneyrıx. Təzdən dedim, Vallah, bu bizi tutajax, qoy görəh biz nağareyrıx. Onatən deey, pencəyi çıxartdıx da, ikimiz də çiynimizə atdıx. Qapının ağzını bir acca aşdı, deey. Qapının arasınnan qoyun darasın[33] deyin, buları göröm nətəri tuta bileyrim deyin. Bax elə böyröy[34], deey. Dəmir şişnən gözünü oddoyuf axı. Onatən deey, qapıın arasınnan, qoyunun altınnan nətəri mən qavağa çıxdım – bavam qoçax kişi oluf – bu mənim dalımnan.

[32] Çər dolduroy – burada: qorxu yaradır
[33] Qoyun darasın – qoyun çıxsın
[34] Böyröy – qışqırır

Pencəyim deey, onun əlində getdi. İnan Allaha, deey, elə bağırey, səsi oralara tüşüf. Qaçhaqaç, deey, yalı aşdıx. Eləlihnən, deey, həmən Təpəgöz də qaldı orda böyrə-böyrə.

## 30. ƏZRAYIL

Azreyilə dedilər, get, paraxoddakı adamların hamısının canını al. Bu geder, hamilə qadının da canını aler.

Allah soruşor:

– Nooldu?

Deer:

– O qadının da canını aldım.

Deer:

– Sanıa nəhlət olsun, demədimmi, qadına toxunma, hələ onun vaxdı döyül?

Deer:

– Get gör nə baş verif.

Gəlif göör ki, meyitdən bir cüt uşax oluf.

Bir müddət keçer. Allah deer:

– Get həmin yerdə dur, bax nə görəjəhsənı.

Azreyil geder duror orda. Görör anıarıdan bir cüt atdı gəler, atdarın da ağzınnan aloy çıxer, oğlannarın da. Pah! Qaraqaş, qaragöz… Tez bir çökəhdə gizdəner.

Allah deer:

– Nooluf?

Azreyil deer:

– Özünə agahdı, əgər o atın, oğlannarın əlinə keşsəydim, parça-parça olardım.

Deer:

– Bilersənı, olar kimdi?

Deer:

– Yox.

Deer:
– O meyitdən gələn uşaxlardı.
Yetim pis-yaxşı yekələnəjəh, vay ölənin halına.

## 31-34. İLAN

### 31.

Bir neçə il qavax, deellər, bura qırx dənə ilan gəlmişdi. Bular müharibə eliyiflərmiş. Kimisinin beli, kimisinin quyruğu yaralıymış. Düzü, mən getmədim baxmağa, bu qonum-qonışunun hamısı getdi. Deellər, ilannarın hamısı yaralıydı. Bu oluf ilan ilində ha. Onnan başqa ilan hakqında elə bir şey eşitməmişəm.

### 32.

Mən ilan müharibəsini görmüşəm. Hardasa bəlkə beş yüz-altı yüz, min dənə ilan görmüşəm. İçərilərində bir dənə qara, yekə ilan vardı. Bunu pütün kənt görüf. Olar müharbiyə gedirdilər. Bizə deerdilər ki, burdan körpü salmax lazımdı ki, keşsinnər. Camahat ordan iri ağaş qoydular, ilannar onun üsdünnən keşdilər. On beş-iyirmi günnən sonıra ilannar qayıtdılar. Birinin quyruğu yox, o birinin belində yara, qanın içində… Gözdərimnən gördüm ki, ilannar əsl müharbədən çıxıflar. İlannarın da müharbəsi olur da.

### 33.

Bir gözəl oğlan olor. O qədər gözəl olor ki, hamı onun gözəlliyinə heyran qalarmış. Oğlan nişannı olur. Bir günnəri öz otağında yatanda görör kü, bir ilan onun çarpayısına tərəf gəler. İlan duruf oğlana baxer. Oğlan gözdərinə inammer. Gözdərini yumuf açer ki, bəlkə yuxu görör. Bu hadisə hər gün təkrar olor. Hər gün ilan gəlif oğlana tamaşa eleer, oğlan da qorxusunnan huşunu itirer, özünnən geder. Oğlan qorxusun-

nan ölör. Aparıf onu basırellar. İlan gedif girer oğlanın qəvrinə, oğlanın gözdərini yiir, üzünü oğlanın üzünə qoyuf ölör. Sən demə, ilan oğlana vurulufbuş, oğlana aşiq olufbuş.

**34.**

Bilmirəm, aran rayonnarının hansında bu əhvalat oluf. Deer, bir kişiynən cavan oğlu otu piçellərmiş. Göröllər ki, iki ilan – bir qara ilan, bir də bir ağ ilan boğuşor. Oğlan vuruf ilannarın birini öldürör, o biri ilan qaçer. O birini tapa bilmer. Dədəsi deer:

– Onnar sevgiliymiş, öyün yıxılmasın.

Bir gün genə ot pişdiyi yerdə ilan şığeer. Oğlan vuror, ilanın quyruğnun ujunnan qırer. Əmbə ilan qaçıf geder. Kəndə gəlif camahata danışellar. Bir qoja deer ki, gərəh o ilanı tapıf öldürəsiz. O oğlan çıxıf başqa bir rayona geder, orda ev-eşih salıf yaşeer. Bir gün genə ot pişməyə geder. Bardaxdan su içer, son$_{ı}$ra bardağı qoor bir qırağa. Qıraxda bir maşın diyanıfbış. Maşının şoferi görör ki, bir ilan getdi girdi düz bardağın içinə. Ot biçən oğlanın ilannan xəvəri yoxdu hələ. Başdeer şikəsdə deef oxumağa. Şofer soruşor ki, nə yaman qəmgin oxuyursan$_{ı}$? Oğlan deer:

– Qəmgin olmuyum neyniyim?! Bir ilanın ujunnan vətənnən uzax tüşmüşəm.

Şofer deer:

– Heş fikir-zad eləmə. Sənin dediyin$_{ı}$ o ilanı salmışam bax bu bardağın içinə.

Oğlan çox şad olor. Bardağın ağzını möhgəm bağlıyıllar. Odun yığellar, möhkəm ojax qaleellar. Bardağı atellar ojağın içinə. Həmən o quyruğu qırıx ilan yanıf kül olor. Oğlanın canı kutarer. Oğlan öz atını yüyənniyif, yedəhliyif verer o şoferə ki, sən məni ölümnən kutardın$_{ı}$.

## 35-36. HOP-HOP, GÜLTOP, NƏSİB, YUSUF

### 35.

Bir quş beləcə oxuyur. Ona görə oxuyur ki, lap qavaxlar bular yetim uşaxlarımışdar. Bu qızın qardaşdarının ikisi də itif, tapa bilmeyif. Deef, ay Allah, qadanı alem, məni Hop-hop elə, qardaşdarımı axdarem tapem. Allah bunu quş eleer. O vaxdan da bu quş ağaşdara qonor, deer ki, Hop-hop, Gültop, Nəsif, Yusuf. Ancax tapbeyıf. Ona görə də elə hey çağırey. Atamnan soruşurdum ki, o niyə elə hey deey, Hop-hop, Gül-top, Nəsif, Yusuf?

Deeydi, qızım, o, qardaşdarını axdarer: Hop-hop, Gül-top, Nəsif, Yusuf deey.

### 36.

Deməhlərinnən, quşun iki oğlu olar. Birinin adını Hop-hop, birinin də adını Gültop qoər. Bunnar da itər, tapa bilməz. Ona görə də Hop-hop, Gültop dəə-dəə, çağrə-çağrə yaşeey. Neçə ki elə ömrü var. Bax elə söypət eleellər onu.

## 37. GÖYƏRÇİN

Göyərçini vurmax el arasında günah sayılır. Deellər, imamların suyu tuluxdaymış, sərçələr onu deşermiş, ancax göyərçin onu deşmir. Göyərçin harda su varsa, onu biler. Onun iziynən həmişə gedif su tapıflar. Ona görə də göyərçin bizdə müqəddəs sayıler. Qərif yerə tüşmüsənsə, göyərçinin uçuşuna bax. Hara uçursa, deməli, orda su var.

## 38. MƏLEYKƏ GƏLİN

O vaxdı bir oğlan olor. Bu bir göyərçin tutur gətirer. Bir gün oğlanın anası ölör. Oğlan görör kü, bu göyərçin yüyürdüyünnən yükün belinə çıxer. Oğlan bərk təəccüvləner. Deer ki, nətər olur, mənim anam öldü, sən qaşdın$_ı$ yükün üsdünə çıxdın$_ı$? Qız deer:

– Bu sirri sənə desəm, onda gərəh mən uçam gedəm.

Oğlan deer:

– Yox, bu sirri açajan$_ı$.

Qız deer:

– Onda elədisə, mən bu sirri açajam, ancax uçuf gedəjəm.

Oğlan deer:

– Yox, deyəjən$_ı$, ancax getmiyəjən$_ı$.

Qız açır deer. Deer:

– Azreel alma verer, armut verer, bir şeynən adamı allada-allada özünə gətirif canını aler. Heləsi də var, yıxey də, boğazdıır. Sən bilmədin$_ı$, öyü qan götüdü. Əyağım qan olajax deyə sıçradım da, yükün üsdünə çıxdım. Sənin$_ı$ anan$_ı$ı boğazdadılar, allatmeynən öldürmədilər.

Bu kəlmeyi deer də, uçur gedir. Çünki o, Allahın sirrin aşmışdı, öydə dura bilməzdi. Oğlan məjbur elədi, sirri aşdırdı, göyərçin də uşdu getdi.

## 39. QARA PALTARLI QADIN

Bunu kəççimiz Mədinə qarıdan eşitmişəm. Bir dəfə də yaylağa gederdim. Evdən axşamüsdü çıxdım. Yolda, Zərv deyilən yerdə meşənin içində qarannıx qarışdı. O vaxlar meşə çox qalınıydı. Məni vahimə basdı, gedə bilmədim. Meşədə armud ağaşdarı da varıydı. Bir armud ağacının divinə pənahlandım. Fikirrəşdim ki, bar ağacının divində xətər dəyməz. Bir xeyli keçənnən son$_ı$ra başımın üsdündə qara atın belində, qara paltarrı bir qadın peyda oldu. Dedi ki, dur, ata min. Durmax is-

dəmədim. Bir də dedi. Durdum. Əyağım üzəngiyə çatar-çatmaz özümü bunun tərkində gördüm.

Dedi:

– Gözdərinıi bərk-bərk yum.

Gözdərimi yumdum. Azca keçən kimi dedi:

– Gözdərinıi aç.

Gözümü aşdım, gördüm öz comamızın[35] qavağındeyım. Dedi:

– Bu sizinımi comadı?

Dedim:

– Hə.

Dedi:

– Çüş.

Atdan çüşdüm, dedim:

– Gəlirəm.

Comaya girdim. Təzə bir şalım varıydı. Fikirrəşdim ki, şalı gətirif buna verem, yaxşılığınnan çıxem. Şalı götürdüm, çıxdım comanın qavağına, gördüm heşcə kəs yoxdu, nə at var, nə atdı.

[35] Coma – alaçıq

# RƏVAYƏTLƏR

## PEYĞƏMBƏRLƏR, DİNİ ŞƏXSİYYƏTLƏR, PİRLƏR VƏ OCAQLARLA BAĞLI RƏVAYƏTLƏR

### 1-4. NUH PEYĞƏMBƏR

**1.**

Nuh peyğəmbər həmişə bir qarının evinin yanınnan gəlif gedermiş. Bir gün qarı buna deef ki, ya peyğəmbər, deellər, dünyuyu su alajax, bizi də götür o gələndə.

Deef:

– Yaxşı.

Dünyuyu su alıf. Gəmi gedif Ağrı dağının başında diyanıf. Qayıdıf gələndə peyğəmbər görüf ki, qarı burda cəhrə əyirir.

Deef:

– Ay peyğəmbər, dünyuyu su alanda məni niyə götürmədin$_{\imath}$?

Deef:

– Ay qarı, bəs nətəəri oldu, nə gördün$_{\imath}$?

Deef:

– Vallah, üş gün ojağım yanmadı, bir də cəhrənin böyrü suya bulandı.

Deyəndə deef:

– Ay qarı, nooloydu, sinən$_{\imath}$dəki tükün bircəjiyi mən oloydum.

**2.**

Nuha agah olur ki, dünyanı su alajax. Özünə gəmi düzəldir. Çox söz-söhbətdən, çox hərəkətdən son$_{\imath}$ra İlahi tərəfinnən gəmi nizamlandı, öz qaydasına tüşdü. Ojağın altınnan su qaynadı, dünyanı su aldı. Nuh peyğəmbərə demişdilər ki, özüyçün

töyuxdan, qazdan, hinduşkadan, heyvannan – hər şeydən götür, yığ gəmiyə. Nuh peyğəmbər götürdü gəldi gəmiyə. Gəmi qalxdı, çox gəzdi. Birinci gəldi Ələyəz dağına çıxdı, orda genə durmadı, su qaldırdı. İndi Nuh peyğəmbərin gəmisi Ağrı dağının başındadı. Ağrı dağının başınnan, deməli, samalyot da keçir, onnan heş bir sirr öyrənə bilmir. Aşıxların bir söhbəti var. Deellər:

– Çox sirrər səndə var, bil, Ağrı dağı.

Yaz, qış, yay, nə vax olur olsun, onun başı qarnan dolu olar. Baxırsan ki, eləcə dümağ qardı.

## 3.

Nuh peyğəmbərə Allah-tala tərəfinnən Cənabi-Cəbrayil gətirif ağaş matiryalı, mismar verey. Deef ki, Nuh peyğəmbər, günorta dünyanın üzünü su alajax. Bu taxdaları quraşdırarsan$_{ı}$ mismarnan, külfətini üsdə yığarsan$_{ı}$. Külfətdihcə su qaldırajax, siz qalxajaxsın$_{ı}$ız. Əmmə hamı qırılajax.

Nuh elə eleey. Nuh bunu quraşdırey Cənabi-Cəbrayil dəən kimi. Dünyöyü su alanda qalxey Ağrı dağının başında su dəyaney. Taxda gəmi dağın başında da qaley. Nuh orda qaley. Su çəkiley. Ağrı dağı da ən hündür dağdı, daa onnan hündür dağ yoxdu. Nuh ordan baxey göröy kü, dünya həm göərey[36], həm də ağarey. Deey:

– Allah-tala, o qar nədi, o göy-göyərti nədi?

Deey ki, o insannarın sümüyüdü ağarey, o yaşıl da otdu, qalxey. Biz o Nuh peyğəmbərdən dünyaya gəldih.

## 4.

Nuh öz gəmisiynən qalxdı Ağrı dağının başına. Baxdı ki, heyvannar tərpəner, əmbə pişik tərpəmmer. Baxdı gördü ki, siçan gəmini yavaş-yavaş deşif, pişik də quyruğunu salıf

---

[36] Göərey – göyərir

orya, qoymor gəmiyə su dola. Quyruğuynan dəliyi tutuf. Pişiynən siçanın tüşmənçiliyi ordan yaranıf.

## 5. SÜLEYMAN PEYĞƏMBƏR

Süleyman peyğəmbərin üzüyü oluf. Bir gün o gedif görüf ki, bir bulağın gözündə bir dənə qız oturuf. Buna tamahı tüşüf. Deef:

– Qız, man$_{ı}$a gələrsən$_{ı}$mi?

Deef:

– Gəlləm.

Deef:

– Nə təhər?

Deef:

– Bir nişanə ver.

Barmağındakı üzüyü çıxardıf da buna verer. Geder. Allah-talaya agahmış. Gələndə görüf, ə, bulağın gözündə bir qarı oturuf. Dodağı tüşüf sinəsinə, əyağ-əl əlçək.

Deef:

– Ay nənə, bulağın gözündə oturan qız nijoldu?

Deef:

– Elə o mənəm.

Deef:

– Bə mənim səndə nişanəm varmı?

Deef:

– Üzüyün$_{ı}$ məndədi.

Deef:

– Mənim üzüyümü verərsən$_{ı}$mi, varam gedəm?

Deef:

– O bulağın gözünə atmışam, əlini sal da çıxart.

Salıf da, burdan bir xışma[37] üzüh çıxardıf. Görüf ki, bunun hamısının üsdündə yazılıf Süleyman peyğəmbər.

Deef:

– Niyə fikirrəşersən$_{ı}$?

Üzüyü alıf əlinə. Deef:

– Budey, sənin$_{ı}$ üzüyün$_{ı}$ bax budu.

Üzüyü götürüf də deef:

– Ya peyğəmbər, nə qədər peyğəmbər gəldi. Heç hası üzüyünü almadı, sən aldın$_{ı}$. O çöpü man$_{ı}$a ver, qoy üzüyü görkəzim.

Bu dönüf o tərəfə, geriyə dönəndə görüf ki, nə burda qarı var, nə su var. Heş bir şey yoxdu. Deef:

– Ay-vay, bu o dunyöydü, man$_{ı}$a görkəzdi, mən də əlimnən buraxdım.

## 6. XIDIR PEYĞƏMBƏR

Xıdır peyğəmbər, Xıdır Əlləz peyğəmbər var. Xıdır peyğəmbər elə bil dövrünün bir müddətini yaşeer. Son$_{ı}$ra eşider ki, Abu-Köysər suyu var, onnan içəndə qayıdıf on beş yaşında olursan$_{ı}$. Bu, munun fikrinə tüşör ki, gedim mən dünyanı gəzif tapem. Xıdır peyğəmbər başına camahatdan yığer. Deer, o su da dünyanın sonundadı. Sən indi bu qarannıxda şakqaşak dərələr, dağlar keç, ged onu tap. İşıxlı dünya yoxdu ki, gedə tapasan$_{ı}$. O su da yeddi ildən bir qaynıyırmış, köpühlənif qalxermış. Bir yüz nəfərnən, əlli nəfərnən, neçə nəfərnən gedif uje dağlara, daşdara tökülör. Deer ki, ayə, kimə rasdaşsan$_{ı}$ız, səsdənin$_{ı}$, çağırın$_{ı}$ gəlsin. İlahidən kismat döyülsə də, bəndə nağayra bilər? Heş nə. O, Xıdır peyğəmbərə kısmatıymış ki, cahallansın[38]. Bu işin dalıncax gedən Sülöymən pey-

---

[37] Bir xışma – bir ovuc

[38] Cahallansın – cavanlaşsın

ğəmbər də oluf. Deef ki, gedim içim, cahallanım. Gedir, bu suyun üsdə çıxır.

– Ayə, su burdadı. Ay filan, ay filankəs, gəlin.

Hay eliyif gələnə kimi bunun elə bil on-on beş dəyqəlih vaxdı var. Yeddi ildən bir qaynıyıf coşuf, yatermış. Hay eliyif bular gələnə kimi bu su çəkiler. Bu peyğəmbərə kısmat olmor, Xıdıra kısmat olor. Son$_{ı}$ra yığışıv vətəninə, öz ölkələrinə qayıdanda görör kü, atın dırnağına daş dəyir, öz əyaxlarına daş dəyir. Biri deer ki, ə, bu daşın bir-ikisini götürüm aparem. O birsi də deer ki, ə, daş daşdı dana, nəyşə[39] götürörsən$_{ı}$? O biri deer, yox, bu daşdan bir beş-altısını götürəjəm. İşıxlı dünyada baxım göröm, daş bizim daşa oxşuyurmu? İşıxlı dünyaya çıxer, baxer ki, bu ləldi, daş döyülmüş. İndi deellər ki, o qarannıx dünyadan o ləli götürən də peşmandı, götürmüyən də. Nəsihətdi. Ə, götürürdün$_{ı}$, munu bir xurcun götürəydin$_{ı}$ dana, heç olmasa. Götümüyən də deer, ə, beşini də mən götüreydim. Mən niyə ötümədim?

## 7. İSA PEYĞƏMBƏR

Dağın döşündə kəndiymiş. İsa peyğəmbər bu kəndə çıxer. Peyğəmbərriyini bildirer ki, mən peyğəmbərəm, mənim sözüm düzdü, heş kim bu sözə xələl gətirə bilməz. Bir gün görölləр ki, bir toydu. Baxer ki, ordan yaxşı zurna səsi gəler.

Deer:

– Axşam ağlaşma olajax orda.

Deer ki, a kişi, nə danışersan$_{ı}$?

Deer:

– Görərsən$_{ı}$ indi. Orda toydu, axşam ağlaşma olajax.

Deer:

---

[39] Nəyşə – niyə

– Gözdüyəh.

Camahat yığıler da, bu sözü gözdüyür.

Axşam olor. Gəlin otağına gəler, ajıymış. Qaynənəsi qızın yengəsinə deer ki, aaz, qadanıız alem, bu qız aj getdi toydan. Heşçənə yiəmmədi. Deer ki, ona bir bamba[40] çörəh verinı, yetirəndə yidirdinı onu. Bu qız gəlif otaxda oturan vaxdı gətirellər də bir kasa ət, üsdündə də para xamralı[41] qoyollar da, bu qıza verellər ki, yi. Yenıijə burdan verif qayıdan kimi bir də görör qapı döyülör. Deer:

– Kimdi?

Deer ki, yol dilənçisiyəm, ajam.

Deer:

– Aş qapıyı, içəri gir.

İçəri girer. Götürör yiməyi bu dilənçiyə verer. Dilənçi götürör, geder. Axşam olor. Oğlan gəler. Savah açıler. Oğlan çovanıymış, çıxer qoyuna, quzuya geder. Görör yaxça şaddıxzad, hər şey yerri-yerində. Camahat deer ki, İsa peyğəmbər, adınıa fida olom, bəs sən deerdinı ki, orda ağlaşma olajax, niyə ağlaşma olmadı? Onda deer:

– Dalımnan gəlinı.

Camahatı başına yığer da, düz gəler toy olan yerə. Qaynatasınnan icazə aler:

– O gəlinin yanına getməh olarmı?

Deer:

– Olar, nə var ki, adınıa fida olom. Bizim sanıa inammız var, sən peyğəmbərsənı.

Qız örtüdə oturormuş. Duror, qaynənəsi əynini-zadı geyindirer. Deer ki, ağız, geyin əyninıi, peyğəmbər burya əler. Həə. Duror qız, yorğannı anıarı eleer də, taxdın üsdündə qıça-

---

[40] Bamba – tikə

[41] Xamralı – çörək növü

larını belə uzader. Deer ki, a qızım, dədən öyünnən burya gələnətən nə gördünı, nə eşitdinı? Deer ki, vallah, heş nə görüf eləmədim. Bir onu gördüm ki, aj gəlmişdim. Manıa çörəh verdilər, gətirif burda yiməh qoydular. Elə bu yiməyi burya qoyan kimi bir də ördüm qapı döyüldü. Bir dilənçi gəlmişdi, yiməyi verdim ona.

Dedi:

– Dur, əyağa qalx.

Əyağa qalxer. Ağajın ujunnan gəlinin balıncını qaldırer. Deer:

– Ayrı bir şey görmüyüfsənı?

Deer:

– Yox.

Baxanda örör kü, bir belə tağalax[42] qara ilan baş altında yater. İlanı dil aşdırer millətin içində.

Deer:

– Sən burya nəyşə gəlmişdinı?

Deer:

– Bu oğlanı öldürməyə.

– Bə niyə yatdını qaldını?

Deer:

– Allah-taaladan hökm gəldi, dedi, yat.

Onda ilana deer ki, daldeynan qaşmazsanı, sən millətin qavağında, başşağı aynadan tüşərsənı, qoy səni görsünnər. Qoy mənim sözüm yalana çıxmasın. Bax o bir bamba qada qaytarar, onnan deellər.

## 8. MUSA PEYĞƏMBƏR

Musa peyğəmbər Allahın buyruxçularınnan oluf. Allahın göndərdiyi bir məmləkətə nümayəndə oluf. Günnərin bir günü

[42] Tağalax – burada: yumrulanmış

Musa peyğəmbər gedir Allah-talaya şikayət eleer ki, sən manıa de göröm, bax Firon asasını belə qoyur, çay diyaner. Bəs bizim sözümüznən niyə diyammer, axı biz səninı adamınıxx.

Deer:

– Bilersənımi nağayr, ya Musa, get axşam olara. Olarda nə görsənı, hamsını gəlif manıa söylüyərsənı. Fironun nə çəhdihlərini də bilərsənı.

Axşam gəler Fironun evinə. Soruşor ku, Firon hardadı? Yoldaşı çıxer qavağına. Deer:

– Odu, padvalda.

Bu elə biler ki, bunu allader. Nəsə. Tüşör padvala. Baxanda örör kü, Firon əyağınnan asılıf ordan.

– Ey Allah-tala, gündüz nə eləmişəmsə, buların hamsını manıa bağışda. Aman günüdü, mən yazığam. Səninı qavağınınan qayıtmışam. Bu tutduxlarımı manıa bağışda.

Musa peyğəmbər qapıdan geri qayıder kirmişcə. Deer:

– Yox, biz belə heç asılmamışıx əyağmızdan. Allah-talaya düz gedif, düz gəlmişih.

## 9-10. MƏHƏMMƏD PEYĞƏMBƏR

### 9.

Məhəmmət peyğəmbər yatıf yuxuda görür ki, su quyusu qazıf, ancax quyudan su çıxmır. Rəvayətdə deyilir ki, əhvalat belə olufmuş. İbn Ziyad Məhəmmətnən guya dost imiş. Məhəmmət xalq arasında böyüh hörmətə layiq olduğuna görə onun paxıllığını çəkirmiş. O, peyğəmbərə suyi-qəsd etmək məqsədilə həyətindəki ikinci qapıda dərin quyu qazdırıf, üsdünü ağaşnan örtdürür. Sonıra Məhəmmətnən görüşüf onu səhərisi evə qonax çağırır. Məhəmmət razılıx verir. Qonaxlığın vaxdı təyin olunur. Səhərisi Məhəmmət vədə vaxdında İbn Ziyadgilə getmək isdiyəndə ona vəh gəlir ki, dəvət aldığını yerə gecik. O

da getməyə tələsmir. İbn Ziyad görür ki, Məhəmmət vaxdında gəlmədi, tez-tez bayıra girif çıxıf əsəbləşir, qazdığı quyunu unuduf, özü quyuya tüşür, qol-qılçası sınır. Ətrafa səs tüşür ki, İbn Ziyad quyuya tüşüf. Camahat yığılır. Bir azdan Məhəmmət peyğəmbər gəlir, görür ki, İbn Ziyad quyudadı. O, əlini uzadıf İbn Ziyadı qol-qılçası əzilmiş halda quyudan çıxardır. Peyğəmbər başa tüşür ki, İbn Ziyad onun üçün qazdığı quyuya özü tüşüfmüş. Odu ki, həmin vaxdan bu əhvalat zərbi-məsələ çevrilir. Deellər ki, "özgüyə quyu qazan, özü tüşər".

## 10.

Bir kətdə beş yüz ayilə yaşıyır. Bu ayilənin üzvlərinin hamısı bir yerə toplaşanda hamısı dinə tamamilə inandıxlarını söylüyür. Belə çıxır ki, deməli, orda hamısı dindardı. Allah-taalaya xəvər çatır. Məhəmmət peyğəmbərə deer:

– Get o kəndə baş çək, gör orda nə var, nə yox.

Məhəmmət peyğəmbər o kəndə qədəm basır, kəndin pütün ayilə başçılarının hamısını bir yerə topalıyır, orda müəyyən söhbətdər gedənnən son$_{ı}$ra Məhəmmət peyğəmbər deer ki, ey insannar, sizdən çox böyüh təvəqqə edirəm ki, beş yüz nəfərin içərisinnən on nəfər daha özünnən üsdün, dinə etiqad eliyən adam tapın$_{ı}$. On nəfər insanın adı çəkilir orda. Xayiş edir ki, həmin on nəfər qalsın, yerdə qalan dörd yüz doxsan nəfər məclisi tərk eləsin. On nəfər qalır, Məhəmmət peyğəmbər deer ki, gözəl insanlar, bu beş yüz nəfərin içində sizə inam etdilər və sizi seşdilər. Mənim xayişim budu ki, onunuz da on gün müddətində saat beş tamam olmax şərtinnən, bu müddətdə gedirsin$_{ı}$iz hərən$_{ı}$iz bir xoruz kəsirsin$_{ı}$iz. Amma heş kəsin xəvəri olmasın ki, siz xoruzu harda kəsmisin$_{ı}$iz.

Hər kəs öz yerinə dağılır. On gün tamam olanda bir nəfər bir yerdən çıxır xoruzun başı kəsili, bir nəfər bir yerdən. De-

mək olar ki, dokquz nəfər xoruzun başı kəsilmək şərtilə həmin yerə təşrif buyururlar. Onuncu nəfər xoruzu kəsməmiş gəlir. Dokquz nəfər o bir nəfərə baxaraq ürəhlərində kin-küdurət yürüdüllər ki, necə oldu ki, bu bizdən ağıllı oldu, dokquz nəfər biz kəsdih, ama bir bu kəsmədi, burda nəsə bir sirr var.

Dokquz nəfər öz aralarında belə bir məsləhət eliyillər ki, xoruzu kəsilməyən adam birinci cərgədə dursun, biz növbəti cərgədə durax. Qurvan olum Məhəmmət peyğəmbərə, qədəm basır gəlir. Baxır görür ki, bu xoruzu bir nəfər kəsmiyif, dokquz nəfər kəsif. Məhəmmət peyğəmbər sözü başdıyanda sağdan başdıyırdı. Bu dəfə agah olur Allah-taaladan, xoruzu kəsmiyən tərəfdən yox, kəsən tərəfdən başdıyır. Deer:

– Deyin$_{ı}$ görüm zəhmət olmasa, siz harda belə bir faliyət göstərmisin$_{ı}$iz?

Bu tərəfdə olan adam deer ki, bəs mən elə bir yerdə kəsmişəm ki, heş kəs görmüyüf. İkinci deer, üçüncü deer, ama bu dokquz nəfər bir-birinə baxıb fikirrəşir ki, kaş xoruzu kəsmiyən adam tərəfdən başdıyardı, biz bilərdih nə var, nə yox. Buna baxmayarax, kəsilən yerdən birinci, ikinci, dördüncü, hərə müxtəlif yerrərdə göstərdiyi faliyyət haxda danışır. Qurvan olum Məhəmmət peyğəmbərə, xoruzu kəsmiyənnən sorğu-sual məqamına gələndə, dokquz nəfərin gözü dikəldi o bir nəfərə qarşı, görək bəyəm bu bizdən ağıllı oldu ki, belə bir faliyyət göstərir. Üz tutur onuncuya – xoruz kəsmiyənə. Deer:

– Zəhmət olmasa deyin$_{ı}$, nətəəri oldu ki, bular hərəsi bir yerdə, görünmüyən yerrərdə kəsif gəliflər, siz niyə kəsməmisin$_{ı}$iz?

– Ya Məhəmmət, san$_{ı}$a qurvan olum, mən olar dediyi yerin hamısına girdim, çıxdım. Bular dokquz nəfərdi, mən düz dokquz yerə girdim, çıxdım, amma yenə cürət eliyif kəsə bilmədim. Ona görə ki, mən hara girdimsə, baxdım ki, Allahım göydən baxır. Ona görə mən kəsə bilmədim.

Ona görə də beş yüz ailənin içində bəyax mənəm-mənəm deyən insanlar hamısı yalannan şütüyüf eliyillər. Məhəmmət peyğəmbər deer, ya Allahım, heş olmasa beş yüz nəfərin içində bir nəfər tapıldı ki, sənə düzgün sitayiş elədi.

## 11-15. HƏZRƏT ƏLİ

### 11.

Onun beş adı var. O beş adı bunnardı: Qannıgöz Əli, peyğəmbər Əli, Cənabi-Əli, Həzrət Əli, Çığırqan Əli.

### 12.

Həzrət Əli yerin altında gedif cinnərnən dava eliyif. Bir Cinin bircə qanı yerə tüşəndə yeddi Cin əmələ əlermiş. Cənabi-Əli o qədər qılış vuror ki, görör qolları yoruldu. Bir şey bir yana çıxarammadı. Üzün göyə tutur:

– Xudavəndi-aləm, bu nətəri şeydi, axı mən yoruldum, vururam mən, əmbə bular yenə çoxaler.

Onda bir ayə gəlif ona. O ayəni oxuyannan son$_ı$ra o cinnər tamamilə ölən ölüf, tay əmələ əlmiyif. Son$_ı$ra qırıf onnarın hamısını, salıf tilsimata. Olar tilsimatdadı hamısı, bircə dənə cin açıx olsa, bu dünyanın adamının hamısını dəli eliyər. Gözə görühmür, eləmer.

Bu tərəfdən Məhəmmət peyğəmbər deer ki, kim Cənabi-Əlinin salamat olduğunu gəlif man$_ı$a muştuluxlasa, dünya malınnan onu qəni eliyəjəm. Deyəndə bu Cənabi-Əlinin qulluxçusu varmış – Salman, özü də pəhlivanmış, xaçpərəs oluf, dönüf son$_ı$ra. Gəlif quyunun başını kəsəndə görör Cənabi-Əli gəler. Qaçanda Cənabi-Əliyə agahdı ki, peyğəmbəri muşduluxlamağa geder. Deer:

– Ayə, a Salman, qaşma, gəl görüş, niyə qaçırsan$_ı$, burya qayıt.

Qayıder. Deer ki, Məhəmmət peyğəmbər belə deef, gederəm onu muşduluxluyam.

Deer:

– Nə alajaxsan$_{ı}$ muşduluğa?

Deer:

– Nə bilim, var-döylət.

Deer:

– Yox, heç hasını alma. Məhəmmət peyğəmbərə deynən ki, Tur-Sənədə Xudavəndi-aləmlə sən danışdın$_{ı}$, san$_{ı}$a min bir kəlmə öyrətdi. O min bir kəlmənin minini mənim Məhəmmət ümmətimə yay, bircəciyi sənnən mənim aramda sirr qalsın. Bax onu man$_{ı}$a muşdulux ver.

Gəlif elə deyəndə Məhəmmət peyğəmbər eləjə məhətdəl qaldı. Dedi:

– Ay Allah, san$_{ı}$a agahdı, mən bunu bir yerdə hələ aşmamışam, deməmişəm. O bunu hardan bildi, mən nağayrem, aciz qaleram qarşısında, mənnən muşdulux isdiyir, nağayrem?

Onda Xudavəndi-aləm Cənabi-Cəbrayıla dedi ki, get denən Salmani-binni. Salmani-binni bax ordan qalıf ha, Salmani-binni bizimkidi, ver muşduluğu. Onda deer ki, mənim Məhəmmət ümmətimdə kimin ürəyində xaş-xaşın dəni qədər Cənabi-Əliyə məhəbbəti varsa, onu cəhənnəm odunda yandırmıyjam. Onnan qalıf Salmani-binni.

**13.**

Həzrət Əlinin bir atı, bir də qılıncı varmış. Harda susuyanda qılıncı çalarmış, ordan su çıxarmış. Özü də içərmiş, atı Düldül də. Onun öz əsgərrəri varmış, camahatı da, əsgərrəri də su içərmiş.

**14.**

Cənabi-Əli dava eliyirmiş. Arvadına deef ki, məni yeziddər öldürəjəhlər. Düldülü buraxajam, Düldülü minər də,

qaçarsanı. Düldül səni aparıf çıxarajax bir mənzilə, qoymaz səni o gavıra, o yezidə. Orda Cənabi-Əli vəfat eliyif. Vəfat eliyəndə görüf ki, Düldül cilovunu basa-basa gəldi. Arvat minif qaçıf. Bunnar tüşüflər dalınnan. Arvat görüf ki, yezid gəlif çater. Düldül qayb oluf yerə, arvat da dalında. Gəlif buroyu eşəliyif bir nişana qoyuflar ki, gəlif səhər eşif çıxardajaxlar. Savax gedəndə görüf ki, dağın hər yeri eşənəhdi[43]. Heş burda bir insan yoxdu. Əmbə eşənəhlərin də hamısının ağzında hörümçəh toru var. İndi boylu olan arvat ora gedif ziyarat eliyə bilməz, bəlkə boynundakı oğlan uşağıdı.

**15.**

Bizdə Ojax yalı deyilən yer var. Yekə bir daşdı. (Söyləyicinin əli ilə cızdığı dairənin diametri təqribən 2 metr olardı – top). Həzrət Əlinin atı Düldülün əyaxlarının izi var orda. Ora uşax aparanda, uşax durur Düldülün izində. Qoyunu daşnan bərabər uşağın da başına fırradersan. Qoyunun qanı Düldülün izinə tökülməlidi. Həzrət Əli orda Firoyunnan dalaşıf. Firoynu götürüf atıf, o da gedif Qara dənizdə qərq oluf.

## 16-19. HAÇA QAYA[44]

**16.**

Dərələyəzdə[45], Ələyəz kəndində Sal-sal qalası var. O qalanın dörd tərəfi təndirdi. Onun bircə yolu var. O da böyüh bir daşnan qayrılıf. Adamın yiməyi, çörəyi orda olsa, qoşunun hamısı tökülsə, ora girə bilməz. Həmən o Sal-sal orda oturuf, onun qalası orda oluf.

---

[43] Eşənək – eşilmiş, qazılmış
[44] Haça qaya – Tovuz rayonu ərazisində ziyarətgah
[45] Dərələyəz – Qərbi Azərbaycanda rayon

Anası deef ki, oğul, Əli adında adam gələjəy, onnan dava eləmə, ona tabe ol. Əgər tabe olmasanı, səni öldürəjəy. Həzrət Əli gəlif oraya, qalanın ağzındakı daşı götürüf atıf. Beş barmağının izi ordadı bı sahat. Ordan o Sal-salı qovalıyıf. Sal-salı qoyalıyanda gəlif Göyçədə surfa açıf çörəy yiif. Onnan o Göyçə bollux yerdi.

Burda Xınna dərəsində Atdı bulax var. O Atdı bulaxda, mən o hörgüyü gözümnən gördüm, yekə-yekə daşdardı, hörgü qayırıf onun içinə girif. Sal-sal dalıynan gəlif. Cənabi-Əli Sal-salı teyliyif Haça qəyıya. Haça qəyada tutaşıflar. Cənabi-Əli qılıncı endirif Sal-sala, qılış kəsmiyif. Üsdü tilsimattı olduğuna görə Sal-salı kəsmiyif. Qılıncı qayıya endirəndə Xudavəndi-aləm Cənabi-Cəbrayıla deef ki, Cənabi-Cəbrayıl, qoyma, yerin göbəyin üzəjək, qanadını altına sal. Qanadını altına sərif, qılış gəlif ora çatanda diyanıf. Qəya oluf Haça. Ordan qoyalıyıf, İrvaham Hajılıda[46] onu tutuf. Cənabi-Əli yerə hökm eliyif, Sal-salı yer çəkif aparıf. Onnan o qəya qalıf Haça qəya, ziyaratgah oluf ora. İndi bildinımi Haça qəya hardan ziyaratgah qalıf?

**17.**

Haça qəyadan su əvəzinə qan damır. O vaxdı iki sevgili olur. Bunnarı qoymullar evlənməyə. Dallarıycan tüşüllər. Oğlannan qız yalvarellar ki, ay Allah, bizi daş elə. Allah da o qəyəni o sahat vuror, iki yerə yarer. Oğlannan qız girellər içəri, yox olullar. O Haça qəya indi də duror. Aparellər, orda qurvan kəsellər.

**18.**

İmam Əli Əleyhissalam gəlir Ərəbistannan, sonıra Suriyadan, Türkiyədən keçir, İrəvannan bəri bura gəlir, dini yaymaxçün. Yolda su deyin yanır oların dəsdələri. Bu da pəhla-

[46] İrvaham Hajılı – Tovuz rayonunda İbrahim Hacılı kəndi

van olur, qılıncının adı Zülfüqar. Qılıncı çəkir qəyıya, qəya iki bölünür. Onnan qəyanın bir tərəfinnən qırmızı su, bir tərəfinnən də ağ su axır. Onnan sonıra da ora inanşdı ziyarətə çevrilif. Sonıra gedir İran tərəfə. Deyilənə görə, eyni bu qəyadan Ərdəbildə da var.

**19.**

Haça qəyıya mən özüm də çox getmişim. Haça qəyıya bir dəfə bir qoja kişiynən bir arvat on beş dənə qoyun çıxartmışdı. Qoyunun hayleellar hamısını. Gördüm əyaxyalın kişi qavaxnan gedey, arvat da dalınnan. Bax o qırcıla[47] tik əyaxyalın çıxdılar. Qoyunun hamısını hərrədi, ən qavaxda bir qara qoyun hərrəneydi, üş dəfə fırrandı, üçündə də qavaxda o qoyun fırrandı.

Dedim:

– Ay dayı, neyneydin o qoyunun hamısını hərreyif, bircəjiyini kəsəjəhsin.

Dedi:

– A bala, əhd eləmişdim, hası qoyun qavaxda hərrənsə, onu kəsəjəm. Bu qara qoyun qavaxda hərrəndi, bunu da kəsməliyim.

Gedənnər saşdarınıı kəsif orda yer varıydı, ora bağleerdılar, əhd eleerdilər. Biz gedəndə ora qav-qaşıx apareydıx, onu qaytarıf geri gətirmeydih, sonıra gələnnər işdətsin deyin. O qədər qav-qaşıx yığılmışdı ki. Əhd eleyif gələnnər orda qoyuf getmişdi. Çox gözəl yerdi. Ora eşidif-bilən, hər yerdən gəlellər. Ojaxdı ora.

Mənim özüm bir dəfə heyvan aparmışdım. On-on iki uşax apardım. Maşın getdi də düz o enişin əyağına çatan kimi difer[48] dağıldı. Ancax o enişin harasında dağılsa, maşın ge-

---

[47] Qırcıl – xırda daşlıq, çınqıllıq

[48] Difer – maşın hissələrindən biri

dərdi, dinc yerdə, tafda[49] dağıldı. Daa maşını tərpətmədih, çıxdıx oxarı. Fikirrəşdim, əə, mən əlli dəfə burəə gəlmişim, niyə belə oldu? Son$_ı$ra dedilər ki, nəvlem, ojaxdı, burəə gərəh təmiz gələsən$_ı$, gördüm ki, həqqi də elədi.

Son$_ı$ra bir arvat bir dəs adamnan atın belində getdi, həmən yoxuşun əyağında, birinci döngəni tihlənəndə, at yıxılan kimi uşax altda qaldı. Hələ ölməmişdi. Orda molla oloy, molləə dedim:

– Bu nətəəri şeydi?

Dedi:

– A bala, dünyədə burda ölməz o. Ölsə də, gedif yoldamı, harda ölər, burda qəti ölməz.

## 20. SEYİD GÖZƏL

Bizdə bir Seyit Gözəl var. O, yaylaxda rəhmətə edif. Seyit Vəlinin bajısı oluf. O, çox yaxşı, sınaxlı seyid oluf. Bizim bu kətdən bir gəlin o seyit Vəlinin üsdünə gedif. Gəlinin deer, oğul-uşağı olormuş, durmormuş. Seyit Vəli deef ki, mənim bajım Göyəllidə[50] filan yerdədi. Get onun qavrına əyil də, onnan söhbət elə. Denən ki, ay Seyit Gözəl, kəsgin cəddin$_ı$ə, qız baxdın$_ı$a, yığvalın$_ı$a[51], fidah olum, qurvan olum. Mənim oğul-uşağım olajaxmı, olmuyjaxmı? Əgər onun qavrınnan səs gəlsə, sənin$_ı$ uşağın durojax. Qəvirdən səs gəlməsə, daha deyəmmərəm heş nə.

Gəler gəlin belə dizdərini yerə qoyor, ağzıüsdə duror qəbrin üsdündə. Qəbrin üsdündə deer ki, Seyit Gözəl, cəddin$_ı$ə fidah olum, san$_ı$a ehsan verəjəm, san$_ı$a Quran oxudajam, san$_ı$a belə hörmətim olujax. Mənim oğul-uşağım göröm olajaxmı, olmuyjaxmı, durajaxmı, durmuyjaxmı. Ona görə man$_ı$a

---

[49] Taf – dinc yer, düz yer

[50] Göyəlli – Gədəbəy rayonunda kənd

[51] Yığval – iqbal, bəxt, tale

bir səs elə. O sahat görör kü, qəvrin içinnən səs gəldi, dınqıltı gəldi. Onnan sonıra həmən gəlinin oğul-uşağı durdu.

## 21. SEYİD ABBAS

Əlismayıl kəndində[52] bir ağır seyid oluf. Adına Seyid Abbas deerdilər. Ajdıx ili oluf. Seyid Abbasın bir kəççisi bu vax hardansa bir çuval un gətirermiş. Seyid Abbas bunnan gedif bir az un isdiyif. Bu kişi un vermiyif. Kişi gedif kəndin ortasına çatanda bir də görüf ki, bir qanaddı ilan tüşüf bunun dalına. Kişi qorxudan kışqıra-kışqıra başdıyıf qaşmağa. Camaat tökülüf gəlif kişini ilanın əlinnən alıf. Kişi sonıra seyidə un verməməyinə peşman olur. Gedif arvadıynan birlihdə un götürüf Seyid Abbasın evinə gəlir. Ona çoxlu yalvarır. Başına gələni ona danışır. Seyid Abbas onun əlinnən tutuf aparer bir yerə. Kişi görör ki, burda çoxlu ilan var. Həmən qanatdı ilan da burdadı. Seyid Abbas kişiyə deer ki, gösdər görüm səni qovan hası ilanıydı. Kişi həmən ilanı gösdərer. Seyid Abbas deer ki, tafşırdım, bir də o səni qovalamaz.

## 22. MƏŞƏD AĞA

Məşəd Ağanın gürzü deerdih var. Gürz, mən görmüşəm, elə paltar maşınnın yeşiyi kimi, sandığı kimi bir şeydi. Əmmə onun içində dedilər, ilan oluf. Allah rəhmət eləsin, Məşəd Ağanın sağlığında Məşəd Ağanın özünə arvadı xidmət eliyif. Onun gəlini, oğlu Mir Qələm xidmət eleerdi. Gürzdə ilan oluf dedilər. Kimin gözünə nə cür görükürmüş, həqiqi ilanıymış, ya başqa şeyiymiş, bilmirəm. O ojağa nə niyyətnən getsənı, həqiqi ürəhnən, həqiqi qəlbnən niyyət eliyif gedirsənısə, işinı

[52] Əlismayıl – Gədəbəy rayonunda kənd

düzəlirdi. Yoxsa, mən getdim ora nəzir dedim, keşmədi, deməh, sən elə-belə gəlif gedifsənı. Ağır adamıydı.

Məşəd Ağa çox sınaxlı seyidiydi. Bir gün camahat ot piçermiş. Arvat-uşax ot yığermış. Kişilər də kənarda ot piçermiş. Elə olor ki, saat ikidən, üşdən sonıra hava buluddaşır, reski dolu yağır. Arvat-uşax hamsı işdən çıxır, tökülür o dağlardan ki, indi maşın gələjəh, burdan minəh, gedəh. Gəlir görör ki, rəhmətdih Məşəd Ağa altında bir daş qoyuf oturor. Elə bil, bir iyirmi metir dayrəvi yer qufqurudu. Həmən sel-su qıjoy[53] gedir, dağları, qəyaları başına alıf götürüf gedir, səs saler. Deer:

– Ay Seyit! Ayə, burya nə yaxşı yağış, dolu yağmır?

Deef:

– Da manıa da dolu-yağış yağa, mənim seyitdiyim nədən bəlli olardı.

Çox belə ağzı əyilmiş, huşu, ağlı getmiş, dəli, divanə olmuş adamları gətirerdilər, əsas da, bu Qaraqoyunnu dərəsinnən gətirerdilər. Ata sarıyıf gətirerdilər, haravıya sarıyıf gətirerdilər. Kişi deerdi, burax, burax. Buraxan kimi, xəsdə elə bil onun ojağında dincəlirdi. Duvasını yazırdı. Bir şilləynən, bir tüpürcəynən onun məsələsini həll eliyif kutarerdı. Tamahı da yoxuydu.

## 23. MOLLA ZEYNALABDİN

Burda bir dənə molla vardı. Zeynalavdı deerdilər. Burda hasarın yanında iki-üş adam oturufmuş, dua hakqında söhbət tüşör. Cahılın biri deer ki, əmi, nə dua. Molla Zeynalavdı buna deer ki, iki gəlin gedir, görörsənımi?

Deer:

– Hə.

Deer:

---

53 Qıjoy – çayın yatağında ən dar olan yer, axarın dərin və sürətli yeri

– İndi mən oları uannan bəri qaytarsam, onda inanarsanı-mı?

Deer:

– Hə.

Baş barmağının dırnağına nə yazırsa, gəlinnər əyinnərini soyuna-soyuna bulara tərəf yüyürüşöllər. Tez dırnağını ağzına vırır, yazını pozur, gəlinnər o tərəf-bu tərəfə baxıf da oturuşollar. O adamı yolluyur ki, get gör o gəlinnər niyə heylə elədi. Gedif soruşanda deellər ki, ay bala, dünya alışıf yaner, bircə bu paltarımız alışmasın deyin, bizi yandırer deyin, soyuna-soyuna yüyürdüh.

## MÜXTƏLİF MÖVZULU RƏVAYƏTLƏR

### 24. ALLAH BUNDAN BETƏRİNDƏN SAXLASIN

Keşmişdə dəvəynən alverə gedellərdi. Biri dəveyi ühlüür polnu, İraka ziyarata geder. İrakdan mal alıf gətirer. Onun qalarqı yeri[54] elə bil buradı. Elə bil dəvələrinnən Gəncədən gəler. Bir gün burda qonax qaler, burdan da çıxanda geder başqa bir ölkədə qaler. Ora çatana qədər yer tutor. Hər il gəler.

Bir il gələndə görör evində qaldığı kişi ölüf. Deer ki, ə, gedem qəbrinin üsdünü bir ziyarət eleem. Dosdular. Geder qəbrinin üsdünə. Baxanda örör ki, kişi başdaşına yazdırıf ki, Allah bunnan betarını saxlasın. Bu tacir öz-özünə fikirrəşer ki, ə, insanınkı ölümdü, ölənnən sonıra munun nə betarı qaldı. Tacir yola tüşör. Bu sirr qarnında geder. Bir ildən sonıra genə də gəler. Gələndə genə də deer ki, ziyarət elleem dostumun qavrını. Geder, gedəndə görör, qavırsannıx yoxdu. Sel gəlif, aparıf yoxdu. Deer, həə, bu kişi bilermiş ki, deermiş Allah munnan da betarınnan saxlasın. Budu qavır da yoxdu, sür-sü-

[54] Qalarqı yeri – qaldığı yer

mühlər dağıldı, çınqılandı, kim nə biley nijoldu. Deer, həə, kişi dünyanı bilən kişiymiş, Allah munnan da betarınnan saxlasın. Sel gəldi, apardı getdi.

## 25. ƏSHABİ-KƏHF

Dağ Yunus padşah oluf. Zülümkar padşah oluf. Onun əlinnən hamı zülüm çəkirmiş. Hamı onun ölkəsinnən qaçırmış. Bir gün də vəziri qaçıf. Vəzir yolda Dağ Yunusun bir çovanına ras gəlif. Çovan da bunnan qaçıf. Çovanın iti də gedif. Çovan nə qədər eliyif, iti geriyə qaytara bilmiyif. İtə daş atanda daş gedif itin bir qıçasını əzir. Vəzir deer ki, ay çovan, yazıxdı, qoy bu da biznən getsin. İt də bularnan gedif. Gedillər Naxçıvanda bir zağaya girillər. Buları burda yuxu tutur. Yüz il yatıllar. Yüz ildən sonıra ayılıllar. Deellər, ayə, ajınnan ölürüh. Dur gedəh bir çörəh alax, gətirəh. Çovan duror geder çörəh alıf gətirməyə. Gedif bazara, cibinnən pulu çıxardıf verer ki, çörəh alsın. Pul da Dağ Yunusun vaxdınnan qalma puluymuş. Çörəh satan bunu görör, deer ki, ayə, a kişi, bu pulu hardan almısan. Kişi deer ki, bəs belə-belə, pul özümündü. Deellər ki, ayə, bu Dağ Yunusun vaxdınnan qalma puldu. Dağ Yunus yüz il bunnan qavax ölüf. Kişi bilir ki, bular yüz il yatıflar. Hay tüşür, kişi qaçır. Camaat tüşür kişinin dalına. Kişi gəlir, hər şeyi vəzirə danışır. Vəzir deer ki, gəl heş biz buların gözünə görünmüyəh. Allaha yalvarıllar ki, Allah buları qeybə çəksin. Allah buları qeybə çəkir. Əsabi-Kəfi də, çovanın itini də zağanın qarşısında daşa döndərir. Onnan da oranın adı Əsabi-Kəf qalır.

## 26. DAĞ YUNUSUN PULLARI

Dağ Yunus padşah oluf. Ona görə ona Dağ Yunus deellər ki, böyüh bir dağı ortadan yarıf, başdan gəlif pütün pullarını,

ləl-cəvahiratını töküf ordan dağın içinə. Yetmiş ildən son$_ı$ra bir adam ordan keçirmiş. Görüf ki, burda çoxlu qajır[55] toplaşıf leş yiir. Ən çox yaşıyan qajırdı. Əlli-altmış il yaşıyır. Qajırrar öz aralarında danışer ki, bəs heş vax belə bayram eləməmişdih. Qajırrardan biri qayıdıf deer ki, bunnan da yaxşı bayramı Dağ Yunus pullarını bu dağda basdıranda eləmişih. O vax o qədər adam leşi, eşşək, qatır leşi yimişdih ki, day olmuyan kimi. Həmən adam bilir ki, bəs Dağ Yunusun pulları burdadı. Qayıdıf gedir öz padşahlarına eşitdihlərin deer. Bu adam quşdarın dilini bilirmiş. Padşah öz nökərrərin götürüf gəlif həmən dağı qazmağa. Onnan son$_ı$ra dağı qazıf Dağ Yunusun pullarını tapellar.

## 27. YARANMIŞAM DAŞDAN MƏN

Bir məmləkətdə üş qardaş varıymış. Vax-vədə gəley, bu qardaşdarın üçü də evləney. Allah-tala qardaşdardan ikisinə uşax verey, bir qardaşınsa öyladı olmoy. Öylattarı olan qardaşdar öylatsız qardaşın öyünə heş vax getmellərmiş. Ayda, ildə sayanda onun qapısını açallarmış, ya açmazdarmış. Gedəndə də onun öyündə yiməh yiməzdərmiş ki, Allah ona qarğeyıf. Bir gün öylatdı qardaşdar ova çıxallar, ovdan qayıdanbaşı qardaşıgilə yoluxmax qərarına gəlellər. Öylatsız qardaşın arvadı ərinə deey ki, baxeram, çox fikirrəşersən$_ı$, axırda bu fikirdən xəsdəlih tapajaxsan$_ı$. Qardaşdarın gələndə bizdə yiməh də yimellər. Dur get, man$_ı$a uzun bir sal daş gətiy. Kişi uzun sal daş tapıf gətirey. Arvat qundax kimi bəleyif yüyrüyə qoyoy və başdeey yüyrəyi yelleef layla çalmağa. Qardaşdar gələndə öydən layla səsi eşidellər. Çox sevinellər. Qardaşdarına gözaydınnığı verif, ajdıxlarını söylööllər. Yiməh yiəndə

[55] Qajır – leş yeyən qartal

öylatdı qardaşdar yüyrəyə yaxınnaşıf zarafatnan qundağı süfrüyə dəvət eleellər. Daş qundax dilə gəlif deer:

Uşağım həm yaşdan mən,
Yimərəm hər aşdan mən,
Nə atam var, nə anam
Yaranmışam daşdan mən.

## 28. LOĞMAN VƏ ŞƏYİRD

Loğman həmişə şəyird saxlıyarmış. Özü də şəyird hər şeyi öyrənif kutarannan sonıra onu öldürərmiş. Bir gün genə bir şəyirdi olur. Loğman elə hey buna deermiş:

– Dərsi kutardını?

Şəyird də bilirmiş ki, Loğman bunu öldürməh isdiyir. Ona görə də həməşə yox deyərmiş. Bir gün Loğman evdə olmuyanda şəyird qaçır. Sonıra loğman gedif şəyirdi tapır. Deer:

– Gəl zəhər hazırrıyax, verəh bir-birimizə, görəh kim-kimi öldürəjəh.

Loğman geder, elə bir zəhər hazırrıyer ki, adam içən kimi ölör. Şəyird də geder qırx qazan ayran hazırratdırır. Birinci Loğman şəyirdə zəhər verer. Şəyird zəhəri içer, girir bir qazana, ayranı içer, zəhəri qusur, sonıra o biri qazana, belə-belə qırx qazan atlamanın içində çimer, içer, qusur, zəhər buna kar eləmer. Sonıra nööbə şəyirdə çatır. Şəyird girir bir evə, evin də hər tərəfinə qara pərdə çəker, ev görühmör. Şəyird iki qav götürür, bir-birinə döyməyə başdıyır. Qırx gün çölə çıxmer. Loğman fikirrəşer ki, yəqin bu elə bir zəhər hazırreer ki, adam onu dilinə vuran kimi ölər. Qorxudan Loğmanın bağrı çatdeer ölör.

## 29. SAĞALMAZ XƏSTƏ

Bir gün bir xəsdə olur. Bədənnin hər yeri yara tökür. Yaralar başdıyır iy verif ilənməyə. Duruf gəlir Loğmanın ya-

nına. Loğman buna deer ki, san$_ı$a əlaş yoxdu, çıx get. Bu kişi gedir girir bir qəbirstannığa. Fikirrəşer ki, burda bir çürüh qəbrə uzanım, ölöm. Bir də görör ki, bir çovan bir sürü qoyun otara-otara gəler. Gedif çovannan süd isdiyir. Çovan baxır ki, südü sağmağa bir qav yoxdu. Axdarer, bir kəllə çanağı tapır. Südü sağıf gedir kişini çağırmağa. Südü də qara qoyunnan sağmışmış. Çovan kişini çağırmağa gedəndə bir ilan gəler, başını qaldırer, zəhərini tökür çanağa. Kişi gəler südü işməyə. İçəndə görör ki, gözdərinə işıx gəldi. Tez çovannan genə süd isdiyir. Çovan genə qara qoyunnan süd sağer. Kişi də südü qarışdırır içir. Kişi elə bu süddən də sağalır. Son$_ı$ra kişi duruf gəler Loğmanın yanına. Deer ki, bəs sən deerdin$_ı$ mən sağalmıyjam. Loğman da buna qayıder ki, mən hardan aleydım qara qoyunun südünü, ilanın zəhərini, bir də xam qızın kəlləsini ki, verəm san$_ı$a, sən də tez sağalasan$_ı$.

## 30-31. DAŞA DÖNƏN ÇOBAN

### 30.

Çovan dağında[56] çovan da daş oluf, qoyunnar da daş oluf o vaxdı. Çovan yonnu çöyrüf qıvlıya. Deef ki, a qıvla, sürü bater susuz, özüm də ölörüm bu dağın başında.

O vaxdı torpağın yaxşı yerrərini bəylər tutuf sürüsünü otarmağa. Bu çovan da kasıv, yetim oluf. O da Qoja dağına[57] çıxıf, görüf dağda su yoxdu. Deef:

– Allah-taala, ağ qoçnan qara qoçu san$_ı$a qurvan kəsəjəm, burdan su çıxartginən.

Savax qalxanda görüf guphagup bulağ axer. Sürü də içif, özü də içif. Əmbə qurvanı kəsmeyif. Çovan belə-belə pit-

[56] Covan dağı – Gədəbəydə Coban dağı
[57] Qoja dağı – Gədəbəydə Qoca dağı

dənəndə bir qara pit oloy, bir ağ pit. Öldüröy, deer ki, bu qara qoç, bu da ağ qoç. Onu elədiyinə görə bax olar da daşa döndü.

Çovan daşı Qaltaxdan[58] görünöy. Qaltax yaylağı bizim yaylaxdı. Daş çoxdu, qəyalıxdı, çolpannıxdı[59]. Ona görə Qaltax deellər.

## 31.

İki dənə də çovan oloy. Biri deey:

– Allah, yağma, qırma qoyunnarı. Bir dənə ağ qoçu qurvan kəsəjəm.

Allah yaxşı gün açey, yaxşı bulağ da çıxey. Yoldaşına deey:

– Ayə, gəl, yaxşı bulağ çıxdı. Day bunnan son$_ı$ra nə qurvan kəsəjəm?

Bir dənə qoynınnan biti tapey, öldüröy ki, bu da san$_ı$a qurvan. Bunu o vaxdı rəhmətdih dədəm İsmayıl söylüyüf. Həə, Allah orda başdeey doluyu yağdırmağa. Çovanı da sürüsüynən daşa döndərey.

## 32. QEYB OLAN QIZ

Yekə bir daşdı, ortasınnan sınıf. Əsgərriyə gedəndə özüm gözümnən gördüm. Bir qız qaçıf da deef:

– Ya Allah-tala, bu zalım mənim başıma oyun açajax, məni öldür.

Həmən o daş yarılıf, qız da daşa qeyb oluf. Zalım da gəlif ki, əyə, daş yarılıf, amma burada heş kim yoxdu. Ara sakit olanda, o daşın arasınnan çıxıf çölə. Gürcülər həmişə orya gedif ziyarət eliyif gəlirdi.

---

58 Qaltax – yaylaq

59 Çolpannıx – daşı, qayası çox olan yer

# 33. MALIN KÖŞƏYİ[60]

İrəvan xannığınnan danışeram. O zaman oralarda erməni çox seyrəyiydi. Hamısı bizimkiləriydi. Bir erməni qızını Əli xana ərə verer. Deer:

– Qızım, Əli xanın dəsdi-xətdiynən bir məktub alarsanı ki, evinin içinnən hər tərəfə bir metrə yeri sənə hədiyyə verer.

Qız atası evinə qonax gedəndə bu erməni ona dana hədiyyə verer. Deer:

– Dananı yaxşıca soydur, dərisini manıa yolla.

Qız elə də eleer. Atası bilənnərə imza atdırer ki, mən qızıma bı nişanda dananı cehiz vermişəm.

Aradan bir müddət keçir. Atası deer ki, xan, qızımı çıxarderam, apareram. Cehiz danamı ver.

Xan deer:

– Dananı yimişih, naxırda nə qədər dana var, götür apar.

Erməni deer:

– Yox, mənim öz danam gərəhdi. Bax, bu, mənim sizə cehiz göndərdiyim danamın köşəyidi, onnan köşəh çəkəjiyih, nə qədər çıxajax, torpax verəjənı.

Beləcə ermənilər orda torpax alellar.

---

[60] Köşək – dəridən çarıq tikmək üçün kəsilib hazırlanan ip, material

# NAĞILLAR

## 1. QARĞA İLƏ KEÇƏL

Bir keçəlnən nənəsi varıydı. Bunnar bir qarına aj, bir qarına tox güj-bəla dolanırdılar. Keçəl çox tənbəliydi. Nənəsi bir gün keçəli eşiyə qovuf, daldan qapını bağlıyır. Deer ki, çörəh gətirməsən$_{ı}$, səni öyə buraxmıyajam. Keçəl ağlıya-ağlıya damlarının bir böyründə oturur. Bu vax göynən bir qarğa uçurdu. Qarğa baxır ki, keçəl ağlıyır. Qarğa bir ağacın başına qonuf, qarıldamağa başdıyır:

– Qarr, qarr…

Keçəl başını qaldırıf qarğıya baxer, deer:

– Zəhirmar, sən nəyə qarıldıyırsan$_{ı}$ qanımın bu qara vaxdında?

Deer:

– A keçəl, niyə ağlıyırsan$_{ı}$?

– San$_{ı}$a nə var, niyə ağlıyıram, sən man$_{ı}$a nə köməh eliyəjən$_{ı}$?

Deer:

– Ayə, a keçəl, bir dərdini de görüm, niyə ağlıyırsan$_{ı}$, bəlkə, san$_{ı}$a bir köməyim dəydi.

Keçəl başına gələni qarğıya söylüyür. Qarğa keçələ deer ki, mən göynən uçajam, sən də mənim kölgəmnən düz o dağın başına gələrsən$_{ı}$. Qarğa göynən, keçəl yernən, gethaget, gethaget gəlif bir dağın başına çatıllar. Keçəl baxır ki, nəə, dünyada nə qədər qarğa desən, bu dağın başındadı. Sən demə, bu qarğa qarğaların padşahıymış. Qarğanın da bu gün oğlunun toyuymuş. Qarğa pütün qarğalara tafşırır ki, keçəlnən işin$_{ı}$iz yoxdu. Qoy nə qədər isdiyir yiif-işsin, yazığ adamdı. Keçəl bir neçə gün burda yiif-içif kef çəkir. Bir gün nənəsi yadına tüşür. Qarğıya deer ki, nənəmin yanına getməh isdiyirəm.

Qarğa deer:

– Ras ki, gedirsənı, ala sanıa bir qazan verim. Amma onu heş kimə vermə, o yalı aşmıyınca “qayna, qazanım, qayna” demə.

Keçəl qarğaynan görüşüf yola tüşür. Yalın başına çatanda ürəyi durmur. Qazanı yerə qoyuf deer, görüm axı bu qazanda nə sirr var ki, qarğa qazanı mənə bərk-bərk tafşırır. Keçəl qazana baxıf deer:

– Qayna, qazanım, qayna.

Pah. Keçəl nə görsə yaxşıdı. Baxır ki, dünyada nə ki nazı-nemət var, bu qazannan yerə tökülür. Keçəl söyüncünnən bilmir neynəsin. Tez yiməhlərdən bir-iki tikə ağzına alıf deer:

– A qazan, qurvanını olum, taa bəsdi, qaynama.

Keçəl qazanı qoltuğuna vuruf söyünə-söyünə öylərinə gəlir. Qapıya çatanda nənəsini səsdiyif deer:

– A nənə, sanıa qurvan olum, aş qapını, gör bir nə gətirmişəm.

Nənəsi aynadan baxıf görür ki, keçəlin qoltuğunda bir qazan var. Öz-özünə deer, kül başınıa, a keçəl, gedif o boş qazanı hardan tapıf gətirifsənı? Nənəsi qapını açır. Keçəl içəri girir, deer:

– A nənə, tez ol, süfrə aç, süfrənin üsdünə qav-qaşıx, özünə də dirsəhlənməyə bir yasdıx gətir.

Nənə keçələ baxıf deer:

– Vay, öyüm yıxıldı, gədə dəli olufdu.

Amma baxır ki, keçəl əl çəhmir ki, nənə, süfrəni aç. Nənə çar-naçar yerə bir süfrə açır. Keçəl deer ki, nənə, özünıə bir yasdıx da gətir. Nənə bir yasdıx da gətirir. Keçəl qazanı süfrənin üsdünə qoyuf deer:

– Ay qazan, qurvanını olum, qayna.

Qazan dünyada nə ki yiməhlərdən nazı-nemət var, süfrənin üsdünə tökür. Nənə söyüncünnən bilmir neynəsin. Duruf keçəli duz kimi yalamağa başdıyır. Deer:

– Ay keçəl, sanıa qurvan olum, bu nədi?

Keçəl başına gələni nənəsinə danışır. Deer ki, ay nənə, di tez ol, qazanı gizdət. Heş kəsə də qazan haxda bir söz demə.

Keçəl bazara çıxır ki, görsün nə var, nə yox. Nənəsi baxır ki, süfrədə yiməhləri çoxdu. Keçəldən gizdin bir az yiməh götürüf qonışuya aparır ki, yazıxdılar, qoy onnara da bir az verim. Bir gün belə, üş gün belə, qonışu baxır ki, hər gün nənə bunnara bir boşqaf yiməh verir. Paxıl qonışu deer, axı qoy bunnarı güdüm görüm keçəlgil bu yiməyi hər gün hardan alıllar. Qonışu bajadan baxır ki, keçəl süfrəyə bir qazan qoydu. Bu qazana "qayna, qazanım, qayna" deyən kimi dünyanın nə ki nazı-neməti var, süfrənin üsdünə töküldü. Qonışu tez padşaha xəvərə qaçır. Deer:

– Padşah sağ olsun, keçəl nə karədi ki, onda belə bir qazan olsun, amma sən padşah ola-ola, səndə bu qazannan olmasın.

Padşah deer ki, tez olun, keçəldən qazanı alıf mənim sarayıma gətirinı. Nökərrər keçəlin qapısına çatıf keçəli eşiyə çağırıllar. Keçəl eşiyə çıxanda baxır ki, padşahın pütün nökərrəri qapıdadı. Nökərrər keçələ deellər ki, padşah qazanı isdiyir. Keçəl deer ki, nə qazan? Məndə qazan-zad yoxdu. Nökərrərdən biri qavağa gəlif deer ki, əgər sən qazanı verməsənı, padşah səni dar ağacınnan asdırajax. Keçəl çar-naçar gətirif qazanı padşahın nökərrərinə verir. Nökərrər çıxıf gedənnən sonıra keçəl nənəsinnən soruşur ki, a nənə, padşah bu qazan haxda hardan eşitdi? Nənəsi deer ki, ay oğul, günahların hamsı məndədi. Mən ölmüş sən gedənnən sonıra hər gün qarnı yanmış qonışuya yiməhlərdən bir az verirdim. Yəqin o bizi padşaha çuğulluyuf[61]. Nəysə, keçəl baxır ki, taa olan oluf, keçən keçif. Çox götür-qoydan sonıra yenə də üz tutur dağın başına – qarğanın yanına. Qarğa dağın başınnan baxır ki, keçəl əli ətəyinnən

[61] Çuğulluyuf – xəbərçilik edib

uzun gəlir. İşin nə yerdə olduğunu bilir. Başa tüşür ki, keçəl qazanı əldən verif. Keçəl qarğanın yanına gələndə qarğa deer:

– Keçəl, xeyir ola bu tezdihdə?

Keçəl deer ki, qarğa sağ olsun, verdiyin$_{ı}$ qazanı padşahın nökərrəri gəlif əlimnən aldı.

Qarğa keçələ baxıf gülür. Deer:

– Zərəl yoxdu, bir-iki gün qal burda dincəl, bir şey fikirrəşərih.

Keçəl bir-iki burda gün qalır, yiir-içir, tokqasının altını bərkidif qarğanın yanına gəlir ki, bəs məni yola sal, gedim. Qarğa keçələ bir eşşəh verir. Tafşırır ki, eşşəyi heş kəsə vermə. O yalı aşmamış “zır, eşşəyim, zır” demə. Keçəl qarğaynan görüşüf yola tüşür. Yola çatmamış ürəyi dözmüyüf deer:

– Zır, eşşəyim, zır.

Keçəl baxır ki, söz ağzınnan çıxmamış eşşəh daldan qızıl tökür. Keçəl tez eşşəyi qucaxlıyıf deer ki, eşşəh, qurvanın$_{ı}$ olum, daa zır demirəm. Eşşəh qızıl tökməyini dayandırır. Nəysə, keçəl yerdəki qızılları da götürüf ora-burasına soxur, evlərinə yola düzəlir. Evə çatıf nənəsini eşiyə səsdiyir. Nənəsi baxır ki, keçəl bu dəfə də eşşəhnən gəlir. Deer, a keçəl, eşşəyi niyə evə gətirirsən$_{ı}$, töylüyə aparsan$_{ı}$. Keçəl deer:

– Yox, a nənə, bu eşşəyi töylüyə bağlamax olmaz.

Nənə başa tüşür ki, bu eşşəhdə də nəsə var. Tez qapını açır, keçəl eşşəyi evə keçirir, nənəsinə deer ki, eşşəyin altına tez bir palaz at. Keçəlin nənəsi eşşəyin altına bir palaz sərir. Keçəl deer:

– Hə, a nənə, indi sən qıraxdan dur, tamaşa elə.

Keçəl eşşəyə deer:

– Zır, eşşəyim, zır.

Nənə baxır ki, nəə, eşşəh daldan qızıl tökür. Nənəsi keçəli, eşşəyi qucaxlıyıf deer ki, ayə, a keçəl, eşşəyi san$_{ı}$a kim verdi? Keçəl başına gələni nənəsinə söylüyür. Nənəsi qızılları

torvuya yığır, keçəlnən köməhləşif bir tərəfə qoyullar. Keçəl nənəsinə tafşırır ki, eşşəh hakda heş kəsə bir söz demə, yoxsa keçən səfərkinin gününə tüşərih. Nənəsi də deer ki, qurvanın olum, ay keçəl, daa heş kəsə heş nə demərəm.

Bunnar bir müddət kefnən yaşıyıllar. Günnərin bir günü keçəl eşşəyi minif hamama getməh isdiyəndə nənəsi qoymur ki, a bala, indiyə kimi eşşəhnənmi hamama gedifsənı, gəl insaf elə, eşşəyi evdə qoy, özünı təhcə çıx get. Nənə çox deer, keçəl az eşidir. Eşşəyi minif hamama gedir. Eşşəyi hamamın həyətində bir ağaca bağlıyır. İçəri girif hamamçıya deer:

– Mən hamama girif çiməjəm, sən mənim eşşəyimə göz ol. Amma eşşəyə “zır, eşşəyim”, demə.

Deer:

– Yaxşı.

Keçəl içəri girən kimi hamamçı deer, görüm axı bu nə işdi ki, keçəl eşşəyi mənə bərk-bərk tafşırdı. Hamamçı eşşəyə yaxınnaşıf baxır ki, adi eşşəhdi. Yadına tüşür ki, axı keçəl buna eşşəyi tafşıranda “zır, eşşəyim, zır” sözü də demişdi. Deer, görüm bu noolan sözdü. Deer:

– Zır, eşşəyim, zır.

Eşşəh daldan qızıl töhməyə başdıyır. Hamamçı tez qızılları ora-burasına dolduruf keçəlin eşşəyini evə aparır, yerinə öz eşşəyini gətirif bağlıyır. Deer, keçəl nə başa tüşəjəh, eşşəh eşşəhdi dana. Keçəl çimif çıxanda hamamçı keçələ deer ki, eşşəyin yerindədi, elə səhərdən ona göz olmuşam. Keçəl eşşəyi minif evə gəlir. Nənəsi deer ki, a keçəl, evdə qızıl kutarıf, eşşəyə bir “zır, eşşəyim” de, gedim bazara, öydə heş bir şey yoxdu yiməyə. Keçəl eşşəyə “zır, eşşəyim” deyəndə görür ki, eşşəhdən qızıl tökülmür. Nənəsi deer:

– A keçəl, niyə mənim öyümü yıxdını, bə sanıa deməmdimmi ki, eşşəyi minif hamama getmə. İndi gördünımü, hamamçı eşşəyi dəyişif.

Keçəl başa tüşür ki, doğurdan da, hamamçı eşşəyi dəyişif. Keçəl eşşəyi götürüf hamamçının yanına gətirir, deer ki, bəs mənim eşşəyimi dəyişifsənı, mənim eşşəyimi ver. Hamamçı yalannan elə səs-küy salır ki, yazıx keçəl qorxusunnan kor-peşman evə qayıdır. Nənəsi baxır ki, keçəl ağlıya-ağlıya evə gəlir. Nənəsi də keçələ qoşuluf bir xeyli ağlıyır. Keçəl baxır ki, belə getsə, ajınnan öləjəhlər. Yenə də üzünə üz tutuf qarğanın yanına gəlir. Bu səfər qarğanın keçələ bərk ajığı tutur. Deer:

– Ay əfəl, mənim sanıa yazığım gəldi, o cürünə şeylər verdim, sən də onun qədrini bilmədinı. İndi mən sanıa nə verim?

Qarğa çox fikirrəşir, keçələ bir toxmax verir. Bu dəfə də tafşırır ki, yalı aşmıyınca "vur, toxmağım, vur" demə. Keçəl qarğaynan sağollaşıf yola düzəlir. Yala çatmağa az qalmış deer:

– Vur, toxmağım, vur.

Gözünə döndüyüm toxmax keçəli bir kökə salır ki, gəl görəsən. Keçəl bir təhər deer ki, toxmax, taa vurma, yazığam. Toxmax dayanır. Keçəl toxmağı götürüf evə gəlir. Əhvalatı nənəsinə danışır. Deer ki, a nənə, indi mən padşahdan, hamamçıdan hayfımı çıxajam. Keçəl toxmağı da götürüf düz padşahın qapısına gəlir, elçi daşının üsdündə oturur. Nökərrər keçəldən soruşullar ki, a keçəl, nə var, nəyə gəlifsənı? Keçəl deer:

– Gedinı padşaha deyinı ki, mənim qazanımı versin.

Nökərrər keçəlin qolunnan tutuf eşiyə tullamax isdiyəndə keçəl toxmağı çıxarıf deer:

– Vur, toxmağım, vur.

Toxmax nökərrəri bir kökə salır ki, gəl görəsən. Padşah külafrəngiyə çıxır ki, görsün bu nə vur-vurdu. Keçəl baxır ki, budu, padşah gəlir, tez toxmağa deer:

– Gözünıə dönüm, toxmax, padşahı ölüncə vur.

Toxmax padşahı bir hala salır ki, gəl görəsənı. Onun dili tutmur ki, desin, ay evi yıxılmışdar, qazanı keçələ verinı. Zor birtəhər əliynən işarə eliyir ki, qazanı keçələ versinnər. Tez

nökərrər qazanı keçələ verir. Keçəl qazanı evə götürüf gəlir. Nənəsinə deer ki, nənə, indi gedirəm hamamçıynan hak-hesavı çəkəm. Keçəl hamama çatıf hamamçını eşiyə çağırır, deer ki, mənim eşşəyimi ver. Elə hamamçı ağzını açır ki, səs-küy salsın, keçəl yavaşca toxmağı çıxarıf deer:

– Vur, toxmağım, vur.

Toxmax hamamçını o qədər vurur ki, hamamçı huşunu itirir. Keçəl toxmağı saxlıyır. Hamamçı özünə gəlir, qaça-qaça gedif keçəlin eşşəyini gətirif özünə verir. Keçəl eşşəyi götürüf evlərinə gəlir. Nənəsinnən görüşüf öpüşür. Bunnan son$_{ı}$ra onnar şad-xürrəm öz damlarının altında yaşıyıllar. Sizi də şad, xürrəm olasınız.

## 2-3. NARDANXATIN

### 2.

Bir arvat varıydı. Bu arvadın yeddi oğlu varıydı, ancax qızı yoxuydu. Günnərin bir günü arvat boylu olur. Qardaşdar bir həfdəlih səfərə gedəndə analarına tafşırıf deellər:

– Ana, əyər bu dəfə də oğlun$_{ı}$ olsa, biz evdən çıxıf gedəjiyih.

Anası yalvarır, yaxarır. Ancax görür oğlannarı dediyinnən dönmür. Onda belə bir şərt qoyullar:

– Biz səfərdən gələndə gəlif qapının ağzına baxajıyıx. Oğlun$_{ı}$ olsa, qapıdan xançal asarsan$_{ı}$, qızın$_{ı}$ olsa, muncux asarsan$_{ı}$.

Oğlannar gedillər. Bunnar gedən kimi arvat qon$_{ı}$şularına qaçıf əhvalatı danışer. Arvat yater, gəlif bir qəşəh qızı olur. Arvat söyüncəh oluf boğazındakı muncuğu çıxarıf qapıdan aser. Paxıl qon$_{ı}$şu görür kün, oğlannarın gələn vaxdıdı. Gejə yarısı muncuğu çıxarıf xançalı aser. Səhər oğlannarı gələndə görüllər ki, qapıdan xançal asılıf. Kor-peşman dala qayıdellar. Arvat söyüncəh qalxer ki, büyün oğullarım gələjəh. Eşiyə çı-

xanda görür kün, muncuğun yerinnən xançal asıflar. Arvat ağleer, kışqırer, ancax noolsun, olan oluf, keçən keçif.

Vax keçer, qız böyüyür. Bu qızın bir iti varıydı. Qız söz danışanda bu itin canına and içərdi. Bir gün qon$_{ı}$şularının qızdarıynan oturuf coraf toxuyanda bir qızın yumağı iter. Biri qardaşının canına and içer ki, yumağı mən götürməmişəm, biri bacısının canına and içir. Bu qız da ala itinin canına and içer. Qon$_{ı}$şuları bunu eşidif deer:

– Ay qız, sənin$_{ı}$ ki yeddi qardaşın$_{ı}$ var. Sən niyə qardaşdarın$_{ı}$ı qoyuf ala itin$_{ı}$in canına and içersən$_{ı}$?

Qız məhətdəl qalıf deer ki, nətəri mənim yeddi qardaşım var? Qon$_{ı}$şu arvat deer:

– Sən mənə inanmırsan$_{ı}$sa, get anan$_{ı}$nan soruş.

Qız öyə gəler, anasınnan soruşur:

– Ana, mənim yeddi qardaşım var? Qızdar mənə deer ki, sənin$_{ı}$ yeddi qardaşın$_{ı}$ var.

Arvat ağlıyıf deer:

– İndiyə kimi mən sənə heş nə demirdim. Əmbə indi hər şeyi açıf söylüyəjəm.

Arvat pütün əhvalatı olduğu kimi danışer. Qız deer:

– Onda, ana, mən gedirəm qardaşdarımı axdarmağa.

Anası deer:

– Qızım, dəli olufsan$_{ı}$, nədi, sən hardan gedif onnarı tapajan$_{ı}$?

Anası görür, qız əl çəhmer. Axırda qızın yoluna hazırrıx görür. Qız anasınnan vidalaşıf, ala itini götürüf yola tüşür. Az gedellər, üz gedellər, dərə-təpə düz gedellər. Gedif bir öyün qavağına çıxellar. Qız görür bu öy elə gözəldi, elə gözəldi, taa nə deyim. Görür yolnan bir kişi geder. Kişini çağırer, soruşur ku, bu kimin öyüdü? Kişi deer ki, bu yeddi qardaşın öyüdü. Ancax, qızım, bu öyə heş kim qorxusunnan yaxın gedə bilməz. İndi bu dəyqə onnar ova gediflər, axşama yaxın qayıda-

jaxlar. Qız barmağını tişdiyif deer ki, həə, bu, mənim qardaşdarımın öyü olajax. Onu da deyim ki, qardaşdar elə bilellər ki, onnarın bajısı yoxdu. Ona görə bir dənə alma götürüllər. Hər dəfə bir yerə gedif gələndə o almanı bir-bir götürüf öpüllərmiş. Qız qapını açıf içəri keçer. Görür kün, öy elə pinti, elə pintidi ki, gəl görəsən$_ı$. Qız başdeer öyü yığışdırmağa. Yiməyi də pişirer. Usdolun üsdünü düzəlder, çayı qoyuf qaynader. Samavarı usdolun üsdünə qoyur. Özü də çörəh yiir, itinə də çörəh verir. Görür kin, qardaşdarı gəler. Deer, Allah, mən hara gizdənim? Görür eşihdə bir ağaş var, içi də oyuluf. Qaçıf orda gizdənir. Qardaşdar gəlir. İçəri girəndə gözdərinə inanmellar. Öy səhmana salınıf, usdolun üsdü düzəlif. Qardaşdar deer, görən bunnarı eliyən kimdi? Yenə həminki kimi almanı götürüf bir-bir öpüllər. Böyüh qardaş deer:

– Gərəh mən bunu güdəm, görüm bu, kimdi? Səhər mən siznən ova getmiyəjəm.

Səhər olur. Qardaşdar ova gedillər. Böyüh qardaş bir daldeylığa gizdənif güdməyə başdeer. Axşam olur. Böyüh qardaşı yuxu tutuf yater. Qız ağacın oyuğunnan çıxer. Yenə nə ki iş var, hamısını görür. Son$_ı$ra da itinə çörəh verer. Özü də yiif, yenə o oyuğun içinə girer. Böyüh qardaş yuxudan qalxanda görör ki, hər şey gül kimidi. Qardaşdar gəlellər. Böyüh qardaşdan soruşullar ki, nooldu, nə gördün$_ı$? Deer ki, belə-belə, yuxu tutdu, yatdım. İkinci qardaş deer ki, onda qoyun$_ı$ büyün də mən qalım. Bu da qaler. Bunu da axşam yuxu tutuf yater. Səhər qalxer. Görür kün, hər şey öz qaydasında. Bunnan da qardaşdarı gəlif soruşullar kı, nooldu, nə gördün$_ı$? Deer kin, belə-belə, məni də yuxu tutdu, qalxdım ki, hər şey yerri-yerindədi. Üçüncü qardaş deer kin, qoyun$_ı$ büyün də mən qalım. Bu da qaler. Gözdüyür, gözdüyür, axşam olanda bunu da yuxu tutor. Səhər qalxer görür kün, hər şey yerri-yerindədi. Qardaşdarı gəlif soruşollar ki, nooldu, nə gördün$_ı$? Deer kin, məni yuxu tutdu, yatdım.

Dördüncü qardaş deer kin, onda büyün də mən qalım. Bu da qaler. Gözdüyür, gözdüyür, axşam olanda bunu yuxu tutuf yater. Səhər qalxer kin, hər şey qaydasındadı. Qardaşdar gəlif soruşollar ki, nooldu, nə gördünı? Deer kin, mən də gözdədim, gözdədim, axırda məni yuxu tutdu, yatdım. Beşinci qardaş deer kin, büyün də mən qalajam. Bu da qaler. Yenə gözdüyür, gözdüyür. Axşam olanda bunu da yuxu tutuf yater. Səhər qalxer kin, hər şey yerri-yerindədi. Qardaşdar gəler soruşollar ki, nooldu, nə gördünı? Deer, belə-belə, mən də gözdədim, gözdədim, axşama yaxın yuxu məni tutdu, yatdım. Altıncı qardaş deer ki, onda büyün də mən qalajam. Bu da qaler. Bunu da axşama yaxın yuxu tutuf yater. Səhər qalxanda görür kün, hər şey öz qaydasındadı. Qardaşdar gəlir soruşullar ki, nooldu, nə gördünı? Deer ki, belə-belə, gözdədim, gözdədim, axşama yaxın yuxu məni tutdu, yatdım. Səhər qalxdım ki, hər şey öz qaydasındadı. Axırıncı, balaca qardaş deer ki, qoyunı büyün də mən qalım. Böyüh qardaş deer ki, sənnən böyüh qardaşdarın qaldı, heş nə görmədi. Bə sən nətəri görəjənı? Kiçih qardaş yalvarer-yaxarer. Axırda razı olullar. Kiçih qardaş qaler. Gözdüyür, gözdüyür, axşam olanda görür kün, bunu yuxu tutur. Deer, nağayrem, yatmeyım. Tutuf xançalını çıxarder, çəçələ barmağının ujunnan kəser. Yerinə də ustot[62] baser. Barmağının ağrısınnan yata bilmer. Görür kün, gejənin bir vaxdında qapı açıldı, içəri gözəl bir qız girdi. Qız başdıyıf öyü yığışdırer, yiməyi pişirer, usdolun üsdünü də düzəlder, itinə də çörəh verer, özü də yiməh yiir. Pütün işi yığışdırıf isdiyir kin, çıxsın eşiyə, oğlan tez duruf qızın qolunnan tutur. Qız bunu görəndə yalvarır ki, məni burax. Oğlan buraxmer. Deer ki, sən neçə gündü buranı belə yığışdırersanı, özünı də bizdən qaçıf gizdənersənı. Qız deer ki, belə-belə, siz mənim qardaşdarımsız. Oğlan deer:

[62] Ustot – istiot

– Axı bizim bajımız yoxdu.

Qız deer kin, yox, mən sizin bajın$_ı$ızam. Qız pütün əhvalatı söylüyür. Kiçih qardaş bajısınnan görüşör, anasını soruşur.

Qız deer:

– Anam yaxşıdı, amma hər gün sizi yadına salıf ağleer.

Qardaşı deer:

– Mən qardaşdarıma dedim gəlin gedəh, amma razı olmadılar. Dedilər kin, axı biz söz vermişih, demişih, oğlun$_ı$ olsa, gəlmiyəjiyih. Ona görə də geri qayıtdıx. Onda sən genə gizdən. Onnar gələndə mən deyəjəm ki, məni də yuxu tutdu, görmədim.

Səhər açıler, qardaşdar gəler. Soruşullar ki, nooldu, nə gördün? Deer ki, məni də yuxu tutdu. Səhər qalxdım kin, hər şey yerri-yerindədi. Böyüh qardaş deer kin, onda bu yəqin cinin işidi. Hər nəyisə, qardaşdar genə almanı bir-bir öpüllər. Nööbə kiçih qardaşa çatanda almadan bir tişdək[63] aler. Qardaşdar o saat kışqırellar ki, dəlimi olufsan$_ı$, bajımızı niyə dişdədin$_ı$? Kiçih qardaş deer:

– Ayə, adamın almadan bajısımı olar?

Böyüh qardaş deer:

– Bə neyniyəh, bizim bajımız yoxdu.

Kiçih qardaş bajısını çağırıf deer:

– Bajı, çıx.

Bajısı çıxer. Qardaşdar dəli olullar ki, bu noolan işdi. Qız əhvalatı necə kiçih qardaşına danışmışdısa, o biri qardaşdarına da elə danışer. Qardaşdar bajısınnan görüşüllər. Qız deer ki, anam indi mənnən nigarandı. Gedəyin anamı da bura gətirəyin. Qardaşdar deer ki, yaxşı, gətirərih.

Bir gün qız pütün işi görüf kutarer, ancax yiməyi pişirməyə od tapmer. Deer, nağayrem, nejə eliyim, indijə qardaşdarım gələjəh, yiməh də hazır döyül. Çıxır eşiyə, görür uzax-

---

[63] Tişdək – dişləm

dan tüsdü görünür. Qız deer, qoy gedim, bəlkə, ordan od gətirə bildim. Xəkandaznan maşanı götürüf geder. Az geder, çox geder, gəlif təpənin üsdünə çater. Görür burda bir gözəl qız var, bir gözəl qız var, taa nə deyim. Ancax qızın dizinin üsdündə bir döy[64] başını qoyuf yatıf. Qız bunu görən kimi deer:

– Ey qız, bura niyə gəlifsən$_ı$? Buraya quş gəlsə, qanad salar, qatır gəlsə, dırnax salar. İndi döy qalxsa, səni yiəjəh.

Deer:

– Mən burya oda görə gəlmişəm, odumuz kutarıf.

Deer:

– Döy oddarı sayıf, ona görə də gərəh yavaş-yavaş oddarı qırıf götürəsən$_ı$.

Qız oddarı qıra-qıra xəkəndazı dolduror. Qız o biri qıza “sağ ol” deef geder. Ancax qızın civində ip yumağı olur. Bunun civindəki ip bir kola ilişer. Bu qız getdihcə ip də bunun dalınca açıla-açıla geder.

Sizə kimnən deyim, döydən. Döy qalxer. Qalxanda qıza deer ki, burdan insan iysi gəler.

Qız deer:

– Sənin$_ı$ qorxun$_ı$nan bura kim gələr?

Döy deer:

– Yox, burdan insan iysi gəler.

Döy başdeer pütün hər yeri axdarmağa. Damın dalına keçəndə kolun arasında ip görür. Bu ipi götürüf yumaxlıya-yumaxlıya ipin dalınca geder. Az geder, çox geder, gəlif axırda öyə çater. Döy bilir kin, bu yeddi qardaşın öyüdü. Örgəner kin, yeddi qardaşın bir bajısı burda olur. Döy deer, yaxşı, gör mən sənin$_ı$ başına nə oyun açajam. Döy qayıdıf geder. Səhərin açılmasını gözdüyür. Səhər açılanda döy bir üzük götürüf geder. Gəlif həmən öyə çater. Qapını döyür. Qız haçarın deşi-

---

[64] Döy – div

yinnən baxanda görür kün, bu, o gün gördüyü döydü. Qız yaman qorxur.

Döy deer:

– Ay qız, aç qapını. Qardaşıngil sənə mənnən üzüh göndərif.

Qız qapını aşmer. Döy deer ki, qapını aşmersan, onda haçarın deşih yerinnən barmağınıın birini çıxart, görəh üzüh barmağınıa olurmu. Qız döyə inanıf barmağını deşihdən o biri tərəfə çıxarder. Döy tez qızın barmağını ağzına alıf onun qanını sourmağa başdeer. O qədər sorur ki, axırda qız özünnən geder. Döy də qızı ölmüş bilif qayıdıf geder. Qardaşdar oydan qayıdellar. Gələndə görüllər kin, qapı bağlıdı. Qardaşdar deer ki, görən bajımız harya gedif. Kiçih qardaş aynadan içəri tüşür. Görür kün, bajısı yıxılıf yerə. Tez bajısını qucağına alıf krəvətin üsdünə qoyur. Sonıra da qapını açıf qardaşdarını çağırer. Qardaşdarı gəlif içəri keçəndə görüllər bajıları özünnən gedif. Tez bajılarının üzünə su-zad vuruf ayıldellar. Qız başına gələn əhvalatı qardaşdarına söylüyür. Qardaşdarı deer ki, yaxşı, döy, gör indi biz sənin başına nə oyun açajıyıx. Qardaşdar belə fikirrəşellər ki, döyü qonax çağırsınnar. Döyü qonax çağırellar. Qardaşdar qapının ağzında dərin quyu qazdırellar. Üsdünə də xalı salellar. Döy gəler. İçəri keşməh isdiyəndə xalıynan baravar quyuya tüşür. Qardaşdar bajılarının intiqamını döydən alellar. Döyün üsdünə daş, torpax atellar. Döy ölür. Qardaşdarı bajısına tafşırellar ki, heçavax bu quyunun üsdünə su tökmə. Qız deer kin, yaxşı, heçavax tökmərəm.

Bir gün qız saçını yuuf suyunu quyunun üsdünə tökür. Bir gün qız görür kün, bu quyunun üsdünnən yeddi dənə gül çıxer. Qız gülləri qopardıf içəri gətirer, gül qavına qoyur. Eşiyə çıxer ki, su gətirif güldana tökə. Eşiyə çıxıf içəri girəndə görür kün, güllərin yeddisi də yeddi qız oluf. Qardaşdarı qayıdanda görüllər ki, öylərində yeddi qız var. Bajılarınnan soruşullar ki,

bu noolan işdi? Qız deer ki, siz mənə dediniz quyunun üsdünə su tökmə. Mən də bilmədim, başımın suyunu tökdüm ora. Ordan da yeddi gül çıxdı. Mən də onnarı yığıf güldana qoydum. Getdim su gətirif güldana töküm. Eşiyə çıxıf, içəri girəndə gördüm kü, bu yeddi gül yeddi qız oluf. Qardaşdarı bajılarını dannıyıllar ki, axı biz sənə dedih ki, ora su tökmə.

Qız deer:

– Zərəl yoxdu. Bu yeddi qızın hərəniz birini alın.

Qardaşdarı bu qızdarı alellar. Bir gün bu qızdar qıza baxıf deellər ki, gəlin bu qıza ilan, qurvağa yidirdəh, qarnı şişsin, biz də deyəh kin, belə-belə, bajınıız pis qızdı, boylu çıxıf. Bunnar qıza zornan ilan, qurvağa yidirdellər. Qızın qarnı şişer. Qardaşdar oydan qayıdanda görüllər kin, bajılarının qarnı şişif. Arvatdarınnan soruşollar ki, bu nədi? Arvatdarı yalannan deellər ki, belə-belə, bajınız pis çıxıf, boyludu. Böyüh qardaş deer kin, gərəh bajımızı öldürəh, o, bizim papağımızı yerə vurdu. O biri qardaşdar da deer ki, hə, bajımızı öldürəh. Kiçih qardaş deer:

– Onu mənə verinı, qoyunı aparım meşədə öldürüm.

Qardaşdarı razı olullar. Kiçih qardaş bajısını götürüf meşiyə geder. Az gedellər, çox gedellər, gəlif meşiyə çatellar. Qardaşın bajısına yazığı gəler. Bajısına deer ki, mən səni öldürmüyjəm. Ancax səni burda qoyub gedəjəm. Oğlan bajısının köynəyini alıf öz kürkünü çıxardıf ona verer. Bir dənə quş tutur. Quşun başını kəsif qanını bajısının köynəyinə buluyur. Bajısınnan vidalaşer. Köynəyi də götürüf geder. Kiçih qardaş gəlif öylərinə çater. Qardaşdarı soruşur ku, nooldu, neynədinı, bajımızı öldürdünımü? Kiçih qardaş yalannan deer kin, hə, öldürdüm, bu da onun qannı köynəyi. Qardaşdar inanellar. Qardaşdarının arvatdarı sevinillər kin, hə, qızı da öldürtdürdüh. Yoxsa biz nə iş görsəydih, qardaşdarına xəvərriyəjeydi. Qız üş gün, üş gejə meşədə aj-susuz qaler. Həmən gün şahın oğlu atasının vəzirinnən gəzməyə çıxer. Bunnar meşiyə gəlif çıxellar. Meşənin

yanınnan ötüf keçəndə şahın oğlu şam ağacının altında qaraltı görür. Vəzirə deer kin, orda qaraltı var, gəl gedəh, görəh o, noolan şeydi. Şahın oğlu vəzirnən bir şərt kəsir. Deer:

– Əgər o qaraltı qızıldan, gümüşdən olsa, sənin$_{ı}$, adam olsa, mənim.

Bunnar razılaşellar. Gəlif şam ağacının yanına çatellar. Şahın oğlu görür kün, İlahi, burda elə gözəl qız var, elə gözəl qız var kin, taa nə deyim. Şahın oğlu bu qıza bir könüldən min könülə aşiq olur. Qızı götürüf öylərinə aparer. Qız qardaşı arvatdarının buna verdihləri ilan, qurvağanı söylüyür. Şahın oğlu ən yaxşı doxturu çağırdıf qızın qarnını təmizdəder. Qız yenə həmənki kimi sağlam olur. Şahın oğlu qıznan öyləner. Qırx gün, qırx gejə toy eliyif şaddanellar.

Bir ildən son$_{ı}$ra qızın ekiz oğlu olur. Qızın qardaşdarı həmişə bunnarın öylərinin qavağınnan oya gedirdilər. Bir gün qız oğlannarını öyrəder ki, burdan yeddi qardaş keçəjəh. Sizin hərən$_{ı}$izə bir çuvux verəjəm. Onnarı at əvəzinə minərsiz, əlinizə də bir balaja çuvux verəjəm. O da sizin qamçın$_{ı}$ız olar. Onnar sizin yanın$_{ı}$ızdan gəlif keçəndə siz o sahat kışqırıf deyərsin$_{ı}$iz, can atım, su iç. Uşaxlar belə də eliyillər. Qardaşdar gəlif keçəndə uşaxlar kışqırıf deellər, can atım, su iç. Qardaşdarın da uşaxlara qannarı qaynıyır, deellər:

– Əyə, qırışmal, ağaş da su içərmi?

Belə deyəndə böyüh qardaş atdan tüşüf uşaxların yanına gəlif soruşur:

– Siz kimin uşağısın$_{ı}$ız?

Deyəndə uşaxlar deellər:

– Yeddi dayı ərkəsiyəm, Nardanaxatın körpəsiyəm.

Uşaxlar dayılarına deellər ki, atamgil sizi qonax çağırer. Uşaxlar bunu deef də gedellər. Qardaşdar səhərsi gün bunnara qonax gəlellər. Yiif-içənnən son$_{ı}$ra yeddi qardaşın bacısı Nardanaxatın bijdihnən çayı bunnara özü gətirer. İçəri girəndə qardaş-

dar məhətdəl qalıllar kı, bu noolan işdi. Nardanaxatın köyrəlif qardaşdarını öpüf deer kin, həyə, mən sizin bajın$_{ı}$ızam. Siz o vax mənə qulax asmadın$_{ı}$ız. Arvatdarın$_{ı}$ız mənə ilan, qurvağa yidirtdilər. Mənim də qarnım şişdi. Son$_{ı}$ra da siz məni öldürəndə kiçih qardaşımın mənə yazığı gəlif, sizi allatdı kı, verin$_{ı}$ aparım, özüm bunu meşədə öldürüm. O da məni öldürmədi. Köynəyimi çıxardıf bir quşun başını kəsif onun qanına buladı. Mənnən də görüşüf getdi. Son$_{ı}$ra da mən üş gün, üş gejə orda aj-susuz qaldım. Şahın oğlu burdan gəlif keçəndə məni gördü. Son$_{ı}$ra da məni götürüf bura gətirdilər. Qarnımı da doxtura təmizdətdilər. Son$_{ı}$ra da məni şahın oğlu aldı. Onnan da mənim ekiz oğlum oldu. Dünən sizin qavağın$_{ı}$ızı kəsif qonax çağıran onnarıydı.

Qardaşdarın hamsı kiçih qardaşı öpüllər kin, çox sağ ol, yaxşı kin, sən tüşüncəli oluf bajımızı öldürmədin$_{ı}$. Əgər biz olsax, öldürmüşdüh. Qardaşdar öz səflərini başa tüşüllər. Böyüh qardaş deer kin, ras kı, bu arvatdar bizi alladıf bajımızı öldürməh fikrindəymişdər, onda onnarı öldürməh lazımdı. Qardaşdarı gedif arvatdarının hərəsini bir xam atın quyruğuna bağleellar. Atdarı da buraxellar. Bu atdar yeddi arvadın yeddisini də dağa, daşa elə çırper kı, heş bir tikə ətdəri də qalmer. Son$_{ı}$ra da qardaşdar gedif analarını gətirellər. Anası da oğullarına qəşəh qızdar tapıf öyləndirer. Qız da şahın oğlu ilə xoşbəxd olur.

**3.**

Biri varıymış, biri yoxuymuş, keşmiş vaxdı bir kişiynən bir arvat varıymış. Buların üç oğlu varıymış. Anaları hamileymiş. Oğlannarı deer ki, biz qız isdeerih. Bir gün oğlannar haryasa başqa bir şəhərə işdəməyə gedellər. Analarına deellər ki, əgər qızın olsa, qapıdan ələh asarsan$_{ı}$. Yox, əgər oğlun$_{ı}$ olsa, onda duvax asarsan$_{ı}$. Bu arvadın da paxıl bir qon$_{ı}$şusu varıymış. Günnərin bir günündə arvadın qızı olor. Qapıdan ələh aser. Paxıl qon$_{ı}$şu gəler ələyi götürör, yerinnən duvax aser. Arvadın oğlannarı gəler qıraxdan baxer görüllər ki, qapılarındakı

ələh döy, duvaxdı. Üz çevirer geder, bir meşədə özdərinə bir koma tikellər. Üş qardaş üçü də gündüz gedif hərəsi bir diyarda işdiyirmiş, axşam da gəlif bu komada yiif-içif yatellarmış.

Anası qızının adını Nərdanaxatun qoyor. Bunnarın bir dənə ala danaları varıymış. Günnərin bir günündə qızın atası rəhmətə geder. Bir az sonıra da anası rəhmətə geder. Qız bu ala daneynan təhcə qaler. Bir il keçer, beş il keçer, bir gün bu qızın ala danası xəsdələner ölör. Qız ağlıya-ağlıya aparıf bir çayın qırağında bu dananın iççalatını yüürmüş. Ona kimi gəler bu qızın başının üsdünə bir qarğa qonor. Qarğa qarıldeer, deer ki, ay Nərdanaxatun, niyə ağleersanı? Bu da deer ki, niyə ağlameem. Mənim həyatda bir anam, bir də ala danam varıydı, indi heş kimim yoxdu. Anam rəhmətə getmişdi, ala danıya meylimi salmışdım. İndi ala danam da ölüf, kimsiz-kimsənəsiz qalmışam. Deyəndə bu qarğa deer:

– Sən kimsiz-kimsənəsiz döysənı. Sənin üş qardaşını var.

Nərdanaxatun deer:

– Elə şey ola bilməz, mənim qardaşım yoxdu.

Bu deer ki, yox, var. Gəl sən bir torva dən götür, bağla mənim əyağıma. Mən göynən gedem, sən yernən. Mən aparıf qardaşdarınıın yerini göstərəjəm sanıa. Nərdanaxatun bir torva buğda dolduror, qarğanın əyağınnan aser. Qarğa göynən geder, Nərdanaxatun yernən geder. Az geder, üz geder, dərə-təpə düz geder. Geder bir meşənin içində, bir biyavannıxda bir dənə daxmıya rasd olor. Qarğa deer ki, bu səninı qardaşdarınıın öyüdü. Nərdanaxatun girer öyə görör ki, həqiqətən burda üş yatax var. Nərdanaxatun bu öyü-eşiyi siler-süpürör, yiməh pişirer, yiir-içer, ojağı da isdi eleer, yiməyi-işməyi də hazır qoyor. Axşam qardaşdarının gələn vaxdı qaçer gizdəner ki, bir müddət belə keçirem, göröm həqiqətən bular mənim qardaşdarımdımı. Qardaşdarı gəler görür kü, öy-eşih silinif-süpürülüf, yüülüf, yığılıf, yiməh pişif. Bular yiir, yatışellar. Deellər, görən bu nə sirdi. Bu

minvalnan bir müddət Nərdanaxatun belə keçinir. Bu qardaşdarın da bir dənə pişiyi varıymış. Gərəh kim ağzına nə alsa, bu pişiyə də vereymiş. Bunu da Nərdanaxatun bilmermiş. Bir gün gənə qardaşdarı çıxıf işə gedənnən sonıra Nərdanaxatun girer, öyü-eşiyi siler, süpürör. Qardaşdarının yerini yığanda bir dənə kişmiş taper. Pişih görör bunu. Bu kişmişi götürör, ağzına tulloor, pişiyə vermer. Pişih geder peçin içinə girir də, çişşş eleer, peçi keçirer. Nərdanaxatun indi qaler vay-naçar. Nə qədər axdarer, gəzer, köz tapa bilmer. Nərdanaxatun baxer görür kü, uzaxdan bir öydən tüsdü gəler. Sən demə, bu da bir döyün öyüymüş. Nərdanaxatun geder burdan köz gətirer. Gətirer, ojağı qaleer. Sən demə, qızın civində sap olsun. Sap tüşüf orya, uju keçif bir ağaca – divin ojağının qırağında. Tağalax[65] dığırrandıxcax, bu gəldihcə sap çözdənsin[66], qalsın. Uje qardaşdarı qızın burda olduğunu bilellər, bunu pusollar. Bu da açer söylüür. Deer ki, mən Nərdanaxatunam, bajınıızam. Döy bu sapı yığa-yığa gəler. Bir gün qızın qardaşdarı işə gedənnən sonıra gəler görür ki, qız öydə təhcədi. Qardaşdarı da həmeşə Nərdanaxatuna tafşırermışdar ki, qapıyı bağla, biz gəlməmiş qapıyı açma. Döy gəler, çağırer Nərdanaxatunu. Deer ki, barmağınıın birini qapının deşiyinnən çıxart, mən soyurum gedem. Çıxartmasanı, qardaşdarını gələn kimi parça-parça eliyəjəm. Qızın əlləci kəsiler, döy qardaşdarına dəyməsin deyə barmağını çıxarder, döy bunun barmağının qanını soyuror, soyuror, geder. Bir gün belə, iki gün belə. Qardaşdarına demer ki, döy qardaşdarını yiməsin. Bir gün də div qızın barmağının qanını o qədər soyuror ki, qız yıxıler burda, özünnən geder. Axşam qardaşdarı gəler. Nə qərtə qapını itəleer, nə qədər çağırellar, görüllər Nərdanaxatun yoxdu. Qapıyı qırıf içəri girəndə görüllər ki, qız özünnən

[65] Tağalax – burada: sapın dolandığı əşya, halqa
[66] Çözdənsin – açılsın

gedif. Bunu ayılder eliyillər. Deellər ki, san$_ı$a noldu? Qız açer söylüür ki, belə-belə. Qardaşdarı deer ki, indi sən qorxma. Biz ona tələ qurajeyıx. Bunun qardaşdarı qapının ağzında dərin bir quyu qazellar. Bunun üsdünə də nəzih bir şey atellar ki, qoy div gələn kimi quyuya tüşsün, quyuda divi öldürəh. Bular özdəri də öyün dörd bir yanında pusquda durollar. Döy gəler:

– Adam-badam iysi gəler, şakqıdı badam iysi gəler. Ay qız, tez barmağın$_ı$ı çıxart – deyə-deyə gəler.

Qapının ağzına çatanda birdən nəriltiynən bu quyunun divinə tüşör. Bu qızın qardaşdarı çıxellar bu döyü öldürməyə. Döy deer ki, məni öldürmüyün$_ı$. Mən hansın$_ı$ıza tüpürsəm, daş olajaxsın$_ı$ız, hansın$_ı$ıza nəfəsimi versəm, qoyun olajaxsın$_ı$ız. Obşim, isdiyillər ki, bunu öldürələr. Ona kimi bu döy bulara nəfəs verer, bu üş qardaşın üçü də qoyun olor. Döy də qaler bu quyunun divində, çıxa bilmer, burda ölör. Qız ağlıya-ağlıya bu qoyunnarı qavağına qater, hər gün aparıf otarermış. Bir gün də yolnan getdiyi yerdə əli çomaxlı ağsakqal bir kişiyə rasd olor. Deer:

– Ay qızım, niyə ağleersan$_ı$?

Deer ki, belə-belə, bax mənim başıma belə bir iş gəlif. Mənim qardaşdarım döyü öldürördülər. Döy də qardaşdarıma tüpürdü, döyün nəfəsinnən qoyun oldular. İndi mənim bunnardan başqa heş kimim yoxdu, mən də başımı götürüf buları apareram bir başqa ölküyə. Aparem bularnan günümü keçirem.

Allah-taala göndərifmiş bu adamı munun qavağına. Kişi Nərdanaxatuna deer ki, sən gözün$_ı$ü yum. Nərdanaxatun gözünü yumor. Bir dəfə əlindəki ağaşnan böyüh qardaşının beli uzunu çəker, ağaşnan möhkəm vuror. Vuranda bu dönör olor adam. Əmbə qıza deer ki, mən vuranda sən "of" demə. "Of" desən$_ı$, qardaşın$_ı$ yarıdan aşağı daş olajax. İkisində gözünü yumor, baxmer, üçüncü qardaşında dözə bilmer, gözünün altınnan baxer. Munu çomaxnan vuranda bir dəfə "of" eleer. "Of" eliyən kimi qardaşı qurşaxdan aşağısı daş olor, uxarısı insan olor. Bu adam

da qeybdən gəlifmiş, qeyb olor. Bunnar bu daş qardaşdarını da götürör aparellar, ömrü boyu onu saxleellar. Göydən üç alma tüşdü. Biri nağıl söylüyənin, biri qulax asanın, biri də mənim.

## 4. QILLICA

Biri varıymış, a qızım, biri yoxuymuş. Bir arvat varıymış, bir kişi. Buların var-yox bircə qızı varıymış. Bu arvat ağzı yanmış, sən demə, paltarrarını tihdirdikcə qızın üsdündə tihdirər, yığarmış. Ölümünü bilermiş dana. Günnərin bir günündə bu arvat azarreer ölör. Bunun qırxı çıxannan son$_ı$ra kişi arvat almax isdiyir. Harya, hası məmləkətə gedersə, paltar heş kimin əyninə olmor. Qayıder gəler. Bir gün oturollarmış. Deer:

– A qızım, dur anan$_ı$ın paltarının bir dəsini geyin göröm, san$_ı$a hancarı duror. Sən boyda qız alem.

Bu duror geyiner. Geyinəndə görör kün, pah, qızın üsdədi hamısı. Birəz kişi köpöyoğlu fikir eleer. O zamana belə zamanaymış. Deer kin, yaxşı, bu paltarda əməl yoxdusa, niyə qızın üsdündə tikdirif? Öz-özünə deer, arvat özü qızın üsdündə tikdirif kin, qızı alem. Təzdən bu kişi buna deer:

– A qızım, gə san$_ı$a bir söz deem.

Deer:

– Ay dədə, de. Niyə demersən$_ı$?

Deer:

– A qızım, gederəm kəfinimizi[67] kəsdirəm.

Deer:

– Nə deersən$_ı$, ay dədə?

Deer:

– A bala, mən səni alajam, daa keçif, paltar sənin$_ı$ üsdün$_ı$dədi.

[67] Kəfin – kəbin

Onun paltarı da qənöüzüymuş[68], zər vaveymış[69]. Bu kişi munnan əl çəhmiyəndə qon$_ı$şularında bir gənəşək[70] qarı varıymış. Qız yüyürür geder munun yanına. Deer:

– Ay nənə, belə-belə. Dədəm bax belə deer. Mənnən əl çəhmer, mən nağayrem?

Deəndə deer:

– A bala, get arpa əliyəni də, xəlviri də ötü də dədən$_ı$ə ver, özün də bir nəhrə qur. Başını ötü geni[71]. Camahatın içinə çıxammıyjan, səni dədən$_ı$ alajax. Get özün də bir nəhrə qur, de-nən, ay dədə, qarı deer kin, bu xəlvirdə su gəlsə, kəfin tüşör.

Köpöyoğlunun da axlı kəser. Kişi köpöyoğlu xəlviri yötürör bulağa tələser. Xəlvir dolarmı? Üş gün çalışer, dolmor. Qız gözünə döndüyüm təmiz nə ki al-şal var, hamısını üsdünə geyiner, üsdünnən də bir keçi dərisini geyiner, əlinə də bir hasa aler, haydı. Az geder, üz geder, oğul, üş gün geder, beş gün geder, bir rahat yer taper. Geder bir çayın küllüyündə yater qıllıcada. Savax qaravaşdar kül töhməyə gələndə görör burda bir qıllıca yater. Yüyürör geder xanıma deer:

– A xanım, belə-belə, burda bir qıllıca yater küllühdə.

Deer:

– Nə danışersan$_ı$?

Deer:

– Allah hakqı, bir qıllıca yater. Adamdı deer, əmə qıllıcadı.

Bu qaravaşdara deer kin, gedin$_ı$ sürüyün də itin yanına bağlıyın$_ı$. Bular gəler munu çəker də itin yanına bağleellar. İt mırıldadıxcax bu geri çəkiler, it mırıldadıxcax bu geri çəkiler. Qaravaş yüyürör geder, deer:

---

[68] Qənöüz – qanovuz, parça növü
[69] Zər vava – zərxara
[70] Gənəşək – məsləhət
[71] Geni – uzaqlaş

– A xanım, vallah, elə yazığımız gəler ki, it mırıldadıx-cax bu geri çəkiler.

Deer:

– Gedinı açını, buraxını itin yanınnan, qoyunı qapıda-bajada hərrənsin. Artığınıızdan-urtuğunıuzdan da aparını verinı, yazıxdı.

Bir gün belə, beş gün belə. Buların bir balaca damı varıymış. Geder gejə orda yatermış. Günüzü də duruf hərrənermiş. Bu qız da, deer, elə göyçəhdi, elə göyçəhdi, Aya deer, sən doğma, mənəm, Günə deer, sən çıxma, mənəm. Göyçəh uşaxdı, deer, yaraşıxlı.

Bir gün bu qaravaşdar qaynar aser[72]. Bulara köməh eleer, yüür-eleer. Əynindəki də qıllıcadı. Qorxusunnan əynindəki dəriyi çıxardammer. Deer kin, siz Allah, manıa tavax da verinı, savın da verinı. Gedem çayda qaynar asem, paltarımı yüyüm, çimem, yazığam. Can-can, a yazıx. Bular xanıma deellər. Xanım deer ki, verinı. Sən denən, pəççahın oğlu getsin də bağda gizdənsin də, buna tamaşa eləsin. Pəççahın oğlu yörör kün, ya yaradan Allah, qız qıllıcıyı soyunuv orya tulluyanda dünyə-ələmə şux saldı. Bu qız yaxça paltarını yüyür, çimer, arıxlaner, duruxlaner, saçı kürəyinin arasınnan darıyer tökör. Pəçcahın oğlu muna vurulor. Gəler anasına deer kin, ay ana, aş pişir də, manıa Qıllıcadan yolla.

Deer:

– Bala, qıllıca nədi? Qıllıcanın əlinə şeymi verəllər?

Deer:

– Sanıa deerəm, onnan yolla.

Bular axşam yiməyini pişirer. Xanım oğlunun yiməyini qaravaşdardan yolluyur. Anadı dana, ürəyi əlmer, deer, qara-

[72] Qaynar aser – çayın qırağında qazan asıb paltar yuyur.

vaş nədi, mənim oğluma yiməh aparmax nədi. Oğlu yiməyi qaravaşın əlinnən aler da deer:

– Apar munu anamın başınnan tök. Manıa yiməyi Qıllıcadan yolla.

Arvadın əlaci kəsiler də, oğul, muna yiməyi Qıllıcadan yolluyur. Xanım gətirer aşı verer, Qıllıcıya deer ki, apar ver şahzadiyə. Xanım əmə munnan şüphüyə tüşör. Deer:

– A bala, bu nə sirridi, qoyun görəh. Pusunı, əmə görünı, bu nağayrajax?

Qıllıca başında sini edəndə oğlan ciyəri yanmış oynuya-oynuya gəler də siniyi qızın başınnan alıf yerə qoor. Deer:

– Dəriyi soyun. Dəri nədi geyinifsənı?

Deer:

– Qorxumnan geyinmişəm.

Soyunduror, taxdın altda tulluyur. Oturollar, qızın işığına gülüşə-gülüşə çörəh yiillər. Başına ələni qız söylüyür. Oğlan deer:

– Hə, indi mən anama-atama deyəjəm, bizə toy eliyəjəylər ha, bax toynan aleram səni.

Deer ki, noolar. Qaravaşdar artıxlarını yığıflarmış, gözdüyüllər, Qıllıca əlmer. Bir də xanım deer ki, a bala, gedinı görünı bu kopaqqızı nijoldu? Xalxın uşağını öldürəllər birdən. Qaravaşdar gəlif göröllər pəçcahın oğlu bir göyçəh qıznan qavax-qavağa oturuf yiməh yiillər, Qıllıca da taxdın altda yater. Yüyürör geder deer:

– Ay xanım, öyünı yıxılmasın, Qıllıca taxdın altındadı, oğlun da bir qıznan çörəy yiir ki, dünyə-ələmə şux salıf.

Tökülüf gələndə öröllər həqiqatan gerçəhdi. Təzdənnən qırx gün, qırx gejə pəçcah oğluna toy çaldırer.

Ay, il keçənnən sonıra munun bir oğlu olor. Munun adını qoollar Məhəmmət.

Bu dədəsi köpöyoğlu gələndə örör, Allah, qız nəəzer[73], qaçıf. Əəğına dəmir çarıx geyiner, əlinə dəmir hasa aler, elvə-el tüşör. Gəler, gəler buların qapısına çıxer. Qaravaşdar da eşihdə çörəh pişirermiş. Bu da samavarın qırağında çay qaynadermış. Köpöyoğlu qızı tanıyır. Deer:

– Məni qonağ eliyərsin$_{ı}$izmi?

Deellər:

– Qonağ Allah qonağıdı, niyə eləmirih? Ağız, orya isdol qoyun$_{ı}$.

Oturollar, bu kişi çörəh-çay yiif-içənnən son$_{ı}$ra bu qız deer:

– O kişiyi qonağ eləmiyin$_{ı}$.

Qız tanıyır. Deəndə pəççah deer:

– A bala, qonağı qapıdan qualamax olarmı? Qonaxdan ziyan gəlməz.

Deer:

– Yox, onnan ziyan gələjəh.

Mümkün olmor. Qaler köpöyoğlu gejə. Yatellar. Savağ olor. Uşax da beşihdədi. Qız geder hər şeyi arxeyınneer gəler, deer:

– Gözdəriyin qadasını alem, Məhəmmət, dursan$_{ı}$.

Görör durmor. Gəler yorğanı qaldıranda görör, Məhəmmədin yeri qandı. Burdan da gejə kişi duruf uşağı boğazdıyıf, qannı puçağı da qızının civinə qoyuf.

– Ay munu kim elədi?

Qız deer:

– Bax, o qonax kişi eliyif – demer ha dədəmdi – Sizə dedim ki, qonağ eləmiyin$_{ı}$. Niyə qonağ elədin$_{ı}$iz?!

Bu köpöyoğlu deer:

---

[73] Nəəzer – nə gəzir

– Gəlinı civ gəzəh – gör, fəndə bax, – hər kimin civinnən qannı pıçax çıxsa, o öldürüf.

Civ gəzellər, ananı ölsün, qara geymişin civinnən pıçax çıxer. Aha.

– A bala, niyə öldürüfsənı?

Ağleer, özünü öldürör, ant bu, Quran bu, mən eləməmişəm. Ağleer, saçını yolor. Pəççah deer ki, olmaz, pıçax civindəydi. Ətirer də bir eşşəyin gözünü oyollar, gəlinin də gözünü oyollar, bir xurcun da azıx[74] qoyullar, çörəh, yuannıx[75] – hər şey dana. Munu eşşəyə mindirellər, çağıyı da qucağına verellər, deellər ki, haana edersənı, get. Çıxardellar dana. Bu dənizin qırağınnan ağlıya-ağlıya gedhagetdə, elə dənizə baterdı kı, bilmer dana, gözü yörmör. Fida olom sanıa, Allah, yeddi dənə məleykə çığırer:

– Ay qız, gəlmə, gəldih. Ordaja dur, eşşəyinıi əylə.

Məleykələr gələndə başına ələni danışer. Deer ki, bə belə-belə oldu. Məleykələr bəyaxdan bir əlini çəkellər oğlanın boğazına, onu sağaldellar, bir əlini çəkellər, qızın gözü sağaler, bir əlini də çəkellər, eşşəyin gözünü sağaldellar. Sonıra deer:

– A bala, bax bu dənizin qırağınnan bir cığır geder. Bu cığırnan get, bir meşiyə çıxajanı. O meşənin içində naxırçı var. Ona rast gələjənı. Onun da bircə anası var. Aparsa, getginən, indi görəh axırı noolor.

Qız razılığ eleer. Bu yazıx oturor, çörəh-zad yiir. Eşşəyi də otduyur, gədə də oynuyur yanında. Göyənəyiymiş[76], oturormuş meşənin qulağında. Bir də baxer, oannan bir cavan oğlan çiynində çuvux bəri çıxdı.

– Salamməlöyküm.

– Əlöykəsalam.

---

[74] Azıx – azuqə

[75] Yuannıx – yavanlıq

[76] Göyənəy – çəmənlik, göy otluq

Bunnan xavar aler kın, ağız, sən hara, bura hara, haralısanı, nə inni-cinnisənı? Bu da başına ələni söylüyür, ələci nədi. Oğlan götür-qoy eleer, deer:

– Mən səni alajam, öylənəh.

Qız razılaşer, ələci nədi. Təzdənnən oğlan munu aparer öylərinə. Munu aler. Bu pəçcaha xavar geder ki, öyün yıxılmasın, səninı gəlininı filan dağın başındadı. Pəçcah qəzəflənər:

– Nə danışersanı?

Xavarçı deer:

– Allah hakqı, oğlunı da yekələnif, mal hayleer. Gəlin də yaxça geder-gəler. Oğlanın da bircə anası varıydı, o da ölüfdü.

Qızın əri – pəçcahın oğlu başına beş-altı atdı yığer, az gəler, üz gəler, dərə-təpə düz gəler. Düz gəler buların qapısına çıxer. Qapıya çıxanda görör həmən gəlindi, həmən oğlandı. Əri də naxırdadı. Munnan danışer, deer ki, belə-belə gedərsənımi?

Qız deer:

– Qurvan da olaram.

Təzdənnən pəçcahın oğlu oğlunu da, munu da götürör də, haydı. Naxırçı gələndə görör heş nə yoxdu.

Gətirer təzdənnən qurvan kəser, burda yaxça yaşeellar. Bu belə.

## 5. SƏBİR DAŞI, QUM BIÇAĞI

Keşmiş zamanda bir ər-arvat varıymış. Bunnarın bir qızdarı varıymış. Bu qız həmişə eşiyə çıxmağa həsrətiymiş. Havax eşiyə çıxırmış dağların arxasınnan belə bir səs-səda gəlirmiş:

– Ay qız, yaxşı qızsanı, xub qızsanı, hayıf ki, bir ölüyə qismət olajanı.

Bir gün belə, iki gün belə. Axırda qız bu əhvalatı anasına söylüyür. Nəhayət, belə razılığa gəlillər ki, elə bir yerə köşsünnər ki, bu xatadan uzaxlaşsınlar. El-el, oba-oba gedif bir çöllü-biyabannığa çıxıllar. Görüllər burda bir öy var. Atası

gedif qapını itəliyir, qapı açılmır, anası da itəliyir, qapı açılmır. Axırda qız qapını itəliyəndə açılır. Qız içəri keçəndə qapı bağlanır. Nə qədər itəliyir, açılmır. Ana-atası çöldə, qız da içəridə ağlaşıllar. Atası deer ki, gör otaxda nə var? Qız otuz dokquz otağın qapısını açır görür ki, heş nə yoxdu. Qırxıncı otağı açanda görür ki, bir oğlan yataxda uzanıf. Oğlan o qədər gözəl oluf ki, yimə, işmə, xətti-xalına, gül camalına tamaşa elə. Qız görür ki, oğlanın baş tərəfində yazıflar ki, hər hansı bir qız qırx gün bu oğlanın çivinini qorusa, o ayılıf həmin qızı alajax. Qız əhvalatı atasına danışır. Ata-anası ağlaya-ağlaya geri qayıdır. Onnar gedənnən sonıra qapı açılır.

Qız otuz dokquz gün oğlanın çivinini qoruyur. Otuz dokquzuncu günü qız fikirrəşir ki, başını-zadı yusun. Qapıya çıxır. Görür ki, yolnan köç gedir. Həmin köçdə bir qaraçı qız olur. Qıza yalvarır ki, mən başımı yuyana qədər bu oğlanın çivinini qoru. Qız başını yuuf gələnə kimi oğlan asqırıf ayılır. Oğlan görür ki, bunun çivinni qoruyan bir çirkin qaraçı qızıdı. Soruşur ki, sənmi qırx gün mənim çivinimi qoruyufsanı?

Qız deer:

– Hə.

Oğlan həmin qızı alır. O biri qız gəlir görür ki, oğlan ayılıf, qaraçı qızını alıf. Daha heş bir söz demir. Qaraçı qız bu qızı özünə qulluxçu götürür.

Bir gün oğlan başqa bir şəhərə gedir. Qaraçı qızı oğlana tafşırır ki, manıa yaxşı paltarrar alarsanı. Oğlan qulluxçunun yanına gəlif soruçur:

– Bə sanıa nə alım?

Qız deer:

– Manıa savır daşı, qum puçağı.

Oğlan gedir arvadının dedihlərini alır. Sonıra da qulluxçusunun dediyini almağa gedir. Bunu alanda tükançı deer ki, sən bunu neynirsənı? Bunnarı kimə alırsanısa, ona göz qoy. O,

özünü öldürə bilər. Oğlan şeyləri alıf öyə qayıdır. Qaraçı qızı nazdana-nazdana əri aldığı şeyləri alıf geyinif soyunur. Oğlanın fikri o biri qızın yanındaydı kı, görüm qız bunu neyniyir. Oğlan aldığı şeyləri qulluxçu qıza verif onu güdür. Qız puçağı götürüf başqa otağa keçir. Gədə də onu güdür. Görür ki, qız səvir daşınnan pıçağı götürüf, puçağı daşa sürtə-sürtə deer:

– Mən bir qızıydım, öyü-eşiyi yığıf yığışdırannan son$_{ı}$ra qeyifdən bir səs eşidərdim. Yaxşı qızsan$_{ı}$, xub qızsan$_{ı}$, hayıf ki, bir ölüyə qismətsən$_{ı}$. Anam, atam mənim dərdimnən eldən, obadan ayrı tüşdüh. Gəlif bu elə rast oldux. Atam, anam qapını nə qədər itələdilərsə, qapı açılmadı. Mən itəliyən kimi qapı açıldı. İçəri keşdim, o dəyqə də qapı örtüldü. Nə qədər elədimsə, qapı açılmadı. Ata-anam kor-peşman öz yerrərinə qayıtdılar. Mən bu öydə oğlanın meyidinə rast gəldim. Mən onun otuz dokquz gün nazını çəkdim. Qırxıncı gün başımı yüməyə getdim, qaraçı qızıynan rasdaşdım. Onu gətirif meyidin yanında qoydum. Oğlan ayılıf qaraçı qızını başının üsdündə görüf onu aldı, elə bildi ki, qaraçı qızı onun çivinini qırx gün qoruyuf. Səvir daşı, qum puçağı – deef qız özünü öldürməh isdiyəndə oğlan içəri girif pıçağı onun əlinnən alır.

Qırx gün, qırx gejə toy eliyif həmin qızla öylənir. Qaraçı qızını da qatırın quyruğuna bağlıyıf öydən qoalıyır. Son$_{ı}$ra da qızın ata-anasını öz yanına gətirif şad-xürrəm yaşıyıllar.

## 6. MƏLİKMƏHƏMMƏDLƏ MƏHƏMMƏD

Bir arvadın uşağı-zadı olmormuş. Arvat fikirrəşer. Bir dərviş gəler deer:

– Ay arvat, niyə belə qəmginsən$_{ı}$?

Deer:

– Belə-belə, uşağım olmor, ona görə.

Deer:

– San$_ı$a bir alma verəjəm, bir cüt uşağın$_ı$ olajax, biri sənin$_ı$, biri mənim. Razısan$_ı$?

Arvat deer ki, razıyam. Dərviş almanı verer, çıxer geder. Almanın parasın arvat, parasın da əri yiir. Buların bir cüt uşağı olor. Arvat uşaxların birinin adını Məhəmmət, o birinin də adını Məlikməhəmmət qoyor.

Oğlannar iriləşer, yeddi yaşında məytəvə gedellər. Məytəvə gedən vaxdı dərviş gəler. Arvat görör ki, dərviş gəler. Yüyürür də iki dənə uzun daş götürür, cındaya[77] pükör də, gətirir yürgəyə[78] qoyur, yürgəliyir[79].

Dərviş gəler deer:

– Mənim uşağımı ver, mən aparım, sənin$_ı$ki də sənin$_ı$.

Arvat deer:

– Mənim uşağım olmadı, ode, o iki daşdı.

Deer:

– Ay arvat, dəlisən$_ı$-nəsən$_ı$, mən bilirəm də uşaxlar hardadı, gətir.

Arvat deer:

– Vallah, yoxdu.

Dərviş oxuyur, üfürür, əyağın yerə vurur, uşaxlar ikisi də məytəvdən yüyürmə yanına gəler çıxer.

Deer:

– Arvat.

Deer:

– Hə.

Deer:

– Arvat, indi mən bunun ikisini də aparajam. Sən deerdin$_ı$ belə, sənin$_ı$ balan ode, yürgəhdədi.

---

[77] Cında – cındır, köhnə paltar

[78] Yürgəyə – beşiyə

[79] Yürgəliyir – beşiyi yelləyir

Dərviş bunun ikisini də götürör çıxer yola. Bir qədər aparannan sonıra dərviş deer:

– Ay uşaxlar, bir iş var, iki əməl.

Uşaxlar deer:

– Nədi?

Deer:

– Yazıxdı ananıız, biriniz qayıdını, birinıiz mənnən gedin.

Qavax olan uşax böyüh hesav olunur, sonıra olan kiçih hesav olunur. Axır ki, böyüh geder, kiçiyi qayıder. Məhəmmət geder, Məlikməhəmmət qayıder. Yiyəsizdihdə, biyavannıxda bir dənə imarətə gəlellər. İmarətin içinə qoyur dərviş bunu. Hər şeyi yanına qoyur, deer:

– Yi.

Dərviş apardığı uşaxları kökəldər, yiərmiş. Gədə on səkgiz yaşına çater. Bir gün bu dərviş geder. Duror da deer:

– Bu otaxları gəzim.

Otaxların haçarrarının yerini bilermiş, haçarnan açа-aça, gəzə-gəzə geder, birində yəhər, birində aftafa, birində ülgüş, birində yaxşı geyim paltarı – hər şey dana, qırx otağın hərəsində bir şey. Axırıncıya gedəndə görör ki, ayə, bir qatırdı, bir qara at, ikisi də yanaşı bağlanıf. Qatırın qavağında xurma, kişmişdi, qara atın qavağında sür-sümühdü. Duror qatırın qavağınnan xurma, kişmişi yığer, qara atın qavağına tökör, sür-sümüyü qara atın qavağınnan yığer, qatırın qavağına tökör. At dilə gəler, deer:

– Məhəmmət.

Deer:

– Hə.

– Bilersənımi nə var?

Deer:

– Nə var?

Deer:

– Dərvişin səni öldürməyinə ikijə-üççə gün vax qaler. İndi o yəhərrəri gördün$_ı$mu?

Deer:

– Hə.

Deer:

– O yəhərrərdən birini gətir mənim belimə vur. O paltarın bir dəsini geyin, al qaşqıyı[80] əlin$_ı$ə, xurcunu doldur, aftafanı, o ülgüşdən bir neçəsini götür, bu yanıya qoy, iynə götür. İndi biz qaçajıyıx, bax bu qatırı dərviş bizim dalımızca salajax. Qatır dalımızdan çatanda bizi tutuf öldürəjəh. Gördün$_ı$ ki, dərviş dalımızdan çater, o zaman bilersən$_ı$ nağayr, iynəni at. Elə at ki, iynənin dal tərəfi bizə tüşsün, uj tərəfi olara tüşsün. Qatırın əyağına batajax iynə, onu çıxardınca biz bir mənzil qaçajıyıx genə. Genə qaçajax, bu səfər ülgücü at, qatırın əyağını kəsəjəh ülgüş, onu çıxardınca biz genə uzaxlaşajıyıx. Axırda aftafıyı at, əmə elə at ki, aftafanın ağzı olara tüşsün, dal tərəfi bizə, dərya əmələ ələjəh, olar qalajax, tay biz arxayın gedəjiyih.

Deer:

– Yaxşı.

Bu qayda eleer. Eliyənnən son$_ı$ra aftafanın ağzı tərsinə bulara tüşör, g...ü dərvişə tüşör. Dərya əmələ gəler.

Deer:

– Məhəmmət, o qamçıynan belimə elə çək ki, zolu çıxsın, atılajam dəryıya, Allaha təvəkkül.

Atıler dəryadan keçer, taa dərviş keçə bilmer, qayıder geder. Bular gedir bir meşəliyə. Meşəlihdə qara at deer:

– Məhəmmət.

Deer:

– Hə.

Deer:

[80] Qaşqa – burada: qamçı

– Mənim tükümnən götür, harda çətinə tüşdün$_ı$, tükümnən yandır, orda yanında hazır olajam, məni də burax bu meşədə, göy çəmənnihdə otduyajam.

Atı bıraxer göy çəmənniyə, geder. Meşədə gəzə-gəzə gedəndə görör ki, bir dənə çinar var. Çinarın başında quş yuvası, içində də quş balaları var. Bir ilan da ağaca dırmaşer, quşun da balaları orda çırpışer. Zümrüt quşu deellər o quşun adına. Qılıncı sıyırer da, ilanın boynunu vuror, leşini də quşun balalarına verer. İlanın başını quşun balalarınnan biri saxleer. Anası gələndə görör ki, ə, ağacın dibində bir oğlan yatıf. Yeddi-səkgiz ilmiş ki, Zümrüt quşunun balalarını o ilan yiirmiş. Deer:

– Ay Xudavəndi-aləm, nə yaxşı tafdım mənim balalarımın tüşmanını. Gedim bir dəyirman daşını qanadımın üsdünə qoyum, gətirim bunun başına salım, öldüröm.

Zümrüt quşu geri qayıdanda balaları bağrışer, deellər ki, bəri gəl. Gəler.

Deer:

– Nədi?

Deer:

– Bax bizi bu ilan öldürördü, bu oğlan ilanı öldürdü, ətini bizə verdi, indi tüşmanımız yoxdu. Bu, sənin balalarını saxlıyıf, harya gedirsən$_ı$?

Zümrüt quşu gəler, Məhəmmədin başının üsdə duror. Gün tüşörmüş üsdə, qanadın belə sərer, kölgə tüşör oğlanın üsdə. Oğlan oyananda görür ki, başının üsdə yekə bir dağ var. Duror ki, qaşmağa. Quş arxadan deer ki, ayə, a Məhəmmət, qaşma, bəri, yanıma əl. Gəlir.

Deer:

– Yeddi ildi mənim balalarımı bu ağacın başında öldürördülər, yiirdilər. Elə bildim ki, sənsən$_ı$. İndi balalarım dedi, belədi. Bunun birini san$_ı$a verəjəm. Bunun biri bir qoşunun qavağıdı, san$_ı$a köməh eliyəjəh.

Quş balasının birin Məhəmmədə verer. Məhəmmət gedər. Atın tükün yandırer, at gəler. Quşa deer ki, get atnan gəz, mən nə vax çağırsam, gəlin$_{ı}$. Quş atnan geder, gəzellər. At otduyur, quş da ağacın başında yemnən-yümnən tapar, yiər.

Məhəmmət genə meşəynən geder gəzer. Görör ki, bir dənə aslan elə inildəner, elə inildəner, nətəri. Buna yazığı gəler. Baxer görör ki, bunun əyağının altına bir yekə çökür[81] batıf, yaradı, irinniyif, şişif dayna, ona görə belə incider. Yavaş-yavaş yaxına geder də, beyqafil o tikanı çəkəndə yarası tökülüf axer. Məhəmmət qaçer ki, aslan bunu yiəjəh. Qaçanda aslan deer ki, ayə, a Məhəmmət, qaşma, diyan, burə əl. Məhəmmət gələndə aslan deer ki, balamın birin san$_{ı}$a verəjəm, tafşırajam. Bir qoşunun qavağıdı, apar saxla yanın$_{ı}$da, san$_{ı}$a heş kim heş nə eliyə bilməz. Bunu da aparer atın yanına.

Məhəmmət geder çıxer bir padşahın torpağına. Padşahın torpağında o yana-bu yana baxer, deer:

– Ay Allah, mən neyniyim, nökər gedimmi, yoxsa nağayrım?

Padşahın bağmanı varmış. Gəler onun yanına, deer ki, ay bağman, məni oğulluğa götürərsən$_{ı}$mi?

Deer:

– Götürrəm.

Bağmanın da uşağı-zadı yoxmuş, bunu götürər oğulluğa. Bağda bunnan baravar bu da işdeer. Bir az işdiyənnən son$_{ı}$ra görör ki, ayə, bağın içində bir tikili var, ətrafına əppənəndə[82] görör ki, ayə, bu, hamamdı, padşahın qızdarının çimməh yeridi. Öyrəner ki, hası günnən hası günə padşahın qızdarı gəlif burda çimer.

---

[81] Çökür – tikan

[82] Əppənəndə – hərlənəndə

Əyə, bir şey yadımnan çıxıf, qoy onu deyim. Qavaxcadan Məhəmmədi suya salmışdılar, ağ suya salmışdılar, olmuşdu ağappağ, qırmızı sudan yanaxlarına vurmuşdular, qara suynan da saşdarın yumuşdu, saşdarı elə parıldaşerdı ki, elə gözəl bir oğlan olmuşdu ki, şoxu salerdı. Bağmanın yanında da nökər duranda başına bir qoyun dərisi keçirmişdi. Elə bilerdilər ki, bu, keçəldi. Hamı da buna keçəl deerdi.

Həə. Bu öyrəndi ki, kiçih qız hası hamamda çiməjəh, ortancıl qız da hasında, böyüh qız da hası otaxda çiməjəh. Bir az da qavax geder, soyunor, girer kiçih qızın hamamına. Kiçih qız gələndə görör ki, ayə, hamamın içi həm işıldaşer, həm qızarer, həm də elə gözəldi, nətər. Gəlif baxanda görör ki, bağmanın oğludu, hamamda çimer. Ay Allah, öldüm eleer, yıxıler. Dizdərinə döyəndə oğlan paltarın tez geyiner də, qaçer. Qızın bajıları gəler, deellər ki, ay öyün$_ı$ yıxılsın, nə var, noluf? Deer:

– Ay öyün$_ı$üz yıxılsın, nə olajax? Bir dənə oğlanıydı, hamamda çimerdi. Hamam alışıf yanerdı, elə gözəl bir oğlanıdı, onu gördüm, aşiq oldum.

Soruşullar ki, ay öyün$_ı$ yıxılsın, bilersən$_ı$mi kimiydi? Deer:

– Hə, bilerəm.

Çimif çıxıf gedillər öyə. Son$_ı$ra padşah bağmana deer ki, get üş dənə gül bəzə, birini böyüh qıza, birini ortancıl qıza, birini də kiçih qıza. Bu gəlif gülləri bəziyəndə bu oğlan deer ki, ay bava, qoy o gülün birciyin mən bəziyim, o birilərin sən.

Deer:

– Oğul, mən neçə illərdi işdeerəm, gül bəzəməyi-filanı bilirəm, sən bəziyə bilməzsən$_ı$.

Oğlan deer:

– Yox, qoy birini mən bəzəyim.

Gədiyi çox isdiyirmiş. Deer:

– Bəzə.

Bəziyir. Əyə, apareller, bu bəzəh o biri bəzəhlərə oxşamer, bu bəzəh qəşəh bəzəh olor. Padşahın böyüh qızının gülünü verer, ortancıl qızın gülünü verer, həmən oğlanın da gülünü kiçih qıza verer. Bu qızdar üş dənə qarpız alellar. Pıçaxları da qızdar üsdə taxer, gülü də taxer, qarpızdarı xonçada göndərellər atalarına. Atası baxer ki, ayə, güldü, qarpızdı, pıçaxdı. Bu fikirrəşer ki, ayə, bu qarpızdarı kəsif yiməh lazımdısa, bir pıçax bəsdi, bu gül nədi, zad nədi. Vəziri çağırer, deer:

– Ayə, vəzir, burya əl.

Vəzir gəler, deer ki, nədi?

Deer:

– Buları yoz görüm, nədi?

Vəzir böyüh qızın da, ortancılınkını da, kiçih qızın da qarpızını kəser. Deer padşaha:

– Bu qarpızdara baxdını?

Deer:

– Hə, baxdım.

Deer:

– Böyüh qızın deer ki, ay ata, vaxdım keçif, məni ərə ver. Ortancıl qızın da deer ki, ay ata, yetirmişəm, vaxdım keçir, məni də ver. Kiçih qız deer, vaxdımdı, məni də ver.

Deer:

– Həə, bunu ağlım kəsdi.

Əlan verir pütün ölkəyə, cavan oğlannarın hamısı gəlsin. O vaxdı qızdar ərə gedəndə alma verərmişdər əlinə, əlində oynadarmış, oğlannar qavağına keçəndə hası oğlan xoşuna gəlsə, almeyi şıppıltıynan onun belinə vurarmış. Böyüh vəzirin oğlu gəlif keçəndə böyüh qız onu almıynan vuror, ortancıl qız da kiçih vəzirinkini vuror. Bular gedər. Qaler kiçih qız. Elə almeyi oynada-oynada duror, heş kəsə vurmor. Padşah deer ki, ayə, ölkədə qalan oğlan varmı? Deellər ki, hə, bircə nəfər qalıf.

Deer:

– Kimdi?

Deellər:

– Bağmanın oğulluğudu, o qalıf.

Oğlan axı başına qarın geyinərmiş, əyninə də cında paltar. Padşah deer ki, gedinı onu da gətirinı. Gəlif oğlan keçəndə alma çatdıyır boynunun kökünə. Boynunu belləyə-belləyə *(söyləyici əli ilə boynuna işarə edir – top.)* qaçer, qız da onun dalınca qaçer. Qız əl çəhmer, geder oğlannan. Kiçih qız gedənnən sonıra padşah bu qızın dərdinnən azara tüşör:

– Ayə, mənim qızım keçəl oğlana gedə, belə şey olar?

Padşah möhgəm xəsdə olur. Padşaha buyrollar ki, maral əti yesənı, bəlkə sağalasanı. Bu kürəkənnəri deellər ki, tüfəh, qılış, qalxan götürəh, harda maral var, ovluyax gətirəh. Bu kiçih qız yalvarır ki, ayə, a Məhəmmət, amanın günüdü, sən də get.

Deer:

– Az, a bədbaxtın qızı, mən piyada hara gedim, nəynən gedim?

Qız deer ki, atamın axsax qatırı var, onu götürəjəm, xəlvəççə onu min get, qara tüfəngin də birini götür, bilerəm ki, sən bajarajanı. Bu geder axsax qatırı gətirer. Keçəl miner bu qatıra, paltarın da götürör xəlvəççə, qatırı belləyə-belləyə gedir. Hamı da buna baxıb, şəbeydi[83] gülöllər ki, ayə, hamı yalan, şor motalı gerçəh[84], keçəl gəler, keçəl tutajax maralı, gəlin. Buna şəbədə eliyə-eliyə gedellər. Bu geder də bir dərənin içinə girəndə qatırı yıxer, əyaxlarını bağleer da, orya qoyor. İbişqıyı çəker, tükü tutor, həmən vaxda aslan, qara at, Zümrüt quşu özünü yetirer. Ləzzətdicə paltarı geyiner, bəy balası kimi. Buların dalınnan atnan gedəndə, göröllər ki, əyə, sən öl, bir oğlan gəler, gəl görəsənı dünyaya şövq saler. Altında atı,

---

[83] Şəbeydi – şəbədə

[84] Hamı yalan, şor motalı gerçəh – deyim

qəşəh paltarı. Əyə, bu nədi, belə adam hardan çıxıf? Geder oğlan, həmən dərvişi taper. Deer:

– Dərviş.

Deer:

– Hə.

Deer:

– Oxu, pütün maralların hamısı burya gəlsin.

Maralların hamısını gətirer bir hasara dolduror, yanınaca istoldan-zaddan qoyor, oturor. Bular hər yeri gəzellər, maral tapa bilmellər. Gələndə göröllər ki, bura doludu maralnan, balacası nədi, yekəsi nədi. Keçəl də dərvişə deer ki, oxu ki, nə dadı, nə dərmanı var, hamısı maralın başına-əyağına gəlsin. Bu dad baş-əyaxda var ha, ordan qalıf, baş-əyax daddıdı, qoyununmu, malınmı. Oxuyor, üfürör, oxuyor, üfürör... Bu qayda dadı baş-əyağa gəler. Bu oğlannar gəler. Deellər ki, ay oğlan, bu maralın birini bizə satarsan$_{ı}$mı?

Deer:

– Sataram, bu şərtə ki, sizin budun$_{ı}$uza damğa vurom. Razısın$_{ı}$ızsa, verim, razı deyilsinizsə, gedin.

Belə deyəndə böyüh bajanax kiçiyin üzünə baxer, kiçih də böyüyün üzünə baxer, deer:

– Neyniyəh, boş-bekar getməhdənsə, peçatdı dayna, cəhənnəmə vursun.

Deellər ki, vur. Buların bud ətinə damğa vuror ki, bular Məhəmmədin quludu. Maralı verəndə kəsməyə, deer ki, əmbə baş-əyağı özümündü. Maralı kəsellər, baş-əyağını Məhəmmət götürör, ətini də bular, qalan maralları da açer buraxer. Quşu da, aslanı da, atı da açer buraxer, paltarını da geyiner, o biri paltarını da atın tərkinə bağlıyıf buraxer. Qatırı axsada-axsada gəler. Gəlif çater.

– Əyə, şor motalı gəler, keçəl gəler. Əyə, şor motalı, tafdın$_{ı}$mı? Maral tafdın$_{ı}$mı, ay şor motalı?

Deer ki, heş-zad da başarmadım, elə getdim hərrəndim, qayıtdım.

Geder öyə, deer:

– Ay arvat, ala bu baş-əyağı ləzzətdi pişir.

Baş-əyağı ləzzətti pişirer. Qız tərpəner geder anasının yanına, deer:

– Ay ana, sənin$_{ı}$ başın$_{ı}$a dönüm, maral baş-əyağı gətirif keçəl, o maralın baş-əyağınnan bircə qırıx xəlvəçcə gətirem, mənim atama ver.

Deer:

– Get gəti, a günün$_{ı}$ ağ olmasın, sənin$_{ı}$ dərdin$_{ı}$ öldürör bunu.

Gedif bu bir cəm baş-əyaxdan dolduruf gətirer, buna verer. Padşah yiən kimi yaxşılaşer. Tez deer ki, ay arvat, bunnan varmı?

Deer:

– Olar.

Tərpəner. Deer:

– Ağız, a günün$_{ı}$ ağ olmasın, o gətirdiyin$_{ı}$nən varmı?

Deer:

– Hə, var.

Deer:

– Onnan bir cəm doldur, gəti.

Bu qavı dolduror, xəlvəçcə aparer padşaha. Padşah yiir, oturor.

Bir gün bir ayrı padşah bu padşaha deer ki, qızdarı boşat, mənim oğlannarıma ver, mənim üç oğlum var, sənin$_{ı}$ də üş qızın, yoxsa davadı. Bu gəler vəzir, vəkili çağırer, deer:

– Ayə, ay öyün$_{ı}$üz yıxılmasın, belə şey var, nağayrax?

Deellər:

– Ayə, namıs, qeyrət yoxdumu ki, qızdarı boşadıf verəsən$_{ı}$? Davadı, davadı də.

Bular bir gün gedellәr davıya. O biri padşah qüvvәli olor, buların qoşunnu qırer. Sәhәr bu kiçih qız yalvarer ki, ayә, a keçәl, hamı geder, sәn dә gedif kömәh elәsәn$_ı$ә, qoşun gәlif.

Deer:

– Yaxşı.

Geder, genә axsax qatırı gәtirer, o qara tüyәngi dә – dayandoldurumu da verer, deer:

– Get.

Bu geder genә dәrәnin birindә ibışqıyı[85] çәker, tükü tutor, heyvannarın üçünü dә dәsnәn gәtirer. Özünü yetirer, quşa da әmr eleer, aslana, ata da, özü dә deer:

– Hәlә öldürmüyün$_ı$, buları döyә-döyә, әzә-әzә, başdarına daşı tökә-tökә aparın$_ı$ qaytarın$_ı$.

Buları döyә-döyә aparellar, nağayrıllar. Bu padşah heş bir şey qanmer. Deer ki, ayә, qoşunun hamısın qırajam, yazıxsan$_ı$, çıx get.

Deer:

– Yox, dava eliyәjәm.

Savaxı әmr eleer heyvannara ki, qırın$_ı$. At taa әlinә keçәni vuror, öldürör, quş da geder dәyirman daşdarını qanadının üsdünә yığıf gәtirer, göydәn samalyotnan tökәn kimi üsdәrinә tökör, qırer. At tәpiynәn, özü qılışnan buları itirellәr. Buları itirәnnәn son$_ı$ra Mәhәmmәt başınnan yaralaner. Padşahın bir qiymәtti dәsmalı varmış, çıxarır bunun başını sarıyır, deer:

– Ay oğlan, kimsәn$_ı$, nәçisәn$_ı$, haralısan$_ı$? Adresi ver, san$_ı$a hörmәt eliyәh, bizә çox kömәh elәdin$_ı$.

Deer:

– Yox, mәnim adresimi heş kim bilmәz.

Atı miner, genә gәlif dәriyә çatanda atı, heyvannarı buraxer, qatırı minif axsada-axsada gәlәndә bajanaxları deer:

[85] İbışqa – rus dilindәki spiçka sözünün şivә variantıdır.

– Ə, şor motalı gəler. Ayə, a şor motalı, qoşunu qırdın$_{ı}$-mı, ayə, nağayrdın$_{ı}$?

Lağ eliyif gülüşə-gülüşə gələllər. Gejə yatellar. Səhər padşah əlan verir ki, hər kəs mənim dəsmalımın yerini bilif man$_{ı}$a desə, ona nə qədər var-döölət desə, verərəm, mən dəsmalımı itirmişəm. Bu keçəl də həməşə başına qarın geyinif yatermış. Bu səfər qarının altınnan dəsmalın uju belə çıxanda qız görör ki, atasının dəsmalı burdadı. Tərpəner geder deer:

– Ay ana.

Deer:

– Hə.

Deer:

– Get atamı muşduluxla, dəsmalı tapbışam, di man$_{ı}$a indi nə verəjəh, desin.

Anası deer ki, hardadı?

Qız deer:

– Keçəlin başında.

Tez adam göndərer ki, keçəli bura gətirin$_{ı}$. Keçəli aparellar. Qarını başınnan çıxardanda göröllər ki, bu, həmən oğlandı. Alnınnan öpör, deer:

– Ay bala, sən gerçəhdən, həmən qoşunu qıran adamsan$_{ı}$?

Oğlan deer:

– Hə.

Padşah təzədən qırx gün, qırx gejə toy eliyif qızı verer oğlana. Padşahın öz yanında olor. Qız Məhəmmədə deer ki, bizim öyün dalınnan bir cüt ceyran gəlir, olmaya-bilmiyə, onnarın dalıyca gedəsən$_{ı}$, o ceyrannarın dalıyca gedən gəlmer, gedər-gəlməzdi.

Deer:

– Nə vədə gəlir o?

Qız deer ki, filan vaxdı. Tez əynini geyiner, başını geyiner, gözdöör, hazır duror. Ceyrannar gələndə ceyrannarın da-

lına tüşör, ceyran qaçer, bu dallarınnan nə qədər eleer, elə davanbasarax geder, ama tutammer. Bir dağ varmış, dağın o üzünə aşan kimi görör, əyə, bir yerdi, dünya daşdı, adam heykalı, nə bilim, at, filan, hamısı daşdı eləjə. Ama bir qarı oturuf. Gedir qarının yanına. Deer:

– Ay qarı, salam.

Deer:

– Əleykəsalam.

Deer:

– Ay qarı, mənim ceyrannarım nijoldu?

Qarı buna deer ki, nərdtaxta oynaya bilersənı?

Deer:

– Hə, oynoyorux.

Belə deyəndə Məhəmmət də, aslan da, quş da, at da daş olor. Dördü də bir yerdə elə-belə qaler.

İndi sanıa hardan xəvər verim, Məhəmmədin o biri qardaşınnan, Məlikməhəmmətdən.

Məlikməhəmmət duror deer:

– Ay ana, qardaşım itdi getdi, vallah, mən dura bilmirəm, mən gedəjəm, onu axdarajam.

Geder gəzə-gəzə, gəzə-gəzə dərvişi taper. Deer:

– A dərviş baba, bə mənim qardaşımı neynədinı?

Deer:

– Əyə, belə-belə. Qardaşın getdi, gəl səni o fason mindirim, get, bəlkə qardaşınıı eləlihnən tapasanı.

O suda bunu çimizdirer, başının tükünü, üzünü-gözünü həmən formadaja qayırer, qara at da verer, paltarını da, qamçısını da, deer:

– Bax buruynan get filan meşiyə, Məhəmmədi filan meşədə itirmişəm, indi orda olar-olmaz, bilmərəm.

Geder, meşədə gəzdiyi yerdə birdən quş çağırer:

– Ayə, a Məhəmmət, a Məhəmmət, bəs mənim balamı neynədin$_{ı}$?

Bu tez deer:

– Elə mən səni gəzirdim, sənin$_{ı}$ balan quş, mən də adam, durmadı mənim yanımda, getdi.

Quş balasının birini buna verer. Məlikməhəmmət geder həmən padşahın torpağına çıxer. Axşama qaler, axşam soruşanda camahat deer ki, Məhəmmədin öyü odu. Gedəndə qız gəler özünü öldürör ki, bəs san$_{ı}$a demədim ceyranın dalınca getmə, o gedər-gəlməzdi. Məhəmmədin yoldaşı elə biler ki, gələn oğlan Məhəmmətdi. Axşam olor. Axşam olanda Məlikməhəmmət qılıncı çıxarder ortaya qoyor, deer:

– Aaz, bu ant, bu Quran, qurdalanarsan$_{ı}$ mənim üsdüməzada, yorğunam, səni bu qılışnan tikə-tikə doğruyaram, man$_{ı}$a yaxınnaşma.

Yatellar. Duror bu gözdöör, ceyrannar gələndə atı miner, tüşör ceyrannarın dalıyca. Gəler, qarıyı taper.

– Qarı, salaməleyküm.

Deer:

– Əleykəsalam.

– Qarı, mənim ceyrannarımı gördün$_{ı}$mü?

Qarı tez bunnan soruşor ki, nərd oynuya bilersən$_{ı}$mi? Məlikməhəmmət deer:

– Yox, oynuya bilmerəm.

Bu qarıda da bir xasiyət varmış. Kim onun sözün qaytarsa, o nə desə, onu eliyərmiş. Qarı Məlikməhəmmədə deer ki, o qamçını götür də, o daşdarı vur. Məlikməhəmmət də qamçını götürör, bir-bir daşdarı vurur. Daşdarın biri at olor, biri aslan olor, biri quş, biri də ki, qardaşı Məhəmmət. Bir dənə də daşı vuranda bu daş gözəl bir qız olor. Qızı da, qardaşını da götürör gəlir öylərinə. Olar yiir, içer, yerə keçer, siz də yiin$_{ı}$-için$_{ı}$, döörə keçin. Sağ olun.

# 7. NƏRBALA

Bir şah olur. Günnərin bir günü bu şah çıxıf şəhəri səyahət eliyir vəzirnən. Kasıf bir ayilənin gözəl bir qızı olur. Bu qızın atası da şahın dəvəsini saxlıyır. Şah məjbur eliyir ki, dəvəçi qızını versin buna. Bu da kasıf ayilədi. Şah bunu alır. Bu şahın iki arvadı olur. Bu üçüncüdü – dəvəçinin qızı. Qızdan bir uşağı olur. Dəvəçinin qızınnan olan uşağı Nərbala çağırellar. Bu uşax böyüyür yavaş-yavaş. Həyatın quruluşudu. Böyüməhdə olsun, eşit bu qavaxkı arvatdardan olan uşaxlardan. Anaları ayrıdı, ataları birdi – şahdı. Bu oğlannar bunu həmməşə ələ salır, incidir, hər oyunda bunu alladıllar, filan. Nərbala taa böyüyür. Cavan oğlandı.

Bir gün bu qardaşdar atasınnan icazə alıf gəzməyə çıxıllar. Nərbalanı da götürüllər. Nərbala da gedir bularnan tor qurur. İki qardaş bunun başını əkif öldürməh isdiyillər. Bu Nərbalanı gətirillər quyunun başına, itəliyif salıllar quyuya. Nərbala tüşör quyuya. İndi eşit bu uşaxlardan. Uşaxlar qayıdır gəlir atalarına deer ki, belə-belə, Nərbala sözümüzə baxmadı, özünü quyuya atdı. Daa kim nağarasıydı. Tüşdü, tüşdü də quyuya.

Eşit Nərbaladan. Nərbala ordan tüşür qarannıx dünyaya, gəzə-gəzə birtəhər gedif çıxır. Baxır görür bir yerdən işıx gəlir. Bu işığa gedəndə görür ki, burda bir qarı var. Qarı deer ki, ay bala, sən xeyir ola, burda nə gəzirsən$_{ı}$?

Deer:

– Nənə, məni qardaşdarım saldı bura, xayiş eliyirəm, köməh elə, çıxım burdan.

Deer:

– Köməyim san$_{ı}$a belə dəyər. Səhər-səhər saat beşdə-altıda iki qoç dalaşa-dalaşa gələjəh. Gözdə-qulaxda olarsan$_{ı}$. Biri ağ qoçdu, biri qara qoç. Çalış, sən ağ qoçun belinə hopban,

min. Əgər ağ qoçun belinə hoppanıf minsənı, səni şıxlı[86] dünyüya atajax, kutarajaxsanı.

Nərbala baxır görür dediyi vax, saat altıda budu, iki qoç dalaşa-dalaşa, doğurdan da, gəlir. Bu, hopbanır ağ qoçun belinə mimməyə. Ağ qoç belə fırranır, tüşür qara qoçun belinə. Bu, bunu götürür lap qarannıx dünyüya tulluyur. Bu qarannıx dünyada gəzə-gəzə görür ki, bir sərv ağacı var. Ağacın divində oturur. Baxır ki, ağacın başında quşdar kışqırışır. Baxanda görür ki, bir əjdaha ilan sarına-sarına o quşdarın balalarını yiməyə çıxır. O halda bu, qılıncını çəkir də, ilanı dorğuyur da, tökür ağacın divinə. Bu, burda oturur, həmi yorğun, həmi birəz narahat. Burda yuxuya gedir. Yuxuya gedənnən sonıra bu quşun anaları − Zümrüt quşu uça-uça gəlir. İldən-ilə bunun balalarını o ilan dadanıf yiirmiş. Baxır görür ki, bu ağacın divində bir nəfər yatır. Elə bilir ki, bu ağacın divində yatan bunun balalarını öldürəndi. Gedir, caynağında bir dəyirman daşı götürüf gətirir ki, onun başına salsın. Ona kimi balaları kışqırır ki, yox, öldürmə onu, o, bizi xilas elədi, ilan bizi yiirdi. Bu dəyirman daşını aparıf ayna[87] salıf, gəlif qənədini bunun üsdünə salır. Üsdünə salanda bu ayılır. Ayılanda Zümrüt quşu dilə gəlif deer:

– Qorxma, sən mənim balalarımı xilas eliyifsənı, mən də sanıa hörmət eliyirəm. Ona görə qənədimi salıram səninı üsdünıə.

Deer:

– Manıa hörmət eləməh isdiyirsənısə, məni bu qarannıx dünyadan işıxlı dünyüyə çıxart.

Deer:

– Bahooo! Nə belə uzax yoldu. Onda get – qarını göstərir – qarının yanna, onnan bir put ət al, qarı düzəldif verəjəh.

[86] Şıxlı – işıqlı
[87] Ayna – o yana

Bir on altı litir də su. Oları götür, mən “qa” dəəndə ətdən verərsən$_{ı}$, “qu” dəəndə sudan verərsən$_{ı}$.

Bu, elə də eliyir. Minir quşun belinə. Bu, əti də, suyu da götürür. Quş başdıyır uçmağa. Az qalıf ki, şıxlı dünyaa çatsınnar. Bu, “qa” dəəndə, baxır ki, ət kutarıf. Qılıncını çıxardır da öz budunnan belə bir tikə kəsif quşun ağzına verir. Quş o saatca dilinin altında saxlıyır bunu. Tamınnan bilir ki, bu, insan ətidi. Həə. Aparır şıxlı dünyüya tüşürür. Şıxlı dünyada bu taa rahatdanır. Bu quş deer ki, al mənim bu lələyimi, saxla, hası vax işin dara tüşsə, yandırarsan o lələyi, mən sənin$_{ı}$ yanında hazır olajam.

Deer:

– Yaxşı.

Quş deer ki, mən uçuf gedəjəm, sən get görüm. Baxır ki, oğlan gedən vaxdı belə qılçasını çəkif axsıyır.

Deer:

– Qayıt bəri.

Qayıdır. Çıxardır dilinin altınnan əti, o yarasının üsdə qoyuf ağzının niqabınnan çəkir. Deer ki, həə, indi gedə bilərsən$_{ı}$. Bular vidalaşıf ayrılıllar.

Oğlan gəlhagəl, gəlif başqa vilayətdə bir şahın bağbanına nökər olur. Bu, burda gününü keçirif dolanır. Bu şahın üş qızı olur. Qızdar gəlillər ki, bayramdı, bu bayrama bizə gül yığın$_{ı}$. Böyüh qızdarın ikisi də bağbana deer ki, sən hazırra bizim gülümüzü. Kiçih qız da bağbanın şagirdinə deer:

– Sən hazırra mənim gülümü.

Həə, bu da deer:

– Baş üsdə!

Oğlan çəkilir bağın bir tərəfində, yiəsiz bir yerdə lələyi papağının arasınnan çıxardıf yandırır. Yandıranda Zümrüt quşu yanında hazır olur.

Deer:

– Belə-belə, şahın qızı manıa dedi, gül hazırra! Manıa bağdan elə bir gül gətir ki, doğrudan da, bu torpaxda, bu vilayətdə olmasın.

Deer:

– Baş üsdə!

Gedif quş bir dəsdə gül gətirir. Bu gül elə bir güldü ki, bir ay solmurdu. Həə, deməli, bu oğlan gülü qıza təqdim eliyir. Qıza deer ki, bir ay bu gülün vaxdı var, bu xarişdən gəlmə güldü. Baxır qızdar ki, buların gülləri soldu, ama bu gül günü-günnən hələ də pardaxlanır, yaxşılanır.

Vax belə keçir ki, şah bu qızdardan birini vəzirin oğluna verir, birini vəkilin oğluna. Bu kiçih qıza deer:

– Sən kimə gedirsənı?

Deer:

– Mən bu bağbanın şagirdinə, nökərinə gedəjəm.

Elə bilir, bağbanın oğludu. Həə. Şah nə qədər deersə, bu eşitmir. Deer ki, yox, mən bu oğlana gedəjəm. Şah ajıxnan yaxınnıxda bir uçux daxma varıymış, buranı ayırır, qızı verir oğlana. O birrərini də bu vəzirnən vəkilin oğluna verir. Toyunu eliyir, çıxıf gedillər.

Gün o gün olur ki, başqa vilayətdən elçi gəlif daşın üsdə oturuf şaha deer ki, şah belə tələb eliyir ki, ya bir belə pul verməlisənı, ya biznən döyüşə çıxmalısanı. Bu söhbəti eşidəndə şah xəsdələnir. Buna buyurullar ov əti. Bu iki kürəkənnəri yay-oxu götürür, çıxıllar ova. Ova çıxanda Nərbala arvadına deer ki, get atana denən, manıa da bir atdan, qatırdan-zaddan versin, mən də çıxım ova. Bu şah da buna baxıf gülür ki, ə, bu, nə ov eliyəjəh, filan. Xətrinə dəymir qızının. Bir topal qatır verir. Bu axsada-axsada qatırı dağın dalına keçən kimi tükü yandırır.

Quş hazır olur. Quşa deer ki, nə qədər ov var burda, hamsını bu dəriyə topla. Quş bir annıxda[88] uçur.

Deer:

– Bir dəs manıa paltar gətir.

Quş gedir, bir dənə ağ at, bir dəs ağ paltar, onnan sonıra pütün nə qədər ov ovlanası heyvan var, hamsını bura topluyur. Başının üsdündə quş, yanında aslan. Daa hamsını quş təşgil edir. Böyründə duruflar.

Bu kürəkənnəri nə qədər gedif gəzsələr də, heş nə tapammıllar. Gələndə görüllər, ayə, pütün ov hamısı bu dərədə doludu. Oxu hərriyillər atmağa, ona kimi ağ paltarrı, üzü niqablı adam, onnan sonıra başının üsdündə Zümrüt quşu, əlində yay-oxu, aslan yanında, deer ki, əlinıizi tərpətmeyinı, onun yiəsi var.

Bular deer:

– Şah xəsdədi. Buna görə şaha aparırıx.

Deer:

– Mən bilmirəm, şahı-mahı tanımıram. Deerəm, dəymiyinı.

– Bunnan bizə sat.

Deer:

– Pulnan döy.

Deer:

– Nəynəndi?

Deer:

– Hər birinıizin sağ buduna bir peçet[89] vurajam. Peçeti vurajam, hərənıizə də bir heyvan verəjəm. Kəsinı, aparını.

---

88 Annıxda – bir anda

89 Peçet – peçat, möhür

Həə. Bular baxır ki, ələş yoxdu. Axşamüsdü tüşür, boş qayıtmağ olmaz. Hərəsi şalvarını aşağı eliyir – bağışdeyinı məni – sağ buduna bir peçet vurur. Deer:

– Özüm kəsməliyəm.

– Doyşan isdiyirsinıiz, yoxsa cüyür?

Deer:

– Cüyür ver.

Tutur cüyürü kəsir. Cüyürü kəsdihcə deer ki, dadı baş-əəğına, dadı baş-əəğına. Həə.

Burda da bunun əyaxlarını da, başını da kəsir, deer:

– Buları mən özüm götürəjəm. Oların ətini də siz götürünı.

Bular sevinə-sevinə gəlillər.

Eşit indi sən Nərbaladan. Nərbala gəlir paltarı-filanı, hamısını verir quşa, onnan sonıra gəlir, bu baş-əəğı da gətirir. İndi yoldaşı soruşur:

– Bə hanı səninı ovladığını?

Deer:

– Olar ov vurdular, mən vurammadım. Olar kəsdi, tulladı baş-əəğı, mən də o baş-əəğı götürdüm gətirdim.

Bu qız da bir az peşmannanır, bir az pis olur.

Oglan deer:

– Onu gətir, pişir.

Pişirir. Qız görür ki, bunun iysi-tamı pütün məhləni götürür. Elə tamlı gəlir. Burdan kürəkənnəri gətirdihlərini pişirir, aparıllar. Şah yiirsə də, elə bil təzəh[90] dadır. Bir az yiir də, əlini çəkir. Ona kimi bu kiçih qız gedir. Şah deer ki, səninı ərin nə vuruf gətirif? Deer ki, olar vurduğu ovun baş-əəğını gətirif. Bir az da buna gülür-eliyir. Yalvar-yapış eliyir ki, ata,

[90] Təzəh – mal peyini, heyvan nəcisi

sən Allah, bir qaşıx suyunnansa da al, gətirmişəm əziyətnən. Şah suyunnan bir qaşıx ağzına alanda baxır, əə, bunun ağrıları-zad azaldı. Qavı təmiz içir. Kişi deer:

– Varmı genə? Get bunnan gətir. Məndə ağrı qalmadı.

Qız gedif gətirir. Şah hamısını yiir. Nərbala baxıf gülür. Şah qalxır. Taa heş bir yerində ağrı-filan yoxdu. İndi səhər müharibəə hazırraşır. Nərbala arvadına deer ki, get, dədən$_{ı}$ə denən, qoy mən də gedim müharibəə.

Şah da deer:

– Əə, bu, nə gedif müharibə eliyəjəh?! Bu nə bajarır?!

Gətirir buna genə də bir axsax qatır verir. Nərbala qatırı götürür. Qoşun gedir, qoşunun dalınnan qatırı axsada-axsada gedif dağın daldeyinə, dəriyə tüşür də, tükü yandırır. Yandıran kimi quş yanında hazır olur. Deer:

– Bir dəs paltar, ağ atı gətirin$_{ı}$.

Hamısını geyinir. Bir dəsdə Zümrüt quşu göydə uça-uça, hərəsinin caynağında bir dəyirman daşı gəlillər. Gəlif ağ geyimli, üzü niqablı baxır dağdan. Görür ki, qaynatasının qoşunu məğlub olur, qaçışıllar, daa davam gətirə bilmirlər. Ona kimi bu yetirir özünü. Ağ atdı, başının üsdündə Zümrüt quşu, pələng böyründə. Yetirillər, qon$_{ı}$şu padşahın qoşununu qıra-qıra qaytarır geri, qavağını alır. Şah çox sevinir, bu nəydi?! Qoşun gedənnən son$_{ı}$ra aradan yoxa çıxır. Gələndə hərə bir tərəfdən şaha söylüyər ki, şah sağ olsun, qoşunu qırıf əldən salırdılar, bir ağ atdı oğlan – başının üsdündə quş, yanında pələng yetirdi özünü, şahın qoşununu əldən saldı, qaytardı geri. Həə, şah çox fikirrəşdi, bu, nə sirridi?! Allah-taalanınmı işidi, bu nəydi belə?

Bu qoşun gedənnən son$_{ı}$ra oğlan gəlif qatırı bağladığı yerdən paltarı-filanı verir quşa. Qatırı minif yavaş-yavaş axsa-

ya-axsaya, daldan-dala, arxadan-arxaa gəlir. Qız deer ki, bəs sən nağayrdını, nə iş tutdunı?

Deer:

– Mən gedəndə taa qoşun dağılmışdı. Bu topal qatırnan ancax getdim çıxdım. Çatmadım meydana.

Həə, bu da bir az pisikir[91].

Sabahları üzünüzə xeyirrixnan açılsın. Sabahları bir də müharibə başdıyır, bir də başdıyıllar. Şah özü gedif baxır. Görür, əyə, bu, qoşunun qavağında diyanammır genə. Ayna-bayna baxır fikirrəşir, Allah, kömək gələrmi genə?! Ona kimi baxır ki, dağın başınnan yel kimi yetirdi özünü, qoşunun üsdünə tüşdüyünnən, qırdı o qoşunu. Ona kimi ox atdılar, bu oğlan qolunnan yaralandı. Şah buna yaxınıydı – qaynatası. Dəsməlini çıxartdı da, bunun qoluna bağladı. Bu da heş nə demədi. Üzü niqablı, tanıyan yox, eliyən yox. Gəldi axşam qıza yalannan dedi:

– Yıxıldım, yaralandım.

Bu dəsmalı çıxartdı yüdü də, qapıda məfdilə atdı. Səhər-səhər şah qalxıf, güləfirəngidə oturuf baxırdı. Görən, ay Allah, bu kimdi, bu nəçidi, bizə belə kömək eliyir. Belə baxanda gördü ki, (qızının qapısı görünürdü) ayə, bunun dəsmalı burda səryəndədi[92]. Adam göndərdi dedi ki, gedin qızı burya gətirinı.

Dedi:

– Get, o dəsməli burya gəti!

Gətirəndə gördü ki, bunun öz dəsmalıdı. Qızına dedi:

– Bu dəsmalı hardan alıfsanı?

Dedi:

– Nərbalanın qolundoydu. Qolunnan aşdım, yaralanmışdı qolu.

---

91 Pisikir – pis olur, inciyir, sıxılır

92 Səryəndə – yuyulmuş paltarların sərildiyi yer

Bu, bir az fikrə getdi ki, bu, topal qatırnan gedif, bəs bu ağ paltar, ağ at, bu quş hardan əmələ gəlif.

Həə, bu genə də yozammadı. Üçüncü gün də oğlan ağ paltarda, ağ atda gəldi. Pütün quş, pələng də yanında. O şahın qoşunu orda durur, bu şahın qoşunu burda durur. Ortada çıxış eləməyə başdadı.

Dedi:

– Mən bu gün özümü təqdim eliyif, çıxış eləməliyəm.

Qaynatasına dedi:

– Şah sağ olsun, sən kürəkənnərin$_ı$i çıxart bəri, meydana.

Çıxdılar.

Dedi:

– Bular mənim qulumdu.

Bular ajıxlananda dedi:

– Ajıxlanmıyın. İkinizə bir qılış vuraram. Səf deerəmsə, deyin$_ı$. Buların şalvarını aşağı salın$_ı$. Sağ buduna baxın$_ı$. Sağ budunda mənim peçetim var.

Bular barmağını tişdədi, aya, bu, həmən ov verən adamdı.

Dedi:

– Şah sağ olsun, o ovu mən vermişdim bulara.

Üzünü tutdu o biri şaha, dedi:

– Şah sağ olsun, sənin$_ı$ iki oğlun var. Oğullarını bəri çıxart. Sənin bir oğlun vardı, Nərbala. O Nərbalanın anası qırx ildi türmədə yatır. Nəyə görə salıfsan$_ı$ onu zindana? Nəyə görə yatır o?

Dedi:

– Bu dəyqə o kadını burya gəti! Burya gətirməsən$_ı$, bir nəfərini, içi sən qarışıx qoymuyjam geri qayıtsın şəhərə.

Həə, adam göndərdilər, Nərbalanın anasını gətirdilər. Nərbala paltarını soyundu, başınnan niqabını aşdı. Anasınnan öpüşdü, görüşdü, dedi:

– Ana, mən sağam hələ.

Arvat belə baxdı, taa bu sevinc hara sığışasıdı.

Təzədənnən o oğlannarı da dedi ki, şah sağ olsun, sənin[1] o oğulların məni bax belə quyuya itələdi saldı, filan elədi. Bu dəyqə onların qannı almalıyam, deef oxu götürdüyünnən ikisini də oxnan vurdu. Kişi ağladı, sıtqadı ki, gəl gedəh.

Dedi:

– Yox, mən sənnən getmərəm. Mən gedirəm indi qaynatamnan.

Həə, dəsdələdi o başındakı dəsdeyi-filanı gətirdi. Olar yidi, yerə keşdi, biz yidih, döörə keşdih.

## 8. İKİ QARDAŞ

Bir kasıf kolqıran varmış. Gətirif kolu bazarda satıf çörəh pulu eliyirmiş. İki uşağı, bir də arvadı varmış. Bir gün genə kol qırmağa gedəndə öz-özünə deer:

– Belə yaşamaxdansa, ölməh yaxşıdı. Gəl elə meşə uzunu get, qoy qurt-quş yesin səni.

Geder, geder, qavağına bir yumurta çıxer. Deer:

– Elə bu yumurta mənim qismətimdi. Elə bunu götürüm, aparım öyə, uşaxlar ajdı.

Yumurtanı götürör, aparer öyə. Öyə gedəndə yolda vəzirə ras gəler. Vəzir biler ki, bu yumurta nə yumurtadı. Yumurtanı kişidən beş yüz manata aler. Kişi fikirrəşer ki, ayə, bu noolan şeydi. Gəler öyə. Səhər genə gedir meşiyə. Qavağına bir qalaça çıxer. Baxer ki, qalaçada bir quş var. Görür ki, elə həmin yumurtadan quşun altında ikisi var. Deer:

– Hə, elə bu həmin yumurtanı yumurtduyan quşdu.

Kişi qalaçıya girməh isdiyəndə quş dilə gəlif deer:

– Gəlmə, peşman olarsan[1].

Kişi quşun sözünə baxmer. Girer qalaçıya. Baxır ki, hər tərəf doludu yiməhnən. Kişi bu yiməhlərdən doyunca yiir.

Son$_{ı}$ra da quşu da, yumurtaları da götürüf gəler öyə. Sən demə, bu quş elə bir quşuymuş ki, kim bunun başını yisə, paççah olarmış, kim ciyarın yisə, hər gejə başının altınnan bir qızıl taparmış. Kişi öyə gedəndə genə yolda vəzirə ras gəler. Vəzir buna min manat pul verer. Yumurtaların ikisini də aler. Kişi varrı bir adam olur. Özünə bir imarət tihdirir. Vəzir də bir tərəfdən isdiyir ki, quşu ələ keçirə. Bir qarı tapıf öyrəder ki, get kolqıranın öyünə, onun arvadını yoldan çıxart. Denən ki, sən kolqırana layiq döyülsən$_{ı}$, gəl səni vəzir alsın. Qarı çox gəlif geder. Axır ki, kolqıranın arvadını yoldan çıxarder. Kolqıranın arvadı öz ərini zəhərriyif öldürür.

Bir gün qarı gəlif arvada deer ki, vəzir dedi ki, savax ona qonax gələjəm, bir aş pişirsin, o quşu da kəssin, başını, ciyərini pişirif qoysun aşın üsdünə. Arvat eylə də eliyir. Səhər vəzir gəlməmiş uşaxlar məytəfdən gəlellər öyə, özdəri də aj olullar. Gəlif görüllər ki, öydə usdolun üsdündə hazır yiməh var. Aşı yiillər, son$_{ı}$ra da biri quşun başını, biri də ciyarını yiir. Vəzir gəlif çıxır, arvada deer ki, bəs hanı quşun başı, ciyarı? Arvat deer ki, bəs belə-belə.

Vəzir deer:

– Get uşaxları öldür, gəti bura.

Uşaxlar da sən demə, eşidermişdər. Qaçellar meşəyə. Arvat buları nə qədər axdarer, tapber. Kor-peşman geri qayıder. Uşaxlar meşədə qaçıf gizdənellər. Axşam olur. Bular yatellar. Səhər qalxanda kiçih qardaşı ilan vuruf öldürör. Böyüh qardaş duruf görür ki, kiçih qardaş ölüf. Ağlıya-ağlıya çıxıf geder. Elə bu vax aravada bir qaraçı öz qızı ilə gedermiş. Qız oğlanı görör. Deer:

– Ana, ora bax, gör nə gözəl oğlandı. Görəsən$_{ı}$ o kimdi, orda niyə yatıf qalıf?

Gəlif göröllər ki, oğlan ölüf. Qarı baxer ki, oğlan hələ isdidi. Tez ilan vuran yeri bıçaxnan kəser. Zəhəri tökör yerə, çoxlu duzdu qatıx tökör, yaranı yuuf təmizdeer. Oğlanı sağalder.

Bu tərəfdən də böyüh qardaş yolnan gederdi. Gördü ki, budu, üç bədheybət dev öz aralarında dalaşellar. Oğlan buları görüf qorxdu, isdədi qaça. Divin biri o birilərinə dedi:

– Bəni-adəm ağıllı olur, gəlin gedəh onu tutuf gətirəh, bizim şərtimizi kəssin.

Oğlanı tutuf gətirdilər. Hər şeyi oğlana danışdılar. Buların bir surfası, bir əsası, bir də ceynamazdarı varıydı. Aralarında bölə bilmerdilər. Surfuya desəydinı ki, Həzrət Əli eşqinə, məni doyuzdur, qavağında hər cür yiməh-içməh olardı. Əsanı da Həzrət Əli eşqinə deef nəyə tutsoydunı, o olardı başqa bir şey. Ceynamazın da üsdə oturuf desəydinı ki, Həzrət Əli eşqinə, məni filan yerə apar, aparardı. Oğlan bulara dedi ki, burda nə var ki, mən yay-oxumu ataram, kim onu birinci gətisə, ceynamaz onun olsun, əsa ikincinin olsun, surfa da üçüncü gələnin olsun. Devin biri qayıtdı ki, gördüz, mən dedim ki, bəni-insan ağıllı olar. Oğlan oxu atdı, devlər oxun dalınca qaçan kimi oğlan surfanı da, əsanı da götürüf mindi ceynamaza, dedi:

– Həzrət Əli eşqinə, məni filan yerə, filan mənzilə apar.

Oğlan ceynamazın üsdə göynən getdiyi yerdə gördü ki, bir şəhərdə bir imarət var. Bu imarətin qavağına o qədər adam toplaşıf ki, sayı yox. Oğlan tüşüf gördü ki, bir gözəl xanımdı, pilləkənnəri yenif qalxer, hamı da buna baxmax isdeer. Baxmax isdiyən gərəh bir manat versin. Oğlan gözdədi. Gejə tüşəndə ceynamaznan getdi, tüşdü xanımın böyrünə. Xanımı da götdü mindi ceynamaza. Dedi:

– Həzrət Əli eşqinə, bizi bir adıya apar.

Ceynamaz buları bir adıya gətirif çıxartdı. Qız burda oğlanın orasını-burasını o qədər qaşıdı ki, o qədər qılığına girdi ki, oğlanın sirrərini öyrəndi. Oğlan öydən çıxan kimi qız cey-

namazı da, əsanı da, surfanı da götürüf qaşdı. Oğlan gəlif gördü ki, heş nə yoxdu. Ağlıyıf yater. Ağlıyanda görür ki, bir göyərçindi, ağacın başında yarpax dimdihliyir. Göyərçin buna deer ki, bu ağaşdan bir ceynamaz, bir surfa, bir də əsa yon, muradınıa çatarsanı. Oğlan belə də eleer. Gəler xanımın yanına, öz ayın-oyununu alır, xanımı da bir qara qatıra döndərer, verer bir nəfərə. O adam da qatırı o qədər işdəder ki, belinin dərisi geder. Oğlanın buna yazığı gəler. Onu təzədən adam eleer.

Geder dünyanı gəzməyə. Görür ki, bir şəhərdə camahat toplaşıf. Gəlif görür ki, bir əjdaha da suyun qavağını kəsif, hər gün bir adam alır yiir, bir az su verer. İndi də növbə padşah qızına çater, o da əlində bir qavnan geder əjdahıya tərəf. Oğlan tez əsanı çıxardıf əjdahıya tərəf tutor. Deer:

– Əsa, Həzrət Əli eşqinə, əjdahanı ortadan böl.

Əjdaha ortadan bölünör. Hay tüşör, camahat hamısı qatışer bir-birinə. Oğlan qaşmax isdiyəndə padşahın qızı tez əlini əjdahanın qanına batırıf vuror oğlanın kürəyinə. Səhərisi oğlanı tapıf gətirellər padşahın yanına. Padşah qojalmışmış. Toy eliyif qızını verer oğlana. Bir müddət keçer, bu padşah ölör. Camahat yığışıf oğlanı özünə padşah seçer.

Bir gün oğlanın yadına kiçih qardaşı tüşör. Ceynamaz bunu gətirer qardaşının yanına. Görüşöllər. Kiçih qardaş başına gələnnəri böyüh qardaşa danışer. Gedif qaraçı arvadnan qızını tapellar. Böyüh qardaş toy eliyif qaraçının qızını kiçih qardaşına aler. Sonıra ceynamaza oturuf gəlellər böyüh qardaşın padşah olduğu şəhərə. Burda böyüh qardaş camahata deer ki, bəs öznüzə padşah seçinı, mən gederəm öz şəhərimə. Camahat nə qədər eleer, oğlanı saxlıya bilmer. İki qardaş gəlillər öz şəhərrərinə. Görüllər ki, anaları hələ sağdı. Bir xam qatır tapıf gətirillər. Arvadı bağlıyıllar qatırın quyruğuna, qatıra da bir iynə sancellar. Qatır arvadı dağa-daşa çırpıf öldürör. Olar yidilər-işdilər, yerə keşdilər. Siz də yiinı-içinı, döörə keçin.

# 9-10. BALIQ BİLMƏSƏ, XALİQ BİLƏR

## 9.

Bir şahın bir oğlu olur. Gün o gün olur ki, şahın gözdəri tutulur. Gözdəri tutulan müddətdə fikirrəşir ki, ay dili-qafil, mən hamının şahı olam, bu qədər münəccimlər mənim gözdərimə bir əncam qılmasın?! Münəccimləri çağırır. Deer ki, bəs siz mənə nəyə görə lazımsın$_ı$ız? Mənim gözdərim görmür, ama mən sizi təmin eliyirəm hər bir nemətnən. Mənə hökmən bir əncam qılmalısın$_ı$ız. Yatıllar. Gejə münəccimlərdən biri şahın yuxusuna girir. Münəccim deer ki, bəs bilirsən$_ı$ nə var, Allah-taala buyuruf ki, dənizdə bir qızıl balıx var, əgər o qızıl balıx tutularsa, onu sən yiyərsən$_ı$sə, sənin$_ı$ gözdərin$_ı$ sağalar. Şah qırx nəfər balıx tutan çağırtdırır, deer ki, bəs filan dəryada qızıl balıx var, əgər onnan birini tutuf gətirsən$_ı$iz, yesəm, mənim gözdərim sağalar. Bu müddət ərzində qırx nəfər balıxçının ayiləsinin hamısını topalıyır, deer:

– Heç olmasa, birin$_ı$iz dəryadan qızıl balıx tutuf gətirməsən$_ı$iz, hamın$_ı$ızı məhv eliyəjəm.

Deellərmiş ki, otuz dokquz nəfər gedir, heş bir iş görə bilmir. Qırxıncı gedəndə hamısı Allaha yalvarır ki, ay Allah, bizim günahımız nədi ki, şahın gözdərini kor eləmisən$_ı$, onun gözdəri açılmır deyə bizim hamımızı məhv elətdirməh isdiyirsən$_ı$. Bizə köməh elə. Bu vax şahın oğlu balıx tutana deer ki, mən də gedəjəm. Balıx tutan şahın oğlunu da götürür, yavaş-yavaş gedillər dəryaya sarı. Balıxçı toru atır, burda da otuz dokquz nəfər balıxçı və onnarın ayilələri Allaha yalvarıllar ki, Xudaya, noolar, bu axırıncıdı, əgər burda bir şey əmələ gəlməsə, deməli, biz hamımız məhv olajeyıx. Yalvarırıx sənə, bizə köməh ol.

Şahın oğlu gedir balıxçıynan. Qırxıncı balıxçı toru atır dəryıya. Allah-taala qismət eliyir, tora elə bir gözəl balıx tüşür ki,

balıxçı otuz, otuz beş ildi bu işnən məşğuldu, hələ onun toruna belə balıx tüşməmişdi. Baxır o yanına, bu yanına, balığın gözəlliyinə heyran qalır. Bu vax şahın oğlu deer ki, əmi, ver, mən də baxım. Balıx tutan əvvəlcə verməh isdəmir. Ürəyi yumşalır, balığı uşağa verir. Uşax da balığı əlinə alır, bunun o yanına baxır, bu yanına baxır, baxır görür ki, Xudaya, dünyanın gözəlliyi bu balıxdadı. Götürür balığı, atır dəryıya. Bu vax balıxçı deer:

– A bala, sən neynədinı? Bəs bizim ayimiz var.

Dedi:

– Mən cavabdehəm, sizdik döyül.

Qayıdıf gəlillər. Balıxçı necə lazımdı, elə də reallıxnan danışır. Uşax da boynuna alır ki, bəli, mən qıymadım ki, o balıx ölsün. Oğlan şahın qəzəbinə gəlir, şah əmr eliyir ki, səhər oğlum dar ağacınnan asılsın. Vəzir, vəkil yığışır ki, padşah sağ olsun, pütün dünya padşahlarında hələ elə bir əmr verilmiyif ki, ata öz oğlunu dar ağacınnan asdırsın. Axır şahın qəzəbi bir balaca soyuyur, oğlunun sürgün edilməsi qərarına gəlir. Ana axşam oğlu üçün azuqə hazırrıyır. Azuqəni hazırrıya-hazırrıya oğluna tövsiyə edir ki, ay bala, gedəsisənı yolnan, bir səhralığa çıxasısanı, üş nəfərə rasdaşasısanı. Birinci rasdaşdığını adama xurcununınan çıxart bir çörəh ver, əgər çörəyin çox parasını sənə qaytarıf, az parasını özünə götürərsə, onnan yoldaş ol. Bir qədər gedənnən sonıra yenə birinə rasdaşasısanı. Söhbət eliyəndə deyərsənı xayiş eliyirəm məni gözdə, bir balaca işim var. Deyəjəh get gəl. Gələndə görsənı ki, dediyi yerdə diyanıf, onnan yoldaş ol. Sonıra gedif bir dəryaya rasdaşasısanı. Dəryıya rasdaşanda, sən yalannan əlini at əyağınıa ki, guya əkqavınıı, coravınıı soyunursanı. Bu müddət ərzində sənnən qavax o soyunuf səni dəryanın bu üzünnən o üzünə keçirərsə, onnan yoldaş olarsanı.

Vax gəlif çatır, oğlanı yavaş-yavaş yola salıllar. Gedif meşənin bir qəliz yerində oğlanı buraxıllar və qayıdıllar geri-

yə. Oğlan yavaş-yavaş gedəndə bir ağsakqal kişiyə rasdaşır. Ağsakqal deer:

– A bala, harya gedirsən$_ı$?

Deer:

– Ay bava, filan padşahın oğluyam, atam məni filan şeyə görə cəzalandırıf.

Hamısını danışır. Yadına tüşür ki, anası buna öyüd-nəsihət vermişdi ki, bu hərəkətdəri eliyərsən$_ı$. Oğlanın yadına tüşür və çörəyin birini xurcunnan çıxardır, həmən qojuya bəxş eliyir. Qoja çörəyi qırır və çox parasını oğlana qaytarır, azını özündə saxlıyır. Yadına tüşür kü, ay Allah, anam demişdi, bəs üş nəfərə rastaşajan$_ı$. Birinci rasdaşdığın$_ı$a çörəyi çıxart ver, çox parasını qırıf sənə qaytarsa, az parasını özündə saxlasa, onnan yoldaş ol. Deer, aha, birini tapbışam. Bir az gedənnən son$_ı$ra deer:

– Məni bağışda, mənim bir yüngülvari işim var.

Deer:

– A bala, nə dəxli var, get, qayıt gəl.

Oğlan gedir. Qayıdıf gələndə görür ki, həmin ağsakqal yerində diyanıf. Deer, anam üş nəfər demişdi, ama mən iki nəfərin xasiyətini bir nəfərdə tapdım. Bir qədər gedəndə dəryıya rasdaşıllar. Oğlan əlini atır coravını soyunmağa, əkqavısını çıxartmağa. Həmin ağsakqal oğlanı dəryanın bu tərəfinnən o tərəfinə keçirir. Deer, Allah, sənə qurvan olum, anam üş nəfər demişdi, ama üş xasiyəti bir adamda tapdım. Ağsakqal deer ki, bala, bax bizim xeyməmiz[93] buradı, yaşadığımız yer bura olajax. Sən filan şahın oğluydun, indi biz dəryanın bu tərəfində, filan şahın sahəsindəyih. Bu sahədə sənə nə lazım olsa, mənə deyərsən$_ı$, mən ona əməl eliyərəm.

Bir müddət keçir. Oğlan eşidir ki, həmən vilayətdə şahın qızının dili tutuluf. Şah qərar verir ki, kim mənim qızımın di-

---

[93] Xeymə – yaşayış yeri

linin qədəyini[94] aşsa, qızımı ona ərə verəjəm. Oğlan qaça-qaça getmək isdiyir ki, qızın dilini aşsın. Ağsakqal baxır ki, uşax qaça-qaça gedir.

Deer:

– Qayıt geriyə.

Oğlan qayıdır geriyə.

Deer:

– Hara gedirsənı?

Deer:

– Bəs mən eşitmişəm ki, şahın qızının dilinin qədəyini aşmax lazımdı.

Deer:

– Bəs mən sənə demişdim axı, bu başqa şahın vilayətidi, nə lazım olsa, manıa deyərsənı. O mənnihdi.

Qoja gedir şahın elçi daşının üsdə əyləşir. Şaha xəvər çatır ki, şah sağ olsun, bəs bir qoja kişi şahın elçi daşının üsdündə oturuf. Soruşmuşux nə üçün gəlif. Deer ki, bəs verdiyiniz elana görə gəlmişəm. Şahın arvadı deer ki, şah sağ olsun, fərz eliyək ki, birdən qızın dilinin qədəyini aşdı. Bəs qızın dilinin qədəyini açannan sonıra qoja kişiyəmi verəjeyih cavan qızı.

Deer:

– Tələsmə, kaş mənim qızımın dilinin qədəyi açılsın, yerdə qalanı bizdihdi.

Çağırıllar qojanı. Qoja deer ki, şah sağ olsun, mən gəlmişəm sizin verdiyinıiz elana görə.

Şah deer:

– A qoja, get işinınən məşğul ol, sən görürsənımi ordakı başdarı, nə qədər münəccimlər gəlif, hamısının boynunu vurdurmuşam, sən də oların tayısanı.

Deer:

---

[94] Dilin qədəyi – dilin alt çənəyə bitişik olması

– Şah sağ olsun, siz əmr vermisinıiz ki, qızımın dilinin qədəyini kim aşsa, qızı ona verəjəm. İndi gəlmişəm, olmuyajax, mən də oların bir tayı olajam də. Noolasıdı ki, olmuyajax, mənim də boynumu vurdurajaxsanı.

Şah icazə verir. Bir pərdə çəkilir, qız o üzündə qalır pərdənin. Bu üzdə isə qoja xayiş eliyir ki, bir xalça, bir dənə də əsa gətirinı. Gətirillər, xalçanı da sərillər, əsanı da verillər qojuya. Qoja əsanı vurur xalçıya, deer:

– Xalça, fərz eliyək ki, bir molla, bir dərzi, bir dülgər yola tüşdülər bir meşiyə. Getdilər, deer, meşiyə. Deer, birdən elə olur ki, mollanı da yuxu aparır, dərzini də. Dülgər meşənin içində qalır yuxusuz. Hər bir ona lazım olan ləvazimat əlindədi. Fikirrəşir, əə, mən neyniyim, boşduxdu, hamı yatır. Dülgər ağaşdan bir adam heykəli düzəldir. Bunu yuxu aparır, dərzi yuxudan oyanır. Baxır ki, adam heykəli var. Həmin heykələ bir qəşəh paltar tikir. Dərziyi yuxu aparır. Molla ayılır. Baxır görür ki, gözəl bir qız heykəli var, gözəl də paltar tikilif. Yalvarır, ay Allah, sanıa qurvan olum, noolar ki, – hərdən də əsanı döyür xalçaya – bəs biz yatanda belə bir şey yoxuydu. Yalvarıram sanıa, and verirəm səninı birriyinə, buna bir səs ver, danışa bilsin. Deer, bu vax Allah-taladan səda gəlir və qız başdıyır danışmağa.

İndi ağsakqal sual verir, deer:

– Xalça, – əsanı döyör xalçıya, – sanıa bir sualım var. De görüm bu qız hasına qismət olmalıdı – molluya, dülgərə, dərziyə?

Qız o tərəfdən deer ki, əlbətdə molluya, çünki ona dil verən molla olufdu.

Şaha səda gəlir çatır ki, bəs qız danışdı. Qızın anası deer ki, şah, sən görürsənımi neynədinı? Sən qızı bu qoja kişiyə ərə verəmməzsənı. Şah çağırır qojanı, deer:

– Qoja, sözümüz sözdü.

Qoja deer ki, şah sağ olsun, mənə bir-iki saat icazə ver, gedim gəlirəm. Gedir oğlana deer:

– Geyin-kejin, gəl eey.

Oğlanı geyindirir-kejindirir, yavaş-yavaş gəlillər şahın hüzuruna. Şaha deellər:

– Şah sağ olsun, bir qoja, yanında da bir cavan oğlan sənin$_ı$ hüzurunda hazırdı.

Deer ki, həə, arvat, görürsən$_ı$ Allah-taalanın qisməti var. Qoja deer ki, şah sağ olsun, o qızı man$_ı$a yox, mənim oğluma toy eliyəh verəh.

Toy eliyillər qırx gün, qırx gejə.

Bir zaman oğlan yatanda yuxusunda anasını görür. Görür anasının gözdəri də kordu. Yalvarır ki, ay oğlum, hardasan$_ı$, bəs səni gözdəməhdən, ağlamaxdan gözdərim kor oldu. Oğlan dözə bilmir, deer:

– A qoja bava, sağ ol, mənnən ötəri hər şey elədin$_ı$. Bax gördün$_ı$, şah öz libasını soyundu verdi man$_ı$a, bu vilayətin şahı oldum. Noolar bu dəfə qaynatama get de mən kiməm, nəçiyəm. Sənin$_ı$ oğlun$_ı$ yox, mən filan şahın oğluyam. Anamın gözdəri kor oluf, gedim bir atamı, anamı ziyarət eliyim, qayıdım gəlim.

Gəlir qoja bunun qaynatasına – şaha deer:

– Şah sağ olsun, bəs deyərsən$_ı$mi, bu oğlan kimdi? Bu oğlan da dəryanın o üzündə olan filan şahın oğludu. Sadəcə mən buna köməh naminə demişdim ki, nə lazım olsa, öz oğlum kimi köməh eliyəjəm. Ata-anasının gözdəri kor oluf, getsin ziyarət eləsin, qayıtsın gəlsin.

Deer:

– Getsin görüşsün.

Qoja, oğlan və qız yola tüşüllər. Evlənən vaxdı qoja demişdi ki, sizin aranıza qılış qoyajam. Mən nə vax qılıcı götürəjəm, onda siz evlənmiş hesab olunajaxsın$_ı$ız. Gəlillər dəryanı keçillər. Qoja deer ki, ay qızım, ay oğlum, bax görürsü-

nıüzmü, orda iqamətgah var. O iqamətgah səninı atanıın – şahın iqamətgahıdı. Gedəndə bu almanı verərsənı atanıa, bu almanı da verərsən ananıa, hər ikisinin gözü sağalajax. Bir müddət gedənnən sonıra deer ki, dəyanını beş dəyqa. Qılıncı qınınnan çıxardır, cumur qızın üsdünə. Qızın ağzınnan bir ilan tüşür. İlan ağzınnan tüşən kimi ilanı öldürür.

Deer:

– Bala, bu ilan bu qızı sevirdi. Könlü isdiyəndə qızın dilinin qədəyini gəlif tuturdu, qıza imkan vermirdi danışmağa. Evlənən müddətdə bunnan əgər siz yatsanıız, səni dilinınən çalajaxdı bu ilan. Ona görə mən sizə icazə vermədim, qılış qoydum aranııza ki, yaşamıyasınıız. Artıx sizin tüşməninıizi məhv elədim və yaxşı baxını, iqamətgaha yaxınnaşırıx. Yadınızda saxlıyını, almanın hasını kimə verəcəhsinıiz.

Oğlan geri baxır ki, kişi yoxdu. Bunlar nəsə nigaran gedillər. Şaha xəvər çatır ki, bəs deməzsənımi, oğlunı gəlir. Şah bir az narazı vəziyyətdə olur. Ona görə ki, atasının gözünün sağalmasına razılıx vermədi, qızıl balığı dəryaya atdı. Anasıynan öpüşüllər, görüşüllər. Atasına ayid olan almanı atasına verir, anasına ayid olan almanı anasına verir. Atasının da gözü sağalır, anasının da.

Burda da qırx gün, qırx gejə toy eliyillər. Oğlan buna baxmayarax narahat olur ki, ya Rəbbim, sanıa qurvan olum, mən çətinə tüşənnən məni asan məqamlara qədər gətirif çatdıran bu qoja nijoldu? Oğlan gejə yatanda qoja yuxusuna girir.

Deer:

– Eey gözəl oğlan, sən fikir eləmə. Səninı yadınıa gəlirmi, balıxçı tor atdı, qızıl balıx tüşdü tora. O qızıl balıx məniydim. Sən mənə qıymadını, atanıın gözdərinə qıydını. Mənim məhv olmağıma qıymadını. Anam məni yanına çağırdı, dedi ki, sanıa yarım il vax verirəm, yarım il düzələndə qayıdıf yanıma gəlirsənı, gəlif oğlana nə köməh eliyifsənısə, hamısını

mənə çatdırmalısanı. Oğlan çox çətinnihlərdə olajax, onun pütün çətinnihlərini sən yox eləməlisənı. Mən səninlə axıra qədər gedə bilərdim. Həmin saniyələrdə anamın mənə verdiyi vax tamam oldu. Getdim anama xəvər verdim ki, oğlanın hər bir sifarişini yerinə yetirdim.

O vaxdan da belə bir məsəl qalıf: "Balığı at dəryaya, balıx bilməsə də, Xalıx bilər". Siz yüz il yaşayını, mən iki əlli, hası çoxdu, özünıüzə götürərsinıiz.

## 10.

Bir paççahın gözü tutuluppuş. Görmörmüş. Dünyada o cərrah, o həkim qalmeyıpmış ki, muna müraciyət elləməmiş olalar. Bir həkim deer ki, ə, munun dərdini mən toçnu bilerəm, amma ələ tüşəsi bir şey döy.

Deer:

– Nədi?

Deer:

– Dəryada bir ağ balıx var, onun qanı bu kişinin gözünə dərmandı. O da insan kimi dil biler. Özünü tora salmeyjax, heş vaxdı salmeyjax. Onu çıxardıf, onun qanınnan ala bilsənıiz, bu paççah sağalar, gözü işığa gələr.

Bunun dilinnən kağız alellar. O gün dəryıya milyonnarnan adam tor ater ki, bəlkə baxdıma tüşdü, padşah manıa bir şey verdi, balığı mən tutom aparem. Balıx görör kü, Xudaya, daa imkan yoxdu, dəryadakı balıxlar da məhv oluf geder. Bu nə qədər gizdənəjəh. Gəler də özü könüllü tora tüşör. Çəker çıxardellar. Baxanda öröllər deyilən balıx budu, gözünün altı xallı, kəhlih kimi, dümappağ, adamın üzünə gülör. Balığı bu torçu əlinə alanda balıx gülör. Deer, həə, deyilən balıx budu. Munu gətirer. Yığışellar bir elə torçu, ölkənin yarsı da burdadı.

– Bunu nağayrax? Kim aparsın?

Paççahın bircə oğlu varıymış vəhər-qəhər, Məhəmmət addı.

Deellər:

– Munu öz oğluna verək. Qoyun$_{ı}$ öz oğlu aparsın. Paççah da o balıx çıxardana bir töhvə verər, verər, verməz də, heç. Oğlunnan gözəl bunu kim isdeer, kim elleyə bilər? Oğlu munu yaxşı saxlıyıf apara bilər dana. Bəlkə, birini heç paççah isdəmer, götürüf oana tulloyjax. Ya suya tulloyjax, ya nağayrajax, neyleyjək, qoyun$_{ı}$ oğlu aparsın.

Ağsakqallar belə məsləhət elleellər.

– Ya Məhəmmət, gə burya.

Gəler.

Deer:

– Bu balığı bircə san$_{ı}$a etivar elleerih. Paççahın öz oğlusan$_{ı}$. Götü apar, atan$_{ı}$ın gözdəri sağalsın. Torçuya da nə verər, verər, öz işidi. Şükür, balıx tapıldı.

Camahat söyünör, əl çaler ki, paççahmızın gözü açılejax. Məhəmmət balığı bir qavda beləjə götürör aparer ki, oana-buana tərpəmməsin. Dən$_{ı}$izdən aralananda Məhəmmət görör kü, balıx munun üzünə baxer, eləjə gülör. Deer, Xudaya, bu nə sirdi? Ə, deer, atam qojaleyıf, vaxdı da keçif, bəlkə də, İlahidən gözü tutuluf. Balıx da bilməsə, Xalıx bilər – elleer də, munu suya tullour. Balıx bir xeylax Məhəmmədin dört böyründə üzör, çırpıner, bir də gülör. Məhəmmət muna tamaşa elleer. Elə beləjə qaler ki, bu nə sirdi? Balıx bir kuruq vuror, bir də ortalıxda dəyaner, gülör. Üçüncü səfərdən son$_{ı}$ra Məhəmmət yoluna tüşör. Muştuluxçu geder ki, deməzsən$_{ı}$, balıx tapıldı.

– Kimdədi, kim gətirer?

Paççah hazırraşıf ki, gözü kutarejax, işıxlı dünyöyü göröjəh. Bu deer, Məhəmmət gətirer, o deer, Məhəmmət gətirer. Məhəmmət tapılmer. Axır taper gətirellər Məhəmmədi.

– A Məhəmmət, balıx hanı?

Başını aşağı salleer.

– A Məhəmmət, balıx hanı?

Başını aşağı saler. Daa demer ki, balıx oycumda güldü, mənim də irəhmim gəldi, suya tulladım.

– A Məhəmmət, balıx hanı?

Bu da yalan danışan oğlan döymüş. Deer:

– Ay dədə, balığı suya tulladım.

Deer:

– A bala, niyə? Deməli, sən balığı mənnən çox isdeermişsən$_{ı}$? Olmaz axı. Sənin$_{ı}$ ata məhəbbətin$_{ı}$ budu? Bunun boynunu fərmana. Cəllatdar aparsın bunun boynunu vursun$_{ı}$!

Görən, bilən deer:

– Əə, öyü yıxılmışın oğlu, özün$_{ı}$ün gözün$_{ı}$ belə, şikəst, vəhər-qəhər bircə oğlun$_{ı}$ var. Bu yaşın$_{ı}$da sən oğlun$_{ı}$un boynunu vurdursan$_{ı}$, san$_{ı}$a irəhmət tüşörmü? Munu burax, qoy çıxsın$_{ı}$ varsın$_{ı}$ getsin.

Paççah gədə, – deer – bu axşamnan bu şəhərdən$_{ı}$ çıxersan$_{ı}$. Elə gedersən$_{ı}$, yerini bilən olmasın. Sən mənim evladım döysən$_{ı}$, get.

Məhəmmət çox fikirrəşer. Deer, bunu hamı mənim başıma töhmət eliyjəh ki, atasının gözünə olan dərmanı bu məhv elleef, bu oğuldumu? Gəl elə sən bu ölkədən çıx get. Özünə bir belə məsləhət verer. Dənizin deer, qırağınnan gedermiş, bekef halda, aj-susuz. Görör, deer, bir səs gəler:

– Oğlan, oğlan, oğlan.

Bu əyağını saxleer. Bir az da geder, görör bir səs gəler:

– Oğlan, oğlan, əyləş, oğlan, əyləş.

Baxer, heş kim yoxdu. Bir az da geder. Üçüncü kərəm də deer:

– Oğlan, san$_{ı}$a demerəmmi əyləş. Kimsən$_{ı}$, nəçisən$_{ı}$, nə karəsən$_{ı}$, bu biyavannan sən haana edersən$_{ı}$, nəyşə gedersən$_{ı}$? Bir məni eşit. Yaxın gəl göröm, nə deersən$_{ı}$?

Yaxın gəler, deer:

– Vallah, söyləməyə dilim gəlmer. Belə bir səf elləmişəm. Bəlkə də, düz elləmişəm. Balıx qucağımda, oycumda güldü, balığı suya tulladım, atam da manıa bu cəzıyı verdi. Mən bu ölkədən çıxmalıyam.

Deer:

– Bə bəyaxdan belə denən dana. Məni yoldaş elleərsənımi?

Deer:

– Vallah, yoldaş Allah yoldaşıdı. Məsləhətsə, gedəh mənnən.

Deer:

– Adını nədi?

Deer:

– Məhəmmət.

Deer:

– Bə səninı adını nədi?

Deer:

– Mənim adım Əvəzəxeyirdi.

Bu munun dalınnan gələn oğlan deer. Əvəzəxeyir qamışdıxdan çıxıf gəlmişdi.

Deer:

– Məhəmmət, gəl burda sənnən bir şərt kəsəh.

Deer:

– Nə şərt?

Deer:

– Ya sən böyüh ol, ya mən böyüh olom. Qazanca ederik, yaşamağa ederik. Bir kəlmə, sən böyüh olsanı, mən dillənmeyjəm. Mən böyüh olsam, bir kəlmə səninı dillənməyə ixdiyarını yoxdu. Mən öz bildiyimnən gedejəm.

Məhəmmət muna belə baxer deer:

– A qardaşım, sən mənnən həmi bir az hündürsənı, həmi də deyəsənı zehinnisənı. Sən böyüh ol, mən səninı kiçiyinı

olom. Nə desən$_{ı}$, mən ona qabulam. Daa sənin$_{ı}$ bir kəlmən$_{ı}$ iki olmoyjax.

Deer:

– Getdih.

Gedəllər, gedəllər, gedəllər, bir kəndin qulağına[95] çatallar. Burda iki dənə dijurnı buları saxlıyar.

– A bala, kimsin$_{ı}$iz, nəçisin$_{ı}$iz, nə karasın$_{ı}$ız?

Əvəzəxeyir deyər ki, həkimik.

Deer:

– Allah öyn$_{ı}$ü yıxsın, həkim nədi? Ə, dilin$_{ı}$i saxla.

Deyəndə deer:

– Nədi, niyə saxleeram dilimi?

Deer:

– Həkim sözünü işdətmə. Paççah otuz dokquz həkimin başını vurduruf, minara yapmağa təh bircə kəllə qalıf, başın$_{ı}$ızdan orda minara yapılejax.

– Nədi?

Deer:

– Paççahın bir qızı var, anadangəlmə laldı. Dili danışmer. Otuz dokquz həkimin boynunu vurduruf paççah. Kim həkiməm deef, aparıf, onu sağalda bilmeyif, boynunu vurduruf. Sən qırxıncısan$_{ı}$. Sən geri qayıt, yazıxsan$_{ı}$, özün də cavan.

Deer:

– Mən danammaram, mən həkiməm.

Deer:

– Yaxşı, günahın$_{ı}$ öz boynun$_{ı}$a.

Çapar geder ki, təzə bir həkim gəlif. Ha deyənətən paççahın hüzuruna çatdırellar həkimi. Məhəmmət də munun yanında dimməz-söyləməz, qara bulut kimi geder. Deer, onsuz da mənimki ölümdü, atama da atkaz elləmişəm, elə çöllühdə

[95] Kəndin qulağı – kəndin girişi

ölüjəm. Harda baxdıma nə gətirər, gətirər. Gəlellər paççahın yanına.

– Salamməleyküm.

– Əleykəssalam.

– A bala, kimsin$_{ı}$iz, nəçisin$_{ı}$iz, nə karasın$_{ı}$ız, hası şəhərdənsin$_{ı}$iz, hası oblastansın$_{ı}$ız, müsəlmansın$_{ı}$ız, nə millətisin$_{ı}$iz?

Bu deer:

– Həkiməm.

Deer:

– Çox gözəl, ay oğul. Gə sənnən belə bir müqavilə bağlıyax. Bir qızım var, xəsdədi, laldı. Onun dilini aça bildin$_{ı}$, dünya malınnan səni qane elleerəm, açammadın$_{ı}$, kəllədən minara yafdırmışam, sən də fərmandasan$_{ı}$. Razısan$_{ı}$mı?

Deer:

– Mən razı.

Məhəmmət quruyur qaler ki, daa ölümmüz elə burdadı.

Deer:

– Qızın$_{ı}$ hardadı?

Deer:

– Qızım bax orda, o otaxda.

Deer:

– Mənnən onu görüşdürərsən$_{ı}$mi?

Deer:

– Görüşdürrəm.

Əvəzəxeyir deer:

– Otağı boşaldın$_{ı}$, heş kim bu həndəvərrərdə olmasın.

– A Məhəmmət, otu orda.

Məhəmmət oturor burda. Qıza salam verer. Qız başınnanca belə elleer *(Söyləyici baş tərpədib səssizcə salam almağa işarə edir – top.)*. Dili yoxdu axı.

Deer:

– Mənim qəşəh bajım, ağıllı bajım, sən dünya maralısan$_{ı}$, səndə nə var ki? Heççənə yoxdu. Vallah, səndə xəsdəlih-zad yoxdu. Sənnən, a qızım, a bajım, bir söz xavar alejam. Sən Allah, fikirrəş, onu düz de.

Bu başınnan belə-belə elleer ki, *(Söyləyici baş tərpədib nəyisə təsdiqləməyə işarə edir – top.)* bəli, deyərəm. İndi Əvəzəxeyir qıza nağıl elleer. Deer:

– İki qardaşıymışdar. Birinin təh bircə qızı olor, o biri qardaşın üç oğlu olor. O qızı olan kişi o qəddər kasıvıymış, o qəddər imkansızıymış ki. Qardaşı oğlannarı orya etdihcən ürəyinnən şahadətdih verermiş ki, bulara mən nə bağışdeem ki, buların konlu xoş olsun.

– Oğul, heş nəyimiz yoxdu. Vallah, bu qızımı san$_{ı}$a verejəm.

Bu yazer blaqnotuna, civinə qoyor ku, əmim filan ayın, filan tarixində qızını man$_{ı}$a verdi. Bu geder. O biri gəler. Nağıl çox uzundu. Bu ünvannan bir qızı üş qardaşı oğlunun üçünə də behleer. Kişi səf tüşör. Daa demer ki, bunun savağı da var də. Üçünə də söz verer ki, qızımı san$_{ı}$a verejəm. Bir gün bu varrı qardaş oğlannarına öz tay-tuşunu yolloor ki, a bala, vax keçer, öylənin$_{ı}$.

Deer:

– Atam məsləhət biler, yaxşı.

Böyüh oğlunnan xavar aler:

– Kimin qızını seversən$_{ı}$?

O deer:

– Vallah, utaneram deməyə, əmim o vaxdı man$_{ı}$a belə bir söz verif, bax bu da kağızı, qızını man$_{ı}$a verif.

İkinci oğlunu çağırtdırer. Bu da deer ki, ay ata, mən utaneram deməyə, vallah, Quran hakqı, əmim man$_{ı}$a da o sözü deef, filan ayın, filan tarixində buları yazmışam, bu da qızın şikli. Onu da bu tərəfə keçirer. Üçüncüsünü çağıranda üçün-

cüsü də həmən sözü deer. Deməli, əmisi bir qızını üş qardaşı oğluna aylə qurmağa təhlif elleyef ki, sanıa verejəm. Bu da yoxsulluxdan əmələ gəlif, nəvlem, boşduxdan əmələ gəlif, dilxoşduxdan əmələ gəlif, nəsə, belə alınıf. Bu uşaxlar da qaler naçar, kişi də qaler naçar, anası da qaler naçar.

Deer:

– Bunu nağayrax? Bə başqa bir əlaç yoxdumu?

Üçü də deer ki, əmimqızını mən alejam. Muna başqa söz yoxdu, mən ona vurulmuşam o vaxdan. Bu eşqi heş kim söndürəmməz.

Deer:

– Yaxşı, madam beləsə, onda bir məsləhəççi çağırax.

Məsləhəççi çağırellar ki, buları bir yona gətirməh[96] lazımdı də. Bu işi birtəhər eləməh lazımdı ki, sakitdih olsun. Deer:

– Ağsakqal, buları neyleyim?

Deer:

– Gəl buları yolloyax qazanca. Hası çoxlu qazaşnan gəlsə, qız onun olsun, daa o birrər əl çəhsin.

Bulara deyəndə buların üçü də bayavoy hazırraşer, deer:

– Gedəh. Kim çoxlu qazaşnan gələr, qız da onun olar. Elimiz-ovamız, ağsakqalımız düz deer. Daa dalaşıf bir-birmizi qırmağın yeri nə?

Bular yola rəvan olor. Gedellər, gedellər. Gedəndə öröllər üş yol ayrıcı var. Bir yol üş yerə ayrıler. Biri belə eder, biri belə eder, biri də belə. Burda da bir daş var. Deellər ki, hərəmiz burya bir nişan qoyax. Hərə qayıdanda öz nişannı götürsün. Bilək ki, daldan qayıdıv o kəndə gedif. Qayıtmıyanda ki, qayıtmeyjax. Üç ayın müddətinə, artıx uzatmıyax, burdan qayıtmalıyıx. Bular məsləhətdəşellər. Bir də daşı belə hərrənəndə göröllər ki, birinə yazılıf ki, gedər, çoxlu qazaşnan gə-

---

[96] Yona gətirməh – yönə gətirmək, yoluna qoymaq

lər, birinə yazılıf ki, gedər-qayıtmaz, birinə də yazılıf ki, gedər-gələr. Fikirrəşer, kiçih qardaş deer:

– Ə, bu gedər-gəlməz yolnan mən gedejəm. Mən sizdən jivoyam, qoçağam. O birisiləri də siz bölün.

Böyüh qardaş deer ki, mən bu gedər, çoxlu qazaşnan gələnə edəjəm. O biri də gedər-gələr yolnan gedəsi olor. Bu kiçih də gedər-gəlməz yola tüşör. Hər kəş öz yoluna davam elleer. Gedellər, gedellər. Böyüh qardaş, a qızım, başqa bir ölkədə bir doxdura rasd olor. Deer, daa burda alimlər, doxdurrar eleymiş ki, qoyduxları diyaqnoz düz olormuş. Geder, deer, bu doxdura ürcah olor. Bunnan oturar, söhpət elleər. Buların ayləsində qalar. Oğlan doxdura məseleyi danışer. Doxdur bu oğlana deer:

– Ay oğlan, sən mənim əlimə göydən tüşüfsən$_ı$.

Deer:

– Nədi?

Deer:

– Vəhər-qəhər bircə qızım var, onu san$_ı$a verejəm. Doxdurruğu, elmi da san$_ı$a örgədejəm. Özünün də toynu mən eleyjəm. Ninersən sən bir də ata vətənnə qayıdıf? Bunnan yaxşı şərayiti sən hardan tapejaxsan$_ı$? Qardaşdarın$_ı$ da özü bilər, nolar, olar.

Kişi həkimliyi bu oğlana tam örgəder. Son$_ı$ra qızınnan muna toy elləməli olor, a bala.

– A bajım, yaxşı qulax asersan$_ı$mı?

Lal qız belə-belə başını əyer ki, hə. Deer, vax gəler çater. Bunun o biri qardaşı da geder bir kişiyə irasd olor, fala baxannıx örgəner ki, iki dünyədə nə hadisə var. Bu da belə, bu da işini tam quror. Bu kişi də həmən şəkildə deer:

– Sən kənara çıxmeyjaxsanı. Mənim hamayam[97] altda olojaxsanı. Tasını qurojaxsanı, harda nolajax, onu biz bilejiyih. Sanıa kəndə qayıtdı yol yoxdu.

O biri qardaşının başına nələr gəler? Bu bulardan aralanannan sonıra iki-üç ay əziyət çəker. Qavağına üş dənə div çıxer. Görör kü, bular biri-birini vuror, dağıder, çınqıleer[98], parçaleer. Biri deer:

– Orda bəni-insan var deyəsənı, gedəh ona məslahat eliyəh.

Deer:

– Gedəh elleyəh.

Gəlellər bu kiçih oğlana deellər ki, səni yimerih, öldürmörüh. Biz dalaşerıx, sən bizi sülh ellə.

Deer:

– Neylem sizi?

Deer:

– Sülöyman peyğəmbərin sürfəsi, əmmaması, xalçası bizdədi. Mən deerəm, yekəqarın şeyəm, dünyanın parasını yiirəm, sürfə mənim olsun, o deer, sürfə mənim olsun. Üçümüz də sürfənin üsdə dalaşerıx. İndi sən munu bizə böl. Qoy biz sülh olax, bir-birimizi qırmıyax, sanıa da dəymerih.

Həə. Oğlan deer:

– De göröm, bunun əmması nədi?

Deer:

– Xalçanın üsdünə minersənı, gözünü açıf yumanda filan yerdə olom, orda olorsanı. Sürfuyu açersanı, dünyanın nazı-neməti ordadı, nə yiirsənı, yi. Əmmameyı başınıa qoyorsanı, heş kimin gözünə görükmörsənı. Bunun əmması budu. Bax munun üsdə bir-birmizi qırerıx.

---

97 Hamayam – himayəm

98 Çınqıleer – dağıdır

Oğlan deer:

– Çox gözəl. Məndə bir yay-ox var. O dağa bir ox atejam, o dağa bir ox, bu dağa da bir ox. Bir, iki, üç. Oxları atdım. Yeri manışır[99]. Kim tez gətirsə, sürfə onundu. Bunnan gej gələnə əmmama, onnan gej gələnə xalça.

Bular parpışa-parpışa[100] gedellər. Bu da ajınnan ölörmüş. Deer, ya Sülöyman peyğəmbərin sürfəsi, ə, bir açıl göröm, içində nə var, ajınnan ölmörəmmi? Açanda görör dünyanın nazı-neməti bu sürfənin içində. Xudaya, nə yoxdu. Tələsihli-tələsihli bunnan bir-iki tikə aler. Gözü işıxlananda üsdündə oturor bunun:

– Ya Sülöyman peyğəmbərin xalçası, gözümü açıf yumanda öröm mən böyüh qardaşımın yanındeyam.

Gözünü açıf yumanda örör kü, qardaşı əlində iki dənə vedrə su aparer bulaxdan. Bu baxanda görör munun qardaşı həkimdi. Öpüşör, görüşöllər.

– Ə, əyləş.

Əyləşer.

– Xoş gördüh, ə.

Deer:

– Nağayrdını, neynədinı?

– Ə, – deer, – mən qalası oldum, a qardaş, sən get, əmim qızı səninı halalın olsun. Mən burda qalası oldum.

Belədi, belədi, hamsını mən sanıa söhbət ellədiyim kimi bu kiçih qardaşa söhbət elleer.

Kiçih qardaş deer:

– Vejinə də qoyma, düzəlejəh hər şey. Mən səni qürbətdə qoymaram. Suyu apar ver. Gəzməh bəhanəsinnən əyninıə paltarınıı-zadı da götü, gəl burya.

Deer:

---

[99] Manışır – bəlli
[100] Parpışa-parpışa – dalaşa-dalaşa

– Nədi?

Deer:

– Mən gedejəm, səni də aparejam.

Deer:

– Mən getmeyjəm.

Deer:

– Niyə?

Deer:

– Daa qalejam burda. Bizim piçetdi kağızımız var, pasportdanmışam, daa mən bu familyeyi götümüşəm.

Deer:

– Yaxşı, oldu, get, gəl, görüşəh.

Bu geder, gəler, əynini-başını təmizdeer. Bu sürfuyu açer, deer:

– Bir çörəh yiyəh bir yerdə, axır ayrılıxdı. Sən qalersan$_{ı}$, mən gederəm.

Sülöymən peyğəmbərin nazı-nemətinnən yiillər. Deer:

– A qardaşım.

Deer:

– Ha, nədi?

Deer:

– Nə gözəl xalçadı. Gəlsan$_{ı}$a, bir munun üsdündə oturasan$_{ı}$.

Bu da əler munun üsdündə oturanda bu deer:

– Ya Sülöymən peyğəmbərin xalçası, biz gözümüzü açıf yumanda örəh ortancıl qardaşımızın yanındeyıx.

Bir də gözdərini açanda öröllər ki, ortancıl qardaşı burda qavağında deer, şey dınqıldader, baxer, nağarer.

– Ə, qardaş, bu nə sufatdı?

Deer:

– Deməzsən$_{ı}$mi, mən fala baxanam. Dünyənin harasında nə var, burdan mən görörəm.

Deer:

– Çox gözəl. Bə fikrin nədi?

Deəndə deer ki, daa mən qalejam burda.

Deer:

– Çox gözəl. Yaxşı, otur burda, bir-iki kəlmə söhbət elleyəh. Ajsan$_{ı}$mı?

Deer:

– Yox, yimişəm.

Kiçih qardaş onda deer:

– Gəl bu xalçanın üsdündə oturax üçümüz də. Axır ayrılıxdı, daa bu qardaşım da qaler, sən də qalersan$_{ı}$, kəndə təhcə mən getməliyəm. Atan$_{ı}$ıza, anan$_{ı}$ıza sözün$_{ı}$üz nədi, onu deyin$_{ı}$.

– A qızım, eşidersən$_{ı}$mi, a bajım, eşidersən$_{ı}$mi?

Lal qız başınnan belə-belə elleer ki, eşiderəm.

Deer:

– Yaxşı.

Burda oturollar. Kiçih qardaş gənə deer:

– Ya Sülöymən peyğəmbərin xalçası, gözümüzü açıf yumanda örəh həmən qoyduğumuz daşın, o yol ayrılan daşın divindeyih.

Gözdərini açıf yumanda öröllər ki, həmən daşın divindədilər. Hər kəş özünün nişanəsini götürör. Deer:

– A qardaşım, sən yaxşı tasa, fala baxansan$_{ı}$. Bir falını vur görəh, kəndimizdə nə var, nə yox, atam, anam nətəərdi?

Bu gətirer falı ortalığa qoyur da, başdeer zırhazır ağlamağa.

– Ədə, niyelleersən$_{ı}$, öyün yıxsın, noldu san$_{ı}$a?

Deer:

– Əmim qızını yüətə çıxardıflar[101]. Ölüf, rəhmətə gedif. Bax ona ağleeram.

Bunun o biri qardaşı deer:

[101] Yüətə çıxardıflar – yumağa çıxardıblar.

– Aaxxx, Xudavəndi-aləmin altda o qız yüətdən çıxanatan məni orya çatdıralar, bu sikunt mən orda olum. Vallah, mən ona elə bir dərman verərəm ki, çatan kimi o qızı ayılda billəm.

Deer:

– Gəlin$_{ı}$ sizi mən aparem. Oturun burda.

Xalçanın üsdündə oturollar. Deer:

– Ya Sülöyman peyğəmbərin xalçası, biz gözümüzü açıf yumanda örəh əmimizin həyətindeyıx.

A mənim bajım, hamı görör kü, oğlannar gəlif. Hamı ağlaşer, buları qucaxleer ki, qız öldü. Həkim camaatı belə yarer, deer ki, geri durun$_{ı}$. Dərmannı gətirer çıxarder. Qızın burnuna ilədər. Qız axsırer, qalxer, g…üsdə oturor. Özünü yığışdırer, deer ki, noluf, nəyə yığışıfsın$_{ı}$ız? Millət görör kü, qız ayıldı. Qızı bu oğlan dirilder.

A qızım, a bajım, indi sənnən bir söx xavar alem, sən Allah, xətrinə-zada dəyiv elləməsin. Bu qız bu oğlanın hasına tüşör indi? Bax biri üç aylıx yolu gətirif, biri dərmannan sağaldıf, biri də tasa baxıf, bilif. Bu qız munun hasına tüşör?

Qız elə-belə qalxer deer:

– Mənim qardaşım, həkim həkim hakqını alejax, tasa baxan hakqını alejax. O qız o üç aylıx yolu gətirif ona çatdıran oğlana tüşör.

Pəhhh. Şapalax, əl çalmax, pütün dünyə bir-birinə dəyer ki, qız dillənif. Paççahın özü qulağınnan eşider ki, qızı danışdı, dedi ki, üç aylıx yolu gətirən oğlana tüşör.

Əvəzəxeyir bir acca qımışdı, Məhəmmədin qırışığı açıldı, şənnəndilər. Əvəzəxeyir paççaha işarə ellədi, dedi:

– Yox, qızın hələ tam sağalmeyıf.

Dedi:

– İndi nə var?

Dedi:

– İndi də bir problem var. A qızım, bu nağılım, bu sualım lap yunıulcadı[102].

Bir bəziryanın deer, yanında üş nəfər varıydı, biri dərziydi, biri dülyəriydi, biri molloydu. Gejə əldilər deer, çöldə, biyavanda qaldılar, gejələdilər. Nööbə çəhməh dülyərə tüşdü. Dülyər gördü yuxusu gəler, deer, rəndəsini, pışqısını[103]-zadı töhdü. Beş dəyqiyə ağaşdan bir zənən yaratdı, qoydu orya. Dərziyi dürtmələdi ki, nööbə sənindi, qalx. Nööbə deer, dərziyə tüşdü. Dərzi deer, oana-buana böühdü[104], görür ə, bir nəfər artırıflar. Baxdı, oana-buana qurdaladı, gördü kü, bu, dülyərin işidi. Yuxusu gəlməməyçün munu elleef. Bu da gətdi də deer, yuxusu gəlməməyçün muna bir yaxşı alxaradan[105] paltar tihdi, muna geyindirdi, mənim bajım. Sonıra molluyu dürtmələdilər ki, dur, nööbə səninıdi, indi də sən nööbə çəhməlisənı. Molla deer, baxanda ördü bir qadın oturor. Bildi ki, bu dülyərnən dərzinin işidi. Sübh namazına durdu, yönnü Hakqa çöyürdü. Dedi:

– Xudaya, sənnən muna can dileerəm. Bular belə elleef, sən də mənim diləyimi eşit, namazın üsdəyəm.

Muna Allah-taaladan can gəldi. Qız axsırdı da durdu, bir göyçəh qız ortalığa çıxdı. A mənim bajım, bu qız munun hasına tüşör?

İndi qız dillənər:

– A qardaşım, dülyər dülyər hakqını alejax, dərzi də dərzi hakqını alejax. O qız molluya tüşör.

Şapalax çalındı, öppəh, qurvan kəsməh, biri-birinə qarışdı. Paççah yeridi gəldi, dedi ki, oğlan, hər şey kutardı, qaydasına tüşdü, daa qız danışer əməlli-başdı.

Dedi:

---

[102] Yunulca – yüngülcə
[103] Pışqı – mişar
[104] Böühdü – döyükdü, çaş-baş qaldı
[105] Alxara – parça növü

– Oğlan, indi də siz məni eşidin$_ı$. Siz hardansın$_ı$ız?

Bu da dedi:

– Mən Şınıxdanam.

Həə, belə-belə, söybət ellədilər. Dedi:

– Mənim də bir arzum var. Mən Allahdan diləmişdim ki, bu qızı kim kutarsa, bu qızı muna verejəm. İndi a həkim, bu qız sizindi. İsdeersin$_ı$iz, burda toyun$_ı$uzu elleem, isdeersin$_ı$iz kəndin$_ı$izə aparın$_ı$, orda toy ellən$_ı$. Həncəri[106] elleersin$_ı$iz, elləən$_ı$, qız sizinkidi, götürüf aparejaxsın$_ı$ız, daa bu mənim qəti sözümdü.

Əvəzəxeyir dedi:

– A Məhəmmət, dur.

Burda qızın atası yaxşı toy ellədi, kəcavalar düzəltdi, cehiz tutdu, məkanna üz tutdu – Məhəmmədin atasıgilə doğru. Məhəmmət fikirrəşdi ki, Xudaya, mən atamın üzünə nətəər gedem? Əmmə dillənməyə ixdiyarı yoxuydu, Əvəzəxeyirə tabeydi. Gəldilər, gəldilər o yerə ki, orda tapışmışdılar. Burya çatanda Əvəzəxeyir dedi:

– A balam, a qardaşım, sən burdan gəlifsən$_ı$, mən burdan. Bura bizim ayrılığmızdı. Məni düz başa tüş.

Deer:

– Nə deerəm?

Deer:

– İndi biz yoldaşıx, hər şeyə yarıyıx, bu qızın qolunnan tut, bir yanı sənin$_ı$di, bir yanı mənim.

Məhəmmət deer, yönnü belə çöyürdü, ağladı. Qız o qəddər qənirsiz göyçəyiymiş, Məhəmmət muna vuruluppuş. Əvəzəxeyir deer:

– Qolunnan tut.

Deer:

– Nağayrejaxsan$_ı$?

---

[106] Həncəri – necə, nə təhər

Deer:

– Buna qılıncı elə salleyjam, elə çapejam ki, tən yarı olajax, yarsı sənin, yarsı mənim, yarsı sənin əlində gedejəh, yarsı da mənim.

Qız da deer, beləjə donuf qalıf.

– Ə, tut.

Bu da Əvəzəxeyirin sözünnən çıxa bilməz. Yönnü buana çöürör də, qızın qolunnan tutor ku, nağayrım, hökümdü, mən buna tabıyam. Qızın belinnən tutor, ya Əli elleer. Qılıncı belə uxarı qaldırer.

– Hıı.

Qız qorxor, "ööh" elliyəndə ağzınnan deer, bir əjdaha tüşör. Əjdahanın başnı kəser.

– Ə, niyə belə ellədin$_{ı}$, a Məhəmmət, ə, yekə kişisən$_{ı}$, ə, qızın qolunnan tut, munu mən yarı bölməliyəm.

Bu qaydeynan qızın ağzınnan üç əjdaha çıxer, qarnınnan, mədəsinnən gəler. Həə. Başını kəser. Deer:

– A Məhəmmət.

Deer:

– Bəli.

Deer:

– Bu qızı danışmağa qoymuyan bax bularıydı. Mən də munu sənnən yarı bölməliydim. Bizim qazancımız bircə budu, qazancımız yarı olmalıydı. İndi bilersən$_{ı}$ nə var?

Deyəndə deer:

– Nə var?

Deer ki, indi bu san$_{ı}$amı tüşör, man$_{ı}$amı tüşör? Bax munu sənnən isdeerəm.

Gənə deer, dilləmmer.

Deer:

– A Məhəmmət, mən böyüh olduğuma görə mən şərti şumda kəserəm. Bilersən$_ı$ nə var? Bu səfər qızı elə böləjəm ki, nə san$_ı$a gedejəh, nə man$_ı$a. Tut qolunnan.

Məhəmmət gənə yönnü belə çöyürür. Bu qılıncı qaldıranda qız deer ki, a qardaşım, sağaldım, vallah, daa dirildim, qüsurum qalmadı, çappa məni.

Deer:

– Yaxşı, a bajım, çappadım.

– Ayə, a Məhəmmət?

– Ha.

– İndi sən öyə həncəri gedejəhsən$_ı$?

Deer:

– Nəvlem, a Əvəzəxeyir, gederəm.

– A Məhəmmət, o qəflə-qatırın yanında bir putulka var, böyründə asılıf. Yeri onu burya əti.

Məhəmmət geder putulkoyu gətirer.

Deer:

– A Məhəmmət, munu əlində belə tut.

Əvəzəxeyir öz barmağnı pıçaxnan belə çırter də, deer:

– Putulkoyu bəri tut.

Öz qanınnan putulkoyu dolduror. Deer:

– A Məhəmmət, munu möhgəm-möhgəm sarı pambıxnan, qoy dəvəə, gedəndə munu atan$_ı$ın gözünə çəkərsən$_ı$.

Deyəndə Məhəmmədi ağlamax tutor. Deer:

– Sən nə danışersan$_ı$, sən mənnən gedejəhsən$_ı$.

Dənizin deer, qırağındeymış. Deer:

– Gedejəm, o nə söhbətdi, ayıf döymü, səni buraxarammı? Hələ bir gör o gələn kimdi? – elliyəndə deer, Əvəzəxeyir balığ olor da, suya tullaner. Ordan deer, gülə-gülə Məhəmmədə əl elleer, deer:

– Bu qanı aparar atan$_ı$ın gözünə çəkərsən$_ı$. Deer, mənim adım Əvəzəxeyirdi, yəni əvəzini verdim. Balığı tulluyarsan$_ı$ suya, balıx bilməsə, Xalıx bilər.

Məhəmmət təzdən ürəhlənər. Küllü miqdarda cehiz gətiripbiş, yoluna rəvan olor. Məhəmmət gəldi təmtərağeynan. Elçi göndərdi ki, atama denən məni qabul elləsin, gözünün dərmannı gətimişəm. Atası onu qabul ellədi. Qavaxcadan kacavadan gəlin tüşməmiş, cehiz tüşməmiş Məhəmmət getdi, qanı atasının gözünə damızdırdı. Atasının gözü sağaldı. Toy toya qarışdı.

Qızım, bəxdi gələn qızdardan ol. Mənim dalımnan gedifsən$_ı$, əziyətimi çəkifsən$_ı$. Qoy munnan, bax bu nağıllardan san$_ı$a bir bəxşiş olsun, sənin$_ı$ ruzun$_ı$ bol olsun, canın$_ı$ sağ olsun. Allah san$_ı$a ağ günnər versin.

## 11. PADŞAH QIZI VƏ KASIB OĞLAN

Bir zalım padşah varıydı. Bunun da fırıldaxçı bir vəziri varıydı. Bu padşahın bir öyladı yoxuydu ku, ölənnən son$_ı$ra varına-halına yiyə dursun. Bir günnəri padşah eyvanda oturuf qəm dəryasına qərq olmuşdu. Bunu görən vəzir gəlir ki, padşah sağ olsun, sənə nooldu ku, qəmlisən$_ı$?

Deer:

– Ay vəzir, fikirrəşirəm, görəsən$_ı$ mən ölənnən son$_ı$ra mənim varıma-halıma kim sahib çıxajax?

Deer:

– Padşah sağ olsun, elə bu?

Deer:

– Məyər bu azdı kı, belə deersən$_ı$?

Deer:

– Günü elə indi gəl sənə bir arvat alax, onnan sonıra uşağını olar, varınıa-halınıa yiyəlih eliyər.

Deer:

– Mən razı.

Şaddıx məclisi düzəlir, toy olur, padşaha üçüncü arvat gəlir. Pütün hamıya xavar çatır kı, padşaha arvat gəlir. Padşah əmr eliyir ki, kasıflara şirinniy paylıyını.

Günnər keçir, dokquz ay tamam olur, padşahın dünyaya bir qızı gəlir ki, Aya deer, sən çıxma, mən çıxajam, Günə deer, sən çıxma, mən çıxajam. Qız böyüyür, o gün olur ku, on beş yaşına çatır. Qız elə bir qız olur ku, eldən-ovadan bu qıza nə qədər elçi tüşür. Qız heş birinə razı olmur. Bir gün bir qarnı ac, bir qarnı tox olan bir oğlan yatır yuxuda görür, əyə, padşah öz qızını bu oğlana ərə verir. Oğlan yuxudan ayılır kı, ana, bu dəyqə get, padşahın qızını manıa elçi elə.

Anası deer:

– A bala, kiri, bunu padşah eşitməsin, yoxsa ikimizi də öldürtdürər.

Savax açıler. Oğlan əl çəhmir ki, ana, sən bu dəyqə get elçiliyə. Anası çarəsiz qalır, durur. Çırcırdır[107] şahın sarayının qavağına, bir daşın üsdündə oturur. Padşaha xavar gedir ki, bir dilənçi sizi görməh isdiyir.

Padşah deer:

– Buraxın içəri.

Arvadı içəri buraxıllar. Arvat padşahın qavağında diz çökür, yalvarır. Axır kı, sözünü açır kı, padşah sağ olsun, mənim oğlum yuxuda görüf kü, sən qızınıı ona ərə verirsənı. Padşah deer ki, oğlunı nəçidi?

Deer:

– Padşah sağ olsun, naxıra gedir.

---

[107] Çırcırdır – qaçaraq gedir

Deer:

– Bə varı?

Deer:

– Bir cırıx-söküh komamız, bir qırıx taxdımız var.

Padşah deer ki, get oğlun$_{ı}$u mənim yanıma göndər. Arvat söyüncəh qaçır evə. Görür kü, oğlu yolda anasının yolunu gözdüyür. Qaçır qavağına:

– Ana, nə dedi?

– A bala, səni görməh isdiyir.

Elə ağzınnan söz çıxmamış qaçır padşahın sarayının qavağına. Padşaha xavar gedir ki, bir dilənçi oğlan gəlif yanın$_{ı}$a, səni görməh isdiyir. Oğlanı içəri buraxıllar.

Padşah deer:

– Mənim qızıma sən aşiq olufsan$_{ı}$?

Deer:

– Hə, padşah sağ olsun.

Deer:

– Onda get mənə heş vax solmuyan gül var, onu tap gətir.

Oğlan deer:

– Baş üsdə.

Padşah öz-özünə deer, ora getsə, qayıda bilmiyəjəh, qurda-quşa yem olajax, mənim də canım kutarajax. Oğlan dan qarannığı anasını durğuzur ku, ana, mənim yoluma yiməh hazırra, padşah razıdı, mənə deer ki, solmuyan gül var, onu tap mənə gətir, qızı apar. Səhər tezdən durur quşdan qənəd, qatırdan dırnax alır. Gəlif gülün məskəninə çıxır. Görür bir qala var, dörd bir yanı hasarrı. Ağzında bir div oturuf. İndi gəl sən keş burdan, gül qopart. Oğlan görür kü, div yuxuya getdi, durur hasardan keçir o biri tərəfə. Görür kü, burda bir qızı saçınnan asıflar.

Oğlan soruşur:

– Ay qız, sənin$_{ı}$ günahın$_{ı}$ nədi ki, bu günə tüşüfsən$_{ı}$?

Qız deer:

– Div yuxudan ayılana kimi tez elə burdan get.

Oğlan deer:

– Mən bura gül dalınca gəlmişəm, o gülün yerini mənə deginən.

Qız deer ki, qavağa get kölgəliyə, sən deyən gül ordadı, qopart, tez qayıt, divin ayılan vaxdıdı. Oğlan irəli gedir, görür kü, gül ordadı, gülün şöləsi ətrafa yayılıf. Ordan gülü qopardır, qayıdır qızın yanına kı, sən mənə belə yaxşılıx elədinı, mənnən isdəyinı nədi? Qız deer ki, heş nə, tez ol, çıx burdan, div ayılsa, ikimizi də öldürəjəh. Oğlan burda qızdan ayrılıf sağollaşır. Gəlir qalanın ağzına, burdan da keçir qayıdır geri, dərələr keçir, çaylar keçir, dərələr-dağlar aşıf gəlir çıxır diyarına. Gəlif görür kü, anası yolda oturuf ağlıyır, oğlunun yolunu gözdüyür. Ana oğlunu görən kimi atılır oğlunun boynunnan qucaxlıyır, yalvarır.

Oğlan deer:

– Ana, atımızı saxla, gedim gülün şehi, ətri getməmiş padşaha verim.

Sübh çağı padşaha xavar gedir ki, bir dilənçi oğlan sizi görməh isdiyir. Padşah barmağını tişdiyir ki, bu, həmin oğlan olajax, buraxın içəri. Oğlanı içəri buraxıllar. Padşahın hüzurunda baş əyir:

– Padşah sağ olsun, al gülləri.

Padşah alır, qoyur qırağa, öz-özünə deer, mən indi bunu harya göndərim ki, gələ bilməsin.

Səhərsi oğlan anasını bir də padşahın yanına göndərir ki, ana, gör toy eləməyə razılıx verirmi? Anası eyni qaydaynan bir də gedir.

Padşah deer:

– Oğlanı bir də yanıma göndər.

Oğlan gəlir padşahın hüzuruna, baş əyir ki, padşah sağ olsun, mənə görə nə qullux?

Padşah deer:

– İndi də get mənə ilan südü gətir.

Oğlan baş əyif saraydan çıxır, gəlif anasıynan görüşüf, evdən, obadan, mahaldan çıxır. Qırx gün, qırx gejə yol gedir, gəlif çıxır ilannarın diyarına. Bir az dincəlif ucadan ah çəkir ki, Allah, sən məni nişannımnan qovuşdur – deef girir ilannarın oylağına. Bir az irəlilədihdən son$_ı$ra görür kü, burda bir sal daş var, bunun parıltısı o dağdan bu dağa tüşür. Bir də görür kü, daşın üsdündə bir ilan yatıf, özünü günə verir. Bu ilan ilannar padşahıymış, baxır kı, bu yaralıdı, bunun yanında dünya gözəli bir qız var, ilanın yarasın$_ı$a yelliyir. Qız deer:

– Ay oğlan, kimsən$_ı$, buralara nejə gəlif çıxıfsan$_ı$?

Oğlan deer:

– Ay qız, mənim bura gəlməyimin səbəbi sevgilimə qovuşmaxdı. Qızın atası mənnən ilan südü tələb eliyir ki, mənə ilan südü tap gətir, qızı verim.

Bu vax səsə ilan yuxudan ayılır:

– Burada kimsə var.

Qız oğlana deer:

– Qaç get buradan.

Oğlan qaşmır. İlannar padşahının qavağında diz çökür. İlan yaralı olduğunnan isdiyir duruf bunu öldürsün. Qız yalvarır kı, bu oğlan bura süd dalınca gəlif. İlannar padşahı deer ki, mənim yaramı durna teli ilə yellə. Oğlan çıxır uca dağ başına. Görür kü, durnalar baş alıf gedir. Ucadan ah çəkir. Durnadan bir dənə tel ayrılıf tüşür oğlanın qavağına. Oğlan teli gətirif çıxır ilannar padşahının yanına. Teli qıza verir. Qız üfləyir, yara sağalır. İlan qalxır kı, ay oğlan, mən oxuyajam, sən get irəli, o tikin başına çıx. Oğlan gedir.

İlan deer:

– Yeddi addım irəli, yeddi addam geri, yeddi dəfə yuxarı, yeddi dəfə aşağı.

Bunu deyəndə yer aralanır.

Oğlan görür kü, yerin altında bir qav var. Yer açıldı, göyə işıx saçır. İlannar padşahı qıza əmr edir ki, get o igidə bir nimçə süd ver. Qız gəlib götürür südü, oğlana verir. Oğlan qayıdır ki, ey böyüh padşah, sən mənə, mən də sənə halal eliyəh. Burda xudafisdəşib ilannar məskəninnən baş götürüf qayıdır obasına, elinə. Yoruluf yolda tüşür, bir bulax başında oturuf dincəlir. Bir də görür bir yolçu gəlir.

Oğlan deer:

– Yolçu qardaş, gəl bir otur, dincələh.

Yolçu oturur.

– Obada, eldə nə var, nə yox?

Yolçu deer ki, başınıa dönüm, bu gün padşahın qızının toyudu. Oğlan bunu eşitcək tez duruf atdanır, gəlir evlərinə. Görür kü, anasının gözdəri ağlamaxdan kor oluf.

Deer:

– Ana, aş gözlərinıi, gör kim gəlif, oğlunıam.

Ana oğlunu qolları arasına alır.

– Ana, nə xəvər-ətər var?

Ana heş nə demir ki, demir. Oğlan gedir görür ki, bir şaddıx məclisi düzəlif, gəl görəsənı. Oğlan qulluxçunun birinə deer ki, tez padşaha xəvər ver ki, ilanın südünü gətirmişəm. Qulluxçu gedir padşaha deer. Padşah bunu eşitcəh halı pis olur. Vəzir, vəkil, qulluxçu gəlir ki, padşah, sizə nə oldu?

Deer:

– İndi onu mən hara göndərim, getsin, gəlməsin.

Bu yannan qıza xəvər gedir ki, oğlan gəlif çıxıf. Deer:

– Ata, manıa qırx gün möhlət ver, sonıra məni köçürərsənı.

Bu yannan da padşah oğlanı vəzirə tafşırır ki, bunu elə bir yerə göndər, bir də qayıtmasın. Vəzir deer:

– Padşah sağ olsun, gedər-gəlməzdə bir alma var, onu hər kim yesə, qocalmaz.

Oğlana deellər bu xəvəri. Sübh çağı oğlan quşdan qanad, qatırdan dırnax alır. Gəlif çıxır alma olan yerə. Görür ki, bura qarannıx bir mağaradı. Burda iki dənə incəbelli qız var. Qızdar bunu görcək deer ki, sən kimsən$_{ı}$, burya gəlifsən$_{ı}$? Tez çıx get burdan, yoxsa div səni parça-parça eliyər.

Oğlan deer:

– Mən bura alma dalın$_{ı}$ca gəlmişəm.

Qızdarın buna yazığı gəlir. Deer:

– Yeddi ağaşdıx get, ordan dediyin$_{ı}$ almanı qopart, tez qayıt, div bilsə, üçümüzü də parçalıyar.

Oğlan yeddi ağaşdıx gedir ki, əyə, bura cənnətdi, quşdar ötür, güllərin ətri hər yanı bürüyüf. Ordan almanı qopardıf qayıdır, qızdarnan görüşüf çıxır. Baxır ki, bu yolu çıxıf gedənə kimi qızın toyu olajax. Ata minif qamçı çalır. Otuz dokquzuncu günü gəlif çıxır elinə, ovasına. Padşaha vəzir xəvər verir ki, almanı oğlan gətirif, indi nə tədbir tökək, padşah sağ olsun. Padşah görür kü, yox, bu oğlan yaxşı oğlandı. Bilir ki, bu işdə paxıl vəzirin hiyləsi var. Cəllatdara əmr eliyir ki, bu vəziri bir dəli qatırın quyruğuna bağlıyın$_{ı}$, bir qamçı vurun$_{ı}$. Elə də eliyillər. Son$_{ı}$ra padşah təzədən qırx gün, qırx gejə toy eliyir. Qızını həmin bu oğlana verir. Onnar yiif-içif kef eliyillər, siz də firavan yaşıyın$_{ı}$.

## 12. SƏXAVƏTLİ QIZ

Bir padşah olur. Padşah vəziri yanna çağırır, deer:

– Vəzir, mən gündə bir dənə adam çağıreram, ona yiməh-işməh verərəm, bir dənə də qızıl verərəm.

Deer:

– Ay padşah, ay canın$_ı$ sağ olsun, məsələ, Şəmxor kimi yerdə bir dənə padşah var. Gündə əlli adam da getsə, əlli adamı yidirer-içirer, bir dənə də qızıl verer, çıxıf geder.

Deer:

– Ə, dağ-daş qızıl olarsa da, genə muna dözməz. Hancarı ola ki, bu əlli adam getsin, qırx adam getsin, otuz adam getsin, yidirtsinnər, içirtsinnər, hərəsinə də bir qızıl versinnər.

Deer:

– Padşah, vallah belədi.

Deer:

– Boynun$_ı$u vurdurajam, əgər düzünü danışmasan$_ı$.

Deer:

– Yaxşı.

Deer:

– Gedəjiyih, əgər ki, həqiqətdən də o padşax o qayda elleysə də, biləjeyih.

Bular şərtdəşellər, eleellər də, gedellər Şəmxora çıxellər.

– Salamməlöykü.

– Əlöykümsalam.

– Padşah hardadı?

Deer:

– Bax ordadı.

Deer:

– O yolnan getsən$_ı$iz, adamları gəlif sizi aparajax.

Yolnan gedəndə adamlar qavağını kəser.

– Gəl gedəh, yiin$_ı$-için$_ı$.

Deer:

– Ə kişi, yiif-işməh bizə lazım döyül, biz çıxıf yolnan gederih.

Deer:

– Elə şey yoxdu, bizim padşahımız bizi işdən çıxardar o sahat. Gəlin$_ı$, çörəh yiin$_ı$, onnan son$_ı$ra çıxın$_ı$ gedin$_ı$.

– Yaxşı, yaxşı.

Bular da bunnan ötrü gəlmişdilər da. Gətirdilər, götürdülər. Bular da başdadılar yidilər. Bular çıxanda hərəsinə bir qızıl verdilər. Getdilər hərrəndilər, elədilər, o gejəsi yatdılar. Səhərisi bir də gəldilər. Genə yidirdilər. Yiən vaxdında dedilər:

– Biz çörəh yimiyəjiyih.

– Nəyə görə yimeysin$_{ı}$iz?

Dedilər:

– Biz bu padşahı görməh isdeerih.

Dedi:

– Padşah sağ olsun, iki nəfər dəvriş gəlif. Deer ki, biz padşahı görməsəh, çörəh yimiyəjiyih.

– Yaxşı, buraxın$_{ı}$ gəlsin$_{ı}$.

Gəlellər.

– Salamməlöykü.

– Əleykümsalam.

Padşahnan görüşöllər, eleellər.

Deer:

– Sənin$_{ı}$ bu sirrin$_{ı}$ nədi? Buna dağ-daş da qızıl olsa, dözməz, gündə buları hardan alersan$_{ı}$?

Deer:

– Siz o sırrı bilməhçün gedəjəhsən$_{ı}$iz Gənciyə. Gəncə şəhərində bir oğlan var. O oğlanın sırrını örgənif gəlif man$_{ı}$a dəəndə, mən sizə sırrımı dəəjəm.

Deellər:

– Baş üsdə.

Bular durollar yol getməyə başdeellar. Gedif Gənciyə çıxellar.

– Ə, deellər, belə bir oğlan var, qapısında bir çinar var, özü də padşahlıxda işdeer. Oğlan çinarın başına çıxanda gülə-gülə çıxer, enəndə ağləə-ağləə ener. Bax bunun sırrı nədədi? Biz onu axdarerıx.

Deer:

– Bax odu, ordadı.

Gedellər ora, göröllər bir yaxşı, gözəl-göyçəh oğlandı.

– Salamməlöykü.

– Əlöykəsalam.

– Ay oğlan, biz sənin sırrını öyrənməyə gəlmişih. Nəyə görə bu çinara çıxanda sən gülə-gülə çıxersan$_ı$, enəndə ağleersan$_ı$?

Deer:

– Ay qardaş, ağlın$_ı$ız kəssə, gəlin$_ı$ bu sırrı mənnən öyrənmeyin$_ı$. Əgər bu sırrı öyrənməh isdeersin$_ı$izsə, gedin$_ı$ Yevlaxda bir pinəçi var, o pinəçinin sırrını örgənif gəlif man$_ı$a desən$_ı$iz, mən onda sırrımı sizə dəərəm.

Deellər:

– Yaxşı.

Bular yol başdeellar gedellər. Yevlax şəhərinə çıxellar.

– Salamməlöykü.

– Əlöykəsalam.

– Ə, deellər, burda bir pinəçi var, o pinəçi çox yaxşı pinəçidi, amma bizi bir dizinə batırer, bir dilinə batırer, bir də əkqavı tiker.

Deer:

– Ay qardaş, bax odu, ordadı.

Gəlellər ki, bunun dilinnən qan tökülör.

Deellər:

– A kişi, de görəh sənin$_ı$ dərdin$_ı$ nədi ki, dilin$_ı$nən qan tökülör?

Deer ki, mən o sırrımı heş kəsə deməmişəm, ancax sizə dəəjəm.

Deellər:

– Yaxşı. De da.

Deer ki, mən pinəçiyəm, görörsünüz. Hər gün köhnə əkqavıları tikerdim, bir abbası alerdım, nəvlem, iki abbası aler-

dım, üç abbası da alan günüm olordu. Onu da yuannığa-çörəyə, filana, ətə-zada verif aparerdım. Bu, mənim dolanışığımdı. Üzümü Xudavənd-aləmə tutdum. Xudaya, Xudavənd-aləm, sanıa agahdı axı, mən bax havaxatan belə dolanajam axı?! Mənim gündəlih çörəyimnən başqa bir manat gəlirim yoxdu, mən nağayrem?

Xudavənd-aləm hamının işini onıartsın[108]. Allah-taala eşider, mənim baxdımı-taleyimi göndərer. Səhər ertə işə gəldim. Həə. Gəldim deer, əkqavı tihməyə. Əkqavını tihməyə başdeerdım ki, bir kişi iki çüt əkqavı gətirdi:

– Buların böyürrərini yama.

Bir yamax bir əkqavıya, bir yamax da o biri əkqavıya saldım. Götürüf çıxartdı manıa beş manat verdi.

– Ay yoldaş, a başınıa dönöm, bu, bir abbası elleer. Sən niyə beş manat verersənı?

Deer ki, ay kişi beş manatınıı al, verdim dana sanıa, nə isdeersənı?!

Beş manatı alıf civimə qoydum. Axşam oldu, söyünə-söyünə gedif yaxşı bazarrıx-zad elədim, varıf getdim öyümə. Dedim, arvat, hal-qəzyə belə. Bir kişi gəldi, iki çüt əkqavı gətirmişdi, hərəsinin böyrünə bir yamax saldım, hərəsi bir abbası ellerdi, beş manat verdi manıa.

Deer:

– Ay kişi, Allaha şükür, indi bəlkə də bəxdinıə-taleyinıə bu çıxıf. Gə otur, çaynıı-çorəyinıi ye.

Çayımı-çörəyimi yidim. Axşam yatdıx. Səhər üzünıüzə xeyirrihnən açılsın, səhər açıldı. Genə də çay-çörəh yiif tükənə gələn kimi gördüm həmən kişi genə gəldi. İndi bir çüt əkqavı gətirdi.

– Bunun böyrünə, burasına bir yamax sal.

---

[108] Onartsın – avand eləsin

Saldım, elədim, deer, çıxartdı manıa on manat verdi.

– A kişi, sən dünən də beş manat verifsənı axı, niyə verersənı bu pulu?

Deer:

– Ə kişi, vererəm ki, sən də dolan dana.

Dedim:

– Yaxşı.

Bir gün belə, beş gün belə, axıratan bu kişi beş manat, on manat, otuz manat, əlli manat verer. Qəşəh varrandım. Arvada dedim:

– Arvat, padşahın xəzinəsini yarıflar. And olsun Allaha, bu kişi xəzineyi yarıf. O kişi gətirif o pulu manıa verer, səhərisi günü gəlif manıa dəəjəhlər ki, padşahın xəzinəsinin yarsını sən oğurroofsanı. Mən gedif padşaha deməliyəm bunu.

– A kişi, etmə-eləmə, ə, baxdınıa çıxıf, Allahına şükür elə.

Nə qədər ellədi arvat, bunun sözünə baxmadım. Getdim padşahın yanına.

– Salamməlöykü.

– Əlöykəsalam.

– Padşah sağ olsun, səninı xəzinənıi yaran adamı tapbışam.

– A kişi, nətəri tapıfsanı?!

– A kişi, bir çüt əkqavı yameyram, əlli manat verer manıa. Bir dəfə beş manat verdi, bir dəfə on manat verdi, bir dəfə iyirmi manat verdi, bir dəfə otuz verdi, bir dəfə qırx verdi, axırda da əlli manat verdi. Bax belə-belə, manıa nə qədir pul verif bu adam. Xəzinənıi yaran adam odu.

Deer:

– Onda heş-dat demə, getginən kirimiş səhər ertə, sən orda işinıdə olginən. Gətirif pulu verəndə mənimkilər orda pusajaxlar. Onda onu tutajaxlar. Yaxşımı?

– Yaxşı.

Deer, çıxdım gəldim. Genə səhər ertə başdadım tihməyə. Bir də ördüm həmən kişi genə gəldi, ördüm bir çüt əkqavı gətirif genə.

– Bunun burasını da tih, burasını da.

Bu dəfə də çıxartdı da, yüz manat verdi.

– A kişi, belə şey olmaz, bu nədi beləsinə?!

Dedi:

– A kişi, vererəm, götür apar, xərşdə, ye dana, a bədbaxd oğlu. Nə isdeersənı?!

Onatan patşahın adamları başdeer bunu tutmağa:

– A kişi, sən bu pulu hardan alersanı?

Deer:

– Bax, mən ordan almışam.

Bular belə baxanda göröllər kişi yoxdu.

– Ayə, bu nətəri şeydi? Ə, bu kişi nijoldu?!

Özüm də məhəttəl qaldım. Bu, çıxdı getdi. Ancax getməmişdən qavax manıa deer ki, mən, öyünı yıxsın, səninı taleyinıiydim, baxdınııydım. O baxdınıı ki, Allaha yalvardını, o verdi. İndi yiərsənı.

Burdan da padşahın adamları məhətdəl qaldılar ki, bu adam nijoldu, hara qeyb oldu. Bular deer, çıxdılar getdilər. Padşaha da dedilər ki, a kişi, belə-belə, gətirdi, yüz manat da verdi, sonıra da bizə dedi, ordan almışam. Bizə belə baxını dedi də, onnan sonıra da qanrılıf baxanda gördüh ki, yoxdu. Ancax ona bir söz dedi ki, mən sənin baxdınıam.

Padşah dedi:

– Həə. O adamın baxdıymış, gətirif o adama verermiş.

İndi mən getdim öyə, gördüm gətirdiyim pulun bir manatı da yoxdu.

– Öyünı yıxılsın, sən nağayrdını ki, gətdiyinı pulların bircə manatı tapılmer? Ayə, sən nağayrdını?

Deer:

– Arvat, bu dilim qurusun, bu əəxlarım, qılçalarım qırılsın.

Ona görə də oturanda birinci dizimə batıreram ki, a dizim, səni qırılginən, niyə ora gederdin$_ı$? İkinci dilimə batıreram ki, a dilim, lal ol səni, niyə gedif padşaha bu sözü deerdin$_ı$. Ona görə də bu dizimnən də qan tökülör, bu dilimnən də qan tökülör. Mən bu gündöyüm, mənim sırrım budu.

Ordan qayıdellar gəlellər həmən oğlanın yanına. Onun sırrı budu, budu, budu. Nijə ki, mən söylədim, bu formuda da oğlana söylööllər.

Oğlan deer:

– Mən padşahlıxda işdeerdim, atam da o vaxdın taciriydi. Çox varımız-halımız varıydı. Məni padşahlıxda piser[109] qoydu. Bir gün gördüm ki, bir dünya gözəli qız qapıdan belə keçer. Buna vuruldum.

– Ana, mən öldüm, o qızı gör man$_ı$a ala bilersən$_ı$mi?

Dedi:

– Ay bala, görəh gəlermi, eleermi? Bəlkə, o gözəllihdə qız san$_ı$a gəlmiyəjəh.

Dedim:

– Bilmerəm, taa nağayreysan qayır, mən xəsdələndim taa.

Səhər üzünüzə xeyirriyə açılsın – genə səhər ertə qız gəlif belə keçəndə arvat gəlif qavağını kəsdi:

– A qızım, səni and vererəm Allaha, mənim oğlum sənnən ötəri xəsdələnif. Bir onun yanına get. Göröm ona gedərsin$_ı$, getməzsin$_ı$, bir bax.

Gəldi qız içəri girdi, gördü bir gözəl-göyçəh oğlandı.

– Gedərəm, ancax bu şərtə gedərəm. Man$_ı$a nə söymüyəjən$_ı$, nə pis söz demiyəjən. Mən nə tutsam, onu mənnən soruşmuyjan$_ı$. Əgər onu mənnən soruşuf örgənəsi olsan$_ı$, mən səndə elə bil yoxam. Yaxşımı?

[109] Piser – katib, mirzə

– Yaxşı.

Şərtdəşdih, elədih. Bu qız man$_{ı}$a gəldi. Toy-filan elədilər. Bir oğlumuz oldu. Anam bu qıza gündə bir çörəyin dörddən birini verer. Bu qız yiir, doymor, eləmer. Bir də görördün$_{ı}$ dilənçi gəler. Deer ki, sən Allah, o mənim çörəyimin bir hissəsi qalıf, onu o dilənçiyə ver, noolar. Dilənçiyə verer, dilənçi alxış oxuya-oxuya geder.

Bir gün iki dilənçi gəler. Görör, ikisinin də əəğı yalındı. Hava da sööxdu.

Deer:

– Ay xala, səni and vererim Allaha, o dilənçilərin əəxları yalındı. Hərəsinə bir çüt çarıx verginən, varımız-varyatımız həddinnən artıxdı. Havax kişi san$_{ı}$a o çarıxlardan ötəri bir söz desə, mən onu yola gətirəjəm.

Arvat getdi də buryu-oryu eşələdi, köhnə, altı cırıx çarıxları orəə yığmışdı. Gətirdi də, bunnan hərəsinə bir çüt cırıx çarıx verdi, hərəsinə də bir beləsinə çörəh verdi.

– Ay xala, dedim təzə çarıx ver, sən nağayrdın$_{ı}$, niyə belə elədin$_{ı}$?

Dedi:

– A bala, mən hər gələn dilənçiyə çarıx versəm, məndə çarıx qalmaz.

Ağzına gələni qıza dedi. Qız da kirimiş durdu. Beş gün belə, on gün belə. Dedim:

– Ağız, sən niyə yaxşılanmeysın$_{ı}$, sən günü-günnən geri gedersən$_{ı}$.

Daa demer ki, anan$_{ı}$ man$_{ı}$a belə elədi, fehman elədi, belə çörəh verdi, nağayrdı.

Arvat bir gün xəsdələndi. Ay qonu-qon$_{ı}$şu dedi, ayə, arvat ölör. Qız gördü ki, Azreyil bunu kəsir. Öyü qan götürür. Arvadın bir əlində çarıxlar, bir əlində çörəhlər. Gəlin elə gülör, elə gülör ki, nətəəri! Gördü ki, Azreyil bunun nəfəsini kəsdi. Qız

tez sıçradı da, palazın üsdünə çıxdı. Hamsı yığılıflar burəə. Camahat mətəl qaldı, ə, bu niyə güldü də, sıçradı orəə çıxdı. Heş-dad demədim. Şərt qoof axı, heş-dad demiyjəhsinıiz manıa.

Dedim:

– Onda başınıza dönöm, gəlinı, anamı aparax basırax. Qoy bu da burda qalsın.

Aparıf arvadı basırdıx. Qayıdıf gəldih.

Axşam oldu. Dedim:

– Arvat, indi düzünü de göröm manıa, sən niyə güldünı mənim anamın ölümünə, onnan sonıra da o yükün üsdünə çıxdını?

Dedi:

– Mən sanıa dedim ki, mənnən heş-dad soruşmagınan, əgər mənnən bir də soruşsanı, mən bu sırrı sanıa söyləsəm, sən nə mənim, nə də oğlunıun üzünü görmüyjənı.

Dedim:

– Ola bilməz. Oların manıa hamsını subut elə.

Dedi:

– Gəl gedəh qavırsannığa.

Getdik qavırsannığa. Qız namaz qıldı. Üzünü Allaha tutdu – bu, sən demə, məleykələrdəndi, dedi:

– Allah-taala, sanıa da agahdı. Aç bu qavrı!

Qavrı aşdı. Gördüm ki, həmən çarıxlar anamın bir əlindədi, çörəhlər də bir əlində.

Dedi:

– Bax ona gülördüm. Təzə çarıxları vermədi, köhnə, altı cırıx çarıxları verdi o dilənçilərə. Mən ona güldüm, çörəyə bax, əlindəki cırıx çarıxlara bax. Ananıın o dünyada günüsaadı bax budu. İndi day razı qaldınımı?

– Qaldım.

– Di, gəl gedəh öyə.

Gəldih öyə. Savax açıldı, üzünüzə xeyirrixnan açılsın.

Dedi:

– Sən sağ, mən də salamat. Mən kutardım taa sənnən.

Elə dedi də, oğlunu da götürdü, ikisi də göyərçin oldular, pırr elədilər də, çinarın başına uşdular. İndi peşman oldum, oğlum da getdi, arvadım da. Gördüm, çinarın başındadılar. Gülə-gülə çinarın başına çıxdım, əlimi isdədim atam, bulardan birini tutam, oğlumu tutam, ya arvadımı. Gördüm, pırr elədilər, uşdular da getdilər. Qayıtdım ağləə-ağləə tüşdüm yerə. Olar gəlellər hər səhər ertə o çinarın başına tüşöllər, mən çıxeram gülə-gülə, tuta bilmerəm, qayıdıf ağləə-ağləə tüşörəm. Mənim də dərdim budu.

Dedi:

– Çox sağ ol. Sənnən də bunu örgəndih.

Gəldilər Şamxorun padşahının yanna.

– Salamməlöykü.

– Əlöykəsalam.

Dedi:

– Bax bu sırrı biz öyrəndih də gəldik.

Bu sırrarı nijə ki mən söyləmişəm, bular da bu padşaha söylööllər.

Dedi:

– Onda mən sırrımı söylööm sizə. Cavan bir qızıydım. Mən Xudaya, Xudavənd-ələmə üzümü tutdum. Xudaya, Xudavənd-aləm, camahat yaxşı dolaner, biz pis dolanerıx, kasıvıx. Xudaya, Xudavənd-aləm, bizə də bir urzu yetir. Onatan gördüm, dərviş libasında bir kişi gəldi, dedi:

– A bala, ala bu dərməni, getginən padşahlıx aşginən orda, bu dərməni də o daşdara beləsinə töhdühcə hamsı qızıl olajax. O qızılı əritdir də, camahatın hamısını varrandır. Mən də gəldim, səfdim, elədim. Bax indi gəlinı, o dağın, minarənin dalı dağlıxdı, hamısı da qızıldı. İndi başqasının gözünə görün-

mör, ancax mənim gözümə görünör. Xudavənd-aləmə üz tutaram, sizin$_{ı}$ də gözün$_{ı}$üzə görünər.

Xudavənd-aləmə üz tutdu, bulara da göründü ki, bunun hamsı qızıldı, burdan əridellər, burdan da camahatın hamsına verellər.

Dedi:

– Mənim də sırrım bax budu. Ona görə də mən o dağındaşın hamısını qızıl eləmişəm ki, bu camahatı varrandırem, camahatı dolandırem. İndi bax ona görə bu camahatın hamısı məni çox isdeer.

Dedi:

– Sən ərə gedifsən$_{ı}$mi?

Dedi:

– Yox. Mən o adama gedəjəm ki, o adamın qəlbi Allahnan düz olsun.

Dedi:

– Mənim də qəlbim sənin$_{ı}$ kimi Allahnan düzdü, filan yerin də padşahıyam. Gəl evlənəh.

Dedi:

– Evlənəh.

Orda toylarını elədilər. Vəziri də göndərdi öz yerinə padşah. Hər ikisi xoş, xurram, ədalətdi, vijdannı camahatı dolandırdılar, özdəri də dolandılar.

## 13. TƏNBƏL ƏHMƏD

Bir şah olur. Şahın gözünün ağı-qarası bir qızı olur. Bu qızı hədsiz çox isdiyir. Qız həddi-buluğa çatıf, on səkgiz-on dokquz yaşındadı, daa ər vaxdıdı. Şah qızın yanında vəzirnənvəkilnən söhbət eliyir, sual verir ki, evi kişi tikir, yoxsa kadın tikir? Bular hamısı şaha yaltaxlanıf deer:

– Evi kişi tikir.

Qız ordan qalxıf deer:

– Yox, evi kadın tikir.

Şahın acığı tutur, deer:

– Bunu aparın$_{ı}$ boynunu vurun$_{ı}$.

Vəzir-vəkil məslahat eliyir ki, əyə, bunu biz öldürsəh, şahın indi ajığı tutuf, ajığı soyuyannan son$_{ı}$ra bu bizim hammızı qırajax. Vəzir-vəkil məslahat eliyillər. Deellər:

– Şah sağ olsun, bu şəhərin kənarında bir Təmbəl Əhməd var. Bunu Təmbəl Əhmədə aparax verəh, öldürməhdən belə yaxşıdı. Qoy öz bəlasını özü çəhsin. Zulum çəhsin, onda qanajax.

Belə də eliyillər. Bu söhbəti eşidən kimi bu qız xəlvəçcə civinə xəzinədən beş-altı xışma qızıl tulluyur. Taa indi aparıllar bunu uzaşdırmağa[110]. Buna vəzir-vəkil də heş nə demir. Gətirillər. Gəlir görür ki, bir uçux daxmadı, daxmanın içərisində bir qarıdı. Qarıdan da an$_{ı}$arıda bir oğlan yatır palazda, Allah görkəzməsin, illərnən yatıf, uşax vaxdınnan yığılan kirpas bu palazdadı, iydən durulası döyül. Qav-qacax yoxdu, çömçələrini ağaşdan-zaddan düzəldif birtəhər günnərini keçirillər. Bu qız əlini civinə saldı, qızıldan qarıya verdi ki, get burya qav-istəkan, nəlvəki-boşqaf al gəti. Qarı getdi, elə də elədi. Gözü açılıf qarının, yiməh-filan aldı gətirdi.

– Ay Allah, nə yaxşı bunu yetirdin$_{ı}$ bizə.

Apardı pişirdiyi pişmişdən yatdığı yerdə Təmbəl Əhmədin qavağına qoydu. Yataxdan tüşmür Təmbəl Əhməd. Bu kravatda başdadı yiməyə. Qız bu dəfə də qarıya pul verdi, dedi:

– Get bura mələfə al, palaz al, filan al, bazarrıx elə, gətir.

Bu getdi üş-dört dəst palaz-filan aldı gətirdi. Həə, bunu tüşürdülər kravatdan. Tüşürdülər, əyağına çəkələt-filan verdi-

---

[110] Uzaşdırmaq – uzaqlaşdırmaq

lər. Bu, əyağ üsdə durdu. Yavaş-yavaş stolda oturdu, yiməyi bunnarnan baravar yidi. Qız qoluna girdi, eşiyə çıxartdı bunu, eşihdə hərrədi. Beş-on gün belə buna qulluğ elədi. Bu başdadı çıxıf hərrənməyə. Daa baxdılar ki, bu işə-zada qarışır.

Qapıynan karvan keçirdi. Baxdı karvanbaşı bu qızı tanıdı. Dedi:

– Ağız, sən şahın qızı döyülsən$_{ı}$mi?

Dedi:

– Həə.

– Burda nəəzirsən$_{ı}$?

Dedi:

– Bax buna gəlmişəm, bu Təmbəl Əhmədə.

Dedi:

– Bunu ver man$_{ı}$a, aparım özümnən, gələndə də hakqını verim.

– Əhməd, gedirsən$_{ı}$mi?

Dedi:

– Həə.

Bunu qoşdu bulara, dedi:

– Nə badə Əhmədin başınnan bir tüh əysih ola, yerini yurd eliyərəm.

Bular getməhdə olsun. Getdilər, getdilər, bir qumlu səhra düzə yetdilər. Yol kutarmır ki, kutarmır. Buların suyu kutardı. Karvanın həmi heyvannarı susuz qaldı, həmi özdəri. Bir quyunun başına çatdılar. Quyunun başında dedilər, bu quyuya bir nəfəri sallıyax, bizə su çıxartsın. Həmi heyvannar işsin, həmi də özümüz. Kimi salladılarsa, bir az gedənnən son$_{ı}$ra kışqırdı:

– Allah, yandım, Allah, yandım!

Bir az gedənnən son$_{ı}$ra qaytardılar çəhdilər. Axır bir nəfəri elə yandım deyə-deyə salladılar. Bu getdi tüşdü yerə. Baxdı ki, quyunun içinnən bir qapı var. Bu qapıyı aşdı, içəri girdi, salam verdi.

Dedi:

– Əlöykəsalam.

Baxdı ki, burda bir dev oturuf. Qənirsiz gözəl bir qız saçınnan göydən asılıf. Dev də əlində bir yekə qurvağeyi belə-belə sığallıyır *(Söyləyici əllə sığal çəkməyə işarə edir – top.).* Bu, içəri girən buna baxdı.

Dedi:

– Ə, nə çox baxırsan$_ı$?

Dedi:

– Heş nə, baxıram dana.

Dedi:

– San$_ı$a bir sual verəjəm. Əyər bildin$_ı$, san$_ı$a su da verəjəm, diri də yola salajam. Bilmədin$_ı$, səni bircə dəfə duvara vurajam.

Bu naələc qalıf də, məjburdu. Dedi:

– Ver sualını.

Dedi:

– Denən görüm, gözəl gözəl olur, yoxsa göz tutan gözəl olur?

Bu bir az fikirrəşdi, fikirrəşdi, dedi:

– Əlbətdə ki, gözəl gözəldi də, İlahi buna verif, gözəldi.

Qalxdı bunun yaxasınnan tutdu da, duvara nətəri yapışdırdısa, elə duvarda qaldı şəkili. Dev qayıtdı yerində oturdu, yenə qurvağeyi sığallamağa başdadı. Bu vax Əhmədə dedilər ki, Əhməd, gəl səni göndərəh, görəh bu niyə gəlmədi. Bir belə vaxda bu, gəlməliydi axı. Əhmədi salladılar. Əhməd gəldi, əyağı yerə dəydi. Baxdı ki, burda bir qapı var. Qapıyı açıf içəri girəndə gördü ki, bir qız saçınnan asılıdı. Qənirsiz gözəl qızdı. Bir dev də oturuf, əlində bir qurvağa var, bu qurvağeyı sığalleyır belə-belə.

Dedi:

– Sən də gəldin$_ı$?

Dedi:

– Həə.

Dedi:

– San$_{ı}$a bir sualım var. Tafdın$_{ı}$, sənnən qardaş olajam, tafmadın$_{ı}$, səni də o divara yapışanın yanına yapışdırajam.

Dedi:

– De də.

Dedi:

– De görüm – qurvağeyi sığalleyir belə-belə – gözəl gözəl olur, yoxsa göz tutan gözəl olur?

Dedi:

– Burda qarannıx bir iş yoxdu. Mənim adım Təmbəl Əhməddi. Əgər gözəl gözəl olsa, o saçınnan asılanı sığallarsın$_{ı}$, sən əlində bir qurvağeyi tutuf sığallamazsın$_{ı}$. Deməli, sənin$_{ı}$ gözün$_{ı}$ o qurvağeyi tutuf, onu sığallıyırsan$_{ı}$, o san$_{ı}$a onnan gözəldi.

Dedi:

– Afərin. Sən düz tafdın$_{ı}$. İndi san$_{ı}$a mən qardaş deerəm, qardaş olajam sənnən.

Dev su verdi bulara. Kəndiri qurdaladılar, Əhmədi çəhdilər. Əhməd gedən vaxdı bu dev saçınnan kəsdi verdi Əhmədə ki, harda işin dara tüşdü, yandır. Ala, bu altı dənə narı bağışdıyıram san$_{ı}$a. Apar, evə də yolla – yoldaşın$_{ı}$a, özün$_{ı}$ də yəərsən$_{ı}$, xarşdəərsən$_{ı}$.

Bu narrarı da götürdü, çıxdı. Bular getdilər. Burdan geri qayıdan üş-dörd nəfər oldu. Bularnan bu narın üçünü Əhməd evə – arvadına yolladı.

– Bu üç narı aparıf ona verərsin$_{ı}$iz, – dedi.

Bildilər də hardan götürüflər bunu. Təmbəl Əhməd getdi bularnan. Bu adamlar da geri qayıtdı, gəlif bunun evinin yanında arvadını çağırıb dedilər ki, bu narrarı Əhməd san$_{ı}$a göndərif. Bu da bir az şad oldu. Həə. Gətirdi bu narı kəsməyə,

narı kəsəndə gördü, ayə, bu adi nar döyül, bu ləl-cavahirdi içində. Bunun bir dənəsinnən şahın pütün xəzinəsini almax olar. Qız usta çağırtdı, materyal töhdürdü, filan elədi. Şahın evinnən artıx ev tihdirdi burda.

İndi güləfirəngidə oturuf qız yola baxırdı, göröm Təmbəl Əhməd havax gəler. Baxdı ki, karvan gəldi, Təmbəl Əhməd gəldi burda tüşdü də, karvannan ayrıldı. Belə ayna-bayna baxır. Qızın əlinin altda qulu-filanı varıydı. Adam göndərdi qullarınnan. Qulu göndərdi, dedi:

– Gedin$_{ı}$ Əhmədi gətirin$_{ı}$!

Getdilər, tutdular Əhmədi, dedilər:

– Bu sənin$_{ı}$ öyün$_{ı}$dü, arvadın$_{ı}$ tihdirif.

Belə baxdı ki, arvadı güləfrəngidə duruf buna baxır. Əlinnən çağırdı, gəldi.

Dedi:

– Bunu nəynən tihdirdin$_{ı}$?

Dedi:

– Sən göndərdiyin narın birini xarşdamışam, ikisi durur hələ.

Bu üş dənə narı da civinnən çıxardı, dedi:

– Hələ burda üçü də var.

Dedi:

– Allah öyün$_{ı}$ü tihsin, şahın xəzinəsini, yerini-yurdunu hamısını alarsan$_{ı}$ sən bu narrarnan.

Həə, gün o gün oldu ki, şah – qızın atası çıxdı şəhəri gəzməyə. Burda axşamladı. Özünə ləyax bu tikilişi tapdı. Gəldi adam göndərdi ki, bir axşamlığına şah deer, məni qonax eləsin.

Qız dedi:

– Qonağa da qurvan olom, Allaha da. Gəlsin, Allah qonağıdı.

Buları gətirtdi oturtdu, üzünə niqab salıf, heş kəs bir-birni tanımır. Amma Təmbəl Əhməd panama, qalstuk − şahdan da bahalı geynif. Şah baxır. Dedi:

– Pərvərdiyarə, görən bu qız kimdi, nəçidi?

Belə söhbət əsnasında qız dedi ki, şah sağ olsun, − üzü niqablıdı – bir sualım var sizə. Dedi:

– Evi kadın tikir, yoxsa kişi tikir?

Dedi:

– Vallah, o sualın üsdündə gözümün ağı-qarası bir qızım varıydı, ona həsrət qaldım. Bilmədim nijoldu, nijolmadı?

Dedi:

– Şah sağ olsun, o qızın$_ı$ mənəm.

Başınnan belə niqabı götürdü. Şah elə özünnən getdi yerində. Su-zad atdılar, qalxdı. Təzədənnən görüşməh-öpüşməh.

Dedi:

– Şah sağ olsun, indi gör ki, evi kadın tikir, kişi tihmir.

Sağ olun, var olun. Olar yidi, yerə keşdi, biz yidih, döörə keşdih.

## 14. DÖRD BACI

Bir kişi olor, bir arvat. Munun arvadı ölör. Dört qızı qaler. Bu kişi köpöyoğlu geder bir it xasiyyət arvat gətirer. Arvat bir həfdədən son$_ı$ra davannın üsdünə qalxer. Deer:

– Bilmerəm, qızdarnan nağayrajan$_ı$ qayır. Mən səndə durmoram.

Kişi deer:

– Ağız, Allahı yadın$_ı$a sal, qızdar nağayrer san$_ı$a?

Kopaqqızı əəğını diriyir:

– Ya qızdarın$_ı$, ya mən.

Kişinin ələci kəsiler, uşağın dördünü də azıtmağa[111] aparer. Xurcuna çörəh-mörəh qoor da deer:

– A bala, gə gedəy, fısdıx yığax. Siz fısdığı yığın, mən də duax[112] qayırem.

Gedellər. Deməli, duzdu suda əyləşer. Qızdar da fışqırıx çala-çala fısdıx yığellar. Nə bilellər, dədələri buları genider[113]. Qızdar fisdığı o qədər yığellar, başdarını qaldırer göröllər, axşam tüşüfdü. Kişi nədi, zad nədi. Qarannıx tüşör. Qız deer:

– Dədəm duax qayırıf, taqqıldader, otana.

Yel vurduxcax taqqıldıyır dana. Biri deer, dədəm ordadı, biri deer, ordadı. Göz-gözü görənətən bular fısdığı yığellar. Gələndə göröllər dört duaxdı. Köpöyoğlu qayırıf göydən asıf, ojax da qalıyıfdı. Bular ağlaşellar, ojağın başına yığılellar. Bu ağacın divində birtəri savağatan durollar. Savax açıler, duror bir də fısdığa hərəkətdiyillər. Göröllər, heş kim yoxdu. Meşiyi pütün gəzellər. Bular günorta çörəynən fısdıxdan yiillər, axşama çörəyləri də kutarer. Gəler ağacın divində ojax qalıyır, dört bajı dördü də qoyun-qoyuna ağacın divində duror. Təzədən savax açıler. Durollar meşiyi təmiz gəzellər, göröllər heş kim yoxdu. Ənərən-cinərən[114], meşədə nə var. Gəler burdan bu böyüh qız deer kin, gəlin, bir söz deem:

– Gəlin oturax, kiçih avdesdimizi[115] eliyəh, hər kiminki uzun axsa, onu öldürəh, yiyəh.

Ortancıl qızın avdesdi uzun gəler. Munu öldüröllər, bir həfdə, yarım ay meşədə yiillər. O kutarannan sonıra durollar yola tüşöllər. Az gəlellər, üz gəlellər, dərə-təpə düz gəlellər. Gələndə göröllər bir çayın qırağında bir toyla var. Deellər,

[111] Azıtmağa – azdırmağa
[112] Duax – duvaq
[113] Genider – azdırır, uzaqlaşdırır
[114] Ənərən-cinərən – gözə görünən, həniri gələn
[115] Avdesdimizi – abdəstimizi

Allah, sanıa şükür! Elə burdaja yaşıyax. Axşam olor. Bular gizdənellər, ətraf da meşəliyiymiş, göyəli[116]-möyəli varıymış. Görör kü, iki dənə kişi gəldi, hərəsi də çiynində iki mişoy[117] gətdi, atdara tökdü, qapıyı-zadı qayırdı, çıxdı yetdi. Kiçih qız bajadan tüşör, bu atdara töhdükləri kişmişdən az çıxarder, çox çıxarder, bunu yiillər. Bir həfdə, yarım ay belə dolanellar burda. Bir gün pəçcah deer ki, a bala, fılan atı gəti, səfərə çıxajam. Gətirəndə görör at çuvuğa dönüfdü. Deer:

– A bala, muna verdiyinıiz kişmiş nijoluf?

Deəndə bular and içer, ağı yalıyır, deellər:

– Ay pəçcah, vallah, gətdiyimizi töküf çıxıf gederih. Orda kim var kı?

Olmur. Pəçcah buların üsdə dirəner, deer:

– Beyjə burya dadananı tapajaxsınıız.

Bu oğlannarın ikisi də – biri o başdan, biri bu başdan axırın içinə girer, gizdəner. Qız gəlif tüşüf kişmişi yığanda deer:

– Öldürdüm, tərpəmmə!

Qız deer:

– A qardaş, harya tərpənerəm?! Ajınnan ölörəm.

Deer:

– Kimsənı?

Deer:

– Təhcə döyəm, biz üş bajıyıx. Bajılarım flan yerdə məni gözdüyür.

Bajılarını da tapellar, buları qavaxlarına qatıf aparellar düz pəçcahın yanına. Bu qızdar elə göyçəyiymiş, dünya maralı. Bu qızdar pəçcaha söylüyür:

---

[116] Göyəli – gavalı

[117] Mişoy – rus dilindəki meşok sözünün şivə variantıdır.

– Başımıza bir belə iş gəlif. Öyöy anamıza görə dədəmiz bizi gen$_{ı}$idif. Ajımızdan ölördüh deyin, bir bajımızı kəsdih yidiy. Əmə son$_{ı}$radan sənin$_{ı}$ atının$_{ı}$ kişmişinnən dolanerıx.

Pəçcah bu qızdarın birini vəzirə aler, birini vəkilə aler, böyüh qızı da özü aler. Allaha qurvan olom, bir yannan analığı elə eliyəndə, bir yannan da Allah belə eliyir. Kefnən, nanaynan toy eliyillər, burda yaxça dolanellar.

Bir gün bu kiçih qız deer:

– Atam öyünə gedəjəm.

– A qara qız, atan$_{ı}$ öyü hanı?

Bu əl çəhmer. Oğlanın əlaci kəsiler deer:

– Gə gedəh.

Gəlillər o kəndi keçellər, bu kəndi keçellər, heş kimi tapmellar. Oların kəndindəki adam deer ki, bular köçüf gedif, yoxdu. O vaxdan gediflər. Qayıder gəlellər. Burda yaxça, a qızım, yiif-içif dolanellar.

## 15. ŞAHZADƏ VƏ ALIN YAZISI

Bir cavan şahzadə olur. Bir dəfə bu şahzadə başqa bir yerə səfər eliyəndə körpünün üsdünnən keçir. Görür ki, körpünün üsdündə bir qoja kişi var. Görür ki, kişi nəsə yazıf pozur. Deer ki, neynirsən$_{ı}$ burda?

Deer:

– Mən burda alın yazısı yazıf pozuram.

Deer:

– Bəs sən mənim də alın yazımı yaza bilərsən$_{ı}$mi? Mənim kismətim görəsən$_{ı}$ kimdi?

O da deer:

– Əlbətdə, yazaram.

Bir az diyanır qoja kişinin yanında.

Deer:

– Mən uzax bir məmləkətdə kasıf ayilənin bir qızını sənin$_ı$ bəxdinə yazmışam.

Bu da məhətdəl qalır:

– Mən şahzadəyəm, nəyə görə mənim həyatıma belə bir insan yazmısan$_ı$?

Götürür kişini qılışnan vurmax isdiyir. Vurmax isdiyəndə kişi yoxa çıxır. Son$_ı$ra şahzadənin yadında qalır ki, belə qız bunun həyatına gələjəh. Dərviş paltarında öz vəzirinnən bu qızı axdarışa çıxır. Gəlir bir məmləkətə. Gejə tüşör. Baxır ki, uçux bir daxma var. Gəlir, baxır görür ki, həmin kişinin tərif elədiyi kimi bir yerdi. Baxır ki, qapını kişi aşdı.

Bu deer:

– Allah qonağı qəbul eliyərsizmi?

Deer:

– Əlbətdə, qonax Allah qonağıdı, gözümüz üsdə yeri var.

Nəsə, vəzirnən şahı içəri qəbul eliyir. Gəlir oturullar. Bu kişi həddinnən artığ kasıf olur. Deer:

– Mənim yiməyə, işməyə heş nəyim yoxdu da. Siz məni bağışdıyasız gərəh. Mən gedim, görüm nə tapıram, sizi yola verim.

Bullar da oturullar burda. Baxıllar ki, çarpayı var, çarpayının üsdündə bir dənə palandı. Palanın altında nəsə zarıltı gəlir. Həmin alın yazısı yazan kişi o vax demişdi ki, sənin$_ı$ bəxdin$_ı$ə tüşən həmin qız xəsdədi, bu dəyqə canıynan əlləşir. Amma sən onu alajan$_ı$. Bu da baxır ki, bir qız orda canıynan əlləşir. Gəlif baxanda görür ki, kişinin tərif elədiyi kimi qızdı. Çox pis vəziyətdədi. Deer ki, atası da onsuz da yoxdu. Mən bunu öldürüm, çıxım gedim də. Heş mənim bəxdimə də yazılmasın. Götürür qıza bir dənə xançal batırır. Al-qana bürünür qız. Baxır ki, zarıltı da kəsifdi. Xançalı vuran vax qızın üsdünə də bir kisə qızıl tökür. Son$_ı$ra vəzirini də götürür çıxır gedir. Kişi qayıdıf gəlir. Gələndə görür ki, qız al qana qarışıf.

Üzərində də bir kisə qızıl. Məhətdəl qalır. Deer ki, bu noolan şeydi? Bilmir də onun şahzadə olduğunu. Tez gedir yaxınnıxda olan təbibi çağırır. Təbib gəlif baxır qıza. Sən demə, qızın böyür tərəfində yara varıymış. Həmin şahzadə də xançalı ora sancıfdı, irin pütün dağılıfdı. Qız da rahatdaşıfdı. Tez təbib onu bitgilərnən malicə eliyir. Bir müddət keçir. Kişi deer:

– Qızım, biz bu qızılnan əgər var-döylət artırsax, gözə gələrih. Ya da deyəllər ki, bular hardan alıflar bu pulu.

Nəysə, kişi öz ayləsini də, qızını da götürür bu şah olan məmləkətə gəlir bilmədən. Baxır ki, bura yaxşı yerdi. Burda böyüh bir imarət tihdirir. Evi tihdirənnən son$_ı$ra qəşəh güllü-baxçalı bir yer salır. Qız da hər gün bu baxçada güllərə su verir. Qız çox gözəl qız imiş də.

Günnərin bir günü şahzadə buların qapısının ağzınnan keçəndə görür ki, burda çox gözəl, su sonası kimi bir qız var. Nəsə, bu qıza bir könüldən min könülə vurulur. Son$_ı$ra araşdırır ki, atasının imkanı pis deyil. Nəysə, elçi göndərir, bu qızı alır. Bir ildən son$_ı$ra da buların öyladı olur.

Günnərin bir günü bu öz xanımıynan həmin körpüdən keçəndə baxır ki, həmin kişi yenə orda alın yazısı yazıf pozur. Gəlir kişinin yanına, deer:

– Bax gördün$_ı$, mən sənin$_ı$ yazdığın$_ı$ yazını pozdum.

Deer:

– Yox, poza bilməzsən$_ı$. Alın yazısı heş vax pozulmaz.

Deer:

– Mən sənin$_ı$ yazdığın$_ı$ yazını pozdum, sənin$_ı$ dediyin$_ı$ qızı öldürdüm, əvəzində bu gözəl xanımı aldım, üsdəgəl mənim bir dənə də oğlum var.

Deer:

– Həmən o qız bu xanımdı.

Şahzadə buna inanmır. Gəlir qızın atasının yanına. Soruşur ki, siz bura necə gəlmisiz? Qızın atası pütün əhvalatı

başdan danışır. Şahzadə deer ki, həqiqətən də, yazıya pozu yoxdu.

## 16. YAZIYA POZU YOXDUR

Bir paççahın uşağı olmor. Məkkə, Mədinə qalmer, hər yerə ziyarata geder, nağayrer, neyniyir, uşağı olmor. Arvadını maaliceyə də aparer. Bunun uşağı olmuyanda deer ki, İlahi, mən nə iş görəm ki, mənim bir uşağım ola. Allah-taaladan hökm olor ku, pütün saqır-suqurun, yetim-yesirin qarnını doydur. Bu yetim-yesirin qarnını doyduror. Allah-taladan hökm olur. Bunun yoldaşı gəlir hamilə olor. Gəlir də, bu uşax doğulan vaxdı Canab Əli yolnan gedermiş. Görör, bir qapıda səs-küy var, oynaşellar, gülüşöllər, şapalax çalellar. Bir də içəri girəndə görör kü, uşax doğuluf, hələ kövəh kəsilmiyif. İçəri girəndə görör kü, Azrayil ananın boynunun dalında duruf, kürəyinin arasında. Gəlir görür yazer orda. Deer ki, nə yazersanı? Deer ki, bunun doğulduğu günü yazeram, bir də öldüyü günü.

Deer:

– Nə vax öləjəh bu?

Deer:

– Muna yaxşı musuqu çalınajax, toy qurulajax, başqa bir kətdən bir qız alajaxlar buna. Bu qız atdanan vaxdı bu oğlanı da sel aparmalıdı.

Deer:

– Olarmı onu pozasanı?

Deer:

– Yox, yazıya pozu yoxdu.

Bu sıçrıyır da bu kişinin yanına sarı gəler. Gəler ki, bunu pozdura. Gələndə bu qeyb olor, gözə görühmür taa, çıxer geder. Canab Əli də kişiyə tafşırer ki, bax bu uşağının toyu olanda məni sağdış tutarsanı. Yadınınan çıxarmı?

Deer:

– Yox.

Oğlan boya-başa çater. On səkgiz, on dokquz, iyirmi yaşa çatanda geder də İlahidən Mutudərədən[118] bir qız bəyənellər də, orda bunnan alısını, bəlisini eliyillər. Canab Əliyə bu söz demişdi axı. Toy mamenti kişi Canab Əliyi çağırer. Canab Əli gəlir də, oğlana deer ki, sən mənim atıma minərsən$_{ı}$. Canab Əlinin atı da Düldülüymüş. Göynən uçan at olor. Oğlan bunun atını miner. Pah, bir də göröllər, göy xartdadı, yağış yağer, gəlin də atdanıf gəler, qavaxnan da oğlan. Görör bah, sel gəldi. Sel gələndə Düldülə Canab Əli deer ki, biraz yuxarı qalx, seldən biraz yuxarıynən get. Olmor taa, görör kü, Düldül qalxdıxcan$_{ı}$ sel də lap qalxer. Ordan hökm olor. Canab Əli görör gənə burlağan, gənə sel bura-bura qalxdı göyə. Atı burlağannıyır ki, selə soxa. Onda kişi yüyürör əlinnən-əəğınnan yapışer ki, san$_{ı}$a qurvan olom, bir oğuldan ötəri pütün kənt getdi, burax, qoy getsin. Oğlanı sel aparer geder. Onda deeflər ki, yazıya pozu yoxdu.

## 17. ƏZRAYIL VƏ TACİR OĞLU

Bir tacir oloy. Bu tacirin yaxşı pulu, varı oloy. Özünün də züryəti bircə oğlu oloy. Vax gələr keçər. Tacir də uzax yerdən evlənifmiş. Bir gün tacir dünyadan köçöy. Qaley yoldaşınnan oğlu. Oğlu bir az gələcəh tüşünən adam olmoy. O, yavaş-yavaş başdeey atasının pulunu xərşdəməyə. Anası bir gün deey:

– Ay bala, bu san$_{ı}$a yaraşmaz. Bir gündə bircə manat sənin$_{ı}$ xeyrin yoxdu, bir gündə sən iki yüz, iki yüz əlli, üş yüz manat pul xaşdeersan$_{ı}$. Bə bizim gələcəyimiz yoxdumu?

– Bə noolsun gələcəyim var, indi tay-tuşdarımnan yiif-içif, gəzerim. Bir vaxdı da mən də olarda yiif gəzəjəm.

Deey:

---

[118] Mutudərə – Gədəbəy rayonunda kənd

– Oğul, mən bilerim, sən qırx lotuya uyufsan$_{ı}$. Qırx lotudan adama xeyir gəlməz. Ged özün$_{ı}$ə iş tap. Tacir oğlusan$_{ı}$, sən də tacir oğlunun birinnən dosd ol, onnan hərrən.

Deey:

– Ana, sən bilmesin$_{ı}$, mən özüm yaxşı bilerim.

Bir gün belə, beş gün belə. Bir gün də arvat əlini çaley ki, sandıxda pul lap azalıf. Deey:

– Oğul, belə olmaz, bizə pul qalmey, pul kutarey, qoy dolanax.

Oğlu deey:

– Sənin$_{ı}$ işin$_{ı}$ yoxdu, sən neynesin$_{ı}$, mən sənin$_{ı}$ pulun$_{ı}$u verəjəm.

Deey:

– Yaxşı.

Bir az da vax keçey. Nolajeydı, pulu xarşdamağa nə var, əmbə qazanmax çətindi. Yerində qalanı da aparey. Anası baxey ki, daa sandıxdan pul təmiz kutardı.

Bir savax oğlan anasına deey:

– Man$_{ı}$a pul ver.

Anası deey:

– Oğul, mənim məjəlim yoxdu, dur get özün$_{ı}$ gətir.

Gedey sandığın ağzını açey, deey ki, ana, pul yoxdu sandıxda. Anası deey:

– Oğul, yoxdu, yoxdu, mən nağayrem, daa pulumuz yoxdu.

Əmbə bu tacirin bir yaxşı qaynı varıymış. Bunda bunun amanat pulu oloy, verey ki, saxla, bəlkə, dar günüm oldu, vereysən$_{ı}$. Deef:

– Yaxşı.

Qarının oğlu duroy gedey. Qırx lotu da gəley, bular hərrənellər. Deey:

– Gəlsən gedəh çörəh yiyəh.

Deey:

– Gedək yiyəh, əmbə mənim pulum yoxdu.

Deellər:

– Əşi, zərəl yoxdu.

Bular bir az bazarı-zadı hərrənellər. Bular yayney, bu qaley. Bular xəlvəççə gedey də, stalavoyda oturollar, yaxşı yiməh-işməh, vurhavur... Bu da hərrəney, göröy əə, dosdarının heç hası bazarda yoxdu. Hərrəney gedey, stalovadan başını içəri salanda göröy qan-yağ[119] qardaşdıxları oturuf yiif-içellər. Daa bulara heş-zat demey. Deey:

– Əə, nuş olsun.

Deellər:

– Sağ ol.

Bu qayıdey geri, fikirrəşey, vay-haay, mən hancarı anamın sözünə baxmadım. Büyüncüyəz[120] məni özdərinə yoldaş götürmədilər, mən nağayrajam, manıa ölüm lazımdı. Əə, bunu əzəldən fikirrəş. Qayıdey gəley. Öyə gələndə arvatdara nə var, hər şeyi tez başa tüşəndi. Anası göröy ki, bu oğlu elə gəldi ki, daa ayrı təərnən. Bir yerinə pıtıx[121] vursan, yüz yerinnən qanı damar.

– Oğul, nədi, niyelleysinı, sanıa nooluf?

Deey:

– Ana, heş nə.

– Dərdinıi de, oğul, dəlisənımi? Sözünıü de, niyelleysinı, ağrıyesınımı?

Deey:

– Yox əyşi, gedif yatajam.

Gedey yatalğasına, ağzı aşağı uzaney, fikirrəşey. Anası da gedəndə göröy uzanıf, kirimişcə fikirrəşey.

Deey:

---

[119] Qan-yağ – yəni bu vəziyyətdənsə, göydən qan yağsa yaxşıdır. Təəccüb bildirir.

[120] Büyüncüyəz – bu gün

[121] Pıtıx – çırtma

– Ə, nədi dərdinı?

Deey ki, ana, başıma bir belə hadisə gəldi.

Deey:

– Ax, lap yaxşı eliyiflər, düz eliyiflər. Sanıa o vaxdı dedimmi bu pulu dağıtma. Niyə bizi quru yurtda qoyosunı? İndi biz nağayrax? Dəəsi adamımız yox, gətirəsi adamımız yox. Di indi gə dolan. Görosünımü?

Görür yox, oğlunun heç halı yoxdu. Deey:

– Gəl bir qırıx çörəhdən-zaddan yi. Sanıa bir məslahat eləyjəm, onun dalınnan getsənı, pulun olajax.

Gəley bir az çörəhdən-zaddan aley. Pis işi andır[122] qalsın, işdah oloymu çörəh yiməyə? Gəley oturoy, deey:

– Bilesinımi, oğul, nə var?

Deey:

– Nə var?

Deey:

– Səninı uzax yerdə dayını var. Dayınıda bizim amanat pulumuz var. Axşam çörəh qayırajam, zavax çörəh götürər də, gedərsinı. Yolda irast olan yoldaş dəyjəh, mən də sənnən gedem, denən gedəh. Oturan kimi tez surfanın ağzını aç, başda çörəh yiməyə yoldaşınınan. Əgər kutaracax vaxdında çörəhdən əlinə alıb desə, dur gedək, onnan yoldaş olma. Axıratan sənə silah oluf mağıl[123] çörəh yesə, onnan yoldaş oluf gedərsənı.

Deey:

– Yaxşı.

Axşam qarı yaxşı fəsəli, qattama, uzax yola bir xurcun yaxşı çörəh qayırey. Savax açıley. Savax açılan kimi duroy, xurcunu götüröy, yola tüşöy. Get ki, gedəsənı, pulu itirməyə

---

[122] Andır – yiyəsi ölmüş

[123] Mağıl – qaydasında

nə var, oğuldu, qazanasan$_ı$. Bir xeyli gedey. Kətdən çıxannan son$_ı$ra göröy yolun qırağında özü ağıldasının biri də var.

Deey:

– Harəə gedeysin$_ı$?

Deey:

– Filan şəhərə gedəjəm mən. Orda birəz işim var, gedif orəə dəyif qayıdajam.

Dedi:

– Elə mən də oana gedəjəm, yoldaş olax.

Dedi:

– Neynəh, yoldaş olax, gedəh.

Bular yoldaş olollar. Bir mərnə[124] gedellər, gedellər, göröllər bir ağacın divində yaxşı bulax var. Bu bulağa yetirəndə deey:

– Gəlsən$_ı$ burda bir yaxşı nahar eləəh, gedəh?

Dedi:

– Noolar, eləəh.

Oturollar burda, yaxşı yiillər. Axıra bir loxma qalanda qardaşdığı bunu püköy də əlinə aley. Deey:

– Ajıxsan$_ı$, xurcunun$_ı$da yenə yiməyin$_ı$ var, yəərsən$_ı$, mənim yoxdu, qoy bunu mən yiim.

Deey:

– Onda gedərsin$_ı$, sənin$_ı$ uğrun$_ı$a xeyir, mən yorulmuşam, dincələjəm, get sən. Mənnən san$_ı$a yoldaş olmaz, get sən.

Bu çörəyi yəə-yəə yola tüşöy. Bu da qalxey, yola tüşüf bir az gedən kimi buna biri də rastdaşey.

– Əə, nədi, haana belə?

Deey:

– Belə-belə, filan şəhərə gederim, orda mənim dayımgil var, onnan görüşüf qayıdajam.

Deey:

---

124 Mərnə – xeyli müddət, uzun yol

– Neynəh, gedəh, mən də o tərəfə gederim, yoldaş olax, gedəh. Yolunku yoldaşdı, yuaş-yuaş[125], nağıl eləə-eləə gedəh.

Yola tüşöllər gedellər, nə qədər gedellər, sonıra oturollar bir bulağın üsdə genə. Burda yiillər, qalxanda bu da genə o biri kimi çörəyin yerində qalanını püköy əlinə aley, deey:

– Dur gedəh.

Bu yenə deey:

– Yorulmuşam, birəz oturuf gedəjəm.

Deey:

– Neynəh, sən otur, mən gedem yavaş-yavaş, tələsiyerim.

Bu gedey. Bu da qalxey fikirrəşə-fikirrəşə deey, Allah, görən bu nə işdi mənim başıma gəley. Anam nə bileydi ki, belə işdər olajax. Yaqın anam o qədər çöldə oluf ki, hər şeyi başı çəkif, anam mənə hax dedi. Düzdü, gərəh böyüyün sözünə baxasanı, mən baxmadım, bu günə tüşdüm. Xüləs, qalxey birəz gedey, əəğını saxleyıf geri gəldiyi yola baxanda göröy bir ağ donnu, ağ atdı elə gəley, toz dumana qarışıf. Bir xeylax gözdööy. Gəley bu da buna çatey.

Deey:

– Salamməleyki, ay qardaş.

Deey:

– Əleykümsalam.

Deey:

– Uğur olsun, harəə?

Deey:

– Filan şəhərə ederim, orda dayımgil var.

Deey:

– Neynəh, yoldaş olax gedəh ikimiz də, yol yoldaşı yaxşı şeydi.

Deey:

---

125 Yuaş-yuaş – yavaş-yavaş

– Sənnən mənimki tutarmı? Sən atdı, mən piyada.

Deey:

– Könül bir olsa, yoldaş olmax hasantdı. Mən atın başını çəkirəm, sən bir az davanın$_{ı}$ı qaldırırsan$_{ı}$, yavaş-yavaş, söhbət eləə-eləə gedərih.

Bular söhbət eləə-eləə gedellər. Bir xeylax gedellər, daha axşamlaşey.

Deey:

– Bilesin$_{ı}$ nə var?

Deey:

– Nə var?

Deey:

– Təhsən$_{ı}$, bax o kəndin o küçəsinnən başşağı enərsin$_{ı}$, üç öy ötərsin, dördüncüdə qapıya dönərsin$_{ı}$. Döysələr də, çıxma, həmən öydə qonax qal.

Deey, olar, yoldaşın da sözünə baxmax yaxşı şeydi. Öydə də anamın sözünə baxmadım, belə günə tüşdüm.

– Mən də kəndin o başındakı o öydə qalajam. Savax tezdən yola çıxanda kəndin qulağında mən tez gəlsəm, mən səni gözdüyüm, sən tez gəlsən, sən məni gözdə. Kəndin qulağında birikləşəh[126], genə yoldaş olax da gedəh.

Bular gedey bir-birinnən aralaney. Bu kişi gedey həmən öyə, qapının ağızına çatanda göröy bir qadın xaylağıdı, oturuf inək sağey yavaş-yavaş, qımqımıynan[127], xoş gəlifsin$_{ı}$, maralım, ceyranım dəə-dəə.

Deey:

– Ay xala, bərəkətdi olsun.

Başını qaldırey deey:

– Sağ ol, oğul, xoş gəldin$_{ı}$.

[126] Birikləşək – birləşək

[127] Qımqımıynan – zümzüməylə

Birəz baxey deey:

– Ay bala, sən bu kəndin uşağına oxşamesın$_{ı}$.

Deey:

– Mən özgə yerriyim, bir axşamlığına məni Allah qonağı eleyin$_{ı}$.

Deey:

– Ay bala, Allaha da qurvan olom, qonağına da qurvan olom, noolar, qonax Allah qonağıdı, ged öyə, mən də heyvanı rahatdeef gəlerim.

Bu gəley yavaş-yavaş qapıyı açey, içəriyə baxey, əəğının birini qapıdan içəriyə qoyoy, biri çöldə qaley. Baxanda göröy, irax öyümüzdən-eşiyimizdən, bir xəsdə yatey.

Deey:

– Ay bava, salamməleyküm.

Xəsdə bir aah eleey də deey:

– Əleykümsalam.

Buna tərəf baxey deey:

– A bala, sən bu kəndin uşağına oxşamesın$_{ı}$, sən hardansın$_{ı}$?

Deey:

– Mən uzax yerdənəm, burəə Allah qonağı gəlmişim.

Deey:

– Əə, üç ildi yan yerə verif Allaha yalvarerım, niyə man$_{ı}$a bir nicat vermey? Nə öldürmöy, nə nicat vermey. Eşiyə çıx.

Qonax qapının böyrünə tərəf sifçiney[128], burdaja duroy, bu da başını yasdığa qoyoy. Nağayrasıdı, qalxası döy, bunun qənədinnən tutuf eşiyə tulluyası döy. Həə, bu burda bir xeylax duroy.

– Əə, a bala, burda nə durosun$_{ı}$, keçif o taxdın üsdə-zadda bir yerdə otursan$_{ı}$.

Dedi:

– Vallah, bu kişi man$_{ı}$a belə-belə dedi.

---

[128] Sifçiney – qısılır, sıxılır

Dedi:

– Oğul, o kişi xəsdədi, üç ildi yan yerə verif yatey, daha ağlı da yunuluyuf, onun sözünə qulağ asma. Allah da var, qonağı da var, bəndəsi də var. Keç otur orda.

Bu keçey, orda oturoy birəz. Allah verənnən öy yiyəsinnən yiillər, içillər, örtüyə dolollar. Bu tutduğu işdərinə görə fikirrəşey, gözünə yuxu gəlmey, nə qədər oax[129] qaley. Ev yəəsi də tökülüf, hamısı arxayın yatışellar. Bir də baxey ki, əə, kiliddi qapı yavaşcalıxnan açıldı. Bu nə işdi, noolan şeydi. Baxey ki, əə, bu adam nəçidi, nə karədi, gəldi də kişinin əyax ujunnan nəydisə qurdaladı bu kişiyi, qurdaləanda bu kişi aah elədi də o üzünə çöyrüldü. O biri üzünə çöyrüləndə bu bunun baş ujuna keşdi də, birəz durdu da, sıyırdı kişinin başını kəsdi. Qan öynən bir oldu. Bu, qorxusunnan fikirrəşdi ki, mən axşam arvada belə dedim, arvat qalxıf bu qanı görsə, mənim başımı kəsdirəjəh. Bu kimiydi gəldi bunun başını kəsdi. İndi elə məqamda Azreyil hamını kəsey, bizə görünmöy nə qanı, nə heş nəyi. Duroy şələbərxanasını[130] yığey da, qapıdan çıxey, qaç ki, qaçasan. Oxarı doqqaza çıxey, göröy çığırtı, vay-şüən qopuf. Deey, qan-yağ burda, məni tafsalar, öldürəjəhlər. Əynini-başını geyiney də, bir xeylax gedey. Yolnan bir az gedey, sonıra göröy daa xoruzdar banlaşey. Savaha yaxın fikirrəşdi ki, daa gələn olmadı, indi yavaş-yavaş mən gedem. Gedey kəndin qulağına yaxınnaşanda Allahın savağına qurvan olom, artıx işıxlaşey. Dedi, savah açılıf, camahat oana-buana gedif-gəley, məni burda görəllər, qaytarıf aparallar. Gəl elə yol uzunu sən yuaş-yuaş get. Yola çıxey, bir xeylax gedey, kətdən aralaşey.

Bu ağ atdı, ağ donnu atını miney, dediyi yerə gəley. Gələndə göröy yoxdu burda qardaşdığı. Deey, yaqın nəysə yola

[129] Oax – oyaq

[130] Şələ-bərxanasını – əşyalarını

tüşüf. Nə nəysəsi olajax, bunun niyə getdiyi özünə agahdı. Deey, gedem də, gedif dalınnan çatarım. Atını süröy gələy, gələndə göröy elə yavaş-yavaş yol gedey. Yaxınnaşanda, geri yanına çöyrüləndə göröy qardaşı gələy.

Deey:

– Salamməleykim.

Deey:

– Əleykimsalam.

Deey:

– Ə, bə mən sənnən nə danışdım, adam belə etivarsızdıx eləərmi, əə? Adam bir-birinin dediyinə baxar. Niyə belə məni qoyof gedesin$_ı$?

Deey:

– Nəvlem, vallah.

– Zərəl yoxdu, gedəh.

Xüləs, xeylax varıymış yolları. Gedellər gənə bir yerdə bunun çörəyinnən çörəh yiillər. Birəz qalanda deey:

– Çörəyin$_ı$i ye, yol uzundu, gedəh.

Deey:

– Sən də yi də.

Deey:

– Yox, man$_ı$a nə var, məni at aparajax, sən yi, ajıxarsın$_ı$ yolda, yorularsın$_ı$.

Çörəyinin qalanını da yəər, durar, yola tüşəllər. Gedər yenə bir bulağın üsdə oturallar, çörəh-zad yəəllər. Qalxallar, yenə yolnan gedəllər, bir az gedənnən son$_ı$ra yenə axşamleyıllar.

Deey:

– Qardaş.

Deey:

– Ha.

Deey:

– Gənə keçən dəfəki kimi eləmə. Get gənə o küçədən aşağı en, indi dördüncü yox, beşinci öydə qal. Mən də gedejəm, kəndin qulağındakı bir öydə pənahlanıf, Allah qonağı oluf yola çıxajam, əmbə kəndin bir qulağında bir-birimizi gözdəəh. Tez irəliləmə.

Deey:

– Yaxşı.

Genə gedey. Gedəndə göröy bir qarı genə “anam, ay inək, sonam, ay inək”, dəə-dəə inək sağey.

Deey:

– Ay xala, bərəkətdi olsun.

Deey:

– Sağ ol, ay bala.

Üzünə baxey, deey:

– Ay bala, sən bu kəndin uşağına oxşamesın$_ı$ heç, hardansın$_ı$?

Deey:

– Mən uzax yerriyim, uzax yerə gedəjəm. Mənim qonaxçı yerim olmadığına görə gəlmişim, bir axşamlığına məni Allah qonağı elən$_ı$. Savax duruf gedəjəm.

Deey:

– Allaha da qurvan olom, qonağına da, ayə, qonax gözəl şeydi. Qonaxnan oturuf çörəh yiməsən$_ı$, heş qarnın$_ı$ çörəyə doymaz. Ged öyə.

Gedey qapıdan başını içəri salanda göröy əyə, qan-yağ, burda da bir xəsdə yatey. Öz-özünə fikirrəşey, deey, əə, mənim başıma gələnə bax. Deey:

– Salamməleykim, əmi, yastığın$_ı$ da yüngül olsun.

Deey:

– Çox sağ ol, oğul. Oğul, həncəri bu kəndin adamlarına oxşamesın$_ı$, sən dəən başqa yerrisin$_ı$.

Deey:

– Həə, ana vətənim filan yerdi, bağışdeyını məni, qalajax yerim olmadı, gəldim, əmbə filan yerdə dayım var, orəə gedəjəm.

Deey:

– Noolar, ged, oğul. Elə mən də səni kimi bir adam isdeeydim ki, söhpət eləəh bir qırıx, yaxşı nağıl eləəh. Mən də üç ildi yan yerə verif yaterım, elə səni kimi uzax yerri adam axdareydım ki, oranın vəziyyətinnən də məni tanış eləsin, buranın vəziyyətinnən də sən tanış ol, söhpət eləərih yatanatan.

Axşam oloy, ayınnan-üyünnən yiillər, nağıldan-gapdan eleyillər, yatışıllar. Genə bu hələ yatmeyıfbış, öy yəələri yatışıfbış. Baxey ki, ayə, gənə qapı açıldı, içəri bir adam girdi. Əmbə həmən anıarıkkı adamın yanına gələndi. Deey, Allah mənim öyümü tikdi, indi burda da manıa yuxu yoxdu. İndi bu dəfə bu kişinin baş ujunda durdu, əlini yuvaşcalıxnan kişinin başına vurdu. Bu getdi əyax ujunnan da bu kişiyi qurdaladı da, heş dad eləmədi, durdu çıxdı getdi. Bir az fikirrəşər, bunu yuxu tutar, yatar. O vax baxar ki, kişi qalxıf azarrı. Həyat yoldaşını səsdey ki, dur, qonax uzax yerə gedəjəh, dur, çaydan-çörəhdən qayır. Mən də yaman işdahlanmışım, qonağın əəğının səası[131] tüşüf, Allah hakqı, elə ajmışım, dur çaydan-çörəhdən qayır. Həə, yoldaşı qalxar, yaxşı ayınnan-üyünnən hazırrəər, yəər.

Deey:

– Aaz, gətir o pendirdən, yumşax çörəyimizdən bu kişinin yoluna qoyun.

Deey:

– Yox, yiməyim var.

Deey:

---

[131] Əəğının səası – ayağının uğuru

– Eey, ay bala, bir az götür, bəlkə, sənnən savayı da yoldaşın$_ı$ oldu.

Bunun xurcununa birəz pendir, birəz də çörəh qoyallar. Bu çiyninə aley, tüşöy yola. Xeylax gedey, kəndin qulağına çatanda əyləney, xeylax oturoy. Baxey ki, budu, qardaşdığı gəldi. Həə.

– Salamməleyki.

– Əleykisalam. Vəziyyətin nətəəri oldu?

Deey:

– Canın$_ı$a sağlıx, yaxşılıxdı.

Deey:

– Di dur, gedəh.

Duroy, yola tüşöllər. Bir xeylax gedellər.

Deey:

– Sən filankəsin öyünə gedesin$_ı$, eləmi?

Deey:

– Hə.

– O adam bu saat qapıda atını yəhərrey. Qon$_ı$şu kətdə onun işi var, atı minif orəə gedəjəh. Əmbə o çoyğuna tüşəjəh, yolda ölməlidi, ölsə, pulun batajax. Gedən kimi əl çəhmə, pulunu al, gənə denən neçə gün desən$_ı$, qalerım. Qal, əmbə pulun$_ı$u al, neçə gün də onnan son$_ı$ra qalsan$_ı$, öz işindi.

Gedey xavar aley ki, buların öyü hasıdı. Deellər, odey, odu. Qapıya çatey:

– Salamməleyki.

– Əleykəsalam.

Baxey ki, at yəhərri-yüənni qapıda duroy. Onatan bunun dayısı deey:

– Ə, filankəsin oğlusan$_ı$?

– Həə.

Öpüşməh-görüşməh... Deey:

– Sən çay-çörəh yi. Mən atı minif o kəntdə işim var, dəyif bu saat qayıdıram.

Deey:

– Yox, getmə, mənim pulumu ver, onnan sonıra get.

Deey:

– Gətir bunun pulunu ver, amanatı ver, qoy götürsün.

Bu amanatı götüröy, civinə qoyoy. Deey:

– Oğul, havax gedərsinı, özün bilərsinı, mənim də məslahatım budu ki, getmə, bir-iki gün qal, özgə öyü döy ha, öz dayınıın öyüdü.

Pulu götüröy civinə qoyoy. Bu da atı miney, at bir az gedən kimi at cövlana qalxey, kişiyi aşırey, kişinin üsdə də özü aşey. At üsdünə aşan kimi kişi o dünyalıx oloy, canını tafşırey. Başına yığılıllar, ay belə, ay belə, öydən-eşihdən irağ olsun, kişiyi gətirellər, bu da ağleey, yeddisinətən qaley. Yeddisinnən sonıra savahı duroy yola tüşöy. Yol basey, gəlhagəl, gəlhagəl, bir xeylax gələnnən sonıra baxey ki, əyə, bunun dalınnan həmən ağ atdı, ağ donnu gəley. Gəley buna çatey:

– Salamməleyki.

– Əleykisalam.

Deey:

– Əə, nətəri oldu, pulunıu ala bildinımi?

Deey:

– Aldım.

Deey:

– Onun tarıxı dörd il bunnan qavağıydı. Həmən amanata görə onu saxleyıflar. Halxın pulu batmasın deyin. Yaxşı oldu ku, gəldinı, pulunıu aldın.

Bir xeylax gedellər. Deey:

– Əə, qardaş.

Deey:

– Ha.

– Əə, məni tanıdın$_ı$mı?

Deey:

– Əə, nətəəri tanımerım? Bir belə yoldaş oldux, çörəh kəsdih. Özün bu, atın bu, şanın bu. Nətəəri səni tanımerım?

Deey:

– Yox, məni elə tanıma, məni düzgün tanı haa, gör mən kimim.

Deey:

– Sən Allah, nə sözdü bu, sən man$_ı$a sual veresin$_ı$?

Deey:

– Əə, qardaş, daa indi söz gizdətməh lazım döyül. Mən can verif can alanım. Mən Azreyiləm. Sənin$_ı$ o dayın$_ı$dakı pulunu o vaxdan öldürər, batırardım. Ama öldürmədim, saxladım san$_ı$a görə.

Deey:

– Həə.

İndi yolnan gedellər, bu da fikirrəşey. Deey, ey Allah-taala, bunnan xavar alem göröm, mənim tarixim havax tamamdı. Gedellər, bir bulağa rasd olollar, bulağın başında xurcunu açey, çörəh çıxardey. Bu, əlini sürfəə uzatmax isdəəndə deey:

– San$_ı$a bir söz dəyjəm, əmə man$_ı$a düz cavaf ver.

Deey:

– Nətəəri biz yoldaş olax, qardaş olax. Sənnən söz dan$_ı$arammı?

Deey:

– Bu çörəyə and işginən ki, nə soruşsan$_ı$, düzünü dəyjəm.

Əlini üş dəfə çörəyə vuroy ki, bu çörəh hakqı, nə soruşsan$_ı$, düzünü dəyjəm.

Deey:

– Yaxşı.

Deey:

– İndi de göröm, hələ çörəyi yiməmiş, mənim canımı havax alajaxsını?

Deey:

– Əə, adam belə yerdə adama belə sual verərdimi?

Dedi:

– Biz qardaşıx, qadanı alem, innən belə olmuşux qardaş.

Dedi:

– Bilesinı sənini canınıı havax alajam? Sən toy mağarı qurajaxsını, gəlin gətirəjəhsinı. Camahat dağılıf gedənnən sonıra gedəjəhsinı ki, gəlin otağına, əcəl boynunıun kökündə hazırdı, qoymarıx ki, əl-əyax eliyəsənı, orda öldürəjəm səni.

Bu fikirrəşey birəz. Deey:

– Niyə fikirrəşesinı, çörəyinıi ye. Qorxma, çörəyinıi ye arxeyın.

Bular oturollar, yavaş-yavaş başdeef çörəyi yiillər. Qalxıllar, bir xeylax gələndə deey:

– Əə, ay qardaş, dünyə nəaman[132] belə bir cürdü. Əə, gözünıü yum.

Gözünü yumoy. Açanda göröy qardaşdığı yoxdu, nəəzey, nə ağ at var, nə ağ donnu kişi. Bu gəley kəndə çıxey, yaxşı pullu gəley. İndi bu dəfə daa ged al, gəti. Bu işə də mən gederim, qıymatı budu. Pulunu ver. Deey:

– Həə, qadan alem, indi ağıllanıfsını, görösünımü.

Deey:

– Qardaşını da ki, belə oldu, belə oldu, getdi.

Deey:

– Allah rəhmət eləsin. Yaranan bir gün öləjəh. Bizim anamız bu torpaxdı, bu torpağa da qarışmalıyıx, ay bala.

[132] Nəaman – nə yaman

Daa noolajax, bir gün keçey, iki gün keçey. Bunun tay-tuşdarı deey, əə, öylənsən$_ı$, pulun$_ı$ var, malın$_ı$ var, yaxşı yaşayışın$_ı$ var. Öylən.

Deey:

– Yox, qadan$_ı$ alem, mən öylənəmmərim.

– Ayə, dəlisən$_ı$mi, nə töyrü[133], niyə?

Bir il keçey, üç il keçey, beş il keçey. Bunun bir yaxşı siğə qardaşdığı varıymış, deey:

– Əə, niyə öylənmesin$_ı$? Sənin$_ı$ tay-tuşdarın$_ı$ın uşağı gedif çöldə mal otarıf gətirey. Bə sən niyə öylənmesin$_ı$?

Deey:

– Əə, heş kəs eşitməsin, hak-hesab belədi. Mən özüm Azreyılnan danışmışam, deef ki, havax öylənsən$_ı$, onda səni öldürəjəm. Mən niyə özümü ölümə vererim?

Oan-buan, deey:

– Əə, vallah, yolda yoldaş olufsun$_ı$, nəvlem haana getdi. O tapılarmı əə, sən nə danışesın?

Axırısı bunu yentəkleey[134], deey:

– Əə, bax filankəsin qızı yaxşıdı, gedəh elçi tüşəh, onu gətirəh.

Deey:

– Deysin$_ı$,deysin$_ı$, nağayrem, əl çəkmeysin$_ı$, öldürəjəh də, öldürəjəh.

– Ayə, qorxma.

Bular başdeey toy tədarükünü göröllər. Şan[135] qoyollar, axırısı toyu eleyillər, başa çatdırıllar. Axşam oloy, hamı dağıley. Bu gəley qapıdan əağını içəri qoyanda deey:

– Qardaş.

---

[133] Nə töyrü – necə

[134] Yentəkleey – yanlayır

[135] Şan – nişan

Qanrılanda göröy qan-yağ, qılış əlində bunun boynunun kökündədi. Deey:

– Əə, qardaş, bilesin$_{ı}$ nə var?

Deey ki, nə var?

– Səni and verirəm Allaha, o kəsdiyimiz çörəyə, iki rükət namaz qılajam. O iki rükət namaz kutaranatan man$_{ı}$a dəymə.

Deey:

– Baş üsdə, icazə vererim san$_{ı}$a.

Bu, birinci rükət namazı yarıya qədər qılannan son$_{ı}$ra yarımçıx qoyoy da, oana gedey. Bir xeylax gözdööy, gəlmey. Çıxey deey:

– Əə, nağayresın$_{ı}$, gəlsən$_{ı}$.

Deey:

– Nəyşə gəlem? Gəlmerim.

– Əə, həncəri, namazın$_{ı}$ı qıl.

Deey:

– Sənnən mən söz danışmışam, üç ildən son$_{ı}$ra da o qalanını qılajam.

Deey:

– Həə, zərəl yoxdu, noolar ki. Onda san$_{ı}$a dəymerim. Dünyada dilini büdrətmə haa. Əmbə dediyin vaxdı genə boynunun kökündə hazırım.

Deey:

– Yox, ona qalanda bir az da an$_{ı}$arı çəkəjəm.

Bu fikirrəşdi ki, Allah-taalanın yanında mən yalançı olorum. Gedem Allah-talaa deyim ki, bəndən mənim başıma bir belə oyun açıb, nə kəsey ağlın$_{ı}$.

Xudavəndi-aləm, hamının günü xoş keşsin, günnəri gəldihcə yaxşı olsun. Gedey Allah-taalanın yanına, deey:

– Ey Allah-taala, sənin$_{ı}$ bəndən$_{ı}$ məni allatdı.

Deey:

– Gərəh sən allanmeydın$_ı$, allandın$_ı$, allandın$_ı$, indi nağayrax ki?

Deey:

– Man$_ı$a belə deey. Dedi, bir yarımını da bir vaxdan son$_ı$ra qılajam.

– Ayə, eləmi?

Deey:

– Həə.

Deey:

– Onda qayıt get də denən yaşın$_ı$ı arxeyın yaşa. İndiyətən nə yaşeyıfsın$_ı$ halalındı. İnnən son$_ı$ra da san$_ı$a yüz yaş ömür vererim. Yüz yaşdan son$_ı$ra san$_ı$a ölüm gələr.

Həə, onnan son$_ı$ra başdeyıllar yaşamağa, yaxşı gün keçirellər. Hamı yaxşı gün keçirsin, hamıya Allah yaxşı dolanajax versin.

## 18. ƏZRAYIL VƏ ÇOBAN

Qoldan qüvvətdi, yaraşıxlı bir çovan olur. Bir gün dağda qoyun otardığı yerdə bir qonax gəlir bunun yanına. Deer ki, mən Allah qonağıyam, gəlmişəm.

Deer:

– Allaha da qurvan olum, qonağına da.

Çovan gətirir buna xurcununda nə varsa, onnan tökür, qoyur ortalığa. Deer ki, yiginən. Bunnar yiillər, içillər. Qonağın qarnı doyannan son$_ı$ra qalxır əyağa. Deer:

– Bilirsən$_ı$mi mən kiməm?

Çovan deer ki, bilirəm ki, Allah bəndəsisən$_ı$.

Deer:

– Mən Azreyiləm. Gəlmişəm ki, san$_ı$a əvvəldən xəbardarrıx eliyim ki, sənin$_ı$ toyun$_ı$ günü mən gəlif sənin$_ı$ canın$_ı$ı alajam.

Çovan bir az buna baxır, son$_ı$ra deer ki, nətər isdiyirsən$_ı$, elə də eliyərsən$_ı$. Qonax bunnan razı qalır, çıxır gedir. Vax-

vədə çatır. Bu çovan evlənəsi olur. Munun toyu günü Azreyil gəlir, kəsir bunun yanını. Deer:

– Həəə, çovan qardaş, mən san$_{ı}$a demişdim ki, gələjəm. İndi də gəlmişəm. Gəlmişəm ki, sənin$_{ı}$ canın$_{ı}$ı alam.

Çovan buna baxır deer ki, hələ mən murazıma yetməmişəm, eləməmişəm. Nə qədər çalışır ki, görsün munun başını qata bilirmi, görür yox. Onda and verir. Deer:

– Səni ant verirəm kəsdiyimiz o duz-çörəyə, gəl bu işi hələ təxirə sal, son$_{ı}$ra məni aparарsan$_{ı}$.

Azreyil bir o yana baxır, bir bu yana baxır. Deer:

– Əşi, day bunnan duz-çörəh kəsmişih. O duz-çörəyə də and içir. Zərəl yoxdu, bu işi son$_{ı}$ruya saxlıyım.

## 19. ÜÇ AĞILLI SÖZ

Bir ayilə yaşıyırmış. Bu ər-arvat kasıvıymış. Kişiyə nə qədər deer: "Get işdə, pul gəti. Ayə, camahatın kişiləri gedif pul qazaner, biz kasıflığımızdan öllüh dana, get iki manat da sən qazan" – kişi öydən eşiyə çıxmer, pul-zad qazammer. Elə hey deer:

– O pul bizim baxdımızda, kısmatımızda olsa, özü gəlif bizi tapajax.

Bir gün arvadı sahədə ot yığermış, birdən dırmığı vurduğu yerdə dırmığın altdan üş dənə küpə çıxer. Arvat baxer görör kün, üçünün də içində qızıl var. Gəler deer:

– A kişi, sən deerdin$_{ı}$ kısmatımız olsa, özü gəlif çıxajax. Bax indi çıxıf dana, dur gedəh o küpələri gətirəh.

Kişi deer:

– Arvat, o qızıl bizim kısmatımızda döy, bizim kısmatımızdadısa, özü gəlif bajamızdan aşağı töküləjəh.

Kişi getmer. Burdan da arvat öydə dalaşer deer:

– Ayə, götürüf aparajaxlar, dur gedəh onu çıxardax.

Nə qədər eliyir, kişi getmer. Birdən qonışu eşider ki, ayə, bular öydə qızıl deef də dalaşellar. Gəler soruşor:

– Qonışu, nooluf, niyə dalaşersanı?

Arvat deer:

– Belə-belə, üş küpə qızıl tapbışam, bu kişi, üsdünə ildırım ələnmiş, getmer gətiməyə.

Deer, nağayrax, nağayrmıyax, gedəy ikimiz də çıxardıf gətirəy də, yarı böləy. Nəsə, bullar vax kəsellər, vədələşellər. Bu qonışu köpöoğlu da arvadı allader da, başqa bir qonışusunnan danışer da, qızılı çıxarder. Arvat da vədələşdihləri yerdə oturuf gözdüyür kün, qonışusu gələjəh. Gedəllər, çıxardar gətirəllər. Gətirif öydə açanda göröllər nəə, içinnən bir ilan, qurvağa çıxdı. Tez ağzını örtöllər qorxulu-qorxulu. Deer:

– Arvat məni alladıf, bunu aparıf bajalarınnan başşağı tökəjəm, qoy bu ilan, qurvağa buları yisin, öldürsün.

Bu ikisi gətirif küpələri qonışularının bajasınnan başşağı tökəndə bu ilan, qurvağa olor qızıl. Kişi tez dillənər:

– Sanıa dedimmi, arvat, o bizim kısmatımızda olsa, özü gəlif bajamızdan başşağı töküləjəh.

Bunu tökənnər də fikirrəşer ki, indi biz bulara bu ilan-qurvağıyı töhdüh, əgər bular burdan sağ çıxsa, bizi öldürəjəhlər. Qorxusunnan ikisi də kətdən çıxer, geniyir gedellər. Danışellar ki, iyirmi bir il ölkədən çıxax gedəh, həm pul qazanax, həm də bu ər-arvadın qəzəbinnən kutarax. Bular geder, iki yol ayrıcında ayrılellar. Deellər:

– Gə ayrılax, hərəmiz bir yerə gedəh. İyirmi bir il sonıra burda görüşəh.

Bular burda vədələşer, ayrılellar. Deellər ki, gəlif burda görüşüf gedərih. Biri geder donıuz otaran olor, o biri də geder əli tutor, qəşəh bəy kimi olor. Bu donıuz otaran deer:

– Allah, bircə noolor olsun, iyirmi bir il vaxdım gəlsin keşsin, dala, öz ayləmin içinə qayıdem.

Bu hər yeddi ildən bir donıuzdarın yiəsinnən soruşor kun, bə yeddi ildi sanıa donıuz otareram, bə mənim əməh hakqım neylədi?

Donıuz yiəsi deer:

– Səninı yeddi illih əməh hakqını bir-iki kəlmə söz.

Deer:

– Nədi?

Deer:

– Harda qarannıxladını, orda qal.

Gənə bu buna yeddi il donıuz otarer. Hakqını isdiyəndə donıuz yiəsi genə deer:

– Səninı yeddi illih əməh hakqın bir-iki kəlmə söz.

Kişi ələşsiz gənə deer:

– Nədi o söz? De görəh.

Deer:

– Dəvə gördünımü, heş qığını da görmədim.

Nəsə, bu kişi gənə yeddi il donıuz otarıf əməh hakqını isdiyəndə gənə donıuz yiəsi deer:

– Noolor olsun, həməşə səbr elə.

Nəsə, bu kişi donıuz yiəsinnən halallaşer, gəler iyirmi bir il qavax vədələşdiyi dosdunnan görüşməyə. Görör pah, bunun dosdunun əəğındakı tulum çəhməyə, başındakı papağa bax. Əmə bunun əyni-başı təmiz urvatdan tüşüf. Burda dosduna yalvarer kı, mən öyümə bu sufatda gedəmmərəm, gə gedəh manıa da bir dəs əyin-baş al, arvadım görəndə məni söyməsin, bu sumkanıın birini düz öyünətən mən aparajam. Dosdu razılaşer, buna urvatdı paltar aler geyindirer. Bular yola tüşöllər. Gəlellər, yolda qarannıx tüşör. Bu da getməh isdəmer. Yadına tüşör kü, bunun yeddi illih zəhmət hakqının əvəzi bir sözüydü, o da oydu ku, “harda qarannıxladın, orda qal”. Bu dosduna deer:

– Gə gejiyi burda qalax, gejənin biri bir ildi. Savax tezdən durar gedərih, gejiynən yol getmiyəh.

Dosdu razılaşmer, bu əmə orda qaler. Geder bu kişi bir qapıyı döyör. Deer:

– Öy yiəsi, bir gejəlih məni öyün$_{ı}$ə qonağ elə də. Yol adamıyam, yolda qalmışam.

Öy yiəsi munu qonağ elleer. Öyə girəndə görör kü, qapının dalında bir it var, özü nə yisə, bu itə də onnan verer. Həmi də itnən söhpət-zad elliyir. Bu da ha isdiyir soruşsun ku, bu nə hak-hesafdı. Onatan yeddi illih zəhmət hakqı olan "dəvə gördün$_{ı}$mü, heş qığını da görmədim" sözü yadına tüşör. Taa bunnan heş-zad soruşmor. Savax açlanda bu qapıdan çıxer kı, yoluna davam elləsin, öy yiəsi çağırer ki, qayıt bəri göröm.

– Mən ki, – deer – bir belə sənin$_{ı}$ yanın$_{ı}$da bu itə yidiyimnən verdim, onnan söypət ellədim, sən bircə dəfə də olsun mənnən bu nə hak-hesafdı deyin soruşmadın$_{ı}$ da. Niyə soruşmadın$_{ı}$?

Kişi deer:

– Qadan$_{ı}$ alem, man$_{ı}$a başa salıflar kı, sənnən soruşan olsa, dəvə gördün$_{ı}$mü, denən ki, heş qığını da görmədim.

Öy yiəsi bunu aparer bir otağa, otağın qapısını açanda görör, ayə, otax doludu adam kəlləsinnən, meyitnən. Matı-qutu quruyuf qalır. Öy yiəsi kişidən soruşor:

– Bunu gördün$_{ı}$mü?

Kişi yazıx qorxa-qorxa deer:

– Yox, qadan$_{ı}$ alem, heş qığını da görmədim.

Öy yiəsi deer:

– Bax bir belə insanı ona örə öldürmüşəm ki, olar mənnən bu itin hak-hesavını soruşuf. Sən soruşmadın$_{ı}$, əyər sən soruşsaydın$_{ı}$, səni də öldürüf orya atajıydım.

Buna bir kisə qızıl dolduruf verer də, başına gələnnəri söylüyür. Deer:

– O mənim arvadımdı, – deer – biz bir-birimiznən itnən-pişih kimin yola ederdih deyin onu itə döndərif qapının$_{ı}$ dalına

bağlamışam. Ona örə də onu mənnən kim soruşorsa, mənim xətrimə dəyer, mən də o adamları öldürüf burya tullamışam.

Nəsə, bu kişiyi yola saler. Yolda öz-özünə fikirrəşer ki, nəəxşı[136] mən yeddi illih zəhmət hakqıma inanıf da, ona əməl ellədim, əvəzində də başım hələ üsdümdədi. Gəler görör kü, pah, bunun dosdunu ölkənin girəcəyində öldürüf tulluyuflar, baş bir tərəfdə, leş bir tərəfdə. Bunu görör deer:

– Yaxşı kı, yeddi illih zəhmət hakqıma qulağ asdım da, harda qarannıxladım, orda qaldım.

Sumka da, paltar da, bir kisə qızıl – bir belə şey, hamısı buna qaler. Bir az da geder, geder, axırı gəler öz daxmalarına çater. Bajadan baxer kın, ayə, arvadının qucağında gözəl-göy-çəh, yaraşıxlı bir oğlan uzanıf. İsdiyir gəlsin tez buların ikisini də öldürsün, yadına tüşör kü, yeddi illih zəhmət hakqı olarax "səbr elə" sözünü öryənifdi. Təzdən əl saxlıyıf deer ki, bir az gözdüyüm. Bir az gözdüyür, görör kü, cavan oğlan deer:

– Ay ciji, bə lələm havax gələjəh.

Kişi başa tüşör kü, öz oğludu. Təzdən Allaha dua elleer, ki, nəəxşı mən əl saxladım, səbr ellədim. Yaxşı ki, iyirmi bir il donuz otardım da, bu hikmətdi sözdəri öryəndim, əvəzində mənim qızılım da oldu, urvatım da, özümün də başım üsdümdədi.

## 20. KÖSÖVÜN GÖYƏRMƏSI

Belə bir söhpət var ki, bir nəfər insannara qənim olur. Otuz dokquz nəfəri deməh olar ki, yer üzünnən yox eliyir. Bir gün fikirrəşir, deer, ay dili-qafil, mən neynəmişəm, mən kiməm ki, Allahın yaratdığı insannara qənim yaranmışam. Mən tööbə deməliyəm.

Deyəllərmiş ki, Məhəmmət peyğəmbərlə rasdaşır, deer:

---

[136] Nəəxşı – nə yaxşı

– Ya Məhəmmət, sanıa qurvan olum, noolar, imkandısa, Allah-taalaynan danışanda mənim belə bir sifarişim var. Xayiş eliyirəm, ya özünüz, ya Allah-taaladan manıa bir xəta yeridinı, ya da manıa bir gözəl yol göstərinı. Mən isdiyirəm ki, tööbə deyib bu yoldan geri qayıdam, insannara qənim olmuşam, çünki mən də insanam, necə mən öldürdühlərimi Allah yaradan kimi, məni də Allah yaradıf. Mən niyə insannarı öldürməliyəm, mən kiməm ki?

Deyəllərmiş Məhəmmət peyğəmbər – qurvan olum Allaha – Allah-taalanı görür və Allah-taala Məhəmmət peyğəmbərə deer ki, bu oğlana bir sözüm var. Ona denən ki, Allah-taala dedi ki, böyüh bir yol qırağında, hansı ki, insan hərəkətinin tamamilə çox olan yerində, yolun qırağında bir sahə götürsün, ora su çəhdirsin, mer-meyvə, tərəvəz əksin. Sağdan da gələnin, soldan da gələnin bir il müddətində əkdiyi meyvə-tərəvəzlə peşvazında durmalıdı, heş bir maddi cəhətdən xeyir görməməh şərtilə. Və yolun giriş yerinnən bir əlli metrə də uzaxda əkənəyin[137] ortasında bir kösöy basırsın. (Kösöy hər tərəfi yanmış bir ağac parçasıdı). Havax kösöy göyərsə, onun da arzusu baş tutar.

Gəlir Məhəmmət peyğəmbər deer, ya bəni-insan, qurvan olum Allaha, dedi ki, belə bir məsələ var, getsin bu işdəri eləsin. Bu, Məhəmmət peyğəmbərə cavaf qaytarmır.

Gəlir yolun qırağında bir az fikirrəşir, ürəyinnən keçirir ki, Xudaya, ya Rəbbi, sanıa qurvan olum, bu nə deyilən şeydi, kösöy də göyərərmi?

Ürəyinnən keçirə-keçirə gəlir yolun bir yaxşı yerində bir dənə bulax tapır. Və bulağın yanında əkənək götürür, mer-meyvə, ağaclar, tərəvəz yetişdirir. Sağdan da gələni qəbul eliyir, soldan da gələni. Atnan gələni yüyəninnən tutuf deer:

[137] Əkənək – əkin yeri

– Buyur, əyləş zəhmət olmasa, sanıa qullux eliyim, kölgədə otur, isdidə yol gəlmisənı.

Bunnara hədiyyə də verir ki, öyladdarına aparsın. Deyəllər ki, bir ilə yaxın bu adam insannarın peşvazında durur. Hərdən də o kösöyə baxır ki, görüm kösöy göyərif, yoxsa yox, bunun arzusu çin oluf, yoxsa yox. Çünki bu otuz dokquz nəfərdən sonıra tööbə deyib, insan qanına əlini batırmax isdəmiyif, düz yola, Allahın yoluna qayıtmax isdiyir, qurvan olum Allaha. Diyəllərmiş ki, bir müddət keçir. Bir müddətdən sonıra atın üsdündə bir nəfər gəlir. Yayın da isdi günü, gəlir, atın yüyəninnən tutur, deer:

– Qardaşım, zəhmət olmasa, buyur, sizin peşvazınızda durum.

Deer:

– Əə, çəkil mənim yanımnan.

Deer:

– Qardaşım, mən sənnən xayiş elədim. Çox xayiş eliyirəm, atın belinnən tüşünı torpağın üsdə, mən sizin peşvazınızda durum.

Deer:

– Əə, sanıa deerəm çəkil yanımnan.

Bu adam bir ilə, iki ilə yaxındı əziyyət çəkif. Dözüf hər bir əzab-əziyyətə, insannarın peşvazında duruf heş nəsiz, təmənnasız. Çünki nədi-nədi, qurvan olduğum Allahın yoluna qayıtsın. Bir də deer ki, qardaşım, axı, mən sizdən xayiş eliyirəm, tüşün, bir balaca istirahət eliyinı. Bu elə bir cavaf verir ki, buna, hər bir şey yadınnan çıxır, bunu atın belinnən çəkir yerə, yerə salan kimi bunun boğazını kəsir. Ani olaraq fikirrəşir, deer, ayy, mənim iki illik zəhmətim hara getdi. Mən niyə belə hərəkət elədim, mən söz vermişdim ki, Allahın yoluna qayıdajam. Otuz dokquz nəfər öldürmüşəm, daa qırxıncı, qırx birinci, qırx ikinciyə qədəm basmıyajam. Necə oldu ki, bu qə-

dər əzab-əziyyətdən sonıra mən ağlımı itirdim, adam öldürdüm. Bu vax Allah-taaladan səda gəldi. Dedi:

– Eey, bəni-insan, sən gözəl bir məxluqsanı. Bir çevril kösöyə bax.

Çevrildi kösöyə baxdı ki, əə, kösöy göyərif.

Dedi:

– Gördünı kösöyün göyərməsini, bəni-insan. Sən fikir eləmə, sən mənim yolumdasanı. Bu sən öldürdüyünı adam yüz adam öldürmüşdü, yenə də mənim yoluma qayıtmırdı. O, artıx səni də öldürməh isdiyirdi. Sənnən sonıra eeyy, gedəcəydi nə qədər. Sağ ol səni ki, mənim yoluma qayıtdını, saysız-hesavsız insannarın ölümnən cannarını kutardını. Sanıa halal olsun, sən düz eləmisəmı, onu xəta yolunnan geri qaytarmısanı.

Oğlan gedir baxır tut ağacının divinə, görür, sən ölmüyəsənı bunun qanınnan bu ağacın kötüyündə qannar var. Deməli, bu qan sıçrıyıf ora gedif ki, o kösöy göyərif.

## 21. ALLAHIN ƏDALƏTİ

Musa peyğəmbər Allah-talanın yanna geder. Deer:

– Sənin ədalətdiyinıi görmədim, ya Allah. Hakqı nahakqa düzgün yazmeysını, düzgün eləmeysinı.

Dedi:

– Ya Musa, get filan bulağın başında bir ağac var, onun başına çıx da, mənim ədalətdiyimi görəjənı.

Musa peyğəmbər getdi, bu dediyi ağacın başına çıxdı, orda qaylan çəkeydi. Gördü bir atdı çaparax gəldi. Əyildi su işdi. Bu əylif su içəndə civinnən pul sürüşüf tüşdü. Bu Musa peyğəmbər də ağacın başınnan baxer gedişata[138]. Bunun dalıncax bir dənə çovan gəldi, qoyunu suyə töhdü. Gördü bir

[138] Gedişat – hadisələrin gedişi

dəsdə pul var. Bu pulu civinə qoydu. Musa peyğəmbər də oxardan baxey. Çovan da qoyunu suladı, pulu da ötürdü, çıxdı getdi. Bunun dalıncax qoja kişi gəldi oğlannarınnan. Dedi:

– Oğul, siz gedinı yavaş-yavaş, mən də birəz bulağın üsdündə dincəlif, sonıra gələjəm.

Oğlannarı getdi. Qoja kişi burda surfa aşdı, çörəh yidi. Bu atdı yolun yarısında baxdı gördü ki, pulu yoxdu civində, başdadı qayıtmağa. Qayıtdı gəldi, dedi:

– Ə, kişi, mən burda su işmişdim, pulum bura tüşmüşdü, ver.

Dedi:

– Oğul, vallah, bura pul tüşmööf, görməmişəm.

– A kişi, vallah nədi, sənnən başqa bu dağın başında kim var?! Təh sənsənı, pulu ver.

Dəəndə dedi:

– Vallah, yox, bu çörəh hakqı yox, a bala.

– Ə, nə yox, a kopoğlunun kişisi.

Bunun üsdünü-başını gəzdi də, bu kişinin başını siyirdi, kəsdi də qaşdı. Atı mindi, çıxdı getdi. Pulu da çovan aparıf.

Oğlannarı da gördü kişi gəlmədi, geri qayıtdılar bulağın yanına. Gəlif çatanda ördülər kişinin başı kəsilif.

– Ə, bunu kim kəsdi? Ay qardaş, kişiyi kəsiflər!

Biri oana baxdı, biri bu tərəf-o tərəf baxdı. Gördülər, heş kim yoxdu, bir də baxdılar ki, bir kişi ağacın başındadı.

– A kişi, aşağı tüş, kişinin başını kəsifsənı.

– Əyə, a bala, Vallah, mənim xavarım yoxdu, mən kəsmədim.

Dedi:

– Ə, bir aşağı tüş göröm.

Bunu endirdilər aşağı, xup dəənə çırpdılar, əmbə öldürmədilər, çıxıf getdilər.

Bu, o qədər döyülüf ki, əsim-əsim əser. Əsə-əsə gəldi Allah-taalanın yanna. Dedi:

– Ya Allah, Xudavəndi-aləm, sənin$_{ı}$ heş mən ədalətdiyin$_{ı}$i görmədim.

Dedi:

– Genə görmədin$_{ı}$?

Dedi:

– Yox. Hanı? Atdının pulunu çovan apardı. O qoja kişinin də başını atdı gəldi, ordaja kəsdi, vardı getdi. Taa burda sənin$_{ı}$ ədalətdiyin$_{ı}$mi qaldı?

Dedi:

– Ya Musa, o vaxdı atdının dədəsinin başını o qojanın dədəsi kəsmişdi. Bax onun qısasını onnan aldırdım.

Dedi:

– Bə pulu niyə çovana verdirdin$_{ı}$?

Dedi:

– Onun dədəsi onu o vaxdı muzdur işdədif hakqını verməmişdi, o pulu da ona qismət elədim, getdi.

Onnan son$_{ı}$ra Musa peyğəmbər dedi:

– Ya Allah, sən bilən yaxşıdı.

## 22. QOCALARIN ÖLDÜRÜLMƏSİ

Bu nağıl lap çoxdanın, neçə min il bunnan əvvəlin nağılıymış. O vaxdarın kın, insannar qojalırmış, ölmürmüş. İnsannar o qədər qojaler kı, lap belə uşax halına tüşör. Səvətdə əriyellər. Patşah əmr verer ki, nə qədər qoja varsa, qırın. Nəsə bir oğlan dədəsini səvətə qoyor, əlinə aler aparer meşiyə tullamağa. Patşahın əmridi axı. Oğlan aparer səvəti ağacın divinə qoyor da, geri qayıdanda dədəsi gülör.

Deer:

– Ay dədə, niyə güldün$_{ı}$?

Deer:

– Bir gün olajax kı, sənin$_ı$ oğlun da səni gətirif burya tulluyajax. Ona gülörəm, a bala.

Təzdənnən bu deer ki, cəhənnəmə, patşah məni öldürsə də, dədəmi burda qoyammaram, bunu götürüf, geri qaytarıf, öydə gizdin saxlıyajam. Elə olor ku, Dağ Yunusun vaxdı olor, bunun çoxlu qızılı olor. Bunun yerini bilən olmor.

Patşah deer:

– Görən$_ı$ elə bir adam qalıpbı kı, onun yerini bilə?

Bu qoja kişinin oğlu gündə şəhərdeymiş, hərrənermiş. Patşahın bu söypətini eşider, gəler dədəsinə deer:

– Ay dədə, belə-belə, patşahın əmri var kı, görən elə bir qoja varmı kı, Dağ Yunusun qızılının yerini bilə?

Dədəsi deer:

– A bala, qorxma mən bilerəm yerini. Get patşaha denən ki, mən sənin$_ı$ qızılın$_ı$ın yerini bilerəm. Ancax mən dədəmi öldürməmişəm, bircə söz ver ki, qoy o ölməsin, sağ qalsın.

Geder canını tişinə tutor da, patşaha deer. Patşah razılaşer. Oğlan öyə qayıder, dədəsinə deer ki, patşah razılaşdı.

Deer:

– Get patşaha de ki, qırx dəvə yükü çaxır versin, qırx dəvə yükü də mal-qara əti olsun. Filan dağın divini qazdırsın, çaxırı quyuya tökdürsün, əti də qırağa qoysun.

Onda da hamı quş dilini bilermiş.

– Bunu eliyənnən son$_ı$ra da quşdarın söypətinə yaxşı qulağ as.

Oğlan gəler bunu patşaha deer. Patşah da oğlanın dedihlərinin hamısını eleer. Bu qarğa-quzğunnar gəler, o qədər qojadılar kı, heş tühləri də yoxdu. Bular çaxırı içer, ətdən yiir, oynaşellar. Yorulanda bir-birinnən söhpətdəşəndə oğlan görör kü, quş deer ki, biz bu kefi bir də Dağ Yunusun vaxdında gör-

müşüh. Burdan karvan keçəndə çooğun, çığ[139] qırdı. Bax həmən onda görmüşüh bu kefi. O biri də deer, Dağ Yunusun qızılları bax bu dağın altındakı mağaradadı. Bu quş soruşor ku, bə o mağaranın qapısı-bajası yoxdumu?

Deer:

– Bax o sal qəya bu mağaranın qapısıdı.

Oğlan bulara qulağ asermış. Dağ da o qədər yekə dağıymış kı, oğlan buryu manışırrıyır[140], quzğunnar da kefini sürör də, gedellər. Oğlan geder, qızılların yerini patşaha gösdərer. Padşah pəhlavannar gətirder, qapıyı aşdırer. Sonıra da qayıder əmr eleer ki, ta qojaları öldürmüyünı.

## 23. İNSANIN TAMAHI

Padşahın qəzəbi keçir birinə. Vəzirə deer ki, bu dünyada nə mındar olar, onu manıa de. Vəzir deyə bilmir.

Vəzirə deer:

– Sanıa beş gün möhlət verdim, tafdını, gətdinı, gətdinı. Gətirmədinı, boynunıu vurdurajam.

Bu fikirrənə-fikirrənə gedermiş. Görör ki, padşahın çovanı bir yalın başına qoyunu yığıf, düdüy çalır. Bunun yanına gəlir.

Çovan deer:

– Vəzir, salamməleykum. Nədi, xeyir ola?

Deer:

– Bəs belə-belə, padşah belə deef.

Deer:

– O nəmənədi, onu mən taparam, deyərəm. Hələ otu çörəh ye, öyrədərəm, get de, canını kutar.

Deer:

– Nədi?

---

[139] Çığ – burada: boran, tufan
[140] Manışırrıyır – yerini isarələyir

Deer:

– Ode, o daşı görürsənımi? Dıvır[141] üsdə çıxıf. Onun altında bir küpə qızıl var. Çörəh ye də, köməh elə o daşın altını eşəy, daşı aşağı salax, apar o qızılı ver də canıyı kutar. Əmbə mən nə desəm, onu tutajan[142].

Çörəh yiənnən sonıra çovan deer ki, mən nə desəm, onu tut, onnan sonıra. Deer:

– Get o daşın dalında, ayıf olsa da, orda otu da, öz nəcisinnən ağzına, burnuna bula. Onnan sonıra gəl, görkəzəjəm, eş, götü qızılı.

Gedir orda oturur, nəcisinnən də ağzına, burnuna buluyur, gəlir.

Deer:

– Ay öyünı yıxılsın, o daşın altında qızıl olsa, bir günə qazardım, day bu qoyuna gedərdimmi? Get padşaha deynən ki, nəfsdən mındar şey yoxdu.

Qayıdır gəlir. Padşaha xəvər gedir ki, vəzir gəlir. Deer ki, tafdınımı?

Deer:

– Vallah, bir şey tapmışam, indi özün bax.

Deer:

– Nədi?

Deer:

– Nəfsdən mındar şey yoxdu.

Deyəndə deer:

– Munu sanıa kim öyrətdi, onu de manıa.

Deer:

– Bəs çovan öyrətdi.

[141] Dıvır – birillik keçi
[142] Tutajan – edəcəksən

Birinə deer ki, sən get qoyunun yanına, qoy çovan gəlsin bura. Çovan gəlir:

– Salamməleykum.

– Əleykusalam.

– Padşah, mənim üçün qullux nədi?

Deer:

– Qullux sahibi olasan$_ı$. Nə bildin tamahın mındar olduğunu.

Deer:

– Ölüm əyağındadı bu vəzirin$_ı$, öz tamahınnan öz p...nu yidi.

Deer:

– Çovan, sən mənim vəzirimsən$_ı$. Vəzir, sən də çomağın$_ı$ı götür də, get qoyuna.

Bu dünyada tamahdan mundar şey olmaz. İnsanın başına nə iş gəlsə, tamah gətirər, öldürər, asar, kəsər, tamah nə desən, eliyər.

## 24. PADŞAH VƏ ÇOBAN

Bir gün bir hökmdar cavan bir vəzirinə belə buyurdu, dedi:

– Ayə, bu xannıxlarda kimin varı-döyləti, daşı-qaşı çox olar?

Dedi:

– Mən nəvlem ki, hökmdar?

Dedi:

– San$_ı$a qırx gün vax vererəm, qırx gündə gedersən$_ı$, kimin varı, döyləti, səltənəti, qızılı, fılanı çoxdusa, öryənif, gəlif man$_ı$a xavar verersən$_ı$.

Neynəsin cavan oğlan? Getdi orya, getdi o birinə, bu birinnən o birinə. Baxanda ördü qırx günün otuz günü tamamdı. O vaxdı da maşın yoxuydu, atnanıdı, fılannandı. Bu yazıx da atsız, piyada yola tüşüf getdi. Günorta bir çovanın yatağının

yanınnan keşməh isdədi. Gördü çox boylu-puxunnu, qoldan qüvvətdi bir çovandı. Salam verdi, əleykiməsalam götürdü. Çovan baxdı gördü bu elə mərifətnən görüşör kü. Amma boynunu-başını toz basıf, kir basıf, halı-hərəkəti yoxdu.

– Ayə, a bala, günorta mənim qonağım olajanı. Qoyunnarı gətimişəm isdirahətə.

Dedi:

– Ay əmi, vaxdım azdı, vəziyətim çətindi, heş cür diyanmağa, sanıa qonağ olmağa imkanım yoxdu.

– A kişi, mənim əlimnən heş kim kutara bilməz. Sən kimsənı ki, mən səni qonax eliyəm, sən də qavıl eləmiyəsənı?! Nə dərdinı var? Dərdinıə, bəlkə, mən şərik olajam. De.

Yiməyi gətirdi, yaxşı-yaxşı yidilər. Yiənnən sonıra çovan dedi:

– Başınıa gələni manıa danış.

Dedi:

– Mənim hökmdarım deer ki, bu Azərbaycan xannıxlarında kimin varı-döyləti mənimkinnən çoxdusa, gəl, manıa de.

Çovan soruşdu:

– Manıa de göröm, onun boyu mənimkinnən balajadı, yekədi?

Dedi:

– Ayə, səninı çənənıin altınnandı. Onun boyu balajadı, sən əzmənsənı[143], yekəsənı.

– Ayə, de göröm, varını-döylətini özümü qazanıf, yoxsa dədəsinnən, bavasınnanmı qalıf?

Dedi:

– İrsən qalıf, bavadan oğula qalıf, oğuldan da ona qalıf. Atasınnan qalıf.

---

[143] Əzmən – azman

– Manıa bir söz də deyə bilərsənımi? Öləndə adamların yanında xəznə də basırellarmı?

Dedi:

– Yox, var-döylətinnən, xəznədən, qızıldan, brilyantdan nəyi varsa, onu ölənin yanına qoymollar.

Çovan dedi:

– Nağayrellar bə? Boyuna örə bezmi piçellər?

Vəzir dedi:

– Hə, elə eliyillər.

Dedi:

– İndi kimin var-döylətinin çox olduğunu mən bilerəm.

– Bilersənı?

Dedi:

– Hə, bilerəm.

Durdu çovan əynini dəyişdi. Yaxşı çərkəzi yapıncısı varıydı, formadan həmi yüngül, həmi yaraşıxlı, onu da çiyninə götürdü. Tavət[144] bunun bir dənə xənçəri varıydı kı, qılınşdan gödəh, əmə qılınşdan kəsərriydi. Xənçəri belinə bağladı, yapıncıyı üsdən geyindi, çomağını da, dəyənəyini də əlinə götdü.

Vəzir dedi:

– Bə bu dəyənəh nəyə lazımdı?

Dedi:

– O ağlın sahibi olduğunıa görə bu günə qalıfsanı. Xənçərimin boyu çox olsa, iki metriyi vurar, bu çomağımnan dörd metrədə gələni bəəxdan uzadaram yerə. Yeri.

Getdilər. Hökmdar baxdı gördü kü, vəzir gəler, yanında da bir çovan. Çovan deer:

– Salam.

Hökmdar heş dilləmmer.

Dedi:

---

144 Tavət – həm də

– Hökmdar olufsan$_ı$, böyüh şey ha olmuyuf? Kişisən$_ı$, adamsan$_ı$ mərfətin$_ı$, qanacağın$_ı$ olsun! Qapın$_ı$dayam, salamımı niyə almersan$_ı$?

Hökmdar dedi:

– Tutalım, əleykiməsalam.

Dedi:

– Bu vəziri niyə bu çöllərə salersan$_ı$?! Deefsən$_ı$ ki, bu məmləkətdə, bu ölkədə kimin varı-döyləti çoxsa, gəl, man$_ı$a söylə, göröm mənimkimi çoxdu, onunkumu? Deefsən$_ı$mi?

– Hə, demişəm.

Dedi:

– Sənin$_ı$ boyun$_ı$ yekədi, mənim?

Deer:

– Sənin$_ı$.

Çovan dedi:

– Hökmdar, mən bircə sualnan sənin$_ı$ cavabın$_ı$ı kutareram. Sənin$_ı$ varın$_ı$ı-döylətin$_ı$i kim verif? Hardan gətirifsən$_ı$? Özün$_ı$mü qazanıfsan$_ı$? Bavan$_ı$nanmı qalıf, atan$_ı$nanmı qalıf, kimnən qalıf o var-döylət?

Dedi:

– Bavamın döyləti atama qalıf, atamın da varı man$_ı$a qalıf.

– İndi bavan$_ı$ın boyu da mənim boyum qədər varıydımı?

Dedi:

– Yox, atamın da, bavamın da boyu mənim boyumnan az fərkli olardı.

– Yaxşı, oları nəynən basırdın$_ı$ız? Neçə arşın ağ verdin$_ı$iz?

Dedi:

– Məsələ, on beş arşın.

– Onnan başqa onun yanına nə qoydun$_ı$uz?

Dedi:

– Biz musurmanıx, bizdə ancax ağnan ölümüzü torpağa tafşırmax ədətdi.

– Bə bir belə vardan, döylətdən oların yanına heş qoymadılar?

Dedi:

– Ədət döy.

Çovan dedi:

– Sənnən mən varrıyam. Ona örə ki, mən öləndə özümnən iyirmi iki arşın ağ aparajam, sən də öləndə çox aparsanı, on beş arşın ağ aparajanı. İndi axlınıca hasımız varrı olarıx? Dünyənin varı dünyədə qalajax. Bircə səninı bu dünyədə əməllərinı qalajax. Vəzirə bu cür işi buyuruf yazığı bu günə saldığınıı özünınən o qavra aparajaxsanı.

Çovan bunnarı dedi, vəziri də orda azad elətdi, yazığın canı kutardı.

## 25. PADŞAH VƏ ÇOXBİLƏN

Bir gün bir paççah sarayın çoxbiləninnən, hiyləgərinnən soruşur:

– Söydəgərrəri çox vaxdı analarının hiyləgər oğulları addandırıllar. Bu doğrudumu?

Çoxbilən də qayıdır ki, bəli, hökmdar. Onnar həkqətən də, hiyləgərdilər. Paççah da çoxbilənə deer ki, subut elə. Çoxbilən bazara xəvər göndərir ki, sarayda mərci almax isdiyillər. Dört söydəgər mallarınnan bir az götürüf saraya gəlillər. Gətirdihləri mal mərci olur. Paççah sual verir:

– Ağalar! Gətirdiyniz malın adı nədi?

Tacirrər bir-birinin üzünə baxıllar. Fikirrəşillər ki, nə desələr, paççaha xoş gedər. Bu dənin adı hamıya bəllidi. Paççah da boş yerə onun adını soruşmur. Burda yəqin bir sirr var. Tacirrər çox tüşünüllər. Paççahın səbri tükənir.

– Həə, nooldunıuz? Gətirdiyinıiz malın adı nədi?

Tacirrərdən biri tez dillənir:

– Paççah sağ olsun. Manıa elə gəlir ki, bu, çöl noxududu.

İkinci tacir:

– Şah sağ olsun, noxud olmağına sözüm yoxdu. Ancax noxuddan xırdadı. Necə addanır, yadıma sala bilmirəm.

O biri tacir deer:

– Manıa elə gəlir ki, bu istotdu. Ama rəngi açıxdı.

Qəti cavab almıyan paççah əsəbi-əsəbi kışqırır:

– Manıa elə gəlir ki, sizin də başınıız yoxdu. Bu nə noxuddu, nə istotdu. Bu adicə mərcidi. Mərci! Bildinıiz?

Tacirrər dördü də bir ağızdan, deer:

– Elədi ki, var, paççah sağ olsun.

Paççah bir də soruşur:

– Niyə dənin adını demirsinıiz?

– Şah sağ olsun, adı elə indi özünıüz dedinıiz.

Paççah bir də soruşur. Tacirrər deer:

– Adı yadımızdan çıxdı.

Paççah bir də deer:

– Adı mərcidi.

Tacirrər deer:

– Bəli, şah sağ olsun, özüdü kü, var.

Paççah bərk əsəbləşir, tacirrəri qoalıyır. Çoxbilənə deer:

– Subut elədin. Subut elədin ki, bu söydəgər tayfası hiyləgər olurmuş.

## 26. HEFİ İLƏ SEFİ

Bir ər-arvat varıymış. Arvadın adı Hefiymiş, kişinin adı Sefi. Bunnarın da öylat sarıdan var-yox bir qızdarı oluf. Qızı yaxşı bir oğlana ərə veriflərmiş. Bir günnəri Hefi Sefiyə deer ki, ay Sefi, gəlsənə bir qızımızın yanına gedəh. Gör ey, nə vaxdı qızımızı görmürüh. Sefi də deer ki, hə, düz deersənı, ay Hefi, gedəh. Nəysə, onnar yığışıf qızdarının yanına gedillər. Qızı, kürəkənnəri bunnara yaxşı hörmət eliyillər. Gejə qızı

bunnara bir otaxdan, özdərinə də başqa bir otaxdan yer salır. Gejənin bir vədəsi Hefi baxır ki, eşihdən qazdarın yaman səsi gəlir. Sefini qaldırıf deer:

– A Sefi, bir qulax as, gör qazdar nejə çığrışır. Yazıxlar səhərdən dincəlmillər. Yəqin çoxdandı qızım onnarı çimizdirmir. Gəlsənıə bir qazan su qoyuf qazdarı çimizdirəh?

Deer:

– Yaxşı.

Onnar duruf bir qazan su qoyullar. Su qaynarraşanda qazdarı bir-bir qaynar suya salıf çıxarıllar. İşdərini kutarannan sonıra elə yorğan-döşəhlərini də gətirif qazdarın yanınnan yer salıf yatışıllar. Səhər qız duruf baxır ki, nə dədəsi var, nə də anası. Tez eşiyə yüyürür ki, görsün bunnar hardadılar. Baxır ki, qaz damınnan hənirti gəlir. Yaxınnaşanda görür nəə, qazdar leş-leşə bir-birinin yanına döşənif, ölüflər. Bir anasına baxır, bir dədəsinə, deer:

– A öyünıüz yıxılsın, niyə bunnarı bu kökə salıfsınıız?

Hefi qavağa durur ki, bə gejə qazdar yaman çığrışırdı. Duruf baxırıx ki, hamsı pittənif. Yazığımız gəldi. Dedim, a Sefi, sən Allah, su qoy, bunnarı çimizdirəh. Yəqin qızımızın vaxdı yoxdu, bu tifilləri çimizdirsin. İndi bax çimənnən sonıra gör nejə dincəliflər, yazıxların bir az olar səsi kəsifdi.

Gejə tüşəndə qızı öz-özünə fikirrəşir ki, bunnarın yerini öydən salsam, yenə də bir iş qayırajaxlar. Odu ki, onnarın yerini bu dəfə mal pəyəsində salır. Hefi baxır ki, inəh göyşüyür. Deer:

– A Sefi, sən canını, dur inəhdən bir az sakqız al, qoy mən də çiyniyim, yaman tamahım tüşdü inəyin sakqız çiynəməyinə.

Sefi inəyə yaxınnaşıf deer:

– A inəh, mənim arvadıma da bir az sakqız ver.

Baxır ki, heş inəh bunu saymır, elə sakqızını çiyniyir. Fikirrəşir ki, yəqin inəyin qulağı ağır eşidir, bir az yeyinnən kışqırım. Kışqırır:

– A inəh, kar döysən ha, bir az da o sakqızdan arvadıma ver, qoy çiynəsin.

Görür heş bu dəfə də inəh bunu vejinə almır, sakqızını çiyniyir. Deer:

– Yaxşı, mən bu dəyqə sənin$_{ı}$ başına bir oyun açım, sən də bax.

Duruf pıçağı götürüf inəyin başını kəsir. Səhər qız durur ki, görüm dədəmnən anam neynillər. Pəyəni açanda görür, inəyin başını kəsif, hərəsi bir tərəfdə oturuf. Deer ki, a dədə, a ana, niyə inəyin başını kəsifsin$_{ı}$iz? Bu nə oyundu açırsın$_{ı}$ız mənim başıma?

Sefi deer:

– Hıı, yaxşı elədim. Axşam deerəm ki, arvada da sakqız ver, çiynəsin, vermir. Hələ mənə ajıx verir. Mən də tutdum başını kəsdim.

Qız baxır ki, hələ bunnar burda bir-iki gün də artıx qalsalar, çox işdər törədəjəhlər. Tez yol tədarükü görüf anasıgili evlərinə yola salır. Yola salanda onnarın yoluna yağ, bal, neçə metrə də parça qoyur. Hefiynən Sefi yolun yarsında baxıllar ki, torpax çat-çatdı. Hefi deer:

– A Sefi, gəlsən$_{ı}$ə, yağı bu yazığın əl-əyağına çəkək. Gör yazığın canı nejə çat-çat olufdu.

Bunnar başdıyıllar qızın qoyduğu yağı torpağa sürtməyə. Bir-iki addım da gedillər, görüllər ki, dağın döşünnən bulax axır, amma bulağın suyu az gəlir. Hefi deer ki, Sefi, gəl balı bulağın suyuna qatax ki, bulağın suyu gurraşsın. Bir az da gedillər. Görüllər ki, küləh əsir, taxıllar yellənir. Hefi deer ki, a Sefi, gör küləh nejə bərk əsir ki, taxıllar söyuxdan titrəşir. Gəlsən$_{ı}$ə taxılı parçıya bürüləyəh ki, taxıllar üşüməsin. Deer:

– Yaxşı.

Qızın qoyduğu parçanı götürüf taxılı bu başdan taa o başa kimi püküllər. İşdərini kutarıf bir az dincəlməh isdiyillər. Otur-

duxları yerdə birdən Sefi baxır ki, Hefinin başına çivin[145] qonuf. Tez əyilif yerdən bir daş götürüf deer:

– Hefi, Hefi, sən sakit otur, mən başınıa qonan çivini öldürüm.

Hefi yazıx da sakitcə oturur. Gözünə döndüyüm Sefi daşı Hefinin kəlləsinə çırpır. Hefinin canı oturduğu yerdəjə çıxır. Bu vax yoldan bir kişi keçirmiş, deer:

– A Sefi, arvadı niyə öldürdünı?

Deer:

– Zərəl yoxdu. Biri onnardan öldü, biri bizdən.

Sefi öyə çataçatda görür ki, yolun qırağında göl var. Gölün üzü də qurvağa cağamı[146] olur. Sefi öz-özünə deer ki, elə yaxşı oldu, qoy elə burdaca çimim, öyə təmiz gedim. Girir gölə çimməyə. Birdən bunun başına qurvağa cağamı yapışır. Taa huşu kəsmir ki, əlini atıf cağamı başınnan təmizdəsin. Belə eləməh əvəzinə göldən çıxıf başını o daşa, bu daşa o qədər döşüyür ki, elə ordaja canı çıxır.

## 27. BAL YEDİM, BƏLAYA DÜŞDÜM

Bir Quru bəy varıydı. Ona Quru bəy ona görə deerdilər ki, vur-tut bir xoruzu varıydı. Quru bəy kətdə bir qıza vurulmuşdu. Ancax qızın ata-anası bu işə razı döyüldülər. Həmin kətdə bir cindar varıydı. Bir gün Quru bəy o cindarın yanına gəlir, yalvarır ki, manıa elə bir dua yaz ki, o qız manıa ərə gəlsin. Cindar baxıf görür kü, bunun qoltuğunda iri bir xoruz var. Deer ki, əllərinıi aç. Cindar adamlarına tafşırır ki, o əllərini yana açanda xoruz yerə tüşəjəh, xoruz yerə tüşən kimi tez

---

[145] Çivin – milçək

[146] Qurbağa cağamı – axar və ya durğun suların sahilə yaxın yerlərində əmələ gələn tünd şabalıdı rəngli kütlə

xoruzu tutuf gizdədin$_{ı}$. Onun adamları cindar dediyi kimi eliyillər. Quru bəy cindardan soruşur:

− Xoruz nooldu?

Cindar deer:

− Xoruz qeybə çəkildi. Bu iş sənin$_{ı}$ xeyrin$_{ı}$ədi. İndi get bir banka bal və bir az da zırnıx[147] suyu gətir.

Quru bəy cindarın dedihlərini gətirir. Cindar zırnığın suyunu bala qatır, tafşırır ki, qızı güd, gördün$_{ı}$ o nə vax bulax başına gəlir, bankanı bulağın başına qoy. Elə elə ki, o baldan yesin, həm də evdəkilərə aparıf yidirtsin.

Quru bəy cindar dediyi kimi eləyir. Qız bulağın başına çatmamış balı aparıf bulağın başına qoyur. Qız bulağa gələndə görür ki, bulağın başında bir banka var. Baxanda görür ki, bankadakı baldı. Həmin baldan bir barmax götürüf yiir. Yiən kimi qızın dili başdıyır topux çalmağa. O, bankanı da götürüf evlərinə gəlir. Anası bunu gözdüyürmüş, xamır qatajıymış. Ona görə də qızını suya göndərifmiş. Qız da gej gəldiyinə görə başdıyır qızı döyməyə ki, niyə gej gəlifsən$_{ı}$. Qız isdiyir ki, anasına cavaf versin, ancax dili topux çalır. Başdıyır gigildəməyə[148]:

– A-a-n-a, bıp bal y-y-e-dim, bip b-b-ə-əlaya tüş-düm.

Anası baxıf görür kü, bu qız gigildəyir, həmin bankadakı baldan bir barmax alıf bu da yiir, başdıyır bunun da dili topux çalmağa.

– A-a qı-ız-ım, buu nə-əydi, bıp bal yidim, bip bəə-la-ya düüş-düüm.

Ana bankanı isdolun üsdünə qoyur. Evdə balaca bir uşax da olur. Uşax da baldan bir barmax yalıyır, başdıyır o da gigildəməyə:

---

147 Zırnıx – zirinc

148 Gigildəmək – kəkələmək

– A-a-n-a, bıp baal yidiim, bıp ba-alı-ya düüşdüm.

Bir az keşmiş evin kişisi də gəlir. Gələndə görür ki, nə yiməh var, nə çörəh. Başdıyır kışqırmağa ki, evdə niyə yiməh yoxdu. Arvat kikildəyə-kikildəyə kişini başa salmağa çalışır ki, amanın bir günüdü, o baldan yimə, o bal bizi bu günə qoyuf. Kişi tez arvadı toxacnan vuruf[149] an$_{ı}$arı yıxır, baldan bu da bir barmax yalıyır. Başdıyır bu da kikildəməyə:

– A-a-rvad, sə-ən düüz de-yir-miş-səən, bıp baal yidiim, bıp bəə-la-aya düüş-düm.

Kişi arvadı, qızını, balaca uşağı götürüf həmin cindarın yanına gedir. Deer, bəlkə, cindar buna bir əlac tapa. Cindar da bu işi özü quraşdırdığına görə hər şeyi bilirdi, ancax özünü elə göstərirdi ki, guya heş nədən xəvəri yoxdu. Kişiyə deer ki, sizin$_{ı}$ dilin$_{ı}$iz o vax açılar ki, sən qızın$_{ı}$ın Quru bəyə ərə getməyinə razılıx verəsən$_{ı}$. Kişi də cindarı birtəhər başa salır ki, hər şeyə razıyam, bircə bizə bir əlac elə, dilimiz açılsın. Cindar da bilir ki, bu bir-iki günnühdü. Deer ki, qoy Quru bəyi çağırax, bir dənə də molla, kəfinnərini kəssin, diliniz açılsın. Elə də eliyillər. Quru bəy öz sevgilisinə qovuşur.

Göydən üç alma tüşür, biri mənim, biri nağıl söylüyənin, biri də dinliyənin.

## 28. AĞILLI QARDAŞLA DƏLİ QARDAŞ

İki qardaş varıydı. Bunnarın biri dəli, o birisi ağıllıydı. Onnarın bir qoja anaları varıydı. Qardaşdar qoyun saxlıyırmışdar, nööbəylə bir gün biri, o birsi gün o biri qardaş qoyunnarı otarmağa aparırmış. Qardaşdardan biri də evdə qalıf o qoja analarına qullux eliyərmiş. Bir gün ağıllı qardaş qoyun nööbəsində olanda dəli qardaş evdə anasına quymax pişirir, quymağı

---

[149] Toxacnan vurmaq – əl ilə sərt şəkildə itələmək

qaynar-qaynar anasına zornan yidizdirir, anası onnan ölür. Ağıllı qardaş qoyun nööbəsinnən gələndə görür ki, anası ölüf. Dəli qardaşa deer ki, ayə, anamıza neynədinı ki, o öldü? Deer:

– Quymax yidizdirirdim, yiməh isdəmirdi, mən də zornan quymağı ağzına töhdüm.

Səhər açılır. Ağıllı qardaş qoyun nööbəsinə dəli qardaşı göndərməh isdiyir ki, anasını aparıf basdırsın. Dəli qardaş onnan razılaşmır. Deer:

– Anamı mən özüm basdırajam. Sən çıx get qoyun nööbəsinə.

Dəli qardaş anasını dalına alıf aparır qəvirsannığa. Qəvirsannığa çatanda görür kü, anası yoxdu dalında. Deer, yəqin yolda tüşüf. Qaçıf geri qayıdır. Görür bir qoja qarı əlində hasa gedir. Elə bilir, anasıdı. Hasanı əlinnən alıf arvadın başına vuruf öldürür. Deer:

– Deməli, qaşmax isdiyirsənı?

Aparıf arvadı qəvirsannıxda basdırır. Axşam ağıllı qardaş evə qayıdanda soruşur ki, nooldu, anamızı basdırdınımı?

Deer:

– Hə, basdırdım. Yolda tüşüf qaşmışdı, təzdən vuruf öldürdüm, aparıf basdırdım.

Ağıllı qardaş bilir ki, o başqa adamı basdırıf. Gedif anasının meyidini yolda tapır da, aparıf özü basdırır.

Səhər açılır. Evdə anaları olmadığına görə ikisi də qoyun otarmağa gedillər. Onnar qoyun otaran zaman bir küpə qızıl tapıllar. Axşam küpəni evə gətirillər. Ağıllı qardaş deer:

– Get qonışunun tərəzisini al gətir, qızılları çəkəh, amma demə ki, qızıl çəkirih.

Deer:

– Yaxşı.

Gedir qonışuya. Deer:

– Tərəzinizi bizə verin, qızıl çəkirih.

Qonışu bu gedənnən sonıra öz adamlarınnan birini göndərir. Deer:

– Get güd, gör həqqimi bunnar qızıl çəkillər.

Dəli qardaş içəridən baxanda görür kü, çöldən kimsə aynadan bunnarı güdür. Tez çölə çıxıf həmin adamı vuruf öldürür. Ağıllı qardaş fikirrəşir, munun bir xatası çıxajax, bunnarı tutajaxlar. Qapılarında bir dərin quyu olur. Bir keçiyi öldürüf həmin ölən adamı da keçiynən bir yerdə o quyuya tulluyur. Qonışu görür göndərdiyi adam gəlif çıxmadı. Duruf qardaşdarın evinə gedir. Gəlib soruşur ki, mən bura bir adam göndərmişdim, o nooldu, gəlif çıxmadı.

Dəli qardaş deer:

– Vurdum öldürdüm, bizi güdürdü.

Ağıllı qardaş deer:

– Yalan deer, bunun dediyinə inanmeyını, bu, dəlidi.

Dəli qardaş deer:

– Öldürmüşəm, sonıra da tulladıx quyuya.

Qonışu deer ki, tüş, quyudan çıxart. Dəli qardaşı kəndirnən sallıyıllar quyuya. Ordan deer:

– Səninı adamını buynuzduydu, buynuzsuz, dörd qılçalıydı, iki qılçalı?

Ağıllı qardaş deer ki, görürsənımi, ay qonışu, onun ağlı yoxdu. Ağlına gələni danışır quyuda. Təzdən ordan dəli qardaş bir də deer:

– Ayə, səninı adamını quyruxluydu, quyruxsuz, qıllıydı, qılsız?

Qonışu baxıf görür ki, bu, doğurdan da, ağlına gələni danışır. Çıxıf gedir. Burda nağıl başa çatır.

## 29. SARIMSAĞIN QİYMƏTİ

Bir kişi qorxusunnan bayıra çıxmer. Bir gün, iki gün, bir ay, beş ay, on il. Arvat kişi evdən çölə çıxanda darvazeyi bağleyır. Arvat deer:

– On beş ildi səni saxlamışam, indi get nağayrersan$_{ı}$, qayır.

Deyır:

– Onda səni and vererəm Allaha, eşşəyi palanna, onu çölə burax.

Palannıyır, bayıra buraxır. Kişi fikirrəşir. İkidən-birdən bayıra çıxmamış adamdı dana. Çox fikirrəşir-fikirrəşir, ay Allah, neynəsin, nağayrsın. Axırı gedir rasdaşır sarımsax olan yerə. Deer, elə iki meşox sarımsax vuram eşşəyin belinə, Allah, Məhəmmət, Ya Əli! Qorxmaxdan keçif daa, qorxsam da, budu, qorxmasam da, budu.

Həə, hoşa-hoş, hoşa-hoş, gedir çıxır bir vilayətə. Bu da heş hareyı gəzmiyif, bilmer hara haradı. Görör əə, sən ölmüyəsən$_{ı}$ bir gözəl vilayətdi. Burda bir oturacax yeri var. Geder oturar həmən oturacaxda. Sən demə, bura şahın gözdəmə yeri oluf. Kim gedif oturanda şah çağırtdırer ki, gedin$_{ı}$ onu gətirin$_{ı}$ görüm, nəyə gəlif, nə isdeer. Deellər:

– Şah sağ olsun, bəs bir nəfər oturuf, eşşəh də yanındadı. Ama nəsə meşoxlarda şey var.

Deer:

– Gətirin$_{ı}$ onu mənim yanıma.

Bunu aparıllar şahın yanına. Şah deer ki, hardan gəlifsən$_{ı}$?

Bu da bilmer axı bu şahdı. Deer:

– Vallah, bizim şahımızın adı filankəsdi. Bəs filan torpaxdan gəlmişəm.

Deer:

– Əə, bədbaxd oğlu, neçə gün, neçə gejə yol gəlifsən$_{ı}$, bəs mən filan şaham, filan torpağa keçifsən$_{ı}$. De görüm indi nə gətirmisən$_{ı}$? Nə isdiyirsən$_{ı}$ mənnən?

Əhvalatı söylöyür ki, bəs arvat məni belə elədi, elə elədi.

Deer:

– Nə gətirmisən$_{ı}$?

Deer:

– Sarımsax.

Şah deer ki, o nədi elə, get gətir baxax dana. Gedir gətirir. Şah baxıf görör ki, bunnan həyatı boyu bu torpaxda görmüyüf. Şah soruşur, öyrənir. Kişi deer ki, bu, ən çox insannarın sağlamlığına xeyirdi. Hay-haray, əə, bunu nətəəri əkillər, nətəəri bejərillər. Əə, tez bunu qapazdıyın$_{ı}$, çəkin$_{ı}$, neçə kilodusa, o qədər kilo buna qızıl verin$_{ı}$. Deməli, bu vilayətdə artıx bu, qızıldan qiymətdi bir şey olur. Yoxdu axı o vilayətdə.

Daa indi otuz kilo gəlir, qırx kilo gəlir, buna qızıl çəkir verillər. Bu xırda-xırda, hoşa-hoş gejənin bir vaxdı gəlif çıxır evə. Qapını döyür. Arvat deer:

– A kişi, vəziyət nətəəridi?

Kişi deer:

– Vəziyət əladı, qapıyı aç.

Arvat baxıf görör, əə, bu kişinin əlində balaca bir bağlama var, nə bilim otuz kilodu, qırx kilodu.

– Bunu Allah qismət eliyif, al, ama heş kəsə demə haa, qızıldı, otuz kilodu, xırda-xırda xərşdiyəh.

Ayə, bir gün, beş gün, on gün, bir ay, beş ay, qon$_{ı}$şular görör ayə, Həsənağa girdi bağa. Gördülər sən ölmüyəsən$_{ı}$, yavaş-yavaş arvat tumanını dəyişdi, donu dəyişdi, əkqavını dəyişdi. Gördülər, ayə, partapart maşınnar gəler, daş boşaldıllar, sement boşaldıllar.

Arvatdar bir-birinə tez küy buraxıllar. Göröllər ki, əə, bu imarət tihdirdi yavaş-yavaş. Arvatdar deer, aaz, bu gündə giley eliyirdi kişidən, deerdi, kişi tülküdən qorxandı, bir yana çıxmır, nətəəri oldu bu. Arvat deer:

– Aaz, bədbaxd qızı, bədbaxd, mən ərimin başına belə bir hadisə gətirmişəm. Dedim, saxladığım daa bəsdi, qapıdan içəri buraxmadım. Dedi, sən Allah, eşşəyi palanna, çölə burax. Getdi, bir il keşdi, yarım il keşdi, bə deməzsənmi, gedif filan şahın tifahına[150] çıxıf, oturuf orda. Sən demə, orda soğan, sarımsax deyilən şey yoxuymuş.

Arvatdarı bilmersənımi, hər təfsilatını danışıf olara. Kiloya kilo nə qədər qızıl veriflər, hamısını danışıf.

– Öyün yıxılsını, a kişi, niyə oturufsanı? Filankəsin kişisi gedif filan vilayətə, qızıl gətirif.

Qonışu arvat kişini öyə buraxmer. Axırı oyana-buyana geder bədbaxd oğlu. Fikirrəşir ki, əşi, mən də iki tay soğan vurum, yaqın ki, soğan da yoxdu o vilayətdə. Ha odu-budu gedir çıxır ora. Oturur elçi daşının üsdündə. Şah deer ki, əə, gətirin görəh bu kimdi. Şah deer ki, a bala, hardansanı?

Deer:

– Filan vilayətdən.

– Nədi, nə gətirifsənı?

Deer:

– Soğan.

Sən demə, burda da soğan yoxuymuş. Kişi deer:

– Bunu belə əkirsənı, belə becərirsənı.

Şah deer:

– Əla. Əə, gətirin ona iki tay sarımsax bağışdıyını.

Nəsə, orda qızıldan baha sarımsax olor, təzə-təzə yetişer axı, əvvəllər yoxuymuş axı. Kişi kor-peşman geri qayıdır. Allah-taala özü bilən yaxşıdı.

## 30. DAD XANPƏRİNİN ƏLİNDƏN

[150] Tifah – ərazi, olduğu yer

Bir Azreyil arvat olor. Arvat kişiyi bezdirer ki, get bir ram al, fala bax. Kişi deer:

– A kopahqızı, o falın oxusu var, zadı var, mən bu yaşımda oları hardan alajam?

Yazıx kişi təntiyer, geder də bir ram aler, civinə qoyor, öyə gəler.

Deer:

– Kişi, aldınımı?

Deer:

– Aldım.

Allah onıandına[151] salan kimi gejə patşahın qızılını dağıdellar. Patşah pütün o zonada nə qədər falçı, baxıcı var, hamısını çağırer, bir şey hasıl olmor. Axır bir çuğul deer:

– Patşah sağ olsun, dünən bazardan bir qoja kişi ram alıv aparıf. Bəlkə, o qoja kişi onu tapa.

Patşah bəyaxdan əmr eliyir ki, onu yanıma gətirinı. Gejeynən gəlif kişinin qapısını döyöllər.

Deer:

– Nədi?

Deer:

– Patşah səni çağırer. Patşahın xəznəsini oğurruyuflar, tapbalısanı.

Deer:

– Allah öyünıü yıxsın, arvat, mən nağayrem? Nə qaneram faldan, gedem nə deem.

Duror patşahın yanına geder. Patşah deer:

– O dar ağacını görörsənımi?

Deer:

– Görörəm.

Deer:

---

151 Onıandına – avandına

– Xəzneyi tapbasan$_ı$, ordan sallanajaxsan$_ı$.

Təntiyer də deer:

– Patşah sağ olsun, man$_ı$a qırx gün möhlət ver.

Fikirrəşer ki, qırxca gün yaşasa, bəsidi. Onsuz da patşah daa onu öldürəjəy. Patşah bir kisə də kişiyə qızıl verer. Kişi o qədir besavad olor ku, saya da bilmermiş. Geder bazardan qırx dənə qarpız aler kı, gündə birini kəsəjəy, qarpız kutarsa, qırx gün də pitdi. Patşah da bunu öldürəjəy. Sən demə, bu xəzineyi qırx lotular oğurruyubpuş. Bular da gündə biri gəlif şəhərdə səs-küy varmı deyin yoxluyullarmış. Bu qırx lotuların gündə biri gəler bu kişinin qapısınnan keçer. Kişi qarpızın birini kəser, deer:

– Arvat, qırxın biri gəldi, getdi.

Qapıdan keçən lotu da elə biler onu deer. Belə-belə, otuz dokquz gün gəler keçer. Qırxıncı gün lotubaşı özü keçəndə deer:

– Arvat.

Deer:

– Ha.

Deer:

– Böyün qırxıncı gəldi keşdi.

Deəndə lotubaşı gəler girer içəri, deer:

– Kişi.

Deer:

– Ha.

Deer:

– Səni ant vererəm Allaha, xəzniyi biz dağıtmışıx, san$_ı$a özün ağırrıxda yox, iki özün ağırrıxda qızıl verəjiyiy. Bu sirri açıv eləmə.

– Ayə, Allah öyün$_ı$üzü yıxsın. Bə qırx gündü sizi gözdəmerdimmi? Harday dın$_ı$ız?

Deer:

– Filan dağın altda.

Deer:

– Yaxşı, çıxın$_{ı}$ gedin$_{ı}$, deməræm.

Gejiynən buna iki özü ağırrıxda qızıl gətirellər. Savaxnan patşahın adamı qapıyı döyör. Deer:

– Patşah çağırer.

Kişi fışkırıx çala-çala geder, biler axı xəznənin yerini. Deer:

– Patşah sağ olsun, qızılın filan dağın altdadı.

Geder baxanda göröllər patşahın pütün qızılları burdadı. Təzdənnən qırx lotuların qırxını da qırellar, kişiyə də çoxlu qızıl verellər. Ancax kişinin arvadı qıldırımqıpıymış[152]. Pütün qızılları beş gündə xarşdıyır kutarer.

Bir gün patşah seyrə çıxer. Deer:

– Kişiyi də gətirin$_{ı}$.

Bular geder gəzməyə. Bir gölə ras gəlellər. Patşah soruşor ku, bu göldən nə çıxajax? Kişi təntiyir deer:

– Patşah sağ olsun, iki sağsağan balası.

Patşah deer:

– Ayə, suyun içində də sağsağan balasımı olar?

Kişi deer:

– Patşah sağ olsun, ram elə görkəzer. Mən nağayrem?

Elə bunu demişdi ki, Allahın işi kimi sudan iki sağsağan balası çıxdı. Burda kişiyə çoxlu ənam verellər. Hələ patşah deer:

– Səni özümə vəzir qoyajam. Sən bilici adamsan$_{ı}$, hər şeyi bilersən$_{ı}$.

Təzdənnən qayıdellar. Gələndə arvat deer:

– A kişi, nooldu səfərin$_{ı}$iz?

Deer:

– Arvat, noolasıdı? Patşah soruşdu, göldən nə çıxajax? Dedim, iki sağsağan balası. Allahdan iki sağsağan balası da çıxdı.

Arvat deer:

---

[152] Qıldırımqıp – burada: bədxərc

– A kişi, sən bilmersən$_ı$mi, mənim ürəyimnən sağsağan balası keçerdi.

Kişi deer:

– A kopahqızı, sağsağan əti  də yiilərmi?

Nəsə, bu da heş.

Bir gün zərgər patşahın qızının üzüyünün qaşını düzəldermiş. Çəkişi belə vuranda üzüy sıçrıyar da itər. Otağın da işığı-zadı yoxdu. Nə qədər oysunçu-zad çağırellar, üzüyü tapa bilmellər. Axırı kişiyi çağırallar. Kişi yazıx təntiyer deer:

– Patşah sağ olsun, kravatın üsdə qoy qızın uzansın, bir düyü aşı pişirərsin$_ı$iz, onu qıza qaşıx-qaşıx verərsin$_ı$iz. Üzüy öz-özünə gəlif çıxajax.

Belə də eliyillər. Qız dalıüsdə uzanıf aşı yiəndə görör kü, pərdinin arasında üzüy var. Sən demə, zərgər üzüyü vuranda üzüy sıçrıyıf da pərdinin arasında qalıfmış. Qız deer:

– Üzüyümü tafdım.

Atası kişiyə gənə çoxlu qızıl verər.

Bir gün gənə bu kişi arvadın əlinnən bezer. Deer, nağayrem, neylem? Qızıl-zad da kutarer. Deer:

– Arvat.

Deer:

– Ha.

Deer:

– Filan xarabalıxda qırx metr dərinniyində quyu var. Gedək, rəşmiyi[153] mənim belimə bağla, salla məni quyunun divinə. İki küpə sənnən qızıl oğurruyuf orda gizdətmişdim. Gəl onu çıxardıf birtəhər dolanax.

Arvat deer:

– Bay, ağrım ürəyin$_ı$ə, özüm tüşə bilmerəmmi?

– Arvat, sən tüşəmməzsən$_ı$.

---

[153] Rəşmi – uzun, nazik kəndir

Bu kişi belə eləməynən arvadı başınnan eləməy isdiyir. Arvat da o qədər tamahgırıymış kı, kişinin niyyətini başa tüşmör, özünü saler quyuya. Kişi rəşmiyi buraxıf gəler. Aradan bir həfdə keçer. Deer, gedem göröm arvat ölüpbü? Birdən qaçar. Rəşmiyi gəlif quyunun divinnən çıxardanda görör kəndir ağır gəler. Darter görör bir ilan gəldi kəndirdə. Kişi isdiyir ilanı buraxa quyunun divinə. İlan yalvarar kı, ant vererəm Allaha, məni Xanpərinin əlinnən kutar, səni dünya malınnan qanı eliyəjəm. Kişi darter, ilanı çıxarder. İlan deer:

– Kişi.

Deer:

– Ha.

Deer:

– Mən gedif patşahın qızının boynuna dolanajam. San$_{ı}$a bir dua verəjəm, bunu oxuyarsan$_{ı}$, mən qızın boynunnan açılajam. Ancax son$_{ı}$ra gəlmə ha, gəlsən$_{ı}$ səni tas-tas eliyəjəm.

Deer:

– Yaxşı.

İlan geder, patşahın qızının boyn$_{ı}$una dolaner. Nə qədər oysunçu çağırellar, ilan tüşmör. Kişi gəler ki, mən tüşürörəm onu, nə verəjən$_{ı}$?

Deer:

– Qızım ağırrığında qızıl verəjəm.

Duayı oxuyanda ilan durar qaçar. İlan burdan qaçar bir başqa vilayətdə bir tacirin qızının boynuna dolanar. Tacir nə qədər eliyər, qızının boynunnan ilan tüşmör. Axır deellər, fılan ölkədə patşahın qızının boynuna ilan dolanıpbış, onu bir kişi tüşürüf. Tacir gəler kişiyə minnətçi tüşör. Deer:

– Qızım ağırrıxda qızıl verəjəm san$_{ı}$a.

Kişi duror gəler tacirin qızının yanına.

İlan deer:

– Kişi, sanıa demədimmi gəlmə. Gəlsənı, səni tas-tas eliyəjəm.

Kişi deer:

– Öyünı yıxsın, mən ona gəlməmişəm. Mən gəlmişəm deyəm ki, Xanpəri gəldi, qaç.

İlan bəyaxdan qızın boynunnan açılıf qaçer. Kişi də qızılını alıf qayıder.

## 31. SAMANLIQ TOYU

Bir pinəçinin arvadı yaman paxılıymış. Görör zurnaçı yaxşı dolaner, bu da dolanammer. Arvat pinəçiyə deer:

– Allah öyünıü yıxsın, get sən də zurnaçı ol!

Deer:

– Öyünı yıxsını, mənim yetmiş yaşım var, innən belə mən zurnamı çala bilərəm? Mənimki odu pinəçiliy eliyəm, pul qazanam, uşağı dolandıram.

Arvat da Azreyilin biriymiş. Əl çəhmer, kişinin ələci kəsiler, duror geder bazardan bir zurna aler da, tez qoynuna soxor kun, birdən biri görər. Gəler öyə.

Arvat deer:

– A kişi, aldınımı?

Deer:

– Hə.

Deer:

– Hanı?

Deer:

– Putana,[154] qoynumda.

Arvat deer:

---

[154] Putana – budur

– Öyün$_{ı}$ yıxsın$_{ı}$, kəndə çıx, gör kim toy elleer, kimə zurnaçı lazımdı, bəlkə dolanax.

Təzdənnən yazıx kişi an$_{ı}$rı çıxanda bir qavalçı görör. Söyünör, deer, bu qavalçıyı görməyim yaxşı oldu. Elə bunu aparram toya, bu qavalı möhgəm-möhgəm vurar, zurnanın səsini batırar, mənim zurna çalammadığımı heş kəs bilməz. Sən demə, bu öyü yıxılmış qavalçı bunnan da naşıymış. Heş nə qammermış. İkisi də bir-birinə qoşulor da, gəler bir köhnə samannıxda gejəliyillər. Sən demə, bu kəndin iki böyüylərinin qızınnan oğlu sevişermiş. Bu oğlan da qızı samannığa verer ki, bir az söhbət eləsinnər. Bular da qaçıf pəyənin arasına gizdənellər.

Qavalçı deer:

– Bə havax toy eliyəjiyih?

Pinəçi deer:

– Gə elə indi eliyəh.

Qavalçı qavalı vuror, o biri də zurnuyu püflüyəndə qız qorxuf kışkırer. Deer:

– Burda cin-şəyətin yığını var.

Olar qaçanda da bular izdiyir görör kü, biri o qapıya getdi, biri də o biri qapıya. Qayıder gəler, yerinə girer, yatellar. Savax gedəndə qapıyı döyör də deellər:

– Toyun hakqını ver. Axşam sizə toy çalmışıx.

Qız barmağını tişdiyif deer, elə axşamkılar bularıymış. Qız yalvarer kın, sən Allah, atama-anama demə. Bilsələr, dərimi boğazımnan üzəjəhlər. Toyun hakqı nə qədərdi?

Deer:

– Yüz tümən.

Qızın əlaci kəsiler, gətirer verer pulu. Bular burdan gedellər də oğlanın qapısını döyöllər. Deellər:

– Hakqımızı ver, axşam sizə toy çalmışıx. Əyər verməsən$_{ı}$, pütün kəndə yayajıyıx sizi samannıxda gördüyümüzü.

Oğlanın ələci kəsiler, yüz tümənni verer. Bular qayıdıf öylərinə gəlellər. Zurnaçı pinəçinin öyə qayıtdığını görəndə gəler bunu lağa qoymağa. Deer:

– Ay qon$_ı$şu, xoş gəlifsən$_ı$.

Deer:

– Sağ ol.

Deer:

– Ayə, bir şey qazana bilifsən$_ı$mi?

Deer:

– Canın$_ı$ üçün yüz tümən almışıx.

Deer:

– Ə, dəli döysən$_ı$, mən yüz ilin zurnaçısıyam, heş mən toyda beş tümənnən artıx ala bilməmişəm. Bə nətəər sən getdin$_ı$ birdən-birə yüz tümən aldın$_ı$.

Pinəçi deer:

– Putana bax, pul civimdədi.

Deer də, pulu görkəzer.

Zurnaçı deer:

– Bu nətəər toydu?

Pinəçi deer:

– Eeee, ay qon$_ı$şu, muna samannıx toyu deəllər.

Son$_ı$ra bu məsəl kimi qaler.

## 32. QARTAL VƏ QIZILQUŞ

Bir gün havada qızılquşnan qartal döyrə vuruf hərrənerdi. Qızılquş qartala baxdı gördü kü, çox yekədi. Qızılquş dedi:

– Siz nə yiirsiniz ki, o qədər yekə olorsun$_ı$uz?

Dedi:

– Bah, biz yekə-yekə kəlləri, öküzdəri, dəvələri... – beləjə heyvannarı buna saydı.

Saydı.

Dedi:

– Nə qədər yaşıyırsın$_{ı}$ız?

Qartal dedi:

– Üş yüz il.

Dedi:

– Bə siz nə qədər yaşıyırsın$_{ı}$ız?

Qızılquş dedi:

– Biz əllijə il yaşıyırıx.

– Yiməyiniz n$_{ı}$ədi?

– Təzə-təzə turaç, kəhlih, meşəxoruzu, bildirçin – beləjə içinin ən yaxşı yiməli quşdarını buna saydı.

Qızılquş getdi xeylax fikirrəşdi ki, üş yüz il nə zarafatdı?! Ayə, gör üş yüz ildə qartal nə cür yaşıyar?! Bir gün havada fırranerdı. Gördü kü, həmən o gördüyü qartal atılmış nəhəng bir dəvənin cəmdəyinin üsdündə dimdih vuror. Ordan qıy vurdu:

– Hıı, nə hallısan$_{ı}$? Deən vəziyətin$_{ı}$ yaxşıdı?!

Qartal dilinnən qıy vurdu dedi:

– Qonağım olarsan$_{ı}$.

Qızılquş döyrə vura-vura gəldi də, yanına tüşəndə üfünət o qədər təsir ellədi ki, tez havıya qalxdı.

Dedi:

– Bəyənmədin$_{ı}$? Qonağım olmadın$_{ı}$?

Dedi:

– Yavaş, qoy, bir az yuxarı qalxem, sözümün dalını deyəjəm.

Dedi:

– A bədbaxd oğlu, üş yüz il, leş darta-darta üfünətnən qıdalana-qıdalana yaşamaxdansa, təzə-təzə, ən gözəl, yiməli ətdəri yiif, əllijə il yaşamax yüz qat əsvəldi[155].

---

[155] Əsvəldi – yaxşıdır

# LƏTİFƏLƏR

## MOLLA NƏSRƏDDİN LƏTİFƏLƏRİ

### 1. KEF MƏNİM DEYİL?

Molla birinə pul borşduymuş. Bir gün gəley, beş gün gəley, on gün gəley. Nəysə, vədə verifbiş ki, pul yəəsinə, filan vaxdı gəl, pulunıu verem. Deey:

− Arvat, öyü yıxılmış yenə gələjəh, pulumuz da yoxdu, eşşəyi palanna, meşəəsa da qaçax.

Bir sırıxlı[156] cırığını da eşşəyin belinə tulloyur, palanneey, arvatnan yola tüşöllər. Molla geri yanına baxanda görüy, əə, pul yəəsi artıx buna çataçatdı. Tez eşşəyin belinnən sırıxlıyı aley, iki qollarına keçirey də, eşşəyin dalınnan yavacca-yavacca iməkləməyə başdeey.

Gəley pul yəəsi, deey:

– Ay bajı, harəə gedersinıiz?

Deey ki, oduna.

– Bə bu eşşəyin dalındakı nədi?

Dəəndə deey ki, o da eşşəyin xoduğudu[157].

Belə baxey, deey:

– Ay bajı, bu eşşək erkəhdi axı, bə bu xoduğu hardan alıf?

Dəəndə Molla Nəsrəddin özünə sığışdırıf dura bilmey. Deey:

– Əə, başın özünə ağırrıx eləməsin, gəlifsinı, qayıt geri get. Kef mənim döyül? İndiyətən anamnan gəzmişim, indi də dədəmnən gederim.

---

[156] Sırıxlı – astarına pambıq qoyulub sırınmış qış geyimi
[157] Xodux – qoduq, eşşəyin balası

## 2. SƏN MƏNDƏN QEYRƏTLİSƏN

Deey, bir toy məclisiymiş. Cavannar yığışıf, yiif-içif. Deeylər ki, əə, gəlinı mollanı zor-xoş gətirəh bu məclisə, görəh yüzcə qram içirdə bilirihmi?

Bu da molladı axı. Molla Nəsrəddini gətirellər.

– Molla, xoş gəldinı, beş gəldinı.

Yiif-içən lotular bunu gətirey, eşşəyi çöldə bir dirəyə bağleyıf oturullar. Arax süzülöy.

Deey:

– Molla, bu mən ölöm, səni burəə onçun çağırdıx, sənnən səninı sağlığına yüzcə qram içəjeyih.

"Mən ölöm"ə Molla yüz qram tulluyur. Bir də süzöllər:

– Molla, bu mən ölöm, bunu da oğlunıun sağlığına tulla getsin.

Yüz də süzöllər:

– Pütün damavoyunun[158] sağlığına bunu da iç.

Mollanı içirdellər. Fikirrəşellər ki, əə, onsuz eşşəh qapıya öyrənif. Bunu tutuf da kəndirnən eşşəyin belinə sarıyıllar. Molla Nəsrəddin piyan... Eşşəh geder bir balaca arxa ras gəley, sızqıdan[159] keçə bilmey. O baş-bu baş hərrəney, suyun mehinə[160] bu ayıley. Dartıney göröy kü, əə, bunu eşşəyin belinə sarıyıflar. Deey, vay-hay, məni "mən ölöm" yıxıf da, bu eşşəyin belinə sarıyıf. Sarığını açey da, eşşəyin boynunnan tutoy, deey:

– Eşşəh, mən ölöm, yüzcə qram bu sudan mənim sağlığıma iç.

Eşşəh "puf" eleey, geri qayıdey.

– Eşşəh, bu mən ölöm, oğlumun sağlığına yüzcə qram.

Eşşəh "puf" eliyif geri duroy.

---

[158] Damavoyunun – külfətinin, ailəsinin

[159] Sızqı – bataqlığa bənzər palçıqlı yer

[160] Suyun mehi – su kənarının sərinliyi, yüngül külək

– Əə, mənim ayiləmin sağlığına yüzcə qram.

Eşşəh “puf” eliyif geri qayıdey.

Deey:

– Eşşəh, atamın, anamın goru hakqı, sən mənnən qeyrətdi kişisən$_{ı}$. “Mən ölöm” məni yıxıf belinə sarıtdırer, əmə sən “mən ölöm”ü heş vejin$_{ı}$ə də almadın$_{ı}$.

## 3. MƏNİM QIZIMA YARAŞIR

Molla kışqırer:

– Ay camahat, qızdarın$_{ı}$ıza ağıl verin, gödəh geyinellər, avır-haya gözdəmellər.

Adamlardan biri deer:

– A molla, sənin$_{ı}$ də qızın$_{ı}$ elə gödəh geyiner.

Molla deer:

– Başımızın üsdə Allah var, mənim qızıma yaraşer da.

## 4. ONDAN BƏRK QAÇAR

Molla Nəsrəddinin iki dənə danası oloy. Birini bağleef, örühdədi, biri buraxmadı. Molla gedif o buraxmeyi tutuf gətirməyə. Nə qədər teyleyif[161], onu tuta bilmeyif. Gəlif ağacı çəkif o mıxdakını döyüf.

Deeflər:

– A molla, niyə döyöysün$_{ı}$, bax o mıxdadı?

Deef:

– Siz onu bilin ki, bu açıxda olsa, onnan bərh qaçar.

## 5. MOLLA NƏSRƏDDİN VƏ QƏSSAB

Molla Nəsrəddinlə bir qəssaf qon$_{ı}$şuymuş. Bir gün qəssaf Mollaya ət verer ki, apar bunu ver bizə. Qəbirstannıx yaxı-

[161] Teyləmək – qovmaq

nımış. Molla Nəsrəddin əti gətirer də, yeri qazer, əti qoyur ora, daş gətirer üsdünə qoyur, əti basdırer. Qəssaf gəler arvada deer ki, man$_{\imath}$a yiməh gəti.

Arvat deer:

– A kişi, ət yoxdu axı?

Deer:

– Nətəri yoxdu? Molla Nəsrəddinnən yollamışam axı.

Molla Nəsrəddini çağırer:

– A molla, san$_{\imath}$a ət verdimmi?

Deer:

– Verdin$_{\imath}$.

Deer:

– Bə dedim axı, apar mənim evimə ver.

Deer:

– Bu and, bu Quran, apardım verdim sənin$_{\imath}$ evin$_{\imath}$ə.

Deer:

– Axı bizim evə vermiyifsən.

Deer:

– A kül başın$_{\imath}$a olsun, bu dünyada gəzdiyimiz hax döyül ha, hax öyümüz torpaxdı, gəl gedəh gösdərim.

Gedəndə görür ki, Molla Nəsrəddin əti başdaşının yanına qoyuf, üsdünü basdırıf. İndi bu dünyada biz izdaniya qurux, hamısı müvəqqətidi.

## AYRIM LƏTİFƏLƏRİ

### 6. İNDİCƏ ÖLDÜRMƏDİMMİ?

Bir gün ayrımın biri tilvizerdə görör kü, munun zəhləsi gedən bir kişi tilvizerdə danışer. Tüəngi əlinə aler da, tilvizerdə buna tuşduyur da, vuror. Elə biler ki, tilvizerdəki kişiyi öldürdü. Qan-tər içində qon$_{\imath}$şuya geder ki, bə belə-belə, tilvizerdə zəhləmgetmiş kişi danışerdı, vurdum onu, öldürdüm. Bir-

dən görör kü, həmin öldürdüyü kişi buların tilvizerində də danışer. Deer:

– Ayə, mən indijə bunu vuruf öldürmədimmi?!

## 7. QARPIZ AĞACI NƏ BOYDA İMİŞ?

Bir gün bir ayrım gəler fısdıx ağacının altında oturor da, yiməh yiirmiş. Bunun yiməyinin içində qarpız da varıymış. Bu yiməyini yiir, üsdünnən də qarpızını yiif uzaner kı, bir az dincini alsın. Birdən gözü fısdığa sataşer. Deer kin, ayə, gör bu boyda fısdığ ağacının belə balaja bir meyvası olor. İndi bu qarpızın ağacı gör nə boyda olormuş.

## 8. AYRIM VƏ RUS

Bir gün bir ayrım Bakıda qartof satdığı yerdə bir urus gəler munnan qartof almağa.

Deer:

– Paçyom kartoşka?

O da qayıder:

– Paçamı da yi, kıçamı da.

Bu da qayıder soruşor:

– Zaçem tak qavariş?

Deer:

– Ağzına da s…m, üzünə də.

## 9. ADİN ARI VIZ, DRUQOY ARI DIZ

Bir ayrım olor. Bu arı saxleer. İndi buna yeşih lazımdı. Deer, gedim göröm yeşiyi nağayrım, hardan alım?

Bir rus sənətkar oluf, onun yanına gəlif. İndi başa sala bilmer ki, mənim arım var, ona yeşih düzəltdirməh isdiyirəm. Deer, indi nətəər deyim. Ha başa saler, görür, rus başa tüşmör.

Deer:

– Adin yeşih, dıva deşih. Adin arı vız, druqoy arı dız.

Yanı rusu başa salır ki, man$_{ı}$a bir yeşih lazımdı, yeşiyin iki deşiyi olsun, arı birinnən çıxsın, birinə də girsin.

## 10. HÜNƏRİN VAR, ÇƏK

Bir ayrım olur. Bunun dişi bərk ağrıyır. Geder həkimə. Həkim buna baxer, deer ki, a qardaş, dişin çürühdü, çəhməh lazımdı. Ayrım başdıyır qorxusunnan tir-tir əsməyə. Həkim deer kin, ala, bir qırığ arax verim iç, bəlkə hünərrənəsən$_{ı}$, cəsarətə gələsən$_{ı}$. Ayrım içer.

Həkim deer:

– Nooldu, indi çəkimmi?

Deer:

– Yox, ay doxtor, qorxoram.

Deer:

– Ayə, qorxma.

Nəsə, belə-belə həkim bir-iki dəfə də arax verer buna. Bu xəsdə başdıyır keflənməyə. Keflənəndə həkim deer kin, hə, indi çəkə bilərəmmi dişin$_{ı}$i?

Deer:

– Həə, çəkə bilərsən$_{ı}$ nədi? Hünərin$_{ı}$ var, əlini mənim dişimin birinə toxundur.

## 11. BƏS UŞAQLAR NƏDİR?

İki ayrım söhbət eleer. Biri o birisinnən soruşor:

– Ə, arvatdan ayrılıfsan, öydə ona heş bir şey qoymuyufsan?

– Nə danışersan, qadan alem, bə uşaxlar nədi?

## GƏDƏBƏYİN BAMƏZƏ ADAMLARI

### 12. SƏNİNKİ PULSUZDUR

Rəhmətdih Muxtar kişi Gəncədə gedey üzünü qırxdırmağa. Salondu, burda şəyirtdər də var. Göröy ki, əə, çıxan bir manat tulluyur. Bu rəhmətdiyin də üzünü savınnıyıf üzünün bir tərəfini qırxanda qalxey, ağnan üzünü siley, deey:

– Ağrın alem, mənim əllijə qəpiyim var, al bu əlli qəpiyi, bu yarısını da gedif Gədəbəydə qırxdırajam.

Bu, qapıdan çıxanda bunu baş usda göröy. Deey:

– Əə, öyün$_{ı}$ yıxılsın, indi də bumu qalıf dünyəə yayıla. Əə, qaytar, kişinin üzünü qırx.

Kişiyə yalvarey, oturtdurur. Üzünün qalan tərəfini də qırxey, atqalonnuyur, əlli qəpiyi də qaytarıf özünə verey. Deey:

– Kişi, səninki pulsuzdu.

Hamı danışeydı ki, Muxtar kişi Gəncə kimi şəhərdə üzünü pulsuz qırxdırdı getdi.

### 13. XALASTOYA SALMIŞAM

Muxtar kişinin bir qara eşşəyi varıydı. Ajdıx iliydi. Muxtar kişi eşşəyinnən gəlif Polatdının aşırımını sallananda rayıspalkom gəlir ordan keçey, yanında da Bakıdan gəlmiş nümayəndə varmış. Deey ki, bu kişinin o qədər baməzə söhbətdəri var, maşını saxlıyax, bu kişiyə bir söz atax. Maşını bu kişinin yanında saxlıyıllar. Rayıspalkomun sədri deey:

– Salam, ay Muxtar əmi.

– Əleykümsalam, ağrın$_{ı}$ alem, məni nəyə saxlatdırdın$_{ı}$ız? Nə lazımdı?

Dəəndə deey ki, a Muxtar əmi, maşının benzini kutardı, bizə bircə litr benzin ələc elə. Qavağındakı da eşşəhdi. Eşşəyin deey, quyruğunu qaldırdı, gözünü belə qıydı, dedi:

– Görürsünıüz, bu da noldadı, xalastoya salmışam. Görüm Saratofquya[162] birtəəri çata bilerəmmi.

## 14. UN, ÜSTƏLİK DƏ QOÇ ƏTİ

Əli kişi varıydı Əlismayıldan. Pekarnıda müdürüydü Saratofkada. Kəççiləri Muxtar kişi gəley orəə çıxey. Gələndə deey:

– A Muxtar, iki muşox un verəjəm, oları apar, birini öz uşağınıa, birini də mənim uşağıma.

Deey:

– Baş üsdə.

Atı uklöyüllər. Muxtar kişi atı aparey gedey, qapıya çatanda ikisini də öz qapısına çüşüröy, Əli kişiyə vermey. Əli kişi bir həftə oana-buana gedey. Bir həfdədən sonıra öyə gedəndə arvat deey:

– Allah öyünıü tiksin, sən gedəndə gördünımü un yoxdu, niyə un yollamadını?

– Aaz, nə danışesını, Muxtar kişiynən iki muşox un yollamışım, birini özünə, birini də bizə.

Deey:

– Bir kilo da un vermeyif.

Deey:

– Yaxşı, zərəl yoxdu. Görün qoç hardadı?

Muxtar kişinin bir yaxşı qoçu varıymış. Həmişə döşdərə[163] örüklööymüşdər. Uşağa deey:

– Əə, gör qoç hardadı, qoçu tapını da, burəə gətirini.

Qoçu gətirellər, qapıya gələn kimi qoçun başını kəsey. Dorğooy, tavəə dolduroy, pişif hazır olan vaxdı deey:

– Əə, Muxtar kişiyi çağırını burəə gəlsin.

Muxtar kişi gəley.

---

[162] Saratofka – Gədəbəydə Novo Saratovka kəndi

[163] Döş – dağın yamacı

– Ay Muxtar kişi, xoş gəldin$_ı$, gəl otur.

Oturoy.

– Aaz, Muxtar kişiyə ət gətir.

Cəmi dolduroy gətirellər, Muxtar kişinin qavağına qoyollar. Bir tikə aley, iki tikə aley, deey:

– Əə, ölmüş oğlan, olməə, bu ağ qoçun ətidi?

Deey:

– Əə, bə elə olajax dana. San$_ı$a mən un verdim ki, bir muşoxunu özünə apar, bir muşoxunu man$_ı$a gətir, niyə mənim uşağımı aj qoydun$_ı$?

Deey:

– Əə, kəsifsin$_ı$, kəsifsin$_ı$, səni and vererim Allaha, bircə budunu da man$_ı$a ver.

Muxtar kişi yalvara-yalvara bir budunu aley da, gedey.

## 15. SƏRİYYƏ HAMAMA GEDİR

Gədəbəydə Səriyə addı bir arvat olor. Bunnar rayona kətdən təzə köçüf gəliflərmiş. Bir gün qon$_ı$şusu Səriyə arvada deer:

– Ay Səriyə arvat, hazırraş, gedəh hamama.

Səriyə də deer ki, ay bajı, yaxşı. Səriyə arvat tez su qoyur, başını, gözünü yuur, təmizdeer. Qon$_ı$şuya deer:

– Hə, mən hazıram. Di gəl gedəh.

Qonsu soruşor ki, bə niyə gej çıxdın? Səriyə də deer:

– Ay bajı neyniyim? Başım, gözüm kiriydi. Gətirif bir vedrə su qoydum, çimdim. Ona görə gejihdim.

## 16. QALOŞLARI EŞİKDƏ ÇIXARTMIŞAM

Yenə bir gün qon$_ı$şu arvat deer:

– Ay Səriyə, bu gün hamama gedəh.

Razılaşellar, hamama gedellər. Bunnar hamamın gözdəmə yerində oturuf nömrələrini gözdüyüllər. Qon$_ı$şu söhbət

vaxdı baxır ki, Səriyənin əyaxları yalındı, əəğında qaloşdarı yoxdu. Tez soruşur ki, sən hamama qaloşsuz gəlifsən?

Deer:

– Yox, içəri girəndə qaloşdarı eşihdə çıxartmışam.

## 17. QONAĞIN VAR?

Səriyə arvadın kətdən rayona təzə gələn günnərinnən biriymiş. O, qonışuya keçir. Deer:

– Ay bajı, darıxdım, gəldim sizə.

Qonışu da bunu çox gülər üznən, mehrivançılıxnan qarşılıyır. İçəri dəvət eliyir. Səriyə arvat iki otağın qapısı arasında oturur. O biri otaxda da divarda güzgü olur. Səriyə arvat qonışusunnan soruşur:

– Ay bajı, qonağını var?

Qonışu da deer kin, sənnən başqa heş kim yoxdu. Elə qonağım sənsənı. Səriyə arvat bir az duruxur, bir də soruşur:

– Ay bajı, bə manıa o tərəfdən baxan arvat kimdi? O qonax döyülmü?

Qonışu o biri otağa yollanıf baxır kin, bu divara vurulan güzgüdə özünü görür, elə bilir qonaxdı. Səriyəyə başa salır ki, a bajı, bu sən özünısənı, o divardakı da güzgüdü. Səninı şəklinı orya tüşür. Sən də orda özünıü görürsənı.

O vaxdan kimsə kimin evinə gedəndə zarafatnan soruşur kun, aaz, qonağını var?

## 18. CİNLİ SƏRİYYƏ

Səriyə arvadın əri ölüfmüş. Birtəhərnən uşaxlarını böyüdür. Vaxd olur uşaxları ona baxası olur. Oğlu abasına[164] deer kin, yeri-zadı daa sən belləmə. Adam tutajam, qoy gəlif yeri

[164] Abasına – anasına

belləsin, sonıra da kartovu əhdirəjəm. Arvat da razılaşır. Bir neçə günnən sonıra qapıya bir kişi gəlir. Səriyə arvada deer kin, bə oğlunı deyən adam mənəm, gəlmişəm. Arvat da deer ki, bə bel ordadı, get götür, bellə. Kişi də arvada təəcübnən baxır ki, nə bel, nə şum? Səriyə arvat soruşur ki, bə niyə gəlifsənı? O da deer kin, oğlun dedi ki, mənim bir dul anam var, gəl onu sanıa verim. Üsdündə də sanıa pul verəjəm. Arvat havalanır. Beli əlinə alıf kişinin dalınnan tüşür. Kişi qaça-qaça Səriyəyə deer ki, ağız, indi bildim oğlunı yalvarıf səni manıa niyə verirmiş, hələ üsdündə də pul. Ağız, sən demə, cinniysənımiş. Cinni Səriyə.

İndi söz tüşəndə zarafatnan adamlar bir-birnə Cinni Səriyə deellər.

## MÜXTƏLİF MÖVZULU LƏTİFƏLƏR

### 19. OLSA, YAXŞIDIR

Bir gün bir kişi arvat gəzey. Ora-bura özünü vuroy, arvat vermellər. Gedif bir uzax yerdən arvat isdeey. Baxıf göröllər abrazavonnu kişidi. Arvadı isdəəndə deer ki, ay kişi, indi sən məni apareysını. Nəyinı var səninı, nəyinı yoxdu, mən sanıa gedem?

Deer:

– Nəyim olsa yaxşıdı: bir inəyim, bir camışım, bir danam, qoyunum, nəvlim, kilim-milim, gəvə-güvə – hər şeyi iki-iki qoşalaşdırey – iki göz də öyüm.

Arvat da yanna tüşöy, gedey. Ora da gedəndə göröy, ayə, bir cırıx damdı, heş-zad yoxdu. Arvat deer:

– A kişi, məni bura nəyə ətdinı? Bə sən manıa dediyinı hanı?

Deer:

– Arvat, üsdünıə daş yağsın, demədim ha var. Dedim, olsa, yaxşıdı. İndi qazanajeyıx, olajax, burda da həyat sürüf, devran sürüf yaşeyjıyıx.

## 20. HƏSƏN ÇARIĞINI TAPDI

Qartof aparıf saterıx. Rəhmətdih Abbasdı, Xalışdı, mənəm. Mən qartovu Savunçuda[165] sateram, Abbasnan Xalış Təzə bazarda satış eleellər. Sən demə, sirk var. Bular duror sirkə geder axşam. Göröllər, sirkdə də əlli iki oyun çıxardellar. Kəndirdə-filanda yeriyillər. Ayılar gəler, oynoor. Ayıların da əəğında taxdadan çarıx var axı, görüfsünıüzmü? Əəğına keçirer, oynoor da, onnan sonıra geder. Gedəndə əkqavısının biri qaler. Bir də göröllər ayı qayıtdı, taxdaları əlinə aldı da, getdi. Xalış deer:

– Abbas, Abbas, bavanı Hasan çarıxlarını tafdı.

Hasan – Bəşir məllimin bavası geder Krasnoselskidə[166] malağana qonax olor. Malağan bir köhnə yer verer, Hasan orda yater. Gejə malağan yatannan sonıra duror malağanın damınnan on iki qoyun çıxarder. Qoyunu çıxardanda əəğınnan çarıx iter p…n içində. O vaxdı da çarıx indinin iyirmi şirvannıx əkqavısına baravarıydı. Bir çarıx bir camışıydı. O vaxdı da el Rəhim ağa deyilən yerdə yaylaxdeymış. Gətirer gejə həmən binədə qoyunnarı da qoyor, qayıder geder də, öz yerində yater gənə.

Savax duror. Malağan da qoyunu örüşə hayleer. Malağana deer ki, ver töyləni, pulunnan kürüyüm. Munu ona örə eleer ki, çarığını tapsın. Malağan da deer ki, Hasan, bu sən yiəsi p..x döy. Hasan əl çəhmer, razılaşer töylüyü kürüməyə. Kürəyi götürör də töylüyə girer, o tərəf-bu tərəfi axdarer da, çarığı taper, əəğına geyiner də, çıxer. Deer ki, malağan, düz deersənı, mən yiən p..x döy. İndi burda da Xalış kişi "Hasan çarığını tapdı" ifadəsini bunnan təsirlənif dedi. Bu əhvalatdan sonıra bu nəsli "çarığı damda qalan" deyə çağırellarmış.

---

[165] Savunçu – Sabunçu rayonundakı bazar nəzərdə tutulur.
[166] Krasnoselski – Göyçə mahalında yaşayış məntəqəsi

## 21. QANMAZ QIZI QANMAZ

Bir gün bir kişi evinə gələndə görər ki, arvat nə yiməh pişirər, nə evi yığışdırar, nə peçi qalıyar. İkinci gün yenə gələndə görür ki, arvat yiməh pişirmiyif, evi yığışdırmıyıf, peçi qalamıyıf. Arvatnan başdıyır dalaşmağa. Hər gün belə-belə, arvatnan qırıllar bir-birini.

Arvat bir gün eşidir ki, kəndə bir molla gəlif. Deer, gedim o mollanın yanına, bir dua yazdırım, işdərim xod getsin. Gəlir mollanın yanına, olannarı söylüyür. Deer ki, bizə bir dua yaz, biz dalaşmıyax. Molla buna bir dua yazır və başa salır ki, get evinıi yığışdır, yiməyinıi pişir, peçinıi yandır və bu duanı peçin altına qoy, işin yaxşı olajax. Arvat gedir molla dediyinin hamısını eliyir. Əri evə gələndə görür ki, ev tərtəmiz, yiməh pişif, peç qalanıf, ev qəşəh isdi.

Deer:

– Arvat, bu nə işdi?

Deer:

– A kişi, mollanın yanına getmişdim, məni başa saldı, bu duanı da yazdı verdi manıa. Əvəzində bir xoruz apardım ona.

Kişi deer ki, arvat, gətir duanı, görüm molla nə yazıf. Arvat duanı peçin altınnan götürüf gətirir, ərinə verir. Əri oxuyanda görür ki, bu sözdər yazılıf:

Odunu qoy beş-beş,
Şişlə gözünü, eş.
Odunu qoyarsan az,
Odun yanmaz.
A qammaz qızı, qammaz
Evini yığışdır, yiməyini pişir,
Ərinə et naz, a qammaz.

## 22. UCUZ ƏTİN ŞORBASI OLMAZ

Gəlin gələndə bəy deer ki, tutunı, gəlin yıxılajax. Bəyin atası deer ki, ayə, olmasın bir toğlumuz, çəpişimiz, gəlin yıxılajax, gedif bir çəpiş də verif təzəsini gətirəjiyih. Gəlin qaynatasının dediyini ürəyində saxlıyır. Bunu gərdəyə salıllar, ancax gəlin gözdən oğurranıf qaçır düz dədəsinin öyünə. Öydə soruşullar ki, a qızım, niyə gəlmisənı? Deer ki, belə-belə. Qaynatam dedi ki, olmasın bir çəpiş. Verif təzə gəlin alajam. Məni çəpişə niyə satdınıız? Di min manat pul gətisin, yoxsa getmiyəjəm.

Bu qaynata təzədən nə qədər qohum-əqrəbadan borc pul alır, yığır, aparır verir gəlinin atasına. Təzədən gəlini ata mindirif gətirir evinə. Evə çataçatda atası oğluna deer ki, ayə, atın ipini möhgəm tutunı, gəlin yıxılar, dünyam gəlif. Çox böyüh hörmətnən gəlini gətirillər evə. Qaynata deer:

– Ayə, gəlinə yaxşı baxını, əyağına isdi coraf geyindirinı.

Gəlin deer ki, ay ata, bə məni niyə bir çəpişə satırdını? Bilmirdinımi ki, ucuz ətin şorbası olmaz?

## 23. BİZƏ DƏ XƏBƏR VERƏRDİN

Müharibədən sonıra qavaxtəpəli[167] Stalinin yanına gedey. Stalin bunu qəbul eleey. Qavaxtəpəli deey:

– Hancarı beş ildi maharibə eleysinı, bizə də xavar eləmeysinı. Heş bizim xavarımız olmuyuf maharibədən.

## 24. HEÇ QAYITMA

Bir gün bir kişinin arvadı qarşı kəndə, dədəsinin öyünə getməli olur. Yola tüşəndə arvat ərinə deer:

– A kişi, dədəmin öyündə çoxmu qalım, yoxsa az?

[167] Qavaxtəpə – Daşkəsən rayonunda kənd

Kişi deer:

– A köpəyin qızı, üzünıə yaxşı baxsalar, heş qayıtma.

## 25. APPANI YE, OPPA GEDƏK

Bir gün Ərzayıl bir qoja kişigilə gəlif deer ki, hazırraş, vaxdınıdı. Qoja yalvar-yaxar eliyir ki, qadanı alem, bir az vax ver, nəvəmin toyunu eliyim, sonıra gəl. Əzrayıl razılaşır ki, toydan sonıra gəlsin.

Aylar keçir. Qojanın bir gün yadına tüşür ki, Əzrayıl gələjəh. Qaçıf uşax baxçasına girir, uşaxlarla bir sdolun başında oturuf çörəh yiir. Əzrayıl bilir ki, qoja uşax baxçasındadı. Gəler keçer içəri, qojadan soruşur ki, burda nə iş görürsənı, uşaxların içində?

Qoja deer:

– Appa yiməyə gəlmişəm.

Əzrayıl deer:

– Appanı yi, oppa gedəh.

## 26. QIRX İLDİR BAXIRAM

Güzgü təzə çıxey, gətirellər şaha. Birinci şahda olmalıdı də güzgü. Şah bu güzgünü qavağına qoyoy, öz vidinə-fasonuna baxey da, deey:

– Allah, sən özünı saxla, mən nə gündəymişəm.

Başdeey oturuf ağlamağa. Ona kimi nökər – Allah öyünıü yıxsın, nökər nədi, bekar nədi – yüyüröy gəley ki, əə, mənim şahım niyə ağlasın. Deey:

– Şah sağ olsun.

Deey:

– Ə, rədd ol.

Nökər deey:

– Ayrı söhbət yoxdu, neçə ildi xidmətinıdə olmuşam, de görüm niyə ağleesını?

– Ala bu güzgünü götür, özünıə bax. Oğul, güzgüyə baxdım, öz şəklimi gördüm, özüm özümnən diksindim. Ağleeyrım ki, niyə mənim belə iyrənc sifətim var.

Nökər oturoy şahın oturduğu yerdə, bu da hönkür-hönkür ağleey.

Şah deey:

– Əə, mən bu vidimə-fasonuma baxdım ağladım, sən niyə ağleeysını?

Deey:

– Şah, sən indi güzgüdə sifətinıə baxıf ağleeysını, mən qırx ildi səninı sifətinıə baxeyrım, ölənətək ağlıyjam.

## 27. İKİ QARDAŞLA BİR KÜRD

İki qardaş vardı. Bunnar çox kasıvıydılar. Bunnarın qonışuluğunda bir kürd yaşıyırdı. O kürdün bir inəyi vardı. Bu qardaşlar bir gün bərk ajıllar. Yiməyə evlərində heş nə yoxudu. Çöldə bərk qar yağırdı. Qardaşdar belə qərara gəlillər ki, gedif kürdün inəyini oğurruyuf, kəsif yisinnər. Çöldə də qar yağdığına görə fikirrəşillər ki, bunnarın izini qar örtər. Kürt də bilməz ki, onun inəyini bunnar oğurruyuf. Ancax sən saydığınıı say, gör fələk nə sayır. Bunnar inəyi oğurruyuf kəsillər, ətinnən pişirif yiillər. Çöldə qarın yağmağı diyanır. Kürt evdən çıxıf töyləyə gedir ki, inəyi alaflasın[168]. Gedəndə görür ki, inək töylədə yoxdu. Eşiyə çıxıf görür kü, töylədən qardaşdarın evinə qədər iz var. Həmin iznən iki qardaşın evinə gəlir. Gələndə görür ki, qardaşdar inəyi kəsif, ətinnən də yiiflər. Kürt çığır-bağır salır, səhərsi gün qazının yanına şikayətə gedir. Qazıya

[168] Alaflasın – ot versin

qardaşlardan şikayət eliyir ki, onun inəyini qardaşdar kəsif yiiflər. Qazı qardaşdarı yanına çağırır. Qardaşdar əvvəldən fikirrəşillər ki, oğurruğu birimiz boynumuza alax, o birimiz də ona köməh eləsin. Ataları o vax bunnara yüz manat pul vermişdi ki, bu pulu dara tüşəndə xərşdiyin$_{ı}$. Həmin pulu qardaşdardan biri götürüf qoynuna qoyuf qazının yanına gəlir. Qazı bunnan soruşur ki, kürdün inəyini niyə oğurruyuf kəsifsin$_{ı}$iz? Qoynunda pul olan qardaş başdıyır əhvalatı danışmağa:

Qarıydı, boranıydı,
Halımız yamanıydı,
Çörəyimiz yavanıydı.
Getdik inəyi gətirdik biz,
Dedih, yağar qar, itər iz,
Yağmadı qar, itmədi iz.
Sən mənim bu qoynumdakı yüz
Kürdün əlini mənnən üz.

Qazı görür ki, qardaş buna pul təklif eliyir. Qazı da başdıyır belə deməyə:

Qarıydı, boranıydı,
Halın$_{ı}$ız yamanıydı,
Çörəyin$_{ı}$iz yavanıydı.
Getdin$_{ı}$iz inəyi gətirdin$_{ı}$iz siz,
Dediz, yağar qar, itər iz,
Yağmadı qar, itmədi iz.
Sən o qoynun$_{ı}$dakı yüz
Keç, içəridə stolun üsdünə düz,
Dal qapıdan vız.

Qardaş da qazının dediyini başa tüşür. Keçif içəridə pulu sdolun üsdünə qoyuf dal qapıdan qaçır. Kürd gözdüyür, görür bu qardaş qayıdıf gəlmədi. Qazıya üzünü tutuf soruşur:

– Onu harya buraxdın$_{ı}$, mənim inəyim nejə olajax?

Qazı deer:

– Rəhmətdiyin oğlu, görmürsənı and-aman elədi ki, eşihdə söyuğuydu, biz inəh-zad oğurramamışıx.

Kürd başa tüşür ki, burda nəsə fırıldax var, üzünü qazıya tutuf deer:

– Gördüm siz dız-vızdan danışdınıız, bildim ki, mənim də inəyim cız-bız oldu getdi.

Kürd əlini hər şeydən üzüf evinə gedir.

## 28. SƏNƏ XƏBƏR ELƏMƏDİMMİ?

Biri Qışnan dosd olur. Deer:

– Gələndə manıa xavar elə.

Qış da deer ki, yaxşı, xavar eliyərəm. Qar bir gejə dağlara yağır. On gün sonıra kəndin girəcəyinə kimi yağır. Bu adam da tərpənmir. On günnən sonıra düz evin içinə kimi yağır. Kişi Qışa deer ki, ə, sanıa demədimmi, gələndə xavar elə. Bu da deer:

– Bəs sanıa xavar eləmədimmi? Birinci yağdım dağlara, sonıra yağdım kəndin girəcəyinə, axırda da həyətinıə.

## 29. NƏ QƏDƏR İSTƏYİRSƏN, İÇ

Bir qıza elçi gəler. Kişi gəler deer:

– A qızım, a qızım, manıa bir isdəkan su ver.

Qız da duror quruşquyu kişiyə verer də, deer:

– Ala, bax bu quruşqa, o da su. Qarnınıın miqdarını bilersənı. Nə qədər isdiyirsənı, ged iç.

Qız öz mərifətini görkəzer, elçi də gəldiyi kimi kirmişcə geri qayıder.

## 30. SAMAN DÜŞDÜ, ZAMAN ÖLDÜ

O vaxdı arvatdar hər məlumatı verərmiş. Şah əmr verer də, arvatdarı içəri doldurdor, başdarına qaroulçu qoyur ki, görəh arvatdar büyün olannarı biləjəhmi? Aradan bir az keşmiş küləh əsif də, bajadan bir saman çöpü gətirif salır içəri. Salan kimi arvadın biri o birinə deer ki:

– Saman tüşdü.

O biri deer:

– Nə zaman tüşdü?

Onatan o biri deer:

– Buy, Zamanmı öldü?

Onatan qoruxçu qaçıf deer ki, şah, arvatdar deer ki, Zaman xan öldü. Şah tez adam göndərer öyrəner ki, Zaman xan ölüf. Tez əmr eliyir ki, arvatdarı buraxın. Olara taa ölüm yoxdu. Arvatdar dəən söz yalan döy. İndi o bir məsəl qalıf: "saman tüşdü, Zaman öldü".

## AŞIQLAR

## 1-2. AŞIQ ƏLƏSGƏR VƏ ŞƏMKİRLİ AŞIQ HÜSEYN

### 1.

Aşıx Ələsgərnən Şəmkirri Aşıx Söyünnən danışajam. Şəmkirri Aşıx Söyün eşidif ki, Göyçədə bir Ələsgər peydah olub. Deef, ya mənim adım danışılmalıdı, ya Ələsgərin. İki qoçun başı bir qazanda qaynamaz. Arvadına deer ki, mənim heyvəmə çörəyimi, şorumu, pendirimi qoy, mən Göyçəə edəjəm. O vaxdı məytuf, kağız eldən-elə, yaylaxlara köçən elata verilərmiş. Bu, çörəyini, yiməyini xurcunna qoyur. Günü bir mən$_{ı}$zil Şəmkirdən çıxer gəler. Bir gün Gədəbəydə qalır. Səhər orda bir dostunun evində çayını-çörəyini yiir, aşer Göyçüyə. Gedir bir gün Göyçənin bir kəndində qaler. Soruşor ki, Aşıx Ələsgəri axdarıram, hardadı?

Deer:

– Ələsgər Ağkilsə kəndindədi.

Şəmkirri Aşıx Söyün gedif Ağkilsə kəndini taper. Əmmə munu san$_{ı}$a bəri başdan deyim ki, Şəmkirri Aşıx Söyün burdan çıxmamış, yuxusunda Ələsgərə ayan olor ki, Şəmkirri Aşıx Söyün sənnən görüşməyə gəler. Haqq aşığıdı axı. Bu Şəmkirri Aşıx Söyün yolunu davam eləməhdə olsun.

Uşaxlar heyvanı heyvana qatıf, heyvan da yaylağa köçör. Ələsgər gedir qardaşdarına, oğlu Bəşirə deer:

– Ay uşax, a bala, heyvanın birini damda saxlıyın. Şəmkirri Aşıx Söyün üş gündü yol eliir, büyün burda olajax. Heyvanın birini damda saxleen$_{ı}$, son$_{ı}$ra gedif o dağda, bu dərədə heyvan axdarmeyın$_{ı}$.

Bular deer ki, elə sən gördüyün$_{ı}$ gerçəhmi olajax, a kişi? Gələndə gedif taparıx.

– Ayə, saxla.

Axırı məjbur eleer, heyvanın birini damda saxlader. Ələsgər də evindeymiş. Soruşa-soruşa gəler. *(Deer, Göyçədə o vaxdı bağ-bağat az oluf, düzdü, yaxşı saf suyu oluf, yaxşı havası oluf, safalı yerrəri oluf. Son vaxdı hər kətdə bağ da, bağça da, tikinti də inkişaf eləmişdi. Allah bu erməni gavırraрın öyünü yıxsın! Amin! Yaxşıja dolanırdı camahat. Camahatı oynatdı, didərgin saldı hər yerdən. İndi hərəsi bir yerdə).*

Şəmkirri Aşıx Söyün şoruşur ki, Ələsgərin evi hasıdı? Deellər:

– Bax bu küçəynən get, tapajan$_{ı}$.

Geder. Görür ki, Ələsgər kişi qapıda nəysə məşğuldu, işdiyir. Gəler deer:

– Salamməleyküm, aşıx.

Aşıx Ələsgər dönüf baxer ki, yuxusunda gördüyü həmən Şəmkirri Aşıx Söyündü. Deer:

– Əleykəssalam, ay Şəmkirri Aşıx Söyün, xoş gəlifsən$_{ı}$.

Deer, ə, da mən muna nə təcnis, nə qıfılbənt, nə bağlama deyim? Mən üş gündü gələrəm soruşa-soruşa. Dedim, a aşıx, salamməleyküm. Dedim, bəlkə o olmaz, oğlu olar, qardaşı olar. Bu geri döndü man$_{ı}$a dedi ki, Şəmkirri Aşıx Söyün, xoş gəlifsən$_{ı}$! Deməh, bu deyilən həqiqətdi, var bu adamda. İsdeer geri dönə.

Deer:

– Kişi, getmə! Bu heyvanı damda saxlamışam sənnən ötəri.

Kəsellər, yiillər, içellər. Orda Aşıx Ələsgəri çox tərifliyir. Çox şeyirrəri vardı həmən o Şəmkirri Aşıx Söyünün.

**2.**

Bir gün Aşıx Ələsgər yuxuda gördü ki, Aşıx Hüseyn buna qonax gələjəh. Səhər duranda dedi ki, a Bəşir, a bala, o er-

kəyi əylə[169], Aşıx Hüseyn qonağımız olajax. Yaz başıydı, Aşıx Hüseyn soraxnan getdi çıxdı Ələsgərin kəndinə – Ağkilsə kəndinə. Orda soruşdu ki, Ələsgərin evi hasıdı? Buna göstərdilər ki, o evdi, o əlində kürək qar təmizdiyən kişi də elə Ələsgərdi. Aşıx Hüseyn getdi dedi:

– Salaməleykim, ay Ələsgər əmi.

Dedi:

– Əleykəsalam, ay Aşıx Hüseyn.

Dedi:

– Sən hardan bildinı mənim Hüseyn olduğumu?

Aşıx Ələsgər dedi:

– Gejə yuxuda manıa Ağam dedi ki, savax Aşıx Hüseyn sanıa qonax olajax. Qurvanını var, saxlamışam, gəl otu.

Aşıx Hüseyn məhətdəl qaldı ki, ayə bu nətəhər olan şeydi. Bir az eninə baxdı, bir az uzununa baxdı, keşdilər içəri. Aşıx Ələsgər oğluna dedi ki, a bala, gəti, o qurvanı kəs, qoy Hüseyn əminı içəri keşsin. Keşdilər içəri. Yiməy-işməydən sonıra söhbət elədilər.

Aşıx Hüseyn dedi:

– Yerrərinıiz yaman səfalı yerdi, amma qarı-boranı çoxdu, bir az qar-boran məni incitdi.

Belə deyəndə Ələsgər orda iki-üş bənd şeyir dedi. Qalanı yadımnan çıxıf, biri yadımdadı:

> Dedim, könül, işmə eşqin cəmini,
> Genı dünya başınıa dar olajaxdı.
> Ya dosd olma, ya da dosdan incimə,
> Dosd yolunda boran, qar olajaxdı.

Aşıx Ələsgər belə deyəndə Aşıx Hüseyn fikirrəşdi ki, ayə, mən nə səf iş gördüm ki? Bu Ələsgər, deyəsənı, yerin

[169] Əylə – saxla

altını da, üsdünü də bilir, bunun qavağında nə deməy olar. Bir az fikirrəşdi, orda Aşıx Hüseyn götürdü "Mərd" şeyrini dedi:

Yeddi gündə xəlq eylədi, əlanı-sübhanı mərd
Yernən göyə qərər qoydu.
Tutuf saxlar mehmanı mərd.
Mərdnən gəzən axır bir gün mərd olar.
Namərdnən gəzən çöl-biyavan gərd olar.
Namərd iki mehman görsə, iki gözü dörd olar.
Gedəni yoldan qaytarar, tutuf saxlar mehmanı mərd.
Mən mərd Aşıx Hüseyn, namərd bədnişan olar.
Hası məclisdə mərd əyləşsə, o məclis gülşən olar.
Hər yerdə xanə yapar, gəşt elər dünyanı mərd.

Bu "Mərd" şeyirini deyəndə Aşıx Ələsgər dedi:

– Ay Hüseyn, dünyanın vəfası, mərddik hər adama qismət dəyil. Doğrudan da, mərdsən$_ı$, Ağam səni yuxuda man$_ı$a yaxşı göstərif.

## 3. AŞIQ ƏLƏSGƏRİN NAXÇIVAN SƏFƏRİ

Ələsgər şayir Nağıynan bir məclisə gediflər. O vaxdı da bəylih, xannıx dövrü oluf. Bəylər Ələsgərə deellər:

– Aşıx Ələsgər, bu yanın$_ı$dakı kimdi?

Deey:

– Bu mənim şəyirdim şayir Nağıdı.

Dəəndə bu göröy, Nağı burda dəərrəner[170] ki, man$_ı$a şəyird dedi. Məclisi yola verif, Göyçə mahalına qayıdıf gələn kimi Nağı deey ki, Ələsgər kişi, çörəyin$_ı$i man$_ı$a halal elə, mən sənnən işdəmiyjəm.

– Ayə, a Nağı, dəryadan bir damcı götürmüyüfsən$_ı$, dəli olmuyufsan$_ı$, san$_ı$a nooldu?

---

[170] Dəərrəner – inciyir

– Sən bəylərin yanında man$_{ı}$a niyə şəyird dedin$_{ı}$?

Deey:

– Ay oğul, usdada usdad dəəllər, şəyirdə şəyird dəəllər. Hələ heş sən yarımçıx aşıx da döyülsən$_{ı}$.

Deey:

– Yox, mən gedəjəm.

Aşıx Ələsgərin arvadı Anaxanım da yalvarey ki, ay Nağı, Ələsgərin ətəyini buraxma, vallah, düzdə qalajaxsan$_{ı}$.

Deey:

– Yox, mən getdim.

Gedey. O vaxdı da Göyçə mahalında toy nədi, pul nədi? Hamı bəri zonada – Gədəbəydə, Gəncədə, Şəmkirdə, Toyuzda, Qazaxda, Naxçıvanda aşıxlıx eliyif pul aparellarmış. O kasıflıx ilində, ajdıx ilində Göyçə mahalında xeyir iş eliyənmi varıydı?

Nağı fikirrəşey ki, əə, uşax ajınnan qırıley. Fikirrəşey ki, Ələsgərin Naxçıvanda Məhəmmət bəy adında bir dosdu var. Sazını köynəyinə qoyoy da, yön çöyüröy Naxçıvana. Nağı çox fiquralı, göyçəh adam oluf. Məhəmmət bəyin gəlini buna yaxşı çay-çörəh hazırreey. Məhəmmət bəy gəley:

– Ay aşıx, xoş-beş, on beş. Bə nəəxşı gəlifsin$_{ı}$?

Əmə Ələsgər aralananda tafşırmışdı ki, Nağı, olməə-bilməə dəəsən$_{ı}$ ki, Ələsgərə şəyird olmuşam. Denən, özüm anadangəlmə aşığam. Deey ki, uşax ajdı, Ələsgər əmim məni yolladı ki, orda olan aşıxlara de, toxunmasın san$_{ı}$a, uşağın$_{ı}$a çörəh pulu qazan. Gənə Ələsgərin adını burda çəhdi.

Deey:

– Əə, biliyin$_{ı}$-zad varmı?

Deey ki, anadangəlmə şayirəm. O vaxdı bir aşıx birini görən kimi deyişməliydi, sazı əlinnən almalıydı. O vax saz tapılmeydı.

Deey:

– Əə, səni gətirən Allaha qurvan olom, neçə vaxdıydı bu Şərurun bəyləri deeydi ki, sən nətəəri bəysən$_{ı}$, bir aşıx tapbadın$_{ı}$ ki, bu Əsədullaynan, şəyirdi Cəfərquluynan deyişsin. Savax pütün şəhərə elan verəjəm. Gedif orda deyişəjəhsin$_{ı}$.

Savax Məhəmmət bəy elan verey ki, mənim aşığım gəlif Göyçə mahalınnan. Aşıxlara deyin$_{ı}$ gəlsin. Camaat tökülöy. Gedif məclisə daxil olollar. "Usdaddar usdadı" Əsədulla şəyirdi Cəfərquluyu qaldırey ki, dur, onnan deyiş. Bu gəley, meydana çıxey, deey:

– Aşıx, ikimiz elə bir söz oxuyajeyıx ki, axır kəlməsi "Ay nədən oldu" olajax.

Ona kimi bu Şərur aşığı – şəyird bir "Ay nədən oldu" deməyə başdeey:

Əzəldən can deef, can eşidən yar,
İndi beyvəfalıx ay nədən oldu?!
Deyirdin$_{ı}$, ölüncə dömmərəm sənnən,
Yadnan aşınalıx ay nədən oldu ?!

Nağı çiynini çəkey, bilmey. Sazını əlinnən alellar, Məhəmmət bəy də pisikey. Buna deey ki, əə, sənin$_{ı}$ ki biliyin yoxuydu, məni bu camahatın içində niyə xar elədin$_{ı}$? Beş günə demirəm, üş günə demirəm, usdadın$_{ı}$ Ələsgəri burəə gətirif bu aşıxlarnan deyişməsən$_{ı}$, sizin əəğınızı bu zonadan kəsəjəm. Sən mənim başıma nə oyun aşdın$_{ı}$? Sazsız gedey Göyçə mahalına.

Savax gəley. Ələsgər hak aşığıydı. Gəley ki, rəhmətdih qara damın üsdündə hərrəney, qar süpüröy, nağayrey.

– Salamməleyki, Aşıx Ələsgər.

– Ayə, Nağı, xoş-beş, on beş. Ayə, nəəxşı gəlifsən$_{ı}$?

Deey:

– Vallah, ürəyim isdədi, gəldim.

Ələsgər onsuz da bileydi ki, bu, hardasa sazını aldırıf.

– Bə nəəxşı gəlifsənı?

Dəəndə deey ki, məni Məhəmmət bəy göndərdi Şərurdan ki, əlimdə oğlumun toy işi var, Ələsgər də başını orda isdatsın, burda qırxdırsın, yoxsa ona denən bu zonadan əəğını kəsəjəm.

Deey:

– A Nağı, vallah, bu allatma olar.

Nağıya nə var, sazını aldırıf. Ələsgər rəhmətdih getməh isdəmey, gənə arvadı Anaxanım rəhmətdih deey ki, Ələsgər, yaqın bu dara çüşüf, səni and vererim Allaha, dur, get. Ələsgər də bunu yanına aley.

– Əə, bə sazını hanı?

Deey:

– Məhəmmət bəyin öyündə qoymuşam.

Gedellər, Şərura yaxınnaşanda deey:

– A Nağı, bəəx yaman çortum[171] gedirdinı, indi çıdarrı at[172] kimi dala qalırsanı, niyə eleersənı?

Dəəndə deey ki, Ələsgər əmi, Allahdan gizdin olməən, bəndədən nə gizdin olajax. Burdaja məni bağleyıf sazımı alıflar.

– Ayə, Allah öyünıü yıxsın, bə sanıa dedimmi səninı savadını, biliyinı yoxdu, mənnən ayrılma. Bə məni nəyşə gətdinı? A Nağı, məni orda bircə Məhəmmət bəydən başqa tanıyan yoxdu. Sənnən soruşajaxlar bu kimdi? Deynən, bu mənim şəyirdimdi. Neçə yaşı var? Altmış. Adı nədi? Solaxqey. Bunnan başqa bir söhbət işdətməzsənı.

Gedellər. Məhəmmət bəy gəley, deey:

– Əə, bu məni təmiz xəjələt[173] elədi.

---

[171] Çortum – sürətli yeriş (ata və eşşəyə aid yeriş)

[172] Çidarrı at – çidar vurulmuş at. Çidarranmaq – qaça bilməsin deyə atın qabaq ayaqlarının bir-birinə bağlanması

[173] Xəjələt – xəcalət

Savax Məhəmmət bəy elan verey ki, indi Nağının şəyirdi gəlif. Millət deey:

– Əə, usda sazını qoydu getdi, bu nətəəri şəyirtdi ki, şəyirdini gətirif.

Məjlis quruloy yenə, aşıxlar gəley. Baxey ki, əə, bir çovannamasına[174] adamdı.

– Ayə, Nağı, bu gətdiyin$_{ı}$ kimdi?

Deey:

– Şəyirdim.

Deey:

– Ayə, neçə yaşı var?

Deey:

– Altmış.

Deey:

– Bu yekəlikdə kişidən də şəyird olarmı? Adı nədi?

Deey:

– Solaxqey.

Deey:

– Əə, bu nətəri addı? Belə də ad olar?

Ona kimi bu rəhmətdih dilləney ki, aşıxlar, mənim usdamı hası söznən bağlıyıf sazını alıfsın$_{ı}$ızsa, çıxın$_{ı}$ meydana, bəlkə, mən də sazı verəjəm.

Ələsgər sazı köynəhdən çıxardanda bu "usdaddar usdadı" Əsədulla Cəfərquluyu çağırey yanına, deey:

– A Cəfərqulu, gə burəə.

Xəlvəççə buna deey ki, nə qədər pul yığılsa, sənin$_{ı}$di. Sazda təmənnan$_{ı}$ olmasın, saz mənimdi. Ələsgərin də sazı saz oluf. O vaxdı da saz tapılmeydı. Razılaşellar. Gənə şəyirdini qaldırey, həmən bu söhbəti eləməyə. Deey ki, mənim usdamı hası söznən bağladın$_{ı}$ız, onun sazını aldın$_{ı}$ız?

---

174 Çovannamasına – çoban kimi

Deey:

– Sənin usdana dedik, hərəmiz bir söz oxuyajeyıx, onun axırıncı kəlməsi "ay nədən oldu" olajax.

Deey:

– A bala, de göröm o hası "ay nədən oldu"du?

Şəyird ağzını açey ki:

Əzəldən can deef, can eşidən yar,
İndi beyvəfalıx ay nədən oldu?!
Deyirdin$_{ı}$, ölüncə dönmərəm sənnən,
Yadnan aşınalıx ay nədən oldu?!

Dəəndə heş bu sözünün dalını davam eləməmiş Ələsgər deey:

– A bala, olmazmı hər kəs öz bağının meyvəsini dərə, özgə bağa oğurruğa getməə. Yanı bu sənin$_{ı}$ döyül, Tufarqan Abbasındı.

Deey:

– A kişi, bağ-buğ bilmerim, bilesin$_{ı}$, cavaf ver, bilmesin$_{ı}$, sazı təfil ver.

Bu elə bir "Ay nədən oldu" başdeey ki:

Yerin, göyün, ərşin, kürşün, insanın
Künhü, bünövrəsi, ay nədən oldu?!
Yeri göydən, göyü yerdən kim seşdi?
Hikmətin dəryası, ay nədən oldu?!

Neçə sütun, neçə qəndil vuruldu?
Sən kimsən$_{ı}$, mən kiməm, kimnən soruldu?
Eşqin müəmması harda duruldu?
Usdaddar usdadı, ay nədən oldu?!

Bir qoja aşığam, intizarım var,
Alimsənsə, eylə məni xəbərdar,
Elmi hardan tapdı cümlə aşıqlar,

Şeyiri, müəmması ay nədən oldu?!

Şəyird deey ki, əə, mən buna nə cavaf verem? Usdadı Əsədullah cağırey, deey:

– Əə, göyçəli Aşıx Ələsgərin bir bağlı qıfılbəndi qalıf, deef, ölüf gedəjəm, bunu açmayjam. Bu da gəlif çatıf bizə, onu de, sazı alajaxsın$_{ı}$.

Ələsgər bu sözü deef də açmeyıfbış, məjburiyət qarşısında qalıf Şərurda, deyişmədə açıf. Ələsgər bu sözü deefbiş ki:

Altı gündə dünya neçə don geydi?!
Nə üsdə yerrəşdi, bərqərar oldu?!
Əzəldən kim oluf Turun bənnası?!
Ulduzdar nə təhər yerbəyer oldu?!

Bu Ələsgərin bağlı bəndidi. Bunu buna dəəndə deey:

– A bala, bu söz kimindi?

Deey:

– Aşıx Ələsgərin.

– Aşıx Ələsgər hansınızsan$_{ı}$ız?

Usdadı Əsədullahı görkəzey ki, bax odu.

Deey:

– Əə, qorxuram söz yəəsi böyrün$_{ı}$üzdən çıxa, anan$_{ı}$ızı ağlar qoya.

Deey:

– Əə, söz-möz, yəəsi-məəsi bilmerim, bajareysın$_{ı}$, cavaf ver, bajarmeysın$_{ı}$, sazı təfil ver.

Həmən bağlı bəndi məjburiyət qarşısında qalıf açey:

Altı gündə dünya iki don geydi,
Gavı-mah üsdündə bərqərar oldu.
Hax sözü olufdu Turun bənnası,
Ulduzdar göy üsdə yerbəyer oldu.

Bu qıfılbəndi Ələsgər axıra qədər deey və hər bəndin açmasını da deey. Cəfərqulu sazı təfil verey də, deey:

– Ay usda, mənnih döyül.

Əsədulla qızmış nər kimi deey, qalxdı, Ələsgərə həcvə keşdi:

Solaxqey aşıxsan$_{ı}$, az çüşünərsən$_{ı}$,
Qeyli-qallı bir bazara çüşərsən$_{ı}$.
Altmış yaşında şəyird olufsan$_{ı}$,
Vəzifədən tez kənara çüşərsən$_{ı}$.

Ələsgər baxey, əə, bunun çəntəsində heş nə yoxdu[175]. Deey, əə:

Məğrurrux eləyif usdadam demə,
Sən də olar bir gün dara çüşərsən$_{ı}$.
Baş tülək deyilsən$_{ı}$, çolpa balasan$_{ı}$,
Sürvən$_{ı}$nən[176] ayrılıf, tora çüşərsən$_{ı}$.

Sən çəkmə Nağının işvə-nazını,
Zimistana döndərəjəm yazını,
Soyaram libasın$_{ı}$, allam sazını,
Yal-quyruğu qırxıx yola çüşərsən$_{ı}$.

Saxla dilin$_{ı}$, özün üçün yağıdı,
Aşıx Ələsgərin odlu çağıdı,
Alar caynağına, səni dağıdı,
Göydən yerə parça-parça çüşərsən$_{ı}$.

Tok vurmuş adam ayılan kimi, Əsədulla deey ki, əə, Nağı, bə deeysin$_{ı}$ ki, mənim şəyirdimdi. Hancarı bu Aşıx Ələsgəriymiş. Bu da sazı təfil verəndə rəhmətdih Aşıx Ələsgər deey:

– Nə qədər pul yığılıf, hamısını bu torvəə[177] doldurajaxsın$_{ı}$ız. Sazın$_{ı}$ızı götürəjəksin$_{ı}$iz. Mən əlimə saz alannan bir aşıxnan nə qavaxlaşmamışam, nə də qavaxlaşmaram. Aşığın biri çox bilər. Hamı çalışır uşağına para çörəh tafsın, dolandırsın.

---

[175] Çəntəsində heş nə yoxdu – burada: bildiyi yoxdur.
[176] Sürvənnən – qatarından
[177] Torvəə – torbaya

Nə qədər pul yığılıf, hamısını Ələsgərin torvasına doldurollar. O tarixdən, deey, deyişmə bağlandı. Heç harda aşıxlar bir-birinnən deyişmədi ki, Ələsgər böyrümüzdən çıxar, anamızı ağlar qoyar.

## 4-5. AŞIQ ƏLƏSGƏRİN XINNA[178] SƏFƏRİ

**4.**

Payız vaxdeymış. Ələsgərin balamançısı bir az ütük[179] adamıymış. Baxey öydə gəliş-gediş, yiməh-işməh bir az azalıf. Baş yoldaşına deey:

– Gedem Ələsgər bavama deyim, gedəh görəh harda toy-şan var, bir az xarşdıx gətirəh. İndijə də bərk çoyğun olajax, heş eşiyə çıxmağ olmuyjax. Gedem göröm gedərmi?

Deey:

– Get, yalvar apar.

Arvatdara nə var, arvatdara yiməh lazımdı. Gəley Ələsgərin yanına, deey:

– Ələsgər bava, yiməh yoxdu daa.

Deey:

– Mən nağayrem, a bala?

Deey:

– Həncəri nağayrasanı, gə gedəh görəh harda toy-şan var, özümüzə bir az dərəmət[180] eləəh, gələh.

Deey:

– Əə, hareynan gedəh? Qazax yoluna gedif çıxammarıx. Oralar qar-çoyğundu, əəğın üsdə çıxey qar.

Deey:

---

178 Xınna dərəsi –Tovuz rayonunda bir neçə kəndi özündə birləşdirən ərazidir.
179 Ütük – cəld, zirək
180 Dərəmət – qazanc

– Gedəh burdan Alöyllərdən[181] anırı aşax. Ordan başşağı enəjeyih Əyrəvəngə[182]. Əyrəvəngdə qalax, ordan da Aran elinə getməh hasatdı.

Deey:

– Əə, gedərih, Alöyllər də yalın başıdı, birdən çoyğun tutar, qar bizi qırar.

Deey:

– Yox, qorxma, hardan olsa səni aparajam.

Deey:

– Ayə, sən mənim qılçamın biri boydasanı, sən məni hardan aparajaxsanı. Səni mən aparam gərəh.

Deey:

– Zərəl yoxdu, indi noolajax, Allah eləər, çıxar gedərih.

Savax gejdən[183] qalxellar, savaxlar hamınızın üzünüzə xeyirrihnən açılsın. Durar, ikisi də yola çüşər, gələllər. Ardanışdan[184] dik oxarı qalxallar Alöyllərə. Yala birtəər təngnəfəs çıxellar. Qar bir az var də, onda əkqavı-filan yoxuymuş, hamısında çarığıymış. Çarıx da bir az donıuf. Alöyllər Göyçöynən bizim qrənisdi[185]. Ordan başşağı yavaş-yavaş enəllər, əəxdakı Daşqoyuşannan[186] addıyallar. Çayaşağı yaxşı cığır varıymış, gəlellər Əyrəvəngə. Axşam da Əyrəvəngdə qalellar, çaley-oxuyoy, yiif-içellər.

Savax gejdən qalxar, burdan yola çüşəllər. Gethaget, Allaha şükür, Ələsgərə nə varıydı, Ələsgər uzun boylu bir adamıymış. Addımleey gedey. Bu da elə tənginəfəs bunun dalın-

---

[181] Alöyllər – Alagöllər, Gədəbəydə yaylaq adı
[182] Əyrəvəng – Gədəbəy rayonunda kənd
[183] Savax gejdən – səhər tezdən
[184] Ardanış – Göyçə mahalında kənd
[185] Qrənis – sərhəd
[186] Daşqoyuşan – Daşqovuşan, Gədəbəy dağlarında yer adı

ca gedey, həmən Yanıxlıya[187] çatellar. Baxey ki, söyux buları təntidif, gün də qısalıf.

Deey:

– Ə, görəh belə vaxda bizi kim qonax eləər.

– A zalım oğlu, qoymadın$_{ı}$ öyümdə otduğum yerdə oturam, söyux nəfəsimi kəsey.

Deey:

– Zərəl yoxdu, görəh...

Bir-iki qapıyı döyöllər, buları qonağ eləən olmooy. Qonağ eləən olmaannan son$_{ı}$ra bular birəz gəlellər. Gələndə göröllər bir yeni üzünü bozartmış cavan oğlan beş-on dana-duna tököy çaya. Fikirrəşey, əə, cavanın yanında bizə heş-zat lazım döy, nətəəri olsa, isdi yeri olajax. Yorğan-morğan man$_{ı}$a lazım döy, ordasa da o isdi yerdə oturam, savax da görəh özümüzü dəmiryoluna çatdırrıx, ordan oanda – Qazaxda sözümü tutan bəylər, xannar var, hamısı mənnən ötəri özünü öldüröy.

Gəley bu uşağa yaxınnaşey, deey:

– A bala, belə-belə, olarmı bu axşamlığına bizi qonağ eləəsən$_{ı}$?

Deey:

– Vallah, mənim xəzeynim elə bir bədxəsiyətdi ki, olacağım da bəyinkinnən yan-yanadı. Bəy həmeşə bizə tamaşa eleey ki, göröm bular nə iş göröy. Aralıxda bir yaxşı bajası var. Aynası yoxdu, eləjə bajadı. Sizi yanımda aparem, əmə Allah görkəzməsin, döyəndə gərəh yarım ay göydənin[188] göyü getməsin.

Bu dana otaran oğlan da Göyçə qaşqınıdı. Bunun da yanında bir qız xaylağı var, bunnan qaçey gəlellər. Ata-analarınnan ayrı çüşən nağayrajax? Allah görkəzməsin, boğazının gününü[189] ağleey. İndiki kimi ha döylü, hardan olsa, kimin qapı-

[187] Yanıxlı – Tovuz rayonunda kənd
[188] Göydə – gövdə, bədən
[189] Boğazının günü – çörək tapmaq dərdi

sına getsənı, bir qarına çörəh yiyəsənı. O vaxdı yoxuydu axı. Köhnə vaxdı əlinin altda nökər saxleyıllarmış.

İndi bular da gəlif bu Allahyar bəyə pənahlanellar ki, burda görəh bizi saxləərmı. Uşaxdan xavar aley, deey:

– A bala, nə iş görə bilərsinı?

Deey:

– Vallah, nə desənı, görərim.

Deey:

– Əə, mənim beş-on danam var, ona baxarsınımı?

Deey:

– Niyə baxmerım?

Qızdan soruşoy ki, a bala, sən mənim qapı-bajamı süpürüf, həyat yoldaşıma köməh eleyif, qavını-qaşığını yığışdıra bilərsinımi? Ələci nədi, deey:

– Nə var ki, noolojax, yığışdırrım, tutarım. Nə desənı, əlimnən gəley.

Deey:

– Onda gəlinı, əmbə boğazınıızı verəjəm, mənnən hax gözdəmənı.

Gör nə qədər naxışdı adamdı[190]. Bəyin hamısı eləlihnən pulunu yığıf, yoxsa hardan alıf, hamısı fəhlənin əl əməyidi. Təzdən noolojax, bular burda qalellar bir qərnə[191]. Bunnan sonıra gədə də böyüyöy.

Aşıx Ələsgərə bu deey ki, indi mən sizi aparammarım. Siz bu malın çəhliminnən[192] xəlvəççə mənnən aralaşını da, gedinı. Dal tərəfdən qapı açıxdı, ayrı çovannar da var. Hamısı çörəyə oturollar indi. Çovannar qalxıf malı alaflıyajax. Yavaşcalıxnan qapıyı itələər də, içəri girərsinıiz. Sizi heş kəs çıxartmıyjax. Daa orda qalını yanımızda, nağayrax. Bular gəlel-

---

[190] Naxışdı adamdı – bəxti gətirən adamdır

[191] Bir qərnə – bir müddət

[192] Çəhliminnən – izi ilə

lər yavaşcalıxnan dal tərəfdən qapıyı açey, içəri girellər. Bir az oturollar, nağıl-zad eleyillər.

Sən demə, bu zalım oğlunun həyat yoldaşı bir il yarımdı, nədi tələf oluf. Sonıra bu körpə qız uşağı gəlif yetişif. Bu qız uşağını deef, heş harəə verən döylüm, neyniyjəm, bu qız uşağı manıa bəsdi. Cavan uşağı özünə kəfin eleyif, saxleyıf.

Aşıx Ələsgər oturoy. Aynadan baxıf göröy, əə, bir kişi oturoy, sakqalı dizinə başşağı çüşüf. Elə hərdənbir nağıl eleey, yanında da bir cavan qız uşağı var. Göröy bu qıza da hərdənbir nəsə deey, gah mırışey[193], gah başı yerdən qalxmey. Elə-belə məlul-müşkül oturuf. Bu nökərin birinə yaxınnaşey.

Deey:

– Əə, nooluf, bu nə işdi?

Deey:

– Kiri, eşitsə bizi qırajax, kiri. Belədi, onun arvadı ölüf, o da cavan qız uşağıydı, özünə kəfin eleyif, arvat saxleey.

Taleh insanı hər dərəcəə çatdırar. Belə baxey-baxey. Deey, bu qızın dərdi məni öldürər, bu qıza bircə kuplet şeyir deməsəm. Onatan çörəh vaxdı oloy.

Kişi deey:

– Ayə, dəən qonağınız da var?

Deey:

– Hə.

Deey:

– Oğul, gəti çovannara da şor-çörəh qoy, qonaxlara da.

Aşıx Ələsgər indi çörəh yimey. Balamançı şoru vurha-vurnan yaxca yiiy.

Deey:

---

[193] Mırışey – gülümsəyir

– Ayə, öyü yıxılmışın oğlu, elə boğazın$_{ı}$a çüşüf ölmösün$_{ı}$ ha, ayə. Əə, bir gözdə axırını, görək axırımız nooloy. Ayə, elə şor deyin ölüfsün$_{ı}$mü?

– Yox, Ələsgər bava, vallah, təntimişim, qoy qarnımı doydurom.

– Qarnın$_{ı}$ cırılsın, deey, ayə. Nooluf qarnın$_{ı}$a, elə öldüyün$_{ı}$dü?

Deey:

– Yox, yəəjəm.

Bu döşööy[194]. Ələsgər sazını çıxardey, yavaş-yavaş, dıranq-dıranq kökləəndə deey:

– A bala, dəən qonağın$_{ı}$ız aşıxdı.

Deey:

– Hə, ay bava, aşıxdı.

Deey:

– Əyə, bu aşıx kimdi görən$_{ı}$, haralıdı, hara aşığıdı?

Bunnan qayıdıf xavar alellar ki, ay dayı, sən kimsin$_{ı}$, haralısın$_{ı}$, hara aşığısın$_{ı}$?

Deey:

– Mən Göyçənin Ağkilsə kəndinnənim. Adım da Aşıx Ələsgərdi.

Bunu da bu eşidey axı. Deey:

– Ağız, ağız, həncəri mən biyavır olmuşum. Ağız, mənim bu tutduğumun hamısı dasdan olajax. Mənim başıma nə oyundu gəldi? Ayə, gedin$_{ı}$ o heyvanın içinnən bir erkəh gətirin$_{ı}$ kəsin$_{ı}$, aşıxlar da yisin, siz də yiin. Kefin$_{ı}$iz saz olsun, birəz də bu kişi saz çalsın.

Noolajeydı, gedellər tez bir erkəh gətirey kəsellər. Təzdən, deey, erkəyin ətinnən yiillər, balamançı yiəmmey.

Deey:

---

[194] Döşööy – iştahla yeyir

– Əə, şornan ətə qıymat qoyosun$_{ı}$mu sən? Əə, sən mənim balamançımsın$_{ı}$. San$_{ı}$a deyrim, əə, ölmə, görəh axırımız nooloy, elə sən boğazın$_{ı}$a çüşmüşdün$_{ı}$?

Həə, təzdən çörəyi-zadı yiillər, onnan son$_{ı}$ra sazı götüröy. Deey:

O məlul könlün$_{ı}$ü, müşkül halın$_{ı}$ı,
Çüşünən də yazıxdı, *aaz,* bilən də yazıx.
Ağlasan$_{ı}$, ağlaram mən sənnən betər,
Dağladın$_{ı}$ sinəmi güləndə yazıx.

Bir mərdi sevəydin$_{ı}$, sirdaş olaydın$_{ı}$,
Könlün$_{ı}$ isdiyənə peşkaş[195] olaydın$_{ı}$.
Keşkə quruyaydın$_{ı}$, bir daş olaydın$_{ı}$,
Bəzənif bir evə gələndə, yazıx.

Bu da heş bunnan bir şey götürmöy ki, əyə Aşıx Ələsgər bu sözü kimə deey. Həə, deey:

Ələsgər durarmı matah satmasa?!
İyid sarsıyarmı[196] baxdı yatmasa?!
İki könül bir-birini tutmasa,
Alan da yazıxdı, gələn də yazıx!

Həə. Çovannarın yapıncısı oloy. Gətirellər Ələsgərə də bir dəs yaxşı palaz verellər.

Deey:

– Böyrümə gir yat, a yazıx balamançı.

Yatışellar, savax da hamının uğuruna xeyir, yol basey, ordan da Qazağa. Nə qazanıfsa, özü biley.

### 5.

Qazaxda Qayıf ağa oluf. Bu, çox varrı oluf. Arvadı ölüf, tək qalıf. Eşidir ki, filan yerdə bir bəyin gözəl bir qızı var. Gə-

---

195 Peşkaş – qismət

196 Sarsıyarmı – məğlub olarmı

lir nökərini qəşəh geyindirir, oğul əvəzi aparır, qızı alır. Qız gejə görür ki, sakqalı dizinə çatan bir qoja gəldi bunun yanına. Səhərisi qız nökərdən soruşur ki, a nökər, bu nədi? Nökər deer ki, mən nökərəm, nə dedilər, onu da elədim. Qız nökərnən aranı sazdıyır[197]. Bir gün Aşıx Ələsgər ordan keçirmiş. Görür ki, yolun qırağında bir nökər heyvan otarır.

Deer:

– A nökər, məni bir gejəliyə qonax eliyərsənımi?

Nökər deer ki, dur, gedim ağamdan icazə alım, gəlim. Nökər ağasınnan icazə alıf gəlif Aşıx Ələsgəri bu evə aparır. Aşıx Ələsgər bu evdə olanın hamısını başa tüşür. Öz ürəyində qıza deer:

– Səni alana da yazıx, satana da yazıx.

Sonıra da nökərnən qıza deer ki, sizə özüm toy eliyəjəm. Təzədən toy eliyif qızı nökərə alır.

## 6. YOLÇULARIN AŞIĞI TANIMASI

Bu əhvalatı da atam ordan gətirmişdi. Şişqəyada aşıx Mikayıl oluf − Ələsgərin şəyirdi. Bu yaxşı saz çalan oluf. Ama şit zarafatı da varmış. Ələsgərin Anaxanıma yazdığı "Xəvərinı varmı" şeyrinin də mətiyini[198] o atıf. Atmaca atıf ki, Ələsgər gedif harda bir gözəl qız görən kimi şeyir yazey, hələ neçə ildi gəlin gəlifsinı, sanıa şeyir yazmıyıf.

O söylööy. Deey, Aşıx Ələsgər qaşqın vaxdı Kəlbəcərə gedey, orda dəyirman işdədey, həm də yonqu[199], boyundurux yonarmış. Boyunduruxnan öküz qoşormuşdar. Boyunduruğu hər usda yona bilmerdi. Ələsgər bu sənətnən, həm də aşıxlığınnan burda başını girreyir[200], dolaney.

---

[197] Sazdıyır – düzəldir

[198] Mətiyini – atmacasını

[199] Yonqu – ağacdan nəsə düzəltmək üçün balta ilə yonmaq

[200] Başını girreyir – gününü, vaxtını keçirir

Günnərin bir günü göröy ki, bir dəs atdı gəley. Beş-altı nəfər Aşıx Ələsgərdən aralıda yığılıf, bu da camaatdan aralı diyanıf. Karvan gəlif burdan keçəndə bulardan bir nəfəri soruşoy ki, uşaxlar, burda nal kəsən varmı? Bulardan biri deey ki, bax, o papaxlı kişiyi göröysən$_{ı}$mi, o, həm nal kəsey, həm də at nalleey. Gedin$_{ı}$ ona deyin$_{ı}$, etiraz eləməz.

Aşıx Ələsgəri tanımıyan az-az adam olardı. İndi bular da Aşıx Ələsgərin adını tanıyellar, ama üzbəsurat tanımellar ki, Aşıx Ələsgərdi. Elə ordan deellər ki, o papaxlı kişi dəmirçidi, nal kəsey, özü də atın$_{ı}$ızı nallıyıf yola salajax. Gəley:

– Salam.

– Əleyküməsalam.

– Əmi, olarmı sizi narahat eləməh?

– Buyurun.

– Siz dəmirçisin$_{ı}$izmi?

– Kim dedi mənim dəmirçi olduğumu?

Deey:

– Bax, o kəççilərin. At nallamax-zad bajarırsın$_{ı}$ızmı?

Bu, bir az gülümsüyür. Buların hamısı gəlir maraxlaney ki, əgər bu dəmirçi olseydı, yəqin ki, ya dəərdi hazır kəsili nal var, ya da əylənin, kəsəh.

Deey:

– Bu boyda karvanın içərisində, sizin içərin$_{ı}$izdə bir qələm tutmağı bajaran$_{ı}$ varmı?

Biri deey:

– Nə deeysin$_{ı}$, yazax.

Deey:

– Onda mən sizə bir-iki bənd şeyir diyəjəm, onu yazın$_{ı}$. Onda, deey, mənim dəmirçi olduğumu biləjəhsiniz.

Orda bir şeyir deey:

Ahəngər mən döyləm, naşı bəzirgan,
Gözüm dürdanədə, a Yəməndədi.
Sinəmdədi eşqin şirin çeşməsi,
Ləzzəti meyl edif, ay əməndədi.

Yox sazının nə pərdəsi, nə simi,
Onu çalıf, kim tərpədər nəsimi,
Firdovsi, Füzuli, Hafiz, Nəsimi,
Onlar da yazdığı ayə məndədi.

Kişi gərəh zəhmət çəhsin, tər salsın,
Süfrə aşsın, ad qazansın, dər salsın[201],
Dərsi azdar Ələsgərdən dərs alsın,
Altı min altı yüz ayə məndədi.

Birdən tanıyellar ki, bu, Aşıx Ələsgəriymiş. Aşıx Ələsgər buları öyə təklif eleey. Bular Aşıx Ələsgərdən üzr isdiyillər. Aşıx Ələsgər deey:

– Sizi bağışdıyıram, nabələdsinıiz, ama məni tanımamış getsənıiz, bu da manıa qəbahət olardı.

## 7. "APARIR" RƏDİFLİ ŞEİRİN YARANMASI

Sonıra atam birini söylööydü. Aşıx Ələsgər Kəlbəcərdə xeyli yaşıyıf. Onu az-çox imkannı adam kimi tanıyeydılar. Toy eləən kimsə gəlif deeymiş ki, manıa əl tut, ya cehizə, ya nəyəsə lazımdı, hamıya əl tutarmış. Biri dəərmiş, pulun əvəzinə dana verəjəm, biri dəərmiş, qoyun verəjəm. Nəysə, bunu bir neçə nəfər alladey da, danasını vermey. Bir də İrannan gəlmə bir tat oloy orda. Alladey da, yüz manat pulunu vermey. Deey:

---

[201] Dər salsın – tanınsın, şöhrətlənsin

– Əə, aşıx nağayrey gəlif? Bir saat, iki saat ordan-burdan söhbət eleey də, iki xana da oxuyoy. O boyda daneyı ona verməhmi olar?

Qaley belə. Bu bularnan dava eləəsi döyül, vermey-vermey də, neynəməlidi ki.

Kəlbəcərin Qılışdı kəndi var. Ordan dosdarı oloy. Burdan da bunu alladannar oloy. Bular bunun hakqını vermədiyi bir tərəfə, hələ zarafat da eleellər ki, filan yerdə bir belə aldın$_ı$, filan yerdə dana aldın$_ı$, filan yerdə qoyun aldın$_ı$. Orda bir müxəmməs deey:

Mərd iyidin məclisinnən,
Aşıx gəlir, at aparır.
Tər tökür, zəhmət çəkir,
Açır, hər büsat aparır.
Bu dünyanın şöhrətini,
Demə beyısbat[202] aparır.
Mərddərə canım sadağa,
Zəhlmi bədzat[203] aparır.

Aşıx Ələsgər bu bəndnən başdıyan müxəmməsi orda deey.

## 8. AŞIQ ƏLƏSGƏR VƏ ÇƏKMƏÇİ

Ələsgər bir gün gedir Şərilə[204]. Orada görür ki, bir çəhməçi qəşəy çəhmə tikir. Deer:

– Bala, çəhmə neçiyədi?

Çəhməçi deer ki, beş manat. Çıxardıf altı manat verir. Deer:

– A bala, man$_ı$a bir yaxşı çəhmə tik. Havax gəlim çəhməni götürməyə?

[202] Beyısbat – isbatsız, şərəfsiz
[203] Bədzat – zatı, əsli pis olan
[204] Şəril – Şərur

Çəhməçi deer ki, üş günnən son$_{ı}$ra gəl. İki günnən son$_{ı}$ra bir adam gəlir bu çəhməçinin yanına. Deyəsən$_{ı}$ qaraçıymış. Bu çəhmədən çox xoşu gəlir. Bunu çəhməçidən çoxlu pul verif alır, götürüf gedir. Üş günnən son$_{ı}$ra Ələsgər gəlir. Oğlan ona başqa bir çəhmə verir.

Ələsgər deer:

– A bala, bu mən zaqas[205] verdiyim badaşdan[206] döyül axı.

Çəhməçi deer ki, yox, elə budu ki, budu. Aşıx Ələsgər deer, a bala:

Danışdıx, barışdıx mərhəmət ilə
İncihlik araya qatma, hayıfsan.
Sən tacir olmassan$_{ı}$ bir manatınan
Namıs, qiyrətin$_{ı}$i atma, hayıfsan.

Sizlər tapaş eylərsiz iynə-bizinən
Bizimki gəlif-gedir söhbət, sazilən...
Köhnə dağarcığı tumaş[207] yerinə
Aşıx Ələsgərə satma, hayıfsan$_{ı}$.

Çəhməçi biləndə ki, bu Aşıx Ələsgərdi, deer:

– Ay Ələsgər dayı, bunu heş yerdə demə, san$_{ı}$a nədən desən$_{ı}$, yaxşı bir çəhmə tikəjəm.

Ələsgər deer:

– Bala, mən bunu burda dedim, hər yerdə deyəjəm, sən versən$_{ı}$ də, verməsən$_{ı}$ də, tihsən$_{ı}$ də, tihməsən$_{ı}$ də.

## 9. YUMRUSUNU GƏTİRİM, YASTISINI?

Bir gün Touz, Qazax, Gədəbəy aşıxları yığılır gedillər ki, bəs Ələsgər kimdi ki, Göyçədə meydan suluyur, meydan

[205] Zaqas – sifariş
[206] Badaş – gön
[207] Tumaş – ayaqqabı materialı

oxuyur. Gedəh onu bağlıyax, obşim, sazını-zadını bunun alax dana. Bular hamsı bir-birinnən razılığa gəlillər ki, bəs gedəh da, o kimdi axı. Həə, bular gedillər Göyçəyə. Gedəndə göröllər ki, biri saj asıf, belə bizim kimi xamralı, yuxa pişirer. Bular da hamısı qalyan çəkən köhnə kişilər oluf. Bunnar göröy kü, ayə, yolda uşaxlar oynuur da. Uşağın birni çağırır ki, qadanı alım, başınıa dönüm, get ordan manıa bir dənə közmü, qormu gəti, bəs qalyanıma qoyum. Uşax deey ki, a dayı, yumrusunu gətirim, yoxsa yastısını? Deey:

– Bala, köz közdü, gəti.

Deey:

– Yox, dayı, köz köz döyül axı. Qalyanını doludusa, yastısını gətirim, üsdə qoy, amma yarımçıxsa, yumrusunu gətirim, içinə sal.

Bunnar deey ki, ayə, ağlı kəsmiyən bir uşax bizə bu sözü dəənnən sonıra Ələsgər gör kimdi, onun üsdünə gedirih biz. Deey ki, qardaş, burdan, obşim, qayıtmax lazımdı. Dübarə[208] də ordan qayıdıllar.

## 10. AŞIQ ƏLƏSGƏRLƏ BAĞLI DAHA BİR ƏHVALAT

Bir gün Aşıx Ələsgər bir aşıxnan – Aşıx Ələsgər kimi aşıxnan qavaxlaşer, deyişellər. Deyişəndə Aşıx Ələsgər bunun dediyi sözə söz tapa bilmer. Deer kin, icazə verinı bir az eşiyə çıxem. Fikirrəşer dana. Eşiyə çıxanda görör ki, şeytan[209] var ha, onun biri otun başındadı. Gəler deer ki,

Səhər vaxdı bir hikmətə uğradım,
Desəm, inanmazdar sirri-sübhandı.
Yeddi qat qalada daşı daş üsdə,

[208] Dübarə – təzədən, yenidən
[209] Şeytan – ilbiz

Bir əjdaha o qalada pünhandı.
Nə qəddərə baxeram, yoxdu zəbanı
İki buynuzu var, bəhri-şeşpərin.

## 11-12. NÖVRƏS İMAN

### 11.

Göyçə, Gədəbəy həmişə yaxın oluf. Həm münasibətdər, səmimiyət oluf, həm də məsafə yaxın oluf. İman evdən-eşihdən, hər şeydən bezif, sinir sisdemi pozuluf. Ordan üz tutuf Gədəbəyə. Gəlif Əyrəvəngə, Arıqırana[210], şər vaxdı Böyüh Qaramurada[211] çatıf. Orəə-burəə, qismət dəə, gəlif Məhəmmət kişinin öyünə. Məhəmmət kişi Kərim kişinin qohumu oluf. Çox namusdu, qeyrətdi bir kişi oluf. O insana baxanda dəərmişdər: "Əə, bu adamnan qırax gəzməh lazımdı". Elə bir ciddi adam oluf Məhəmmət kişi. Ama açıx deyim, çox qəddar adam oluf.

İman gələndə görüf ki, ojax yaney. Gözəl saj çörəyi pişiriley, ətri bunu vuroy. O tərəfdə alban kilsəsi var, sonıra onu dağıtdılar, gözəl bir xatireydi. Nəsə, bu, möhkəm ajıfbış. Deey, ayə, elim-ovamdı, xalqımdı. Gəley, gələndə göröy Salatın qarı – Məhəmmət kişinin yoldaşı çörəh pişirey. Gəley, deey:

– Ana, axşamını xeyir.

Deey:

– Axşamını xeyir, a bala. Kimsinı, nəçisinı?

Deey:

– Ana, qəriv adamım, qonağım, ajmışım.

Deey:

– Oğul, qonax Allah qonağıdı, xoş gəlifsinı.

Çörəyin birini isdi-isdi buna verey, şirəli cəmin[212] birinə də nəhrə yağını qoyoy ki, oğul, ala, bunnan düymənc[213] elə

---

[210] Arıqıran – Gədəbəy rayonunda kənd
[211] Böyük Qaramurad – Gədəbəy rayonunda kənd
[212] Şirəli cəm – emallı, şirəli qab

də, ye. Bu yağ gəlif buna çatana kimi bu çörəyin birini yiiy. Nəsə, arvat fikirrəşey ki, İlahi, bu nə gözəl oğlandı. Belə gözəl oğlan, amma məlul-müşkül, məyus.

Deey:

– A bala, san$_{ı}$a nooluf?

Deey:

– Ana, niynesin$_{ı}$, dərdim-azarım özümə bəsdi. Bolhabol eey, belə o qədər doymuşum ki, daa bunun ayrı sözə-söhbətə ehtiyacı yoxdu. Mənnən söz soruşma. Ana, bu gejə vaxdı mən nağayrem, harəə gedem, bir cır-cındır nəyin$_{ı}$ varsa, ver, burda yatem, savah çıxıf gedəjəm.

Bu arvat da çörəhcil arvat oluf. Deey, əə, indi bu cavan uşaxdı, bunu nə töyrü qapıdan qoyluyum, nətəəri deyim buna çıx get.

Ancax Məhəmmət elə gözünün qavağındeymış Salatının ki, indijə gəlif çıxajax, məni də, bunu da öldürəjəh. Nəsə, mümkün olmoy, oturoy, getmey. Ojağın işığında buna baxey. Baxey ki, əə, üzü tüklü, sayıl[214] sufatında. Di gəl, gözdərinnən nur yağey, elə bir nurani oğul.

– Oğul, kimsin$_{ı}$, nəçisin$_{ı}$, hardansın$_{ı}$?

Orda deey ki, mən Ələsgərin qardaşı oğluyum. Mənim başıma belə bir əhvalat gəldi, belə oldu, belə oldu. Evdən-e$^{o}$ihdən didərgin çüşməyin hamısını buna nağıl eliyif. Arvat baxey ki, əə, nə namusdu, qeyrətdi oğuldu, nə gözəl insandı, nə gözəl kişinin oğludu bu. Deey, cəhənnəmə olsun, Məhəmmət məni öldürsə də. Çörəyin birini də verey buna. Çörəyin birini də yiiy. Ona kimi Məhəmmət gəley çatey. Baxey ki, əə, bir cavan adam, Salatın çörəh pişirey, bu da oturuf burda. Deey ki, yaxşı, ay oğul, kimsin$_{ı}$, nəçisin$_{ı}$? Deey ki, belə-belə. Təfsi-

---

[213] Düyməne – yemək növü. Qaynar çörəyi yağla bir yerdə əzib qarışdırırlar, yağ çörəyin canına hopur.

[214] Sayıl – evsiz-eşiksiz, kimsəsiz

latınnan olmasa da, az-maz, dərd-azarınnan danışey bu kişiyə. Yenə bunu qane eləmey. Deey:

– Xoş gəlifsinı, səfalar gətirifsinı. Göyçə elinə, Göyçə camahatına bizim böyüh hörmətimiz var. A Salatın, isdi su qoy, o üzqırxanı da gətir, görösünımü nə gözəl oğlandı, bunun üzünü qırxajam.

İmana da Allah-taaladan hax vergisi verilifbiş. Buna agah olur. Məhəmmət munun bir üzünü savınneey. Başdeey, qırxıf bura çatanda *(söyləyici əli ilə boğazına işarə edir – top.)*, göröy ki, bir əlini saxladı. (Bunu o vaxdı nənəmgildə manıa rəhmətdih Kərim kişi söyləmişdi). Nəsə, deey, yönünü belə çöyürdü, – bizdə Haça qəya deellər, Qiblə istiqamətindədi, – neynədi, nağayrdı, Salatın da quruyuf qalıf, tərpənə bilmey. Qayıtdı gəldi, isdədi üzünün o biri tərəfini də savınnasın, İman tez əəğa qalxdı, dedi:

– Əmi, özünıə də qurvan olom, balalarınıa da, çörəyinıə, süfrənıə də. Çörəyinıi yidim, manıa halal elə, bir balaca darıxdım, qoy bir külək vursun məni, qayıdaram.

O vaxdı indiki kimi döyüldü ha, işıx yoxdu. Rəhmətdih İman çölə çıxey. Məhəmmət gözdööy ki, indi qonax gələjəh. Sən demə, ülgüşnən bunun boğazının altına çatan kimi vurajeymış. Bunu sonıradan Ələkbər dayım manıa söylədi. Ələkbər dayıma özü söylööf ki, fikrim buydu ki, bu cavan uşax mənim arvadımın yanında nə gəzey, tanımerım, eləmerim, özü də gejə vaxdı. Deməli, Allah-taaladan İmana çatıf ki, bu adamın fikri belədi. İman çıxey. Çıxannan sonıra İsmayıl deeydi ki, onun yerinin əəğınnan[215] sallaney o çaya, çaydan keçey gedey. İman da guya sonıra İranda vəfat eleey, amma dəqiq döyül. Dərin inamım olmasa da, eşitdihlərimi danışdım sizə.

---

[215] Yerin əəğı – əkin yerinin aşağı tərəfi

## 12.

Bu əhvalatı manıa anam danışıf. Ələsgərin ustadı Aşıx Alı oluf. Alı kişi Ələsgərə deey ki, Ələsgər, nə qədər İmanı imtahana çəkdim, qardaşını oğlu İman dəənı sənnən çox qüvvəlidi, çox biliklidi. Dəəndə rəhmətdih Ələsgər deey ki, Alı əmi, Allah-taaladan ona o qədər vergi, bilik verilif ki, İman yaşamayjax.

Ələsgərin qızı İmanın böyüh qardaşı Qurvandeydı. Qurvan ölöy. Ölənnən sonıra bu uşax yetim qalmasın deyə, təzdən Ələsgər öz qızını zornan İmana kəfin elətdirey. İman da cavan oğlan. Fikirrəşey ki, bəs sonıra? İmanın itgin çüşməyinin səbəbi həmən o yengəsinin ona zornan verilməsi oluf haa. Çünki onun belə bir sözü də var:

Ovsunçuyam bir şahmarın əlinnən,
Yatıram qoynunda mar əvəzində.

İman onnan havalaney, gəley çıxey Böyüh Qaramurada. Qələndərin dədəsi də – Dəli Məhəmmət deeydilər – beşaçılan çiynində, çöllərdə. Daa bunun da qavağına heş kəs çıxa bilmey. Bu İman rəhmətdih üzünü-başını tük basmış, gəley düz bu Məhəmmədin öyünə. Salatın qarı da buna fikir verey. Göröy, əə, bir cavan oğlandı, üzünü-başını tük basıf.

– A bajı, məni qonağ eləərsinıizmi?

Deey:

– Eləərəm, ama bir yannan bir az çəkinəcəyim var.

Yəni Məhəmmətdən çəkindiyini deey. Axşam şər qarışey. Məhəmmət gəley öyə. Göröy, əə, bir cavan oğlan var, üzünü-başını tük basıf. Məhəmmədin rəngi-başı allaney ki, əə, bu kimdi ki, gələ mənim ayiləmin yanına girə. Bunun rəngi allanan kimi – gör Allah-taala İmana nə qədər haxdan bilik verifbiş – deey:

– Əə, Məhəmmət, nə rəngin$_ı$ allansın$_ı$, nə başın$_ı$. Mən Göyçə mahalınnan çıxanda man$_ı$a dedirdən dedirdif ki, Böyüh Qaramuratda Dəli Məhəmmədə qonağ olajaxsın$_ı$. Əə, mən Aşıx Ələsgərin qardaşı oğlu İmanım.

Dəəndə Məhəmmət səngiyey[216], bunu qonağ eleey. Bu, səhər qalxanda deey:

– A Məhəmmət, yardan-yasaxdan, ülgüşdən-filannan varmı? Mənim bu üzümü qırxasan$_ı$.

O vaxdı kərəntə ülgücü[217] oluf. Dəəndə deey ki, var. Bu, gətirey ağı dolooy, savınneey, ülgücü gətirif buna yaxınnaşan kimi İman qalxey, ağı götüröy, üzünü siley də, deey:

– A Məhəmmət, mən tələsiyerim, mən getməliyim.

Dəəndə Məhəmmət deey ki, ay İman, bilirəm sən niyə eleeysin$_ı$. Sən fikirrəşesin$_ı$ ki, üzün$_ı$ü qırxa-qırxa gələrim, boğazın$_ı$a çatanda boğazın$_ı$ı kəsərim. Əllərimi kəsərim, san$_ı$a qıymarım, otur. İmanı təzdən oturtduroy, üzünü savınneey, qırxey. Çaydan-çörəhdən də yiiy. Anam deey, elə bilərdin$_ı$ bədəni quşdu, bunun bədənində sümük yoxdu. Gözümüzü açıf yumana kimi deey, ordan Polatdının qılıcını[218] düz aşdı. Onnan da İman gedey çıxey Gəncəə, Gəncədən gedey Tiflisə, Tiflisdən harəə. Həfdəsi keşməmiş deey, Göyçədən on beş-iyirmi adam yeridi, gəldi. Dedih, belə oldu, bax bu öydə də qaldı, burdan da çıxanda Polatdının aşırımını aşdığını gördük. Onnan İman getdi. Allah rəhmət eləsin Aşıx İmrana. Aşıx İmran burda söhbət eləəndə dedi ki, mən getdim İranda İmanın adına qoyulmuş mədəniyyət evini gördüm, onun adına qoyulmuş küçəni gördüm.

[216] Səngiyey – sakitləşir
[217] Kərəntə ülgücü – kərəntə tiyəsindən kəsilib hazırlanmış ülgüc
[218] Polatdının qılıcı – Poladlı kəndinin aşırımı

# ETNOQRAFİK MƏTNLƏR

## 1-7. XIDIR NƏBİ

### 1.

Xıdır Nəvi fevralda olor − fevralın 10-u keçiriler. Qoyut[219] qayırerıx. Çıralar[220] yandırerıx pambıxdan o qoyudun üsdündə. Uşax vaxdı söyünüf qoyuddan alerdıx, yiirdih, onnan son$_ı$ra çırasını yandıranda baxerdıx. Anamız qoymordu onun yanına getməyə ki, siz toxunman$_ı$ ona, Xıdır bavan$_ı$ gələjəh. Qoyut qoyular. Xıdır gələr, o qoyutdan götürər. Baxersan$_ı$ ki, bir belə ordan götürüf, bir belə burdan götürüf. Atamız, anamız da biler ki, o payını apardı. Ən əziz bavadı o. Onun çırasını həməşə təmtəraxnan yandırellar. Hər adamın, qohumun da adına bir dənə çıra yandırerıx.

### 2.

Xıdır Nəvi o vaxdı üş qardaşıymış. Biri Ellaz, biri Nəvi, biri də Xıdır. Üçü də çıxellar səfərə. Gedellər, orda onnarı çoyğun tutor. Çoyğun tutanda nəzir eleellər. Buğda gətirermişdər. Deellər ki, biz pişirif nəzir verəjiyih. Buğdadan nəzir eleellər. Sağ-salamat gəlellər. Gələnnən son$_ı$ra buğdoyu qoyurollar. Buğdadan da qoyut çəkellər kirkirədə, onnan son$_ı$ra da camahata payleellar. Onnan son$_ı$ra qaler bu Xıdır Nəvinin adı.

### 3.

Qoyut Xıdır Nəviynən İlyasın azuqəsi oluf.

Xıdır Nəviynən İlyas bir qoşunun başçısıdı. Olar gedellər dirilih suyunun dalınnan. Geder içellər həmən suyu, qeybə çəkilellər. Gedənə kısmat olmor. Bular bilmer də. Birdən elə

---

219 Qoyut – qovud

220 Çıra – çıraq

bir maqamda bulax şakqıyır, başdıyır qaynamağa. Bular içer. Deer ki, hökümdara da götürəh bir qav. Görür hanı? Yoxdu. Çəkildi getdi.

### 4.

Qışda qoorğa[221] qoururdular da, səhərə qoyurdular. Guya Xıdır bavamız gəlif, əlini beləjə baseydı.

Analığım rəhmətdih gedeydi, şərbət qayırıf da mal töyləsinə apareydı. Qara çırağı yandıreydı. Guya Xıdır bavaları gəlif. Şərbəti aparıf orda içeydilər. Deeydilər ki, onda mal bərəkətdi olar, qışdan salamat çıxar.

Bizə də deellərdi, guya Xıdır bavamız bacanın deşiyinnən gəley, bərəkət gətirey. Guya Xıdır bavamız gəldi, əllərini də qoydu, getdi, əlinin izi qaldı. Səhər böyühlər deellərdi ki, bu axşam Xıdır bava gəlmişdi, əllərini də qoyuf gedif, gördün$_{ı}$üzmü? Hindi Allahın qadasını alım, qayıfdan əli qoyuf dana. Uşaxlar söyünüşürdü ki, bu axşam Xıdır bava əlini qoorğamıza basıf. Xıdır bava əlini basannan son$_{ı}$ra qoorğanı yiillərdi. Gejə yarıya kimi qoorğa çəkirdih. Qooruf da un çəkirdih. Son$_{ı}$ra da gətirif kimi şirniyə qatıf yiirdi, kimi soğança eliyif içinə töküydü.

Buların hamısı Böyüh Çillədə oluydu, onnan son$_{ı}$ra cəmlələr[222] düzülüydü. Deeydilər, cəmlələr gəldi. Söyünüşürdüh. Hindi ancağ çərşənbə deellər. O vax deeydih böyüh cəmlə, kiçih cəmlə.

### 5.

Xıdır yelnən gəler. Onun atı yeldi. Onun bayramında çıra yandırellar. Pambığı yağa batırıf, ağacın başına doluyuf yandırıllar ki, mala, heyvana, insana kömək olsun.

---

[221] Qoorğa – qovurğa, buğdanın, qarğıdalının qovrulmuşu
[222] Cəmlə – istilik

**6.**

Bu bayramda buğda arıtdıyıllar, qoyurullar. Onnan son$_{ı}$-rasına onu qoyuruf kirkirədə[223] çəkillər, son$_{ı}$ra da qava qoyullar. Deellər, gərəh niyyət eliyif bir otaxda, pəncəriyə qoyasan$_{ı}$. O qoyuda bir nişan tüşsə, əl izi qalsa, ona deyellər ki, peyğəmbərlərimiz, məleykələr gəlif əlin vuruf. Hər kimin qoyudunda əl izi olmasa, ona deellər ki, nəzirin qəbul olmuyuf. Axırıncı çillənin iyirmi günü qalanda olur bu bayram. Onda səməni də qoyullar. Çillə çıxanda, bayram gələndə, o səməniyi çəkillər, səməniyi yaxşıca yolullar. Onu bir qazanda döyüf qaynadellar, olur halva kimi, halveyı nejə görüfsən$_{ı}$, o qayda o səməniyi pişirillər. Onnan son$_{ı}$ra da genə onu nəzir eliyillər: ilim, günüm yaxşı keşsin, uşağım salamat olsun, yerdən urzam gəlsin, gələn il genə həmən səməniyi qoyajam, paylıyjam. Onnan görürsən$_{ı}$ yeddi-səkgiz öyə qaynatdı payladı, nəzirin verdi. Hamı da dedi, nəzirin qəbul olsun.

**7.**

Xıdır Nəvi (Xıdır Elles peyğəmbərinin adıyla bağlıdı) gələndə günortadan buğduyu yüüf qurudor, kirkireynən çəkif qoyut hazırrıyıllar. Son$_{ı}$ra bağdan – bar gətirən ağaşdan öydə olan adamların sayına görə çuvux qırellar, qürbətdə olannarı da yadınnan çıxartmamalısan$_{ı}$. Çuvuğun uzunnuğu 10 santımetir olor. Bu çuvuxların ujuna pambıx doluyuf ərimmiş yağa batırellar. Yağ yaxşı əriməlidi, əyər az ərisə, pambıx yammaz. Bu çuvuxları qoma bağlıyıllar. Buğdanın (qoyutun) ortasına qoyuf yandırellar. Hər kəş əlinə oxloy, ya da cuvux alıf bir-birini qovalıyarax deer:

Hakqı dərvişin,
Çıra qurğuşun,
Kərəməli bavam, huuuuuuuy!

---

[223] Kirkirə – ev şəraitində buğdanı üyütmək üçün istifadə olunan dairəvi daşlar

Bu qaşdı-qovdu qarannıxda, yanan çuvuğun işığında olor kun, Xıdır Nəvi uşaxların oynamağını görüf söyünsün.

Dədə-bavadan qalma çillənin axırıncı adna axşamı Xıdır Nəvidi. Kirkirədə buğda, qardalı[224] üyüdülör. Buğdanın qoorğasını yerə tökməh olmaz. Yoxsa Xıdır Nəvi adamın gözünü tökər, çomağınnan vurar. Üsdə çıra yanmasa, qoyut yiilməz. Öydəki adamlarnan heyvannarın sayı qədir çuvuğu yandırannan sonıra dalına baxmadan çıxersanı. Əyər baxsanı, Xıdır Nəvi səni vurar, gözünü tökər. Xıdır Nəviyə hörmətsizdiy eliyəndə o adamı yaman kökə qoyor. Deellər kin, bu Çöllər[225] Xıdır Nəviyi keçirmellər. Bu Çöllərdən bir nəfər qoorğuyu çeyinə[226] töküf yiyə-yiyə yol gedermiş. Yolda qoorğuyu çeyinnən dağıdıf yerə. Xıdır Nəvi də hersdənif onu öldürüf. Bunnan sonıra taa Çöllər nəsli Xıdır Nəviyi keçirmer.

## 8. ÇİLLƏLƏR

Rəvayətə örə, Kiçih Çillə Böyüh Çillədən soruşor kun, nağayra bildinı? Böyüh Çillə cavaf verer kin, getdim, döyranımı sürdüm, peçin qırağına yığıf gəldim. Kiçih Çillə deer kin, həə, indi mən də gedif peçin içinə töküf gələrəm. Bu bir inanşdı. Qışın söyux keşməsini görkəzer.

## 9-15. ÇƏRŞƏNBƏLƏR

### 9.

Dörd dənə çərşəmbə var. Birinci yalançı çərşəmbə, axırıncı xəvərçi çərşəmbədi. Dinışiyellər[227], xeyir danışana deel-

---

[224] Qardalı – qarğıdalı
[225] Çöllər – nəsil adı
[226] Çeyinə – ətəyinə
[227] Dinışiyellər – xəlvətcə qulaq asırlar

lər, sağ olsun, öydə dinışədim, xeyir eşitdim. Pis danışana deellər nahax getdim onun qapısına mən. O xəvərçidi.

**10.**

Doxsan iki yaşında bir arvat varıydı. Uşağıydım, mənim on-on iki yaşım varıydı. Deerdi ki, bu çərşəmbə heç, bu çərşənbə yalançı çərşəmbədi. Boz ay girmiyif, bax onda çərşəmbə yalançı çərşəmbədi. Boz ay girif, ayın iyirmi ikisinnən sonıra çərşəmbə olanda düz çərşəmbə olor. Xıdır Nəviynən Boz ayın birinci çərşəmbəsi arasındakı çərşəmbə yalançı olor. Nənəm deerdi, dəriyə gederdih su gətirməyə. O birinci olan çərşəmbiyə deerdi, heş vacib də döy. Hələ deer, qoy uşax yatsın. Bu çərşəmbə yalançı çərşəmbədi. Su çərşəmbəsində ağaç əyiler, başını suya salleer su işməyə. Su çərşəmbəsində bir qarı gətirer də inansınnar deyin kalçee[228] ağacın putağına bağleer. Ağaş əyiler ki, su içə, su bədəninə yayıla. Kalçee düz göyə qaldırer. Savax camahata deer ki, mənim kalçam ağacın başına çıxıf. Deellər ki, niyə çıxıf? Deer ki, inanmeyjıydınıız kin, ağaç əyilif, başınnan su içer. Kalçee bağladım ki, görün kü, ağac əyilif başınnan su içer.

**11.**

Cəmlələr yadımdadı, birinci cəmlə, ikinci cəmlə, üçüncü cəmlə, dördüncü cəmlə, axırda da bayram gəley. O cəmlənin biri suya tüşöy, biri oda tüşöy, biri torpağa tüşöy, biri yelə tüşöy – hərəsi birinə tüşöy, onatən da bayrammız gəley, yaz oloy.

**12.**

Bizdə «cəmlə» deellər, biri oda tüşür, biri suya tüşür, biri yelə tüşür, biri də torpağa.

---

[228] Kalça – camışın balası

Neynirsənı elə, martın iyirmi iksi gejə saat on ikidə il təhvil olor. İl təhvil olanda balıx suda çöyrülür, sular bir dəyqə diyanır. Məsələn, Kür çayı diyanır, balıx içində görükür.

**13.**

Bu çərşəmbələr girəndə köhnə arvatdar əlimizə cəm vererdi, su gətirderdi, niyyət tutordular. Deerdilər, bu cəmin gedin birini boş eleenı, birini doldurunı. Gederdih. Ağlımız hasını kəserdi, cəmin birnə suyu doldurordux, gətirerdih əlmizdə. Ya düz gələrdi, ya səf gələrdi. Niyyət tutan özü bilerdi onu.

**14.**

Boz ayın dört çərşəmbəsi olor. Əmə dört-beş ildən bir Boz aya beş çərşəmbə tüşör, onda o çərşəmbeyi yalançı çərşəmbə addandırellar. Birinci çərşəmbeyi muştuluxçu, qalannarını da həqiqi, ya da cəmlələr addandırellar.

Pütün çərşəmbələri biz təmtəraxnan keçirerih. Çərşəmbələrdə ərişdə aşı pişirellər, qapı pusmuya gedellər, niyyət tutollar. Su gətirellər. Su gətirməyin üsdündə qız-gəlinnər bir-birlərinnən bəhsə girerdilər. Obaşdan oyanıf hamıdan tez suya çatmax isdiyirdilər. Əllərində soğan, sarımsax, kömür götürüf suya salam verellər:

– Salaməlöyküm, a su, əlöykümsalam, a su.

Üş dəfə bunu deyənnən sonıra soğanı, sarımsağı, kömürü suya atıf "mən ajılığımı, qaralağımı sanıa verirəm, ay çay, sən də əvəzində manıa abaddıx, şirinnih gəti" deef çaydan su götüröllər, əllərində qum, bir az da su çıxardıf öyə gətirer, mallarının, kartovunun üsdünə səpellər kin, bin-bərəkət gətisin, həmən ili ruzuları artıx olsun.

**15.**

Çərşəmbələrdə cavan uşaxlar kosa bəziyillər, saznan-balabannan bir dəsdə düzəldif qapı-qapı gəzif kosa payı yığellar. Qapıyı döyöllər, qapıya kim çıxsa, oxuyollar:

Beyjə nə gejəsidi?
Noyruz gejəsidi.
Verin, mənim payımı.
Verənin oğlu olsun,
Vermiyənin kor qızı.
Təndirə tüşsün,
Qırmızı pişsin.

Çərşəmbələrdə təzə gəlini qonax çağırellar, ağsakqallar küsülüləri barışdırellar.

## 16. NOVRUZ FALLARI

Bu fala ilin axır çərşənbəsi baxıllar. Özü də bu fala qızdar baxa bilələr. Qız sakit, heş kimnən danışmadan ləyənə su tökür. Əlinə bir böyüh güzgü alır. Həmin güzgüdə Aya baxır. Qız sevdiyi oğlanın şəklini görərsə, bu, onun xeyrinədi. Deməh, təzə il onun üçün uğurlu olajax, mətləbi həyata keçəjəh. Pütün bu vaxdı qız danışarsa, fal düz çıxmaz.

## 17. BƏXTİ BAYRAM

Baxdı bayram Noyruz bayramında keçirileydi. Qızdar öydən yağ, əriştə, yumurta, düyü götüröydülər. Aşağıda çayın qırağında yekə söyüd ağacı varıydı, onun divində aparıf qazanı quroydular, orda aş pişireydilər, özdərinə yelləncəh quruf yelləneydilər. Yalnız qızdar oloydu. Oynoydular, pişirey-çüşüröy, yiif-içif çıxıf gəleydilər. Bizim vaxdımızda belə oluf. "Baxdı bayram" deerdilər adına. Ona görə "Baxdı bayram" deermişdər ki, qızdarın hamısının baxdı açılsın.

## 18. AYIN TUTULMASI

Ay tutulanda nənəm rəhmətdih əlimizə bir qazan, bir dənə də taxda qaşıx verərdi ki, qazanın g...nə taxta qaşıxnan döyünı, Ayın üzü açılsın. Ayın üzü tutulanda heş də yaxşı hadisələr olmur. Ona görə də biz taxda qaşıxnan qazanın g...nə vuruf Ayın üzünün açılmağını gözdüyürdüh.

## 19. TƏKNƏDƏ KÖKƏ SAXLAMA

Köhnədən çörəh salırdılar. Gərəh hər dəfə balaca kökə də saleydını. Çörəyi heş vax kökəsiz pişirməzdim. Çörəh kutardımı, dalınnan kökə salerdım. O kököyü balaca uşaxlar yiirdilər, ya da ən axırda yiilirdi.

Təhnəmizə qoyurdux kin, bu kökə bizə bərəkət versin, öyümüz urzalı olsun. Həməşə kökəni təhnənin dal tərəfinə qoyardıx. Çörəh yiilir-yiilir, axırda kököyü çıxardırdıx. Kökəni pişirməsəh, olmaz. Məleykələr həməşə ojağın, suyun qırağında hərrənellər. O kököyü ona görə pişiririh kin, çörəh kutaranda məleykələr tullana-tullana sajın qırağında hərrənellər ki, görəh kökə pişirillərmi? Əgər pişirmersənısə, qarğış eliyillər ki, səni görüm kökə tutan əllərinı heş var olmasın. Qarğış eliyə-eliyə, ağlaşa-ağlaşa gedellər.

## 20. HƏMZAD

Çiy yumurtuyu suyun içinə, cəmin içinə qoyurdular. Sonıra da doğan arvadın kravatının altına çiy yumurta qoordular ki, zahıya həmzat-zad keşməsin.

## 21-22. QIRX TÖKMƏ

### 21.

Uşağın qırxını töhməhdən ötrü qırx qaşıx suyu, ya xırdaja daşı sanıyıf uşağın başına tökörsən$_{ı}$. Deersən$_{ı}$: Qürbətənə illallah. Allahın məsəlli əla Muhamməndən və ali Muhamməd. Nəfəs qüsulu tökörəm.

Xaşılmı, quymaxmı pişirer, ya başqa bir yiməh qayırer, gələnə yidirdersən$_{ı}$.

### 22.

Zahının qırxını tökəndə balaca bir oğlan uşağını göndərəllər çaydan qırx dənə balaca daş gətirsin. Daşı tökəllər bir sapılcıya, üsdünnən ağzına qədər də su tökəllər. Zahını çimdirənnən son$_{ı}$ra həmin suyu onun başınnan tökəllər ki, pak olsun.

## 23-29. BƏDNƏZƏR

### 23.

Bismillahrəhmanirəhim tufarımız,
Əlhəmdüllillah hasarımız.
İndi girdih hasara,
Hasar döndü mismara.
Kilidin verdih Cabbara,
Həzrət Əli qonağımız,
Allahdı pənahımız –

Bunu deyib üfürürsən$_{ı}$, həyət-bacaya pis göznən gələn olmur.

### 24.

Gözü pis olan, bədnəzər adamnan qorunmaxçün onun paltarınnan bir qırıx və yaxud onun əkqavısının içinnən bir qırıx götürüf yandırmax lazımdı ki, onun gözü heş kimə dəy-

məsin. Bizim kəntdə Məmətə addı bir kişi varıydı. Gözdən o qədər pisiydi ki, kimin qavağına çıxardısa, həmin gün o adamın işi çətinə tüşərdi. Və yaxud kiminsə qoyununu, malını, toyuğunu görüf nə qədər toyux-cücənı var, desəydi, həmin gün o mal-qara, toyux-cücə öləjəydi. Onu kimsə görəndə həmişə qavağına üş dəfə tüpürərdi, gözü dəyməsin diyə.

**25.**

Bizim bir inəh vardı, ağ, yekə, buynuzdarı da şiş. Nəsə, apardım otardım da, gətirdim. Bir arvat varıdı, Təhməzin anasıydı. Allaha and olsun, inəyin də yelni[229] yerə dəyir. Anıarı tərəfdən gələndə belə inəyə baxdı da, dedi ki, ayə, bunun yelninin südü bunu yandırmermı? İnan Allaha, inəh heş iyirmi metrə gəlmədi, bəlkə, daa az. Maşın gəlirdi, o inəh hüyuxmadımı[230], özünü atdı setkadan. Nətəri tulladısa özünü, tikənni məfdil vardı, tikənni məfdilə keşdi, onu gördüm kün, məməsinnən qan qarışıx süd fışqırer. Məfdil məməsinin birini təmiz yarmışdı, birini az yaralamışdı. Gətidilər inəyi burda yıxdılar yerə, Kazım irəhmətdih tihdi, apardıx ətdiyə verdih. Dörd yüz kilo ət verdi. Var, gözdəymə var.

**26.**

Yol üsdündə bir yekə daş varmış. Qoymurmuş bu yoldan keşməyə. Deellər, bir arvat var, ona deyinı gəlsin, yaman pis gözü var. Qarını gətirillər. Baxıf deer:

– Pah atonnan, nə yekə daşdı.

Bu vax daş üş yerə bölünür. Sonıra bir ayrısı gəlir, baxır deer:

– Pah atonnan, göz yiyəsi, belə göz olar?

Bu deəndə də o daşı üş yerə bölən bədnəzər qarının gözdəri tutulur.

---

[229] İnəyin yelni – inəyin süd vəzisi

[230] Hüyuxmaq – ürkmək

## 27.

Bədnəzərdən qorunmaxçün üzərrih, it tükü, pişih tükü, soğan-sarımsax qavığı yandırıllar. Adama iylədillər. Bədnəzər, paxıllıx çıxıf geder.

## 28.

Nəhrəə göz dəyməsin deyin nəhrənin altda balta, pıçax tulloyrux. Pis baxan gözdərə batsın, nəvlem, kəssin deerih. Pis gözü an$_{ı}$arı aparsın, ötüşdürsün.

## 29.

Yeddi qapıdan çöp yığıllar ağrıyana. Kim ağrısa, molla buyuroy ki, yeddi qapıdan yeddi çöp götür gətir, yandır da, iylət.

## 30-32. ÜZƏRLİK

## 30.

Uşağı gözdən qorumaxçün itin p...nu, pişiyin tükünü bir parçıya bağlıyıf uşağın balıncının altına qoyursan. Uşağa üzərrih salırsan$_{ı}$ və deersən$_{ı}$:

Üzərrihsən$_{ı}$, havasan$_{ı}$,
Azar-dərdə davasan$_{ı}$.
Balama dəyən gözdəri
Bircə-bircə ovasan$_{ı}$.

## 31.

Üzərrih ən müqəddəs bitgidi. Onu hər hansı bir adamın başına fırrıyıf odda yandırırsan$_{ı}$, həmin adamı bədnəzərdən qoruyur. Həm də onun tüsdüsü baş ağrısını kəsir. Üzərriyi adamın başına fırrıyıf deersən$_{ı}$:

Üzərrihsən$_{ı}$, havasan$_{ı}$,
Hər bir dərdə davasan$_{ı}$.

Balama dəyən gözdəri
Bircə-bircə ovasanı.

Həmin adamın adını çəkif bu sözləri deməlisənı. Üzərriyin meyvəsini üsdünıdə gəzdirsənı, o da səni bədnəzərdən qoruyar.

**32.**

Üzərrih fırrıyanda bu sözdəri deersənı:

Üzərrihsənı, havasanı,
Min bir dərdə davasanı,
Sən ki bu evdə varsanı,
Qada-bala sovarsanı.

***

Çıxdım Savalan dağına.
Dedim: “Ya Məhəmmət, ya Əli”.
Dedi: “Nədi, biçarə?”
Dedim: Dərdimə eylə çarə.
Üzərriyim partdasın,
Yaman gözdər çatdasın.
Qohum olsun, yad olsun,
Pis gözdər odda yansın.

## 33-39. QORXULUĞU GÖTÜRMƏ

**33.**

Öyün yanında hündür bir yer varmı? Helə bil o qazılır ki, adam ordan rahatca girif, o başdan çıxsın. Elə bir çətinniyi yoxdu. “Ağırrığım-uğurruğum hamısı torpaxda qalsın” – deersənı. Bir nəfər çəkif çıxardır, o birisi oxuyur o sözdəri. O qədir eləmişəm ki. Kömürün də üsdünü cızellar, yumurta, çörəh də qoyullar ora. Helə bil adamı ordan üş dəfə belə keçirif, sonıra çəkif çıxardıllar dana. Ancax sözdəri danışa-danışa deməy olmaz,

gərəh ürəyində deyəsən. Bunnan qorxuluğu adamın canınnan çıxardırsan$_{ı}$. İnanıllar ki, torpax ağırrığı, azar-bezarı götürür.

Orda başqa şey ola bilməz − yumurtadı, çörəhdi, kömürdü: adamı torpaxdan keçirənnən son$_{ı}$ra üçünü də bir eliyillər, çıxacax yerə qoyullar, qalır torpağın altında. O qazdığımız yeri möhkəmcə doldururux. Boş qalmasın dana. Belə eliyillər ki, qorxulux getsin, ağırrığ qalsın torpağın altında.

Eyni vaxda, eyni gündə başqa adam üçün yerdən çəhmə eləməh olmaz. Gərəh başqa vaxdı, başqa yerdə olsun. O qazılan yerdən başqasını keçirməh olmaz. Necə adam olur olsun, hər kəsinki gərəh ayrı olsun.

**34.**

Qorxan adamın qorxuluğunu götürməhçün onun paltarını kürəh tərəfdən cırıllar. Kürəyinə xoruzun qanınnan vurullar. Bu da onun qorxuluğunu götürür.

Yarım isdəkan su götürürsən$_{ı}$, suyun içinə yeddi dənə kibrit çöpünü yandırıf atırsan$_{ı}$, bir də qapının dəsdəyinə həmin sudan götürüf tökürsən$_{ı}$, qapının dəstəyinnən axan suyu qorxan adama içirdirsən$_{ı}$. O da qorxuluğu götürür.

**35.**

Üzərrihdi, ilan qavığıdı, dağdağandı, soğan qavığıdı, it tüküdü, pişih tüküdü – bax bunnarın hamsını bir yerdə yandırıf qorxmuş adama iylədellər. Deellər: “Pısmıllahırəhmanırəhim, qorxun bunnan getsin”.

**36.**

Uşağın, ya böyüyün qorxuluğunu götürməh üçün yatanda nəzih pambığı didif qoyullar da, pışqeyi[231] çəkellər, yandı-

---

[231] Pışqa – rus dilindəki spiçka sözünün şivə variantıdır.

rellar. Gözdööllər, yanan kimi getdi o başdan çıxdı, deellər: "Pısımillahirəhmanirəhim, qorxunıu, xatanıı-balanıı bunnan kutareyrım".

**37.**

Kuşburnu[232] ağacının, çıvığının birini puçaxnan kəsməəsənı, puçax bulamaasanı, qırasanı, üş dəfə uşağın başınnan sala, əəğınnan çıxardasanı. Bax o da qorxuyu götürməyə çox yaxşıdı. Dəəsənı: "Xatanıı, balanıı, qorxuluğunıu bunnan götürörüm". Onnan qorxulux gedey.

**38.**

Kökə qayırıf, sancağa keçirif də uşağın üsdünə asellar, qorxmasın yatanda. Qorxmasın deyin düymə kimi göycəyh yumruloyullar, onun da içini dəlellər, sapa keçirif asellar üsdünə.

**39.**

Tüfəngin çiyinnən asılan yekə qayışı var. Tüfəngin qayışınnan uşağı üş dəfə keçirirsənı, bir dəfə də tüfəngi atırsanı. Tüfəngi əlində saxlıyırsanı, uşağı da əlinə alırsanı, bu qaydaynan keçirirsənı. Bir, iki, üç. Tüfəngi atırsanı ki, cin-şeytan getsin tüfəngin səsinə.

## 40. İLAN AĞZI BAĞLAMA

İlanın dilini-ağzını bağlamaxdan ötəri bir sapı götüröllər, deellər:

İlan ilan ahudu,
İlannarın şahıdı.
Kəlbəlada küş-küşü.

---

[232] Kuşburnu – itburnu

Bağladım ilan dişi.
Dəyməsin, dolaşmasın,
Bənd oluf ilişməsin.
Həzrət Süleymanın pıçağı,
Fatma nənənin qurşağı.

Sonıra sapı üflüyə-üflüyə bağlıyıllar, düyün vurullar. Bunnan da ilanın ağzı bağlanır.

## 41. QURD AĞZI BAĞLAMA

Mal-heyvan çöldə qalanda qurdun ağzını bağleyırıx. Deerih:

Pismillah,
Pəsmihəsən qulfu Allah,
Qulfu Allahdan bir qalay aparrım,
Oanımız həsər, buanımız həsər,
Əlinin qılıncı kəsər,
İmamlarımızın möhürnü basar,
Yamannarın yolnu kəsər,
Füröy qurdun-quşun ağzını bağladım.

Deef, dörd yanımızı fülöyrüh. Yanı qurd-quş gəlməsin heyvana.

## 42. DİL-AĞIZ BAĞLAMA

Birinin ağzını bağleyıllar, qıfıla salellar. Qıfıla salınan heş bir vax açılmır. Çünki aparıf o qıfılın açarın çaya tulloyullar. Daa o getdi ömür boyu.

Eləsi də var, o qıfıla imkan yoxdu. Yazey-pozoy, haçarı saley də, qıfılleyır. Baxdı qıfıla tüşən deer ki, helə bil dilimi-ağzımı bağleyıflar, nıtqımı bağleyıflar. Nıtqı bağleellar dırnağnan, başının saçınnan, paltarınnan. Yığıllar hamısını bir

yerə, düyün vurullar. Düyünə də nə qədər pul isdiyillər ki, ver açem. Ona da güjümüz çatmeyir.

## 43-44. QURD YAĞI

### 43.

Qurt yağı var. Birinin üsdünə vurallarsa, ömründə imkan yoxdu. Üzümüzdən irağ olsun. Bir qadının üsdünə qurt yağınnan vurullarsa, yoldaşı helə bilər, qurt görür. Uzağ olsun, helə yolnan ayilələri dağıdellar.

### 44.

Onu deellər ki, canavarın bir tişini, iki dənə qarpajax tişdəri var – alt-üsd, onu götürüllər, bir də onun yağınnan götürüllər. Molluya yazdırellar, kimi isdəməsənı, onun paltarına sürtdünımü, kutardı. Daa ayilə pozulmalıdı, qadın kişinin, kişi də qadının gözünə pis görünəjəh. Bax bunu belə eşitmişəm.

## 45. TAS QURMA

Molla Musa vardı. Gətirdi tas qurdu. Tasın qırağında üş gün bizi oturtdu, bir xəsdə oğlan vardı, duaynan o oğlanı sağaltdı. Bayavoy da uşağıydı, vergi verilmişdi, nədi, möhgəm xəsdələnmişdi. Molla cinnərə əmr elədi ki, oğlana toxunmayını. Onun ətrafına cız çəkdi. Oxudu dedi, bu cızdan içəri heş kəs girə bilməz. Cız çəkdi, kimnən danışer, nə danışer, bilmirih. Əyağüsdə qoydu oğlanı. Dedi, aparını, iki sutka yatajax, üçüncü sutka ayılajax. Onnan sonıra heş kəsə toxunmuyjax. Hindi bu saat sappasağlamdı, oğlu-uşağı, evi-eşiyi var.

## 46. YEL XƏSTƏLİYİ

Əyaxda yel olanda bu duanı oxuyallar ki, xəsdəlih çəkilif getsin.

Uxurunc, uxurunc, uxurunc,
Dəyirman pərindəsən$_{ı}$,
Yol kənarındasan$_{ı}$,
Səni and verirəm
Yüz iyirmi dörd min
Peyğəmbər eşqinə
Əldən qoy.
Əldən qoymasan$_{ı}$
Yüz iyirmi dörd min
Peyğəmbərin ruhu səni tutsun
Uxurunc, uxurunc, uxurunc.

## 47-49. KÜLƏK KƏSDİRMƏ

**47.**

Yel əsəndə yüyürürdüh, gedirdih.
Gəlin gedəh, tez taxılımızı yelliyəh,
Heydər, Heydər, Heydər, Heydər, – deyif kışqırerdıx.

Guya Yel babamızın adı Heydardı. Ona Yel baba da deerdih. Belə-belə deef yelliyirdih, son$_{ı}$ra da xəlbirriyirdih.

**48.**

Yel çox əsəndə deerdih:

A damarın$_{ı}$ kəsilsin!
A qənədin$_{ı}$ qırılsın!
Allah səni əsdirməsin!
Allah kəsmiş!

**49.**

Möhgəm yel əsəndə hamı deer ki, yel kəssin, bəlasın bizdən əsirgəsin. Kimi qurvan kəser, əlacı olan kəser, payleer. Kimi halvadan payleer, nəzir deer ki, bu xatadan-bəladan ötü-

şəh. Kimi deer, san$_{ı}$a Quran oxudajam, fəqirə-kasıva, aja çörəh verəjəm, bizə yazığın$_{ı}$ gəlsin, yel kəssin.

## 50-54. YAĞIŞ, DOLU KƏSDİRMƏ

### 50.

Deerdih ki, Allah, yağış yağdır, qadan$_{ı}$ alım. Godu-godu hərriyirdih. Çırpını qırmızı bəliyirdik. Gərdəyfason bağlıyırdıx ki, yanı qırmızıdı. Gedirdih, gəzdirirdih. Deerdih:

Godu-goduyu gördün$_{ı}$mü,
Goduya salam verdin$_{ı}$mi?
Godu burdan keçəndə
Qırmızı Günə salam verdin$_{ı}$mi?
Verənin oğlu olsun,
Vermiyənin bir kor qızı olsun.

Bunu oxuya-oxuya gedeydilər.

Oxuyana biri alma tulluyurdu, ya bir qaşığ yağ, qaymağ verirdilər. Camahat onu verirdi ki, yağış yağsın.

Yağış kəsmiyəndə də «Godu-godu» deef tüşürdüh qapılara. O sahat da kəsirdi. Yağış kəsmiyəndə camahat qarğış da eliyirdi: “Sənin görüm kökün$_{ı}$ kəsilsin!”

### 51.

Əgər dolu yağarsa, evin ilk öyladı dolunu götürüf dişdəməli və deməlidi:

Mən anamın ilkiyəm,
Ağzı qara tülküyəm.
Mən kəsdim,
Sən də kəs.

Dolu kəsərmiş.

**52.**

Çən sakqızı[233] deellər. O vaxdı yağış yağanda yağış kəssin deyin, onnan yığey da sajda qoyuroydular.

**53.**

Dolu duası var. Onu yazdırıf hansı səhrada basdırsan$_{ı}$, oryu, o teritoryanı dolu tutmaz. Onu basdıranda gərəh dinif danışmıyasan$_{ı}$, yoxsa xeyri olmaz.

**54.**

Dolu yağanda su atellar, deellər Allah, suya dönsün, Allah, suya dönsün. Bir quruşqa su atellar eşiyə – dolunun qavağına. Həə, bunu ata-bavadan belə eşitmişim.

## 55-57. YAĞIŞ YAĞDIRMA

**55.**

Mən dağdeydım. Uşağıydım. Yağış yağmeydı. Dedilər, əə, büyün yağajax. Yağmağın heç adı-sanı yoxuydu, əlaməti yoxuydu. Qışdaxdan dağa gedənnər dedilər, əə, Hasanı tutdular, çaya saldılar. Hasan seyidiydi, seyid öylədiydi, dədəmin dayızadələriydi. Başın$_{ı}$a dönöm sənin, yağdı nə yağdı, sel suya getdi. Bax, o mənim yadımdadı. Onda Hasan da uşağıydı.

Yadımdadı, dedilər, quraxlıxda kəndin camaatı pul yığıf, qurvan kimi bir dana alıf qavırsannıxda kəsiflər. Axşam yağıf.

**56.**

Yağış yağmıyanda, quraxlıx olanda camaat müsəllaha çıxer. Onun namazı var, orucu var. Yığılerdılar, bir-iki heyvan, ya da mal alerdılar. Özü də müsəllaha gedəndə gərəh təmiz ge-

[233] Çən sakqızı – çənli, dumanlı havalar uzun çəkəndə dağ torpaqlarında əmələ gələn qara rəngli saqqızabənzər maddə

dəsən$_ı$. Apardıxları heyvanı Allah yolunda qurvan kəserdilər. Onun bir tikəsin də evə gətirməzdilər. Elə orda hamısını paylıyardılar. Yekə bir dağın başına çıxerdıx. Namazın qılerdılar, niyyət eliyirdilər ki, orucun tutajıyıx. Aradan bircə sahat keşməzdi gördün$_ı$ ki, bir qarayarpax yağış[234] yağdı, gəl görəsən$_ı$.

**57.**

Mənim iki dosdum vardı. İkisinin də adı Abbasıydı. Biri molluydu deyin, adına Molla Abbas deerdilər. Bir il genə quraxlıx olur. Molla Abbas bir dua yazer verer Abbasa, deer apar sal suya, kəlmeyi-şəadətini oxu, qayıt gəl. Deer ki, gəlif evə çatmamış bir də gördüm ki, bir yağış yağdı, gəl görəsən$_ı$. Yağışın kəsməsi üçün də müsəllaha çıxerdılar.

## 58-60. VURĞUN VURMA

**58.**

Sudan keçəndə vurğun vuror adamı. Ona görə sudan keçəndə "Bismillah" deməh lazımdı. Qarannıxda da, tək bir meşəlihnən gedəndə də vurğun vuror adamı.

**59.**

Vurğun möcüzə bir şeydi ki, gözə görünməz. O, ən pis qarğışdı. Birinə ajığı tutanda deellər ki, səni vurğun vursun. Adicə qapında, həyətində hərrənersən$_ı$, başın$_ı$nan da vuror, qolun$_ı$nan da vuror. Ən çox şər vaxdı vuror. Şərnən darın arasında[235] vuror.

**60.**

Mənim bir rəhmətdih dayım varıydı. Geder Gədəbəyin yanında bir bulax varıymış, əyilif bulaxdan su içən kimi hə-

---

[234] Qarayarpax yağış – aramsız yağış

[235] Şərnən darın arası – qaranlıq düşən vaxt, şər qarışan vaxt

mən suyun üsdündə vurğun vurmuşdu. Qarannığıymış, şər vaxdı, əyilif də su içif. Harava da qoşulu.

## 61. ÇOR XƏSTƏLİYİ

Bitgiyə tüşür çor xəsdəliyi. Məsələn, qartof yetişən vaxdı, tam yetişmiyif, yenijə kök atıf saçaxlıyanda baxırsanı ki, kartova çor tüşdü. Qartovun yarpaxlarında, şaxında qaralma eder. Uje dava-dərman eleersən, diyandırır. Çor xəsdəliyi deerih muna. Günnən-zaddan olor. Uzun müddət çən, çisəh, yağış, buluddu keçir hava. Sonıra da ardıcıllıxnan hava qızmar keçəndə bu yerdən torpağın buğu da qalxır, istilih verir. Eşihdən də şüa vurur. Yarpax körpədi də, yanajax. Çor ən çox belə vaxdar olor.

## 62-65. TOY ADƏTLƏRİ

### 62.

Əlli-altmış il əvvəlin toyları indikilərə heç oxşamır. Tamam başqa bir aləmiydi. Oğlanın bəyəndiyi qızı ad eləməhçün hörmətli ağsakqalla qız evinə gedirdilər. «Hə» cavabını alannan sonıra elçi tüşürdülər. O zaman da oğlan-qız çox nişannı qalmerdılar. Kimin qulfunnan[236] nə çıxerdısa, qız evinə onu da aparerdı. O zaman indiki kimi ağır şərtlər yoxuydu. Donnux aparerdılar, kəstum aparerdılar. İndi don da, o dövrün kəstumu da ləğv olunuf.

Toylar daha çox payızda olurdu. Əsas səbəbi də oydu ki, əkin-biçin kutarsın, camaat bir yerə yığışsın, arxeyınnığ olsun. Yayda da toylar olurdu. Toylara həmişə aşıx gəlerdi. İndi xanəndə gəler daha çox. O vaxdı toylar günortuya doğru başdıyıf axşamatan kutarırdı. Aşıx çalıf-oxuyurdu; mağarın ortasında ora gederdi, bura gederdi, nağıl deerdi, nəmər yığer-

---

[236] Qulfunnan – qəlbindən

dı. Toyun ən şirin vaxdı yiif-içənnən sonıra camahatın aşığı oxutmağı olurdu. Çoxlu sifariş vererdilər. Aşığa nağıl danışdırerdılar. Aşıx sonda bəytərifi eleerdi. Toylarda adamlar bir-birini başa tüşürdü. Ağlıma gəlmer, tək-tük hallarda toylarda dava tüşürdü. Qavax ağsakqal vardı, qarasakqal vardı. Adamlar bir-birin gözdüyürdülər.

**63.**

Toylarda aşıx oluf həmişə. Bir cür yiməh verilerdi. Surfaya arax qoyulmurdu. Day indiki kimi mer-meyvə, quş südünəcən hər şey olmurdu. Qara zurna çalınerdı. Gəlini atnan gətirerdilər. Üç atın hər birində sağdış, solduş, ortada da gəlin olurdu. Bəy atnan qavaxda gederdi. Sağdış-solduşun biri oğlan, o biri qız olurdu. Qız gəlin tərəfdə gederdi. Toylarda ən çox "Yallı" oynuyurdular. Əlləri çeçələ barmaxla bir-birinnən tutmax, əllərdə də yaylıx. «Vağzalı», «Ceyranı» da oynuyurdular. Toylar gejiyə kimi başa çaterdı. Onnan sonıra aşıx başdıyırdı. Aşıxlar Koroğludan deerdilər, başqa dastannarı danışerdılar. Hamı da maraxnan oturuf qulaq asırdı.

**64.**

Toya yüz əlli adam çağırardınısa, onnan uzağı beş-altısı gəlməzdi. Gələnnərin yarısı qadın, yarısı kişi olordu. Toy yiyəsi toydan əvvəl adamları çağırmağa bir nəfər tutordu. O da qapı-qapı gəzif adamları çağırerdı. O vaxdı indiki kimi dəvətnamə yoxuydu.

Mağar üçün lazım olan dirəkləri meşədən gətirerdilər. Mağar dədə-baba qaydasıyla qurulordu.

Toylarda bozartma, dolma, bir də kartof soyutması olordu. İndi toylarda dolmanı ləğv eliyiflər. Toyda yiməh də, musiqi də bir yerdəydi.

Qavaxlar oğlan tərəfi qız evinə pul vererdi, qız tərəfi də balasına cehiz vererdi. Kimin nəyə imkanı çatırdısa, vererdi. Gəlinin başına xam şal atılmalıydı. Atılmasa, qızın anası vermerdi balasını. Bir dəfə bir qızı gəlin aparanda başına adi şal atıflar, anası qoymuyuf ki, qızım ölmüyüf ha, başına kəfən atırsınıız. Məjbur oluf gediflər, xam şal alıf gətiriflər, onnan sonıra qızın anası balasına xeyir-dua verif. Qırmızı xam şallar vardı, gəlinin başına aterdılar, aparerdılar.

Gəlini günortaya kimi gətirerdilər. Daa gəlin gətirməh saat birdən anıarı keşmirdi. Özü də gəlin qırmızı gərdəh arxasında oturordu. Yaxın məsafə olanda gəlini əyaxnan, uzax yerdən isə atnan gətirirdilər.

Gəlinin üzünü göstərməh olmazdı. Gətirerdilər, üzü örtülü, gərdəyin arxasına keçirerdilər. Gərdəhsiz gəlin olmazdı. Özü də bunnan qavağ oğlan qızı görmördü. Gedif alırdılar, ancax oğlan gəlini evlərində görə bilerdi.

Gəlinin əyağının altında ya bir istakan, ya da bir nəlbəki qırerdılar, ya da qurvan kəserdilər. İndi bu saatcana altı dənə, yeddi dənə boşqav düzöllər. Bu boşqavları gəlinin əyağının altında qırellar.

Toylarda mütləq şax bəzədilirdi. Şax ağaşdan olurdu. Şaxın üsdünə kanfet, şakalad asırdılar, təzə paltar bağlıyırdılar. Şaxı əlində tutana nəmər verirdilər.

Bəyin qardaşdığına lələlik deerdilər. Ancağ indi «sağdış-solduş» deellər. Gəlinin də bajılığı olurdu. O da gəlinçün böyüh bir şax bəziyirdi. Xələti bəyin lələliyi verirdi.

O vaxdı üçaş[237] vardı, indi yoxdu. Toydan üş gün sonıra qız evi bəy üçün beçə pişirif aparırdı.

---

[237] Üçaş – üçüncü günün aşı

## 65.

Toylarda şax bəzəneydi. Şaxı ən çox bajılıx bəzeey. Şaxın üsdə köynək, şirniyyat, ətir qoyuloydu. Bir toyda gördüm, şaxa göyərçin də bağlamışdılar.

Şax şirinnih deməhdi. Camaat döyrə vuroydu, şaxı oynadeydılar. Məqsəd şaxı qardaşdığa, yəni sağdışa, lələyə satmağıydı. Əvvəlcə nəmər kimi cüzi pul çıxardıf vereydilər, son$_{ı}$ra bir az artıreydılar, son$_{ı}$ra bir az. Şaxı mümkün qədər çox oynatmağa çalışeydılar. Əksər yerrərdə qardaşdıx şaxı alannan son$_{ı}$ra bəyə hədiyyə eleeydi. Gözəl bir adətiydi. Toyun ən maraxlı yeriydi. Bəzən şaxın on kiloya qədər çəkisi oloydu, bəzən dörd-beş kiloya qədər. Baxeydı şaxın üsdə qoyulan əşyaların qədərinə. Şax ağaşdan hazırraneydı. Hər usda bunu düzəltməyi bajarmeydı. Əşyalar şaxın budaxlarınnan asıleydı. Bu ağırrıxda şax əlində oynamağı da hər adam bajarmeydı. Şax sdolun üsdünə qoyanda rahat dursun deyə dayirəvi oturacağın – taxta parçasının üzərində quraşdırıleydı. Bunnan yuxarıda budaxlar pillə-pillə müxtəlif istiqamətdərə şaxələneydi.

# 66-69. YAS ADƏTLƏRİ

## 66.

Yasda adət beleydi. Ölünü hər adam yuya bilməz. Adam var, ölüyə yaxın gedə bilməz, çəkinər. Suyu qızdırellar. Gərəh suyu mis qavda qızdırasan$_{ı}$. Son$_{ı}$ra bu suynan ölüyü yuyasan$_{ı}$. Öləni urvatdı[238] basdırmax lazımdı.

Bizdərdə ölünü öldüyü günü basdırellar, saxlamax olmaz. Ölünü basdıran günnən ta qırxına kimi onun üsdünə getməzdər. Səvəvi odu ki, ölünün urfunu narahat eləməh olmaz. Ölünün urfu rahat olmalıdı qırx gün. Qavırsannıxda ağlamağ

[238] Urvat – hörmət

olmaz bu qırx günü. Ancağ evdə ağlamağ olar. Bu qırx gündə kişilər gedəllər, ölünün başdaşını düzəldəllər. İndi də elədi.

Qırxı oldumu, səhər-səhər gedellər qəbrinin üsdünə, yiməli şeylər – kökə, halva və başqa şeylər aparellar. Orda ağlaşma olur, apardıxlarınnan qavrın üsdünə qoyullar, yan-yörədəkilərə payleellar. Qayıdıf evə gəlif bir də ağlaşma qurollar, saat birdən sonıra da ağlaşmadan çıxellar.

Dörd adnanın[239] hər birində yığışallar, ağlaşallar, ehsan verəllər.

Qavaxlar ölənin sinəsinə axşamnan güzgü qoyurdular, taa basdırılana kimi. Evdən ölünü götürəndə yerinə tez daş qoyurdular. Sonıra o daşı ölünün dalıycan aterdılar ki, bir də öydən ölü çıxmasın. Ölüsü ölən çox ağlıyanda kürəyinnən vurullardı ki, Allah səvir versin.

Cavan adam öləndə çox vaysınırdılar. İndi də elədi. Mənim qardaşım öləndə musiqiynən götürdülər. Öylənməmişdi, inistutda oxuyurdu. Vəsiyət eləmişdi ki, həmi toyum olsun, həmi də vayım.

Qavaxlar da cavan adam öləndə zurna çalıflar, şaxını bəziyiflər. Yasda saz olmaz deellər. Ancax qara zurna olar. Cavan adamı basdırmağa aparanda zurnanın səsinə ölünün dalıncan tərs oynuyallar. Onun ayrıca oynu var. Gərəh fırrana-fırrana oynuyasan. Yaşdı adamnan bağlı o qədər yanmellar, çünki kamın alıfdı.

Ölü basdırılan gün onun torpağınnan bir oyuc gətirif ölü yiyəsinin arxasınnan xəvəri olmuya-olmuya vurardılar. Bunnan da ölənin yaxınnarı rahatdanardı.

O vaxdı halveyi çox adam yimirdi. Ölünün üçündə halva pişirerdilər, kətdə hər öy başına adam sayıynan göndərerdilər.

---

[239] Adna – cümə axşamı

Halvanı pişirməynən iy çıxarellar. Çünki halvanın iyi var. Halvanı pişirellər ki, qəbirdə uruf[240] qoy şad olsun. Ölünün qırxında da halva çalellər, aparellar, ölünün üsdündə payleellar. Yuxanı saj boyda pişirellər, hamıya çoxluca payleellar. Halva-yuxanın öylərə paylanmasının səbəbi məzəndəydi[241], göndərirdilər ki, öləni yada salsın.

Yasa qannıpıçax gələrdisə, ona dəymerdilər. Ölü yiyəsi, ağsakqal tafşırerdı ki, bir adam ona dəyməməlidi. Həmin adam barışıx olmasa da, gələrdi.

**67.**

Ölü tüşən gün ölü yiyəsi hər öyə bir püküm halva paylıyardı. Deməh, ölünün yeddisində kətdə neçə öy varsa, hərə bir qav xörəh pişirərdi. Məsələn, sənin varın var, bozartma pişirmisən, mənim yoxumdu, doyğa pişirmişəm. Biri bir qav qatıx gətirer, biri borş gətirer, biri vermeşil, makaron gətirer. Bizim kət otuz öyüydü. O otuz öydən otuz cür xörəh gətirerdilər.

Onun hamısını gətirif böyüh surfada düzərdilər. Elə eliyirdilər ki, mənim kimi kasıva ət xörəyi tüşördü, borş imkannı adama. Məksəd oydu ku, kasıf güjdü yiməh yisin.

Qırxında da genə halva verirdilər. Pul yığmax söhbəti də yoxuydu. Qırxa qədər hər gün iki adam nööbəynən yas yerinə gederdi ki, ölü yiyəsi tək qalmasın. Ölü yiyəsinin başını qaterdılar ki, fikir eləməsin.

**68.**

Hər hansı bir kişi, qadın ölümünə yaxın, yəni can verəndə kiminsə intizarını çəker. Oğlu, qızı, yaxud uzax bir yerdə yaşıyan yaxın qohumu gəlif bu adama qovuşana kimi can verə bilmer, yəni canını tafşıra bilmer. Ona görə də yaşdı adamlar in-

---

[240] Uruf – ruh

[241] Məzəndəydi – adət idi

tizarını çəkdiyi adamın şəklini can verə bilmiyən adamın sinəsinin üsdünə qoyullar və bir-bir həmin adamların adını çəkif deellər: bax, uşaxların, yaxınnarın hamısı səninı yanınıdadı. Can verən adam intizardan kutarıf canını rahatca tafşırer. Can verən adamı yerdə döşəyin üsdə qoyullar, üzünü qıvlıya sarı çevirellər. Bizdə bir Pir dağı var, biz oranı həm də qıvla kimi bilerih.

Ölən adamın çənəsi başınnan bağlaner. İki əyağının baş barmaxları cütdəşif bağlaner bir-birinə. Ölən qojadısa, üzünü göy, yaşıl ipəklə örtüllər. Onu rahatdadıxdan sonıra qohumları, dil bilən arvatdar başdeellar ağlamağa, taa yüyət yerinə[242] götürülənə qədər. Çöldə, ya damın dalında, ya da daldey bir yerdə balaja çadır quruf ölünü orada yüyüllər. Yüyət yerinə yaxın ojax qalaner. Ojağın üsdünə mis qazanda su qoyullar. Su isiner, suyu söyuxluyullar. Orda işlənən qavların hamısı mis olmalıdı. Ölünü iki nəfər yüyür. İki-üş nəfər də su verer. O üş nəfər suyu bir-birinə ötürə-ötürə verer. Molla da orda olur.

Meyidi iki metir uzunu, əlli-altmış santımetir eni olan taxdıya qoyuf yüyüllər. Yüyətdən çıxardannan sonıra onu kəfənniyillər. Ölünü yüyəndə su tökən adam savab qazanır. Hər bir insan yeddi ölü yüməlidi. Bu, savab bir işdi. Ölünü öz qohum-əqrəbası: oğlu, qızı yüsə, lap yaxşı olar. Ölən arvatdısa, arvatdar, kişidisə, kişilər yüməlidi. Onu kəfənniyənnən sonıra ortalığa bir stol qoyuf onun üsdünə qoyullar, qohum-əqrəba onun başına toplaşıf vidalaşır. Görüşüf vidalaşannan sonıra molla orda olan adamlardan ölən adama halallıx isdiyir. Hamı bir nəfər kimi nə eləmişiksə, halal-hivən olsun deer. Kişilər meyidi salacaya[243] qoyuf, çiyinnərinin üsdünə qaldırıf qəbiristannığa tərəf gedillər. Lap əvvəllər qadınnar da qəbiristanlığa tərəf gedirdilər. Sonıralar o adət ləğv edildi. Ona görə ki, ar-

---

242 Yüyət yeri – ölünün yuyulduğu yer

243 Salaca – ağac budaqlarından düzəldilmiş nərdivan. Laydır da deyirlər.

vatdar qəbiristannıxda ağlıyıf vay-şüyən salırdılar. Bu da çox vax aparırdı. Ölü öldüyü gün məhlədə yekə bir çadır qurular. Həmin çadır yeddi gün qalar, yeddidən son$_{ı}$ra sökülər. Bir də qırxında qurular. Ölünün birinci günündə dörd-beş kilo yağın halvası çalınar. Yuxa ilə bərabər arvatdara verilər. Kişilər də qəbirstannıxdan gələnnən son$_{ı}$ra onnara da verilir. Halva, yuxa, çay yiilif içilənnən son$_{ı}$ra Fatihə verilir. Bilən Həmsurə[244] verər, bilmiyən rəhmət diləyər. Qırx gün həmin evdə ləmpə yandırallar. Ölənin ruhu qırx gün evdən getməz. Ölünün basırıldığı gün qəbrin üsdündə, bir də yüyət yerində ağacın başına lopa bağlıyıf orda yandırmalısan$_{ı}$. Qəbiristannıxda yandırırsan$_{ı}$ ki, qavaxca qəbrin üsdünü torpaxlıyırdılar. Ona görə ki, çakqal, qəbirqurdu qəbri tez açıf meyidi yiyə bilər. Heyvannar həmin gün oddan qorxuf qəbrə yaxın tüşmürdülər.

Ölü ki, hansı yorğan-döşəkdə, döşəyin altına salınmış gəvədə canını tafşırmışdı, həmin şeylər onun üçünə kimi çayda yüyülüf qüsullanmalıdı. Ölünü yüyətdən çıxardıf hansı gəvənin üsdünə qoyuf qəbirstannığa aparmışdılar, həmin gəvə gejə ulduz görməmiş evə gətirilməlidi. Yüyətdə ölünü yüyən adam, su tökən adam, hər kim ki ölüyə dəymişdisə, o adamlar çimif qüsullanmalıdılar. Çünki ölünün ağırrığı onnarın üsdündə qalır. Ölüyə bizim kətdə qırx gün yas saxlıyıllar, öldüyü günnən yeddisinə qədər evdə ağlaşma olur. Öldüyü gün, üçü, yeddisi, qırxı, bir də ilində ehsan verilir. Yeddisinnən qırxına qədər cuma axşamı keçirilir. Hər cuma axşamında onun adına qazan asılıf ehsan verilir. Bizdə ona adna deellər. Ehsanda əsasən aş-qara, bozartma, doyğa, halva, göy-göyərti, xurma, limon və s. veriler. Cuma axşamında əsasən yasa gələ bilmiyən adamlar gəlerdilər. Ölən adamın öldüyü gün şəklini verif böyütdürərdilər. O şəkli ipəyə püküf balıncın üsdünə qoyardılar, ağlaşma olanda isə or-

---

[244] Həmsurə – “Qurani-Kərim”də “Fatihə” surəsi

talığa gətirif üzünü açıf hərə bir ağız dil deef ağlıyardılar. Şəkli kim ki ortalığa gətirmişdisə, o adam da aparmalıydı. Başqası bunu eliyə bilməzdi. Ehsan günü, ağlaşmadan sonıra arvatdar çöldə su ilə əl-üzdərini yüməli və gülaf suyu almalıdılar. Gülaf suyunu da cavan qız uşaxları verməlidi. Arvatdar yasa əyax-yalın, başıaçıx gələ bilməzdər. Deellər, günahdı. Gülaf suyu da dirrik suyudu. O su həm ölüyə xeyirdi, həm də ağlayan adama. Ölüyə ona görə xeyirdi ki, onun ruhu şad olur. Ağlayan adamlara ona görə xeyirdi ki, ağlıyannan sonıra onun gözdəri, başı ağrıyır. Gülaf suyu alannan və içənnən sonıra ona xeyir olur.

Axşamüsdü ölən ölünü günün dalınnan basdırmellar. Onu səhər dəfn eleellər. Həmin gejə meyidin yanında hər kəs ki qalır, o adam üş gün evinə gedə bilməz. O üş gün yas yerində qalmalıdı. Deellər, evinə getsə, onun evinə yas tüşər. Yas evinin qapısı bağlanmaz. Gədəbəyin adəti belədi ki, yeddi gün yasa gəlif-gedən olur, ev yiyəsini tək qoymullar. Səhər, bir də günortadan sonıra ağlaşma olur.

Yasa gələn hər kəs, kimin nəyə gücü çatsa, yasa pul salar. Qoymazdar ki, yas evi ziyana tüşsün. Yası bir molla aparar, qırxını da o bağlayar.

Qonışular qav-qacağa köməh eliyər.

Üçünə qədər, üçündən yeddisinə qədər ara günləri çadırda, evdə təkcə çay verəllər.

Ağlaşmadan sonıra arvatdara su verilir, əl-üzdərini yüməyə. Onnar gözüyaşlı evlərinə getmillər. Əgər ehsan verilən gün ehsan yiməyi çox qalarsa, qonışulara, qohumlara paylanar.

Yas yerinə uzaxdan gələn adamlara yas evində yer olmazsa, o adamları qonışular, qohumlar aparıf evlərində yerrəşdirəllər.

Yasdan çıxan adam birbaşa öz evinə gedə bilməz. Gərəh birinci əyaxyoluna dəysin, sonıra evinə getsin, yoxsa yası evinə apara bilər.

Qırxdan sonıra qəvrin üsdünü götüröllər. Yəni başdaşı düzəldellər. Kimin imkanı var ağ mərmərdən, qara mərmərdən, kimin də imkanı azdısa, adi daşdan düzəltdirer.

Gədəbəydə altmışıncı illərdə Noyruz bayramı günü ölüyə qara bayram keçirerdilər. Sonıralar rayonun katibi tərəfinnən bu adət ləğv edildi. Qara bayramı çərşənbələrin birinə saldırdı ki, camahat Noyruz bayramını şad-xürrəm keçirtsin. Həm də o vaxdar yas pulu yığılmırdı. Camahat ölüsünü birtəhər basdırırdı. Həmin katib yasa pul salmağı adət halına saldı ki, camahat öz ölüsünü yerdən götürə bilsin. Kimin güjü nəyə çatır pul salsın. Allah o adama rəhmət eləsin. Cəmi ölənnərimizə Allah rəhmət eləsin, yerdə qalannara da can sağlığı versin.

**69.**

Bayramda – Noyruzda ölünün üsdündə lopa (şam) yandırallar, ağlıyallar. Ayın-oyun da aparıllar ölünün üsdünə. Bu saat da həmin qayda var. «Qara bayram» deellər ona. Ölünün üsdünə səməni də aparıllar, Noyruz şirnisi də. Hər kəs qavırsannıxda öz ölüsünün adına ağleer.

# BAYATILAR

1. Burdan bir maya getdi,
Sallandı, çaya getdi.
Cafa çəhdim, ömür sürdüm,
Əməyim zaya getdi.

2. Bir çızqı[245] yağış yağerdı,
Bir qız məni çağırdı.
Əl atdım sinəsinə,
“Mama” deyin bağırdı.

3. İrəvanda işdərəm,
Xançalımı gümüşdərəm.
Ay qız, öpərəm səni,
Hərdən də bir tişdərəm.

4. Su gəler arxa, neynim?
Dəymir putağa, neynim?
Yarım mənnən küsüfdü,
Gəlmer otağa neynim?

5. Apardı çaylar məni,
Həfdələr, aylar məni,
Yüküm qurğuşun yükü,
Yordu bu taylar məni.

6. A bu dərə, uzun dərə,
Getdihcə uzun dərə.
Bu dəriyə bir bağ salın$_{\imath}$,
Yar gələ, üzüm dərə.

7. A bu dərənin yolları,
Açılıf qızılgülləri.
*A* bu dəriyə yol salın$_{\imath}$
Gəlsin yarın dilləri.

8. Gəlin$_{\imath}$ gedəh çay başına,
Vədə qoyax ay başına.
Hər kimin yarı çirkindi,
Külü qoyax onun başına.

9. Çiyin-çiyinə durduğum yar,
Çiyninə çuxa saldığım yar,
Əəğının altı göy çəmən,
Boyuna qurvan olduğum yar.

10. O toyda[246] yatan oğlan,
Köynəyi kətən oğlan.
Yarın$_{\imath}$ı apardılar,
*Ay* bixavar yatan oğlan.

11. A qara çuxalı oğlan,
Zifaf yaxalı oğlan.
Aç yaxan$_{\imath}$ı, yel döysün,
Mən də baxalı oğlan.

12. Bir quş gəldi Ağdaşdan,
Xəbər verdi qardaşdan.
Qardaş bajıdan doysa,
Bajı doyarmı qardaşdan?

---

[245] Çızqı – xırda, narın

[246] O toyda – o tayda

13. Dağlara çən tüşüfdü, *ana,*
Qəlbimə dən tüşüfdü, *ana*.
Mən sənnən ayrılmaram, *ana,*
Ayrılıx sənnən tüşüfdü, *ana*.

14. Bu gedən el yolu olar,
*ay bajı,*
Getdihcə el yolu olar.
Sən yadıma tüşdühcə
Yanaxlarım sel yolu olar.

15. Əzizinıəm, bir-bir tüşər,
Atdanan bir-bir tüşər.
Sənnən keçirdiyim günnər,
*ay bajı,*
Yadıma bir-bir tüşər.

16. Otdar var topar-topar,
Çəkmə, kökünnən qopar.
*Ana,* sən yadıma tüşdühcə,
*səni tapbıyanda*,
Qiyamət o gün qopar.

17. Əzizinəm, ana yeri,
Qurulu xana yeri.
Yüz min təbib olsa,
= Yüz dərdimizə şərik olan olsa da,
= Yüz ürəhdən yananın olsa,
Verməz bir ana yeri.
= Əzizim, ana yeri,
Tök zülfün yana, yeri.
Yüz min aləm yığılsa,
Verməz bir ana yeri.
= Ələmi[247], ana yeri,
Zilfini sana, yeri.
Yüz il öyüt versələr,
Gənə verməz bir ana yeri.

18. Əzizinıəm, unutmaram,
*ay qardaş,*
Gül dərif qurutmaram,
*ay qardaş.*
Neçə ki canımda can var,
Mən səni unutmaram,
*ay qardaş.*

19. Bağa girmərəm sənsiz,
*ay qardaş,*
Gülünü dərmərəm sənsiz.
Dağda ahu mələsə,
Bil ki, o, mənəm sənsiz.

20. Baxçanı bardan allam,
Heyvanı nardan allam.
Könlüm səni isdiyəndə
Bəs səni hardan allam?

21. Əzizinıəm, bir Aydı,
Bir ulduzdu, bir Aydı.
Gündə gördüyüm qardaşı
Görmədiyim bir aydı.

---
[247] Ələmi – eləmi

22. Əzizin$_ı$əm, neynim san$_ı$a?
Qommuşdu meylim san$_ı$a.
Mən dönsəm, üzüm dönsün$_ı$,
Sən döndün, neynim san$_ı$a?

23. Yollara yol salaram,
Karvanı bol salaram.
Sən yadıma tüşdühcə
Məzarın$_ı$ üsdünə yol salaram.

24. Əzizin$_ı$əm, bu dağnan,
*Bajı,* sallan gəl bu dağnan.
Sinəmnən dağın$_ı$ı götür,
Öldürmə məni bu dağnan.

25. Əzizin$_ı$əm, o günöylər,
O quzoylar, o günöylər.
*Ana,* sən yadımıza tüşdühcə
Dərd ürəyimizdə düyün eylər.
= Yar yarnan tapışanda
Bayramın o gün eylər.

26. Əzizin$_ı$əm, ulu dağlar,
Çeşməli, sulu dağlar.
Burda bir qərif (= gözəl ana) ölüf
Göy kişnər, bulud ağlar.

27. Dağlara binə gəlləm,
Gedərəm, yenə gəlləm.
*Ana (= bacı),* bircə dəfə *boyun$_ı$u görüf*, səsin$_ı$i eşitsəm,
İmana-dinə gəlləm.

28. Əzizin$_ı$əm, sim bağlar,
Sim bağçalar, sim bağlar.
Köhnə yaram qor elər,
Təzə yaram sim bağlar.

29. Əzizin$_ı$əm, Lala dağı,
Bürüyüfdü lala dağı.
Hər yara sağalsa da,
Sağalmaz bala dağı.

30. Xoruz ban verəndə gəl, *oğul,*
Yaram qan verəndə gəl.
Sağlığımda gəlməsən$_ı$,
Ölüf can verəndə gəl.

31. Əzizin$_ı$əm, götürün$_ı$,
Dar küçədən ötürün$_ı$.
Burda bir qəriv ölüf,
Qərivin ölümünü elinə, *gününə* yetirin$_ı$.

32. Əzizim, duman gəldi,
Çən gəldi, duman gəldi.
Ana, cavan yaşımda,
Əcəlim yaman gəldi.

33. Əzizin$_ı$əm, gün düzünə,
Şeh tüşdü gül üzünə.
Qurvan olom balama,
Can verən gündüzün$_ı$ə.

34. Əzizin$_{ı}$əm, mən dolaydım,
Kəhliyə kəmənd olaydım.
Sən, bala, ana, öldüm diyəndə
Yanın$_{ı}$da mən də olaydım.

35. Analar yanar, ağlar,
Günnəri sanar, ağlar.
Dönər göy göyərçinə,
Yollara qonar, ağlar.

36. Əzizin$_{ı}$əm, ağlamazdım,
Ağa göy bağlamazdım.
Bilsəydim, vəfan$_{ı}$ budu,
*Fələh,* sənə bel bağlamazdım.
= Bağa girdim əzəldən,
Dəstə tutdum xəzəldən.
Bilsəydim vəfan$_{ı}$ budu, bala,
Bel bağlamazdım əzəldən.

37. Dağların başınnan,
Divinin xırdaca daşınnan.
Səni, ana (= bajı = bala) gəzirəm,
Sorağnan, gözümün yaşınnan.

38. Narınca bax, narınca,
Saxlaram saralınca.
Məndə ürəh qalmadı,
Sənnən *bir kəlmə* cavab alınca.

39. Ceyran oluf çölə gələrsən$_{ı}$,
Ördəh oluf gölə gələrsən$_{ı}$.
Könlüm səni isdiyəndə, bajı,
Könlüm ala gələrsən$_{ı}$.

40. Su axar, yer yaş qalar,
Daş zindanda daş qalar.
Oğlu ölən ananın
Gözdərində yaş qalar.

41. Dağları gəzənə bax,
Toyuztəh süzənə bax.
Mən sənnən ayrılmazdım, ata,
San$_{ı}$a gələn qannı Azreelə bax.
= Dağları gəzən ölsün,
Toyuztəh süzən ölsün,
Səni mənnən ayıran, ata,
Qannı Azreelin$_{ı}$ ölsün.

42. San$_{ı}$a quzu qurvan,
Quzunun yüzü qurvan.
Buna qayil olmasan$_{ı}$,
Mən balanın özü qurvan.

43. Əzizin$_{ı}$əm, baxdı kəm,
*Bala,* bağbanı kəm, baxdı kəm.
Neynədim o qannı fələyə?
O da man$_{ı}$a baxdı kəm.

44. Yaralandım yanımnan,
Quşdar doyar qanımnan.
Sonunnan bir dərd tapdım, bala,
Axırda bezar oldum özüm öz canımnan.

45. Əyağım yalın oldu,
Tikəni qalın oldu.

Mən sənnən ayrılmazdım,
Azreil zalım oldu.

46. Qızılgül əsdi, neynim?
Səbrimi kəsdi, neynim?
Mən sənnən əl üzməzdim,
*Ata,* qannı Azreil üzdü, neynim?

47. Ay doğdu, bizə tüşdü,
Kölgöyü sizə tüşdü.
Mən sənnən ayrıla bilməzdim,
*Ata*, ayrılıx dəmi sizə tüşdü.

48. Ağ dəvə düzdədimi,
Yükü Təbrizdədimi?
Atamı soruşuram bibimnən,
De görüm, sizdədimi?
49. Bağça könlüm, bar könlüm,
Heyva könlüm, nar könlüm,
Atam ölənnən son$_{ı}$ra
Ağlamağa var könlüm.

50. Hər yerdə gedərəm qırax-
nan,
Otdarını piçərəm oraxnan.
*Ata*, səni həmməşə gəzərəm,
Gözdərimin yaşınnan, sorağ-
nan.

51. Qoyunu qoyun$_{ı}$ gəlsin,
Dərisin soyun$_{ı}$, gəlsin.
Atamın özünü isdiyirəm,
Atamın özü gəlsin
= Ay yığılan camahat,
Balamı qoyun$_{ı}$ gəlsin.

52. Gəlmişəm görəm səni, *bala,*
Açmışam, hörəm səni,
Nə qapın$_{ı}$ var, nə aynan$_{ı}$,
Bə hardan görəm səni?

53. *Səni* ağlaram ağlar kimi,
Dərdim oldu dağlar kimi.
Sən ölənnən son$_{ı}$ra, *ata*,
Tökülürəm verana qalmış
bağlar kimi.

54. Gedirəm (= Gəl gedəh)
daş bulağa,
Suyu sərxoş bulağa.
Birin sən de, birin mən,
Qoy tökülsün qan-yaş bulağa
(= Yaş tökəh daş bulağa).
= *Yaralı analar*, gedəh daş
bulağa,
Suyu sərin, xoş bulağa.
Birini sən de, birini mən,
Tökəh qanlı yaş bulağa.

55. Dərdim çoxdu, yaram az,
Dərdə dərman yaramaz.
Atasına dərd verən
Öyladınnan yarımaz.

56. Mən aşıx, ovundura,
Qarşın$_{ı}$da ovun dura.
Dərd əlinnən sızlaram,
Kimsəm yox ovundura.

57. Eləmi, gil ələndi,
Uçkunda gil ələndi.
Tan$_{ı}$rıdan pay umduxca,
Göz yaşım gilələndi.

58. Eləmi, dama-dama,
Köynəyim dama-dama.
Qaşdım ruzi dalınca,
Göz yaşım dama-dama.

59. Yağan yağış tez kəsə,
O yolu gedəm kəsə.
Fələh sitam vermiyif,
Mənim kimi heş kəsə.

60. Eləmi, nədələli,
Saxladın$_{ı}$ nədən əli.
San$_{ı}$a qıyan fələyə,
Nə yalvar, nə də ləli.

61. Eləmi, dolur dünya,
Boşalır, dolur dünya.
Sənnən kam almadıxca
Gözdərim dolur, dünya.

62. Eləmi, ağlı dünya,
Qaralı-ağlı dünya.
Güldürüf ağladandı
Çaşdırıf ağlı dünya.

63. Eləmi, atdım daşı,
Götürüf atdım daşı.
Öcəşən fələh məni,
Büdrədir addımbaşı.

64. Pəncərəni bağladım,
İçin-için ağladım.
Taleyimnən küsmüşəm,
Dərdə könül bağladım.

65. Bajı dərdi,
Bajının ajı dərdi.
Getsə şirin söhbəti,
Qalar ajı dərdi.
= Bajının bajı dərdi,
Yoxdu əlacı, dərdi.
Getdi o şirin günnər,
Qalıfdı ajı dərdi.

66. Qar qamışa,
Yol gedər Qarqamışa.
Fələh məni elə dərdə saldı,
Bəndə neylər Allah qarğamışa.

67. Əziziyəm, ay bajı,
Qaşı-gözü yay bajı.
Ölsə, bajılar ölsün, *ay bajı,*
Heş deməsin, vay, bajı.
= Ələmi, ay qardaş,
Qaşı-gözü yay qardaş,
Ölsə, bajılar ölsün,
Heş deməsin, vay, qardaş.

68. Pərişanam, pərişan,
Halım yoxdu danışam.
Görənı varmı məni kimi
Dərdi dərdə qarışan.

69. İti belnən,
Qəbrimi qazını iti belnən.
Gəlib məni sizdən soruşsalar,
Deyərsiz, itiv eldən.

70. Dağların başı yansın,
Divində daşı yansın.
Ananı baladan ayıran,
Ürəyinıin başı yansın.

71. Əzizinıəm, ağla qandı,
Qaş-gözə bağla, qandı.
Dərd gəlif, qəm ağladır,
Görən deer, ağlağandı.

72. Əziziyəm, dərd əkərəm,
Dərmənsiz dərd əkərəm.
Qoşaram qəm yükünü,
Öz-özümə dərd əkərəm.

73. Mən getməsəm, yar ağlar,
Səs verər, yara dağlar.
Yarım məni görməsə,
Ağlıyanda qan ağlar.

74. Dağlar dağımdı mənim,
Qəm oylağımdı mənim.
Dindirmə, qan ağlıyıram
(= Əl vurmayın, dərddiyəm),
Yaman çağımdı mənim.

75. Həşəm oldu,
Qızılgül həşəm oldu.
Mən ayrılıx bilməzdim,
Ayrılıx peşəm oldu.
= Qızılgül həşəm oldu,
Dərmədim, kəşən oldu.
Mən sənnən ayrılmazdım,
Ayrılıx peşəm oldu.
= Qızılgül həşəm oldu,
Yığmadım, köşən oldu.
Sənnən sonıra ağlamax
Həmişə peşəm oldu.
= Qızılgül həşəm oldu,
Yığmadım, xəzəl oldu,
Ayilə dağılannan sonıra
= Sən ölüf gedənnən sonıra
Ağlamax peşəm oldu.
= Qızılgül dən-dən oldu,
Dərmədim, dən-dən oldu.
Mən ayrılıx bilməzdim,
Ayrılıx sənnən oldu.

76. Dağa gedəh,
Dumanlı dağa gedəh.
Sən bulud ol, mən dolu,
Gəl, yağa-yağa gedəh.

77. Daşdan mən,
Ağaşdan mən, daşdan mən.
Nə atam var, nə anam,
Yaranmışam daşdan mən.

78. Baxdı kəm,
Taleyi kəm, baxdı kəm.
Mən fələyə neynədim,
Fələh mənə baxdı kəm.

79. Dağlara dolu tüşər,
At gələr, nalı tüşər.
Qəbrimi yol üsdə qazın,
Bəlkə, balam yolu tüşər.

80. Oyan, dağlar,
Al qana boyan, dağlar.
Bu yan zülmətxanadı,
Necədi o yan, dağlar?

81. Ələmi, bir-bir tüşər,
Atdanar, bir-bir tüşər.
*Bala,* sənnən elədiyim söhbətdər
Yadıma bir-bir tüşər.

82. Ələmi, keşmə mənnən,
Ay mənnən, keşmə mənnən.
Baxma yaddar (= ellər)
sözünə, *bala,*
Yazığam, keşmə mənnən.
= Çeşmə mənnən,
Ay mənnən, çeşmə mənnən.
Tüşmə yaddar evinə,
Yazığam, keşmə mənnən.

83. Dağları gəzdim, gəldim,
Daşdarnı düzdüm, gəldim.
Səni bevəfa gördüm
= Dünyanı etivarsız gördüm,
Əlimi üzdüm, gəldim.

84. Bu yerdə,
Boynun burduğu yerdə,
Ovçu, qolunı qurusun,
Maral vurduğunı yerdə.

85. Daşa dağlar,
Verif baş-başa dağlar.
Gəlirdim səni görməyə,
Dönmüyəsiz daşa, dağlar.

86. Dağdan olar,
El köçüf dağdan olar.
Nə atam var, nə anam, *nə qardaşım, nə bajım,*
De görüm, dağda nə var?
= Dağda nə var,
El köçüf, dağda nə var?
Nə atam var, nə anam, *nə qardaşım, nə bajım,*
De görüm dağda nə var?

87. Ay doğar peşman-peşman,
Gün olar ona tüşman.

Fələh məni elə dərdə saldı,
Yarandığıma oldum peşman.

88. Bir at mindim, başı yox,
Bir çay keşdim, daşı yox.
Burda bir qəriv ölüf,
Yanında yoldaşı yox.

89. Araz aşdı, deellər,
Kür qoyuşdu, deellər.
Dərmanım manqal isdər,
Həkiminı qaşdı, deellər.

90. Yaram ağrıyır,
Bilmirəm, haram ağrıyır.
Cavanı torpağa verəndə,
Gör neçə yaram ağrıyır.

91. Başımda ağ şalım var,
Elimin oxşarı var.
Cavanı yerə qoyanda,
Gör necə ölünün oxşarı var.

92. Yarama,
Əl vurmayını yarama.
Atam çırağı tutsun,
Bajım baxsın yarama.

93. Qoy səni öz ananı ağlasın,
Başına qara bağlasın.
Yaddar yalan ağlıyar,
Qoy səni öz ananı ağlasın.

94. Əzizinıəm, maya getdi,
Sallandı, çaya getdi.
Çox cəfakeş olmuşam,
Əməyim zaya getdi.

95. Əzizinəm, bu da məni,
Axdar tap, buda məni.
*Ay Allah*, gör nə günə qalmışam,
Bəyənmir bu da məni.

96. Göydə göyərçin ağlar,
Yuvada laçın ağlar.
Neçə ki dünya var,
Başımda saçım ağlar.
= Yuvada laçın ağlar,
Görən bəs neyçin ağlar?
Sən yadıma tüşəndə
Başımda saçım ağlar.

97. Tut ağacı boyunca,
Tut yimədim doyunca.
Rəhimi xəlvətdə gördüm,
Danışmadım doyunca.

98. Barmağım beşdi mənim,
Yaşım on beşdi mənim.
Cəfa çəkdim, yar sevdim,
Əməyim heşdi mənim.

99. Aftaxa qum-qum eliyər,
Yar məni qəmgin eliyər.
Mənim balaca yarım
Hökümətə qullux eliyər.

100. Əzizinıəm, sini-sini,
Doldur ver sini-sini.
Manıa öz yarım gərəh,
Neynirəm özgəsini.

101. Əzizinıəm, dolan, gəz,
Qürbət eli dolan, gəz.
Qürbətdə şah olunca,
Vətəninıdə dilən, gəz.

102. Əzizim, vətən yaxşı,
Geyməyə kətan yaxşı.
Gəzməyə qəriv ölkə,
Ölməyə vətən yaxşı.
= Ələmin, vətənə sarı,
Dolan gəl, vətənə sarı.
Gəzməyə qürbət el,
Ölməyə vətənə sarı.

103. Əzizinıəm, bir də mən,
Doldur, içim bir də mən.
Ömür keşdi, gün keşdi,
Cavan olmaram bir də mən.

104. Əzizim, baxdı yarım,
Baxdımın taxdı yarım.
Üzünıdə göz izi var,
Sənə kim baxdı, yarım?

105. Tağda yandı,
Şamama tağda yandı.
Arxamı dağa söykədim,
Alışdı, dağ da yandı.

106. Bu yerdə gülən olsa,
Tərini silən olsa,
Qardaş çox yaxşı şeydi,
Qədrini bilən olsa.

107. Su gəlir, lilləndirir,
Baxçanı gülləndirir.
Dərddini dindirməyinı,
Dərdini dilləndirir.

108. Balabanı,
Asta çal balabanı.
Hamının balası gəldi,
Bəs mənim balam hanı?

109. Əzizinıəm, bu dağa,
Yol gedir bu dağa.
Fələh niyə qoymadını?
Bir də çıxam bu dağa.

110. Əzizinıəm, axar gedər,
Sel gələr, axar gedər.
Bu dünya bir güzgüdü,
Hamı ona baxar gedər.

111. Əzizinıəm, gül əllər,
Bülbül əllər, gül əllər.
Varrı olsam, nə deyəllər,
Yoxsul olsam, güləllər.

112. Hovuza bax, hovuza,
Köynəyi qanouza.
Sevdiyimi ala bilmədim,
Qaldı gələn payıza.

113. Aşiqəm, nələr keçər,
Ahular mələr, keçər.
Oğlu *belə* müharibiyə gedən ananın
Qəlbinnən nələr keçər.

114. Qoyunnar mələr, gələr,
Dağları dələr, gələr.
Yarın vəfalı olsa,
Gejeyi bölər, gələr.

115. İzin isdə,
İzin ver, izin isdə.
İzin ver bircə dəfə
Baş qoyum dizin üsdə[248].

116. Vay dərdim,
Vay dərmanım, vay dərdim.
Ellər gül əhdi, gül dərdi,
Mən gül əhdim, vay dərdim.

117. Günə tüşdüm,
Kölgədən günə tüşdüm.
Tüşmana xəvər eylə,
Dediyi günə tüşdüm.

118. Kimə gedim?
Kimim var, kimə gedim?
*Dərmansız* dərdə tüşən canım,
Mən dərmana kimə gedim?

119. Qazan ağlar,
Od vurar, qazan ağlar.
Qardaşı ölən bajının
Qavrını qazan ağlar.

120. Qarabağda bağ olmaz,
Qara salxım ağ olmaz.
Qəriblihdə qalanın
Ürəyində yağ olmaz.

121. Hər aylar,
Hər ulduzdar, hər aylar.
Başım cəllad əlində,
Dilim səni haraylar.

122. Dağlarda maral azdı,
Ovçu çox, maral azdı.
Ağlama, xumar gözdüm,
Ölmərəm, yaram azdı.

123. Əzizinəm, sənə dağlar,
Göy geymiş sənə dağlar.
= Yol gedir sənə, dağlar.
Tuteydım oğul əlinnən,
= Tuteydım *vəfalı* yar əlinnən,
Çıxeydım sənə, dağlar.

[248] Söyləyici bayatıları avazla – mahnı kimi oxuyur – top.

124. Oda yansın,
Yaylığım oda yansın.
Necə ki mən yanıram,
O da yansın.

125. Əzizinəm, arxa, haray,
Su gələr arxa, haray.
Tüşmüşəm qəm gölünə,
Çağırram arxa, haray.
= Su gələr arxa, haray,
Tökülmür çarxa, haray.
İgid qürbətə tüşsə,
Çağırar arxa, haray.

126. Tikə-tikə,
Kəs məni tikə-tikə.
Qoy məni anam ağlasın,
Kəfənim tikə-tikə.

127. Əzizinıəm, yazıx mən,
Dərddən tüşdüm yazıx mən.
*Balalar içində* köşkün sən oldunı,
*Analar içində* bəxti qara, yazıx mən.

128. Əzizinıəm, tikən gülə,
Sarmaşıfdı tikən gülə.
Gör neçəsi göz tikif,
Mən gözümü dikən gülə.

129. Əzizim, naçar ağlama,
Gündü keçər, ağlama.
Bir yannan bağlıyan fələh,
Bir yannan açar, ağlama.

130. Əzizinıəm, mərdana
Mərd oğlu mərdana.
Bədöy at[249] köhlən doğar,
Mərd oğulu mərd ana.

131. Əzizinıəm, gündə mən,
*ay qardaş ( = ay bajı),*
Kölgədə sən, gündə mən.
İldə qurvan (bayram) bir olar,
*qardaş,*
Sanıa qurvan gündə mən.
= Əzizinıəm, gündə sən,
Kölgədə mən, gündə sən.
Can alan bir gün (= dəfə) alır,
Canımı aldını gündə sən
= Öldürdün məni gündə sən.

132. Qalyanı boşa çəhdim,
Doldurdum, boşa çəhdim.
İsdədim can sağaldam,
Zəhməti boşa çəhdim.

133. Eləmi, qoşa dağlar,
Nə veribsənı baş-başa dağlar?
Mən ki gedərgi oldum,
Səni dönəsənı daşa, dağlar.

---

[249] Bədöy at – hünərli at

134. Bir bağ saldım, bağmansız,
Yola çıxdım karvansız.
*Analarım, bajılarım*, məndə taxsır görməyin,
*Zalım* fələh apardı məni vaxsız.

135. Eləmi, qalasız,
Qala olmaz qalasız.
Qohum-qələvələrim, mən ki gedirəm,
Sizi sağlıxnan qalasız.

136. Dumandı,
Dağlar başı dumandı.
Ay qardaş, gəl barışax,
Axır günüm yamandı.

137. Adı qardaş,
Ağzımın dadı qardaş.
Sən ki vəfasız çıxdın$_{ı}$,
Tutaram yadı, qardaş.

138. Quzu yanında,
Qoyun quzu yanında.
Anam məni neyləyir?
Oğlu-qızı yanında.

139. Əzizim, Ərzuruma,
Dolan gəl, Ərzuruma.
Dəvəsi ölən canım
Necə dözüm hər zuluma.

140. Quşum uşdu tüləhdən,
Qolum sındı biləhdən.
Bizimki belə gəldi
Çarxı dönmüş fələhdən.

141. Vətən mülkümdü mənim,
Anam börkümdü[250] mənim.
Tüşmənim özüm oldum,
Bəs dosdum kimdi mənim?

142. Bu bağların üzümü,
Öldüm, basın gözümü.
Bilsəydim, ayrılıxdı,
Öldürərdim özümü.

143. İlan olmaz,
Evimdə ilan olmaz.
Ağlaram, gülləm özüm,
Dərdimi bilən olmaz.

144. Gəlin gəlir, yan verir,
Açma, yaram qan verir.
Xəvər verin anama,
Oğlun$_{ı}$ daha can verir.

145. Bağa dönsün,
Gül aşsın, bağa dönsün.
Kağız yazsan$_{ı}$, elə yaz,
Ürəyim dağa dönsün.

[250] Börk – burada: namus

146. Göydən uçan quş mənəm,
Yalvarsan$_{ı}$ da, tüşmərəm.
Gör necə yad olmuşam,
Heş yadın$_{ı}$a tüşmərəm.

147. Göydə uçan quş qardaş,
Qanadı gümüş qardaş.
Bajın$_{ı}$ qürbət eldədi,
Gəl yanıma tüş, qardaş.

148. Şalın qara boyandı,
Ucu yerə dayandı.
Mənim ahu-naləmnən
Göydə mələk oyandı.

149. Xırdaca daşdı dağlar,
Sənnən kim aşdı, dağlar?
Qəfil ölən qardaşı
Ah-vayla bajı ağlar.

150. Qara tikan kolları,
Bürüyüfdü yolları.
Eşitsəm, sən gəlirsən$_{ı}$,
Ayırtdaram[251] yolları.

151. Əzizim, ağ kağızım,
Dili yox, lal kağızım.
Gedirsən$_{ı}$ qardaş yanına,
Dil aç, yalvar, kağızım.

152. Əzizim, sarı sancax,
Başımda sarı sancax.
Nə qız oldum, nə gəlin,
Oddara yandım ancax.
= Qaladan endim, ancax
Başımda qara sancax.
Nə gəlin oldum, nə qız
Qara günə dözdüm ancax.

153. Qarabağda talan var,
Qəmzəylə qan alan var.
Demirsən$_{ı}$ baş yastıxda,
Gözü yolda qalan var.

154. Yaza nə qaldı,
Qış getdi, yaza nə qaldı?
Qələmdə nə günah var?
Mürvət yazana qaldı.

155. Qəribəm, yoxdu arxam,
Qanadım yoxdu, qalxam.
Çıxam dağlar başına
Vətənə sarı baxam.

156. Ay doğdu mətinnən[252],
Uzaşdı zülmətinnən.
Ağzı yanmış qara torpax
Doymur insan ətinnən.

---

[251] Ayırtdaram – arıtdaram, təmizləyərəm

[252] Mətinnən – üfüqdən

157. Ay ağa,
Yetiş dada, ay ağa.
İllər xəsdəsi canım
Yar gəldi, qalx əyağa.

158. Əzizim, göyçəh ağlar,
Geyməyə göyçəh ağlar.
Məni anam ağlasın,
O ağlar, gerçəh ağlar.

159. Bağa girdim bağbansız,
Dəvə gördim sarvansız.
Aləmə dərman verdim,
Özüm öldüm dərmansız.

160. Aralı canım,
Eldən aralı canım.
Bosdanı dolu döymüş
Tağdan yaralı canım.

161. Dağlarda dumanam mən,
Bağlarda dumanam mən.
Əl vurmayını yarama,
Yarası yamanam mən.

162. Əzizinıəm, nə qaldı?
Nə qovğadı, nə qaldı.
Yaxşılıx gözəl şeydi,
Yaman, sənə nə qaldı?

163. Əzizim, gözdə məni,
Kabab kimi közdə məni.
Ölsəm, torpağım ağlar,
Sağ olsam, gözdə məni.

164. Üş keşdi,
Göydə ulduz üş keşdi.
Fələh, gəl görsət görüm,
Hası günüm xoş keşdi?

165. Əzizinıəm, lala yalqız,
Gül yalqız, lala yalqız.
Qorxuram, qəriv öləm,
Məzarım qala yalqız.

166. Əzizinıəm, odu keşdi,
Qalyanın odu keşdi.
Kor olaydını, ay ovçu,
Maralını odu, keşdi.

167. Bülbüləm, ovla məni,
Sal daşa, qovla məni.
Gejə qoynunıda saxla,
Gündüz buxovla məni.

168. Bu yola yolmu deersənı?
Ceyrana kolmu deersənı?
Atıf gedirsənı məni,
Manıa ölmü deersənı?

169. Əlimdə var barama,
Əl vurmayın yarama.
Bacım tutsun çırağı,
Anam baxsın yarama.

170. Ağacın bürcü[253] mənəm,
Dil bilməz gürcü mənəm.
Baş qoy dizim üsdünə,
Anan$_{ı}$am, incimənəm.

171. Ağaşda xəzəl ağlar,
Dibində gözəl ağlar.
Yardan ayrılan canım
Sərgərdan gəzər, ağlar.

172. Dəryada çırax yanır,
Baxdıxca irax yanır.
Sevgi şirin şərbətdi,
İşdihcə ürəh yanır.

173. Gəmin$_{ı}$ bir yana döndü,
Sular ümmana döndü.
Ləbin$_{ı}$nən kam alınca
Ürəyim qana döndü.

174. Bağda can alması var,
Kəsif can alması var.
Gözdərin$_{ı}$ nə oynayır,
Yoxsa can alması var?

175. Əzizim, yara döndü,
Məlhəmnən yara döndü.
İsdədim boynun$_{ı}$ qucam,
Zülfün$_{ı}$ şahmara döndü.

---

[253] Bürcü – budağı, şaxəsi

176. Üzüm qara,
Bağlarda üzüm qara.
Gedirəm dost yanına,
Əlim boş, üzüm qara.

177. Sularımış,
Kükrəyən sularımış.
Əzrayıl, adın bilmirəm,
Can alan bularımış.

178. Əzizin$_{ı}$əm, məndə nal,
Səndə çəkic, məndə nal.
Sinəm əttar dükanı,
Nə isdəsən$_{ı}$, mənnən al.

179. Əzizin$_{ı}$əm, qar daşı,
Qarrı dağdan qar daşı.
Hərə bir şey isdiyər,
(=Hər könül bir şey isdiyir),
Mənim könlüm qardaşı.

180. Təhlədənəm[254],
Tək evli Təhlədənəm.
Ərəstər[255] tərlanı hanı,
Mən sona təhlədənəm.

181. Əzizin$_{ı}$əm, bir sinim,
Bir siratım[256], bir sinim.
Həsrətin$_{ı}$nən əsirəm,
Qoy qoynun$_{ı}$da bir isinim.

---

[254] Təhlə – kənd adı
[255] Ərəstər – yer adı
[256] Sırat – burada: qab, cam mənasında

182. Dam tiksən$_{ı}$, dağlar sənin$_{ı}$,
Bağ salsan$_{ı}$, bağlar sənin$_{ı}$.
Götür, qoynun$_{ı}$da saxla,
Ac qalsan$_{ı}$, saxlar səni.

183. Ay çıxır pərri-pərri,
Qapıları qoşa nərri.
Gireydim yar qoynuna,
Çıxeydım tərri-tərri.

184. Hasını deyim,
Oxuyum, "Yasin"in deyim.
Bir canım var, min dərdim,
Heş bilmirəm hasını deyim?

185. Ay axşamlar,
Ay doğar, ay axşamlar.
Öylü öyünə gedər,
Bəs yetim harda axşamlar?

186. Ay qabağı,
Buluddu ay qabağı.
Açılmaz yetim üzü,
Heç gülməz ay qabağı.

187. Laxdalandı,
Ay doğdu, laxdalandı.
Sən gəlib çıxanatan
Qəbrim üsdü taxdalandı.

188. Nərdivanə,
Əyax qoy nərdivanə.
Yar qədrini yar bilər,
Nə bilər hər divanə.

189. Yazı qəm,
Qışı möhnət, yazı qəm.
Mən getsəm, sənə qurvan,
Sən getmə, mən yazığam.

190. Əzizin$_{ı}$əm, güvən gəz,
Dağda bitər güvəngəz[257].
Yad eldə bəy olunca
Öz elinə güvən gəz.

191. Fələyin qəhri man$_{ı}$a,
Qəzəbi, qəhri man$_{ı}$a.
Doldurdu qəm piyaləsin,
İçirdi zəhri man$_{ı}$a.

192. Nədən yana,
Pərvanə nədən yana.
Yaxşı dost yaman gündə
Çəkilir nədən yana?

193. Bənd olaydım,
Bülbülə kəmənd olaydım.
Kaş ki sən can verəndə,
Yanın$_{ı}$da mən olaydım.

194. Məzə qannı,
Mey qannı, məzə qannı.

257 Güvəngəz – bitki növü

Qorxuram, cavan öləm,
Yurdumda gəzə qannı.

195. Gülü gülüsdan üsdünə,
Gün tüşüf bosdan üsdünə.
Gedin deyin o çakqala,
Gəlməsin astan[258] üsdünə.

196. Eləmi, veran düzə,
Yol gedir Verandüzə[259].
Qarğaram, anan ölər,
Dağılar fərən düzə.

197. Yasəməni,
Dolan gəl yasəməni.
Çağırırsan$_{ı}$, toya çağır.
Çağırma yasa məni.

198. Dağların başı qardı,
Divi anbar-anbardı.
Əvvəli şirin dünyanın
Axırı zəhrimardı.

199. Boz at oynamasın,
Çək cilovun, toylamasın,
Gələndə elə gəl, get,
Ürəklər oynamasın.

200. Bu dağnan,
Enif də gəl bu dağnan.
Mən ajalnan ölməzdim,
İndi ölürəm bu dağnan.

201. Dağların başı ilə,
Divinin daşı ilə.
Mən səni axdarıram,
Gözümün yaşı ilə.

202. Qardaş demə, qan olar,
Qan olar, tufan olar
(= Dünya tar-mar olar),
Qardaş gedən yollara,
Bajılar qurvan olar.

203. Eləmi, gəmi gəldi,
Kür (= su) daşdı, gəmi gəldi.
Ağla, gözdərim, ağla,
İnnən belə ayrılığın dəmi gəldi
= Ağlasana, a gözdərim,
Ayrılıx dəmi gəldi.

204. Eləmi, birəz bəri,
Gəncədən birəz bəri.
*Ayə*, sən mənim ağzımın
tamıydın$_{ı}$,
Dilimin də əzbəri.

[258] Astan – aslan
[259] Verandüz – yer adı

## SAYAÇI SÖZLƏRİ

1. Qoyunun yüzü gəldi,
Dolandı düzü, gəldi.
Çovanın qucağında
Bir əmlik quzu gəldi.

2. Qoyunun üçü gəldi,
Dolandı köçü gəldi.
Sürünün qavağında
Bir ala keçi gəldi.

3. Nənəm göycə qoyun,
Tükü var göycə qoyun.
Yiyən sənin ucundan
Allanır zəycə qoyun.

4. Əzizinıəm, qoyunun ağı,
Dolandı gəldi dağı.
Oğlannara çarıx bağı,
Qızdara cehiz ağı.

# TAPMACALAR

1. Taf tappaca,
Gül yappaca,
Məməli xatın,
Dişdəri yox.
***(toyuq)***

2. Çil töyuğum,
Çiləmə töyuğum.
Başını kəsdim,
Qanı yox.
***(xalça)***

3. Atdım atana,
Dəydi kotana,
Dəryada balığa,
Düzdə ceyrana[260].
***(ildırım)***

4. Oanı qəya,
Buanı qəya,
İçində sarı maya[261].
***(yumurta)***

5. Dağdan gəlir sel kimi,
Bəyirir oğlax kimi.
***(şimşək)***

[260] Bu tapmaca Gün kimi də cavablandırılır – tər.
[261] Bu tapmaca nehrə yağı kimi də cavablandırılır – tər.

6. Göydən gəlir hənir-hənir,
Yerə tüşür halqa dəmir.
Vur başına, götür gəmir.
***(qoz)***

7. Damda dana böyürər,
Yengəm ona yüyürər.
***(dolu)***

8. Qara Fatı künşdə yater.
***(süpürgə)***

9. Bizim öydə bir kişi var,
Xor-xor yatışı var.
***(pişik)***

10. Tıfıl-tıfıl tıfılqa[262],
Heç açılmaz tıfılqa.
Əməş-küməş bağında
Heç açılmaz tıfılqa.
***(qəbir)***

11. O nədi, ağaca çıxar adamnan,
Bir nəlvəki badamnan,
Nə dili var, nə ağzı,
Hey danışar adamnan.
***(kitab)***

[262] Tıfılqa – burada: sandıq

12. O nədi, qarannıx yerdə
qan uyuşar.

***(qatıq)***

13. Gələn leyli, gedən leyli,
bir davan üsdə duran leyli.

***(qapı)***

14. O nədi, nə yerdədi nə göydə,
Qəndildədi qəndildə.

***(pəncərə)***

15. Bir belə midicik,
Vurdu yıxdı gidicik.

***(patron)***

16. Yüyürdüm o təpəyə,
Yüyürdüm bu təpəyə,
Əyağım tüşdü sarı küpəyə.

***(çəkmə)***

17. Dağdan gəlir dağ kimi,
Qolları budax kimi.
Əyiler su işməyə,
Bəyirey oğlax kimi.

***(araba)***

18. Buxarı, ha buxarı,
Tüsdüyü çəkir yuxarı.
Cənnət tərəfdən bir oğlan
çıxdı,
Çiyni məxmər çuxalı.

***(Nikolay vaxtının kəllə qəndi)***

19. Dilim-dilim nar,
Dizimətək qar.
Uşdu kəhlih, qaldı dilbər.

***(saman, xırman, buğda)***

20. Dərya içərisində bir gül
pitif
Genə su deef ağlar.

***(ürək)***

## ATALAR SÖZLƏRİ VƏ MƏSƏLLƏR

1. Axşam oduna gedən çox olar.
2. Allah zulmu çəkənə verer.
3. Allah verdihcə bəndə gümana gələr.
4. Arvadı evdə güdərsən$_{ı}$, oğru olar, çöldə güdərsən$_{ı}$, q...ə olar.
5. Asmalıxdan[263] asılma, asdığın$_{ı}$, əsdiyin$_{ı}$ məlumdu. Gərməşöydən[264] gərilmə, gəldiyin$_{ı}$ yer məlumdu.
6. Aşın yağı bol olar,
   Gəlinin üzü ağ olar.
7. Atdı, muratdı, qadasın aldığım arvatdı.
8. Bar verən ağaca daş atallar.
9. Başa gələni əyax çəkər.
10. Bizim gəlin bizdən qaşdı,
    Başın örtdü, qıçın aşdı.
11. Boşdan bir çıxarsa, bərkdən iki çixar. *Simic adam üçün deyilir.*
12. Bosdan əkif bosdanın$_{ı}$a güvənmə.
13. Bu əlin əməyi o ələ haramdı.
14. Can çıxar, xuy[265] çıxmaz.
15. Çayda su çoxdu, öydə miqdarı gərəh.
16. Çağa qundaxda, gəlin gərdəhdə.
17. Çaşmış ördəh suya ikiəyaxlı girər.
18. Çayır-çimən gəzə-gəzə,
    Mən də oldum bir gəvəzə.
19. Çörəyin yekəsinnən kökəsi yaxşıdı.
20. Dan$_{ı}$ ater, gün bater.

---

[263] Asmalıx – asılqan
[264] Gərməşöy – gərməşov, ağac növü
[265] Xuy – xasiyyət

21. Daz dazla yatdı, daz da şıllax atdı = Daz dazla yatdı, dazı bəyəmmədi = Dazın daznan yatdığı, dazın da g...t atdığı.

22. Dediyim dedik, çaldığım düdük.

23. Dəli dəlini tapar, dəyənək göydən yağar. *(Dəlilər savaşar, ara qızışar).*

24. Dəli söylədi, ağıllı utandı.

25. Dəlihli muncux yerdə qalmaz. *(Qız əvvəl-axır ərə gedər, evdə qalmaz).*

26. Dəni mənnən yiir, başqa yerdə yumurtduyur.

27. Dərdini söyləmiyən dərdinə dərman tapbaz.

28. Dəvələr dəngilnən[266] gəlsin.

29. Dili xuruşdu[267] adam söz deməz.

30. Dilin sümüyü yoxdu.

31. Düz yıxılmaz, yıxılsa da, yıxılı qalmaz.

32. Düz düz olsa, həmməşə işi düz gedəjəh.

33. El atan daş uzağa gedər.

34. El yığıldı köşməyə,
Gəlin qaşdı s.....a.

35. Elçi cox olar, qismət bir.

36. Elnən gələn toy-bayramdı.

37. Eşşəh anqırıf tayını tapajax.

38. Eşihdən baxırsanı – məlləkdi,
İçəridən baxırsanı – kəpəkdi.

39. Eşiyə çıxar, itdər qapar.
İçəri girər, bitdər qapar. (*Pinti adam üçün deyilir).*

40. Ev oturanındı, söz götürənindi.

41. Evdə dağarcıx[268] çuvaldan böyühdü.

---

[266] Dəngilnən – karvanla

[267] Dili xuruşdu – atmaca atan

[268] Dağarcıx – qoyun dərisindən düzəldilmiş iri torba, kisə

42. Əmcəh əmcəhdi, olar da bir-birinnən tokquşor.

43. Ər tapanda yer tapberıx,
Yer tapanda ər tapberıx.
44. Ər dumbuzu, gül dumbuzu,
Əsirgəmə, vur dumbuzu.
= Ər ağacı, gül ağacı,
Əsirgəmə, vur ağacı.
45. Əri döyən arvadı bir yannan da it tutar.
46. Ərim süpürgə boyda olsun, dünyaca hörmətim olsun.
47. Əslində olan dırnağında bildirər.
48. Əsnəməy əsnəməy gətirər, vay samannıxdakının halına.
49. Ətəyi kalın buynuzuna keçif.
50. Əzəldən nəydi gül camalı,
Sonırası oldu dəli Bayramalı.
51. Filankəs filankəsin p...nun içində noxud axdarır.
52. Gəldih gəlin görməyə,
Gəlin gedif çəmən dərməyə.
53. Gəlin atdandı, ya qismət.
54. Gözə qaytağa yoxdu.
55. Gücünıə bax, şələni bağla.
56. Hamıya ədətdi, manıa bedatdı.
57. Hay hayını tapar, kor tayını.
58. Hənəy-hənəy, axırı dəyənəy.
59. Xeyirsöyləməzə dedilər ki, xeyir söylə. Dedi ki, bəlkə, getdim gəlmədim.
60. Xətir üsdə xəsdə yatıram.
61. İgit başına iş gəler, dağ başına qış gəler.
62. İlan sürünsün, dalınca da balası.
63. İt də üsdünə gəldi sözün.
64. İt itin əəğını basmaz.

65. İtəndə axdaranım yox,
Tapanda sevinənim.

66. Kasıf gedir qarpız alır, kal çıxır,
Varrı gedir bəhməz alır, bal çıxır.

67. Keşmiş aşa su qatma. *(Arapozanlıq etmə).*

68. Keçiyi keçinin, qoyunu qoyunun əəğınnan as.

69. Kəssən, kəsiləsi döyül, üzsən, üzüləsi. = Kəssən, kəsilməz, üzsən, üzülməz. *(Qohumluq əlaqəsi üçün deyilir).*

70. Kor gözə barmax soxullar.

71. Kor koru bəyənməsə, korun bağrı yarılar.

72. Qan çıxdı, geri qayıtmaz.

73. Qan qusuf qızılca şərbəti işdim.

74. Qapıdan çıxmıyan kosanın yaşını bilməh olmaz.

75. Qaraçıdan qıl umullar.

76. Qardaşın isdolunun başınnan ərin qapısının davanı yaxşıdı.

77. Qaz o yekəlihdə yumurtduyur, səsi çıxmer, əmə töyux dınnax[269] yumurtduyan kimi səsi dünyüyü başına aler.

78. Qaz-qazla, kət toyuğu topal xoruzla.

79. Qərib itin quyruğu belində olar.

80. Qığınnan muncux düzəldir. *Yəni ozünü öyüb göyə qaldırır.*

81. Qırxında öyrənif gorunda da çalajax = Qırxında örgənmiyən heş gorunda da çalammıyjax.

82. Qız doğulanda deyəllər: qızı beşiyə, cehizi eşiyə.

83. Qızını döyməyən dizinə döyər.

84. Qonışu qızı göyülcənni[270] olur. *(Qonışu qızı bəyənilmir, oğlan gedib başqa yerdə qız axtarır).*

85. Qorxu cana kafərdi.

---

[269] Dınnax – balaca, azca

[270] Göyülcənni – bəyənilməyən

86. Qozbeli qavır da düzəltmer.

87. Lələ köçüf yurd ağlıyıf,
Dönüf-dönüf bir də ağlıyıf.

88. Nəəzerdin$_{ı}$ qapılarda kı, niyə də yarmaça[271] səni alerdı?

89. Nə taxda arxalan, nə baxta.

90. Nə umursan$_{ı}$ bajınnan, bajın ölür ajınnan.

91. O iti Allah vursun ki, döyülə-döyülə qoyuna gedir.

92. Oğlan evi qız gələnətən,
Qız evi ölənətən *(əziyyət çəkməlidir).*

93. Olmuyaydın qazı, ağrımıyeydı başın$_{ı}$.

94. Ölüm köhnə borşdu. Gej, ya tez hamı onu ödəməlidi.

95. Özgəyə buzov güdənin çatısı əlində qalar.

96. Özün basdırdığın$_{ı}$ ağaca söykən.

97. Pambıx deyiləm ki, alışıf yanam.

98. Parıya dəymə, pütünə dəymə, dorğa, doyuncax yi.

99. Pisin$_{ı}$i özgüyə vermə, ayıfdı, yaxşın$_{ı}$ı özgüyə vermə, hayıfdı.

100. Sadağa saraydan çıxmaz.

101. Salam verdih, borşdu çıxdıx zəvzəyə.

102. Saman tüşdü, Zaman öldü.

103. Sarı yağla yağlıyır,
Qaynar şişlə dağlıyır. *(Bir yandan əzizləyir, o biri yandan döyüb incidir).*

104. Sarımsax işdi-daşdı,
Soğan yalqız başdı.

105. Səbir eliyəjən, qavra edəjən, səbir eləmiyəjən, harya edəjən? *Yəni səbirsiz olsan, harda ölüb-itdiyin bilinməyəcək.*

106. Səhsən, doxsan, bir gün yoxsan$_{ı}$.

107. Səninçün qış sabaha qədərdi.

108. Sən almalı taladan gəlifsən$_{ı}$, mən p...lu küllühdən?!

---

[271] Yarmaça – yarılmış odun parçası

109. Siçan olmamış dağarcıx divi deşir.

110. Soruşa-soruşa Haja da gedəllər.

111. Sürüngən salamdan yüyrək köpəyoğlu yaxşıdı. *(Könülsüz salamdan, könüllü köpəyoğlu demək yaxşıdı).*

112. Sürünün çovanı özünnən olanda quzular ekiz olur.

113. Torvasına bax, duzunu al, anasına bax, qızını al.

114. Tülküyə dedilər, get yumşax tühlü bala gəti, getdi öz bazlasını ətdi.

115. Vələsin közü, varrının sözü.

116. Yağlı g...ə quyrux bağlıyıllar.

117. Yalanın mənzili olmaz.

118. Yaxşı qızı yaxşı yerə verəllər.

119. Yavaş eşşəyi cüt-cüt minəllər.

120. Yi daddını,
Gətir atdını. *(Yaxşıca ye ki, oğul doğasanı).*

121. Yiməh adamı iki eləmir, yekə eliyir.

122. Yoxsulu çəkəllər dar əyağına, varrını çəkəllər xan əyağına.

123. Yol kəsənin yolunu nə vaxsa Allah kəsir.

124. Yuxudan oyatdılar, başımın üsdə dağ boyda dərd gördüm.

125. Zərgərin yüz zərbəsi dəmirçinin bir zərbəsinə baravardı.

## DEYİMLƏR

1. Ağ ayranı itə tökəllər, qara kişmişi civə. *Qaraşın qızlara təsəlli vermək üçün işlədilən ifadədir.*
2. Ajam, ajam, öfkə ajı döyləm = Ajam, quyrux ajıyam, bağır-öfkə ajı döyləm. *İnsanın özünə hörmət qoyması anlamında işlədilir.*
3. Atdanan güllü bağa. *Adamın rahatlıq və gözəllik axtarışı ilə bağlı deyilən ifadədir.*
4. Ayran tapbır işməyə, çadralı gedir gəzməyə. *Kasıb, amma özündən razı, ədabaz adamlar haqqında işlədilən ifadədir.*
5. Bajıdı, özü də soğannan ajıdı. *Bacıdan narazı qaldıqda işlədilən ifadədir.*
6. Balağı batdax, davanı çatdax. *Pinti adam haqqında işlədilən ifadədir.*
7. Belimə qara un bağlıyıf. *Nə eləsəm, hörmətim yoxdu. Gəlinin qayınanadan narazılığını bildirmək üçün işlədilən ifadədir.*
8. Bəzəndi qaz, etdi naz. *Ədabaz, özündən razı insanlar haqqında deyilən ifadədir.*
9. Bizimki bazara qədər deyil, məzara qədərdi. *Sevgidə, dostluqda etibarı, sədaqəti bildirmək üçün işlədilir.*
10. Döyər, söyər ərim yox, yel aparası da öyüm yox. *Qadının heç nədən qorxub çəkinmədiyini bildirmək üçün işlədilən ifadədir.*
11. Elə elə qapına bir də soğana gəlsinnər. *Münasibətləri korlamamaq mənasında işlədilən ifadədir.*
12. Elə gözəldi yasdıx kimi. *Qadının ətli-qanlı və yaraşıqlı olmasını vurğulamaq üçün istifadə olunan ifadədir.*
13. Eləjə ölmüş eşşəh gəzellər nalını sökməyə. *Öz mənfəətini güdən, başqalarından sui-istifadə etməyə çalışan adamlar üçün işlədilən ifadədir.*

14. Filankəs yer qılışdıyır. *Bərk əsəbiləşən adam haqqında deyilir.*
15. Genə buludun g..ü (dalı) cırılıf. *Yağış çox yağanda işlədilən ifadədir.*
16. Haramın başı dağca olsa da, divi qılcadı. *Yəni haram mal yığılar, ancaq bir anda əldən çıxar.* = Yad oğlunun başı dağcağ olsa da, divi heş qılcax da döyül. *Yad adama etibar etmək olmaz mənasında işlədilir.*
17. Xoruzunu qoltuğuna vermək.

*Köhnə vaxtı elçi gedəndə oğlanı da apararmışlar. Oğlanın qoltuğuna bir xoruz verərmişlər. Oğlan xoruzu qoltuğuna alıb aparır, qıza verir, qız da aparıb bir küncə qoyurmuş. Əgər danışıq tutsa, qız evindən razılıq alınsa, xoruzu kəsirmişlər, hamısı yeyirmiş, danışıq tutmasa, qaytarıb xoruzu oğlanın qoltuğuna verirmişlər, aparıb gedirmiş.*

18. Koroğlu Koroğludu, onu da Giziroğlu suya basdı. *Heç kim məğlubedilməz deyil.*
19. Qoy qazan örtülü qaynasın. *Yəni söhbəti cox açıb-ağartmayaq.*
20. Nək[272] gələ, keçi qapıya tək gələ. *Yoldaşlı gedib tək qayıdan adamlara deyilir.*
21. Taylı dooşan kimi gəzer. *Həmişə bir yerdə gəzən iki nəfərə deyilir.*
22. Üzü qara qız kimi qayıtdı üsdümə. *Kimsə bir işi bacarmadıqda işlədilən ifadədir.*
23. Yanında tişini qurtdalıyası döy. *Sirr saxlamağı bacarmayan, boşboğaz adamlar haqqında işlədilən ifadədir.*
24. Yenə çərşənbə tonqalına dönmüsənı. *Bir insanla az-az görüşəndə işlənən ifadədir.*

[272] Nək – "tək" sözünə qafiyə yaratmaq üçün işlədilən sözdür. Ən çox uşaq oyunlarında işlədilir.

# MƏTNLƏRİN SÖYLƏYİCİLƏRİ

**Mifoloji mətnlər**

1. *Yerin-göyün binası.* Əhmədov Hüseyn, Şınıx kəndi
2. Əskərov Qədir, Kiçik Qaramurad kəndi
3. Həsənov Hüseyn, Fərzalı kəndi
4. Əhmədov Hüseyn, Şınıx kəndi
5. Allahverdiyev İsa, Gədəbəy şəhəri
6. Əskərov Qədir, Kiçik Qaramurad kəndi
7. Tağıyev Dəmir, Dəyirmandağ kəndi
8. Məmmədov Saməddin, Fərzalı kəndi
9. *Uğuzlar.* Allahverdiyev İsa, Gədəbəy şəhəri

10-13. Əsədov Mehdi, Gədəbəy şəhəri

14-15. *Hal.* Qurbanova Gülüzə, Mor-mor kəndi

16-17. Allahverdiyeva Raya, Gədəbəy şəhəri

18. Əliyev Səməndər, Əlismayıl kəndi
19. Hüseynov Səməd, Zəhmət kəndi
20. Tağıyeva Minayə, Göyəlli kəndi
21. Əliyeva Südabə, Gədəbəy şəhəri
22. Şamilov Mehman, Cəfərli kəndi
23. *Cin.* Hüseynov Səməd, Zəhmət kəndi
24. Qurbanova Gülüzə, Mor-mor kəndi
25. Quliyev İman, Arabaçı kəndi
26. Əsədov Mehdi, Gədəbəy şəhəri
27. Ələsgərqızı Mürəstə, İvanovka kəndi
28. Əliyev Səməndər, Əlismayıl kəndi
29. *Təpəgöz.* Ocaqverdiyeva Dilşad, Dəyirmandağ kəndi
30. *Əzrayıl.* Əsədov Mehdi, Gədəbəy şəhəri
31. *İlan.* Allahverdiyeva Raya, Gədəbəy şəhəri
32. Əsədov Mehdi, Gədəbəy şəhəri
33. Qasımova Reyhan, Gədəbəy şəhəri
34. Hüseynov Səməd, Zəhmət kəndi

35. *Hop-hop, Gültop, Nəsib, Yusuf.* Allahverdiyeva Raya, Gədəbəy şəhəri

36. Allahverdiyev İsa, Gədəbəy şəhəri

37. *Göyərçin.* Əsədov Mehdi, Gədəbəy şəhəri

38. *Məleykə gəlin.* Allahverdiyeva Raya, Gədəbəy şəhəri

39. *Qara paltarlı qadın.* İskəndərov İskəndər, Arıqıran kəndi

**Rəvayətlər**

**Peyğəmbərlər, dini şəxsiyyətlər, pirlər və ocaqlarla bağlı rəvayətlər**

1. *Nuh peyğəmbər.* Sadıqov Hüseyn, Əlismayıl kəndi

2. Hacıyev Qəzənfər, İvanovka kəndi

3. Tağıyev Dəmir, Dəyirmandağ kəndi

4. Şamilov Mehman, Cəfərli kəndi

5. *Süleyman peyğəmbər.* Sadıqov Hüseyn, Əlismayıl kəndi

6. *Xıdır peyğəmbər*. Qurbanova Rəhilə, Bakı şəhəri

7. *İsa peyğəmbər.* Həsənov Hüseyn, Fərzalı kəndi

8. *Musa peyğəmbər.* Məmmədov Saməddin, Fərzalı kəndi

9. *Məhəmməd peyğəmbər.* Nağıyeva Mərmər, Dəyirmandağ kəndi

10. Həsənov Şahmalı, Bakı şəhəri

11-12. *Həzrət Əli.* Əskərov Qədir, Kiçik Qaramurad kəndi

13. Ələsgərqızı Mürəstə, İvanovka kəndi

14-15. Sadıqov Hüseyn, Əlismayıl kəndi

16. *Haça qaya.* Əskərov Qədir, Kiçik Qaramurad kəndi

17. Allahverdiyev Novruzəli, Gədəbəy şəhəri

18. Tağıyev Nemət, Göyəlli kəndi

19. İskəndərov İskəndər, Arıqıran kəndi

20. *Seyid Gözəl.* Tağıyeva Minayə, Göyəlli kəndi

21. *Seyid Abbas.* Sadıqov Hüseyn, Əlismayıl kəndi

22. *Məşəd Ağa.* Qurbanov Qəzənfər, Mor-mor kəndi

23. *Molla Zeynalabdin.* Əskərov Qədir, Kiçik Qaramurad kəndi

**Müxtəlif mövzulu rəvayətlər**

24. *Allah bundan betərindən saxlasın.* Tağıyev Dəmir, Dəyirmandağ kəndi

25. *Əshabi-kəhf.* Əskərov Qədir, Kiçik Qaramurad kəndi

26. *Dağ Yunusun pulları.* Əliyev Səməndər, Əlismayıl kəndi

27. *Yaranmışam daşdan mən.* Abdullayev Zaman, Rüstəm Əliyev kəndi

28. *Loğman və şəyird.* Əskərov Qədir, Kiçik Qaramurad kəndi

29. *Sağalmaz xəstə.* Əskərov Qədir, Kiçik Qaramurad kəndi

30. *Daşa dönən çoban.* Tağıyev Dəmir, Dəyirmandağ kəndi

31. Allahverdiyeva Raya, Gədəbəy şəhəri

32. *Qeyb olan qız.* Sadıqov Hüseyn, Əlismayıl kəndi

33. *Malın köşəyi.* Əsədov Mehdi, Gədəbəy şəhəri

**Nağıllar**

1. *Qarğa ilə keçəl.* Qasımova Reyhan, Gədəbəy şəhəri

2. *Nardanxatın.* Qasımova Reyhan, Gədəbəy şəhəri

3. Bayramova Sürayyə, Arabaçı kəndi

4. *Qıllıca.* Qurbanova Gülüzə, Mor-mor kəndi

5. *Səbir daşı, qum bıçağı.* Qasımova Reyhan, Gədəbəy şəzhəri

6. *Məlikməhəmmədlə Məhəmməd.* Əskərov Qədir, Kiçik Qaramurad kəndi

7. *Nərbala.* İskəndərov Mehman, Qaradağ kəndi

8. *İki qardaş.* Əskərov Qədir, Kiçik Qaramurad kəndi

9. *Balıq bilməsə, Xaliq bilər.* Həsənov Şahmalı, Bakı şəhəri

10. Hüseynov Fərhad, Şınıx kəndi

11. *Padşah qızı və kasıb oğlan.* Qasımova Reyhan, Gədəbəy şəhəri

12. *Səxavətli qız.* Sadiqov Salman, Plankənd kəndi

13. *Tənbəl Əhməd.* İskəndərov Mehman, Qaradağ kəndi

14. *Dörd bacı.* Qurbanova Gülüzə, Mor-mor kəndi

15. *Şahzadə və alın yazısı.* Sadıqova Aysel, Fərzalı kəndi

16. *Yazıya pozu yoxdur.* Həsənov Hüseyn, Fərzalı kəndi

17. *Əzrayıl və tacir oğlu.* Abbasov Hümbət, Böyük Qaramurad kəndi

18. *Əzrayıl və çoban.* Tahirov Tahir, Gədəbəy şəhəri

19. *Üç ağıllı söz.* Tağıyev Mahir, Cəfərli kəndi

20. *Kösövün göyərməsi.* Həsənov Şahmalı, Bakı şəhəri

21. *Allahın ədaləti.* Tağıyev Dəmir, Dəyirmandağ kəndi

22. *Qocaların öldürülməsi.* Quliyev İman, Arabaçı kəndi

23. *İnsanın tamahı.* Sadıqov Hüseyn, Əlismayıl kəndi

24. *Padşah və çoban.* Nəbiyev Firudin, Arabaçı kəndi

25. *Padşah və çoxbilən.* Nəbiyev Firudin, Arabaçı kəndi

26. *Hefi ilə Sefi.* Qasımova Reyhan, Gədəbəy şəhəri

27. *Bal yedim, bəlaya düşdüm.* Tahirov Tahir, Gədəbəy şəhəri

28. *Ağıllı qardaşla dəli qardaş.* Tahirov Tahir, Gədəbəy şəhəri

29. *Sarımsağın qiyməti.* Həsənov Şahmalı, Bakı şəhəri

30. *Dad Xanpərinin əlindən.* Quliyev İman, Arabaçı kəndi

31. *Samanlıq toyu.* Quliyev İman, Arabaçı kəndi

32. *Qartal və qızılquş.* Nəbiyev Firudin, Arabaçı kəndi

**Lətifələr**

**Molla Nəsrəddin lətifələri**

1. *Kef mənim deyil?* Quliyev Nəriman, Boyük Qaramurad kəndi

2. *Sən məndən qeyrətlisən.* Quliyev Nəriman, Boyük Qaramurad kəndi

3. *Mənim qızıma yaraşır.* Nağıyev Məhəmməd, Dəyirmandağ kəndi

4. *Ondan bərk qaçar.* Allahverdiyev İsa, Gədəbəy şəhəri

5. *Molla Nəsrəddin və qəssab.* Sadıqov Hüseyn, Əlismayıl kəndi

**Ayrım lətifələri**

6. *İndicə öldürmədimmi?* Tağıyev Mahir, Cəfərli kəndi

7. *Qarpız ağacı nə boyda imiş?* Tağıyev Mahir, Cəfərli kəndi

8. *Ayrım və rus.* Tağıyev Mahir, Cəfərli kəndi

9. *Adin arı vız, druqoy arı dız.* Novruzova Səriyyə, Gədəbəy şəhəri

10. *Hünərin var, çək.* Novruzova Səriyyə, Gədəbəy şəhəri

11. *Bəs uşaqlar nədir?* Abdullayeva Gülnaz, Zəhmət kəndi

**Gədəbəyin baməzə adamları**

12. *Səninki pulsuzdur.* Quliyev Nəriman, Boyük Qaramurad kəndi

13. *Xalastoya salmışam.* Quliyev Nəriman, Boyük Qaramurad kəndi

14. *Un, üstəlik də qoç əti.* İmanquliyev Dəmir, Böyük Qaramurad kəndi

15. *Səriyyə hamama gedir.* Alıyeva Mərizə, Şəkərbəy kəndi

16. *Qaloşları eşikdə çıxartmışam.* Alıyeva Mərizə, Şəkərbəy kəndi

17. *Qonağın var?* Alıyeva Mərizə, Şəkərbəy kəndi

18. *Cinli Səriyyə.* Alıyeva Mərizə, Şəkərbəy kəndi

**Müxtəlif mövzulu lətifələr**

19. *Olsa, yaxşıdır.* Alıyeva Zöhra, Dəyirmandağ kəndi

20. *Həsən çarığını tapdı*. Həsənov Bəşir, Mor-Mor kəndi

21. *Qanmaz qızı qanmaz.* Abdullayev Zaman, Rüstəm Əliyev kəndi

22. *Ucuz ətin şorbası olmaz.* Allahverdiyeva Raya, Gədəbəy şəhəri

23. *Bizə də xəbər verərdin.* Verdiyeva Xədicə, Gədəbəy şəhəri

24. *Heç qayıtma.* Abdullayeva Gülnaz, Zəhmət kəndi

25. *Appanı ye, oppa gedək.* Qasımova Reyhan, Gədəbəy şəhəri

26. *Qırx ildir baxıram.* Abbasov Hümbət, Böyük Qaramurad kəndi

27. *İki qardaşla bir kürd.* Tahirov Tahir, Gədəbəy şəhəri

28. *Sənə xəbər eləmədimmi?* Əsədov Mehdi, Gədəbəy şəhəri

29. *Nə qədər istəyirsən, iç.* Tağıyev Mahir, Cəfərli kəndi

30. *Saman düşdü, Zaman öldü.* Tağıyev Mahir, Cəfərli kəndi

**Aşıqlar**

1. *Aşıq Ələsgər və Şəmkirli Aşıq Hüseyn.* Qurbanova Rəhilə, Bakı şəhəri

2. Hacıyev Qəzənfər, İvanovka kəndi

3. *Aşıq Ələsgərin Naxçıvan səfəri.* Quliyev Nəriman, Böyük Qaramurad kəndi

4. *Aşıq Ələsgərin Xınna səfəri.* Abbasov Hümbət, Böyük Qaramurad kəndi

5. Şamilov Mehman, Cəfərli kəndi

6. *Yolçuların aşığı tanıması.* İskəndərov İskəndər, Arıqıran kəndi

7. *"Aparır" rədifli şeirin yaranması.* İskəndərov İskəndər, Arıqıran kəndi

8. *Aşıq Ələsgər və çəkməçi.* Əliyev Səməndər, Əlismayıl kəndi

9. *Yumrusunu gətirim, yastısını?* Ələkbərov Razim, Fərzalı kəndi

10. *Aşıq Ələsgərlə bağlı daha bir əhvalat.* Əliyev Səməndər, Əlismayıl kəndi

11. *Növrəs İman.* Əliyev Əli, Bakı şəhəri

12. Quliyev Nəriman, Böyük Qaramurad kəndi

**Etnoqrafik mətnlər**

1. *Xıdır Nəbi.* Qarayeva Sürayyə, Arıqıran kəndi
2. Tağıyeva Minayə,  Göyəlli kəndi
3. Şahnazarov Tanrıverdi, Şınıx kəndi
4. Allahverdiyeva Raya, Gədəbəy şəhəri
5. Əliyev Səməndər, Əlismayıl kəndi
6. Ələsgərqızı Mürəstə, İvanovka kəndi
7. Qurbanova Rəhilə, Bakı şəhəri
8. *Çillələr.* Bayramova Sürayyə, Arabaçı kəndi

9-10. *Çərşənbələr.* Qarayeva Sürayyə, Arıqıran kəndi

11. Alıyeva Zöhra, Dəyirmandağ kəndi
12. Əsədov Mehdi, Gədəbəy şəhəri
13. Tağıyev Səməd, Qarabağlı kəndi

14-15. Bayramova Sürayyə, Arabaçı kəndi

16. *Novruz falları.* Kərimova Səkinə, Söyüdlü kəndi
17. *Bəxti bayram.* İskəndərov İskəndər, Arıqıran kəndi
18. *Ayın tutulması.* Əliyeva Südabə, Gədəbəy şəhəri
19. *Təknədə kökə saxlama.* Allahverdiyeva Raya, Gədəbəy şəhəri
20. *Həmzad.* Qurbanova Gülüzə, Mor-mor kəndi
21. *Qırx tökmə.* Bayramova Leyla, Mor-mor kəndi
22. Əliyeva Südabə, Gədəbəy şəhəri

23-24. *Bədnəzər.* Qasımova Reyhan, Gədəbəy şəhəri

25. Allahverdiyev Novruzəli, Gədəbəy şəhəri

26-27. Aşıq İslam, Çalburun kəndi

28-29. Alıyeva Zöhra, Dəyirmandağ kəndi

30-32. *Üzərlik.* Əliyeva Südabə, Gədəbəy şəhəri

33. *Qorxuluğu götürmə.* Allahverdiyev Novruzəli, Gədəbəy şəhəri
34. Qasımova Reyhan, Gədəbəy şəhəri

35-37. Allahverdiyev İsa, Gədəbəy şəhəri

38. Alıyeva Zöhra, Dəyirmandağ kəndi
39. Allahverdiyev Novruzəli, Gədəbəy şəhəri

40. *İlan ağzı bağlama.* Tağıyev Bəylər, Daryurd kəndi
41. *Qurd ağzı bağlama.* Nəcəfova Güldəstə, Dəyirmandağ kəndi
42. *Dil-ağız bağlama.* Qasımova Reyhan, Gədəbəy şəhəri
43. *Qurd yağı.* Allahverdiyeva Raya, Gədəbəy şəhəri
44. Tağıyev Dəmir, Dəyirmandağ kəndi
45. *Tas qurma.* Əsədov Mehdi, Gədəbəy şəhəri
46. *Yel xəstəliyi.* Sadıqov Hüseyn, Əlismayıl kəndi
47-48. *Külək kəsdirmə.* Allahverdiyeva Raya, Gədəbəy şəhəri
49. Ələsgərqızı Mürəstə, İvanovka kəndi
50. *Yağış, dolu kəsdirmə.* Allahverdiyeva Raya, Gədəbəy şəhəri
51. Əliyeva Südabə, Gədəbəy şəhəri
52. İskəndərov İskəndər, Arıqıran kəndi
53. Əskərov Qədir, Kiçik Qaramurad kəndi
54. Tağıyev Dəmir, Dəyirmandağ kəndi
55. *Yağış yağdırma.* İskəndərov İskəndər, Arıqıran kəndi
56-57. Əliyev Səməndər, Əlismayıl kəndi
58. *Vurğun vurma.* Qurbanova Rəhilə, Bakı şəhəri
59. Qarayeva Sürayyə, Arıqıran kəndi
60. Tağıyeva Minayə, Göyəlli kəndi
61. *Çor xəstəliyi.* Qurbanova Rəhilə, Bakı şəhəri
62. *Toy adətləri.* Allahverdiyev Novruzəli, Gədəbəy şəhəri
63. Əsədov Mehdi, Gədəbəy şəhəri
64. Allahverdiyeva Raya, Gədəbəy şəhəri
65. İskəndərov İskəndər, Arıqıran kəndi
66. *Yas adətləri.* Allahverdiyeva Raya, Gədəbəy şəhəri
67. Əsədov Mehdi, Gədəbəy şəhəri
68. Əliyeva Südabə, Gədəbəy şəhəri
69. Allahverdiyeva Raya, Gədəbəy şəhəri

**Bayatılar**
1-11. Qurbanova Gülüzə, Mor-mor kəndi
12-54. Verdiyeva Məryam, Qumlu kəndi
55-64. Mustafayev Eyvaz, İsalı kəndi
65-80. Əliyeva Südabə, Gədəbəy şəhəri
81-87. Allahverdiyeva Fatma, Gədəbəy şəhəri
88-93. Tağıyeva Reybə, Tağılar kəndi
94. Mehdiyeva Səhər, Tağılar kəndi
95-96. Sadıqova Kimya, Tağılar kəndi
97-100. Bayramova Leyla, Mor-mor kəndi
101-108. Quliyeva Məlahət, Yenikənd kəndi
109. Qarayeva Sürayyə, Arıqıran kəndi
110-111. Qarayeva Telli, Arıqıran kəndi
112-115. Tağıyeva Minayə, Göyəlli kəndi
116-117. Novruzova Səriyyə, Gədəbəy şəhəri
118-120. Əskərov Qədir, Kiçik Qaramurad kəndi
121-129. Həsənova Zəhra, İvanovka kəndi
130-131. Ələsgərqızı Mürəstə, İvanovka kəndi
132-135. Cavadova Solmaz, Şəkərbəy kəndi
136-152. Quliyeva Qəmər, Gədəbəy şəhəri
153-166. Tağıyev Bəylər, Daryurd kəndi
167-196. Qasımova Reyhan, Gədəbəy şəhəri
197-202. Rüstəmova Südabə, Gədəbəy şəhəri
203-204. Alıyeva Zöhra, Dəyirmandağ kəndi

**Sayaçı sözləri**
1-4. Həsənova Zəhra, İvanovka kəndi

**Tapmacalar**
1-4. Sadıqova Kimya, Tağılar kəndi
5. Quliyeva Məlahət, Yenikənd kəndi
6. Tağıyev Bəylər, Daryurd kəndi
7-14. Qurbanova Gülüzə, Mor-mor kəndi

15-20. Əskərov Qədir, Kiçik Qaramurad kəndi

**Atalar sözləri və məsəllər**

1. Qasımova Reyhan, Gədəbəy şəhəri
2. Nəbiyeva Dilbər, Daryurd kəndi
3-4. Qasımova Reyhan, Gədəbəy şəhəri
5. Bayramova Sürayyə, Arabaçı kəndi
6-8. Qasımova Reyhan, Gədəbəy şəhəri
9. Nəbiyeva Dilbər, Daryurd kəndi
10-13. Qasımova Reyhan, Gədəbəy şəhəri
14-15. Bayramova Sürayyə, Arabaçı kəndi
16-19. Qasımova Reyhan, Gədəbəy şəhəri
20. Nəbiyeva Dilbər, Daryurd kəndi
21-27. Qasımova Reyhan, Gədəbəy şəhəri
28-29. Nəbiyeva Dilbər, Daryurd kəndi
30. Qasımova Reyhan, Gədəbəy şəhəri
31-32. Allahverdiyev Novruzəli, Gədəbəy şəhəri
33-35. Qasımova Reyhan, Gədəbəy şəhəri
36-37. Nəbiyeva Dilbər, Daryurd kəndi
38-41. Qasımova Reyhan, Gədəbəy şəhəri
42-43. Qurbanova Gülüzə, Mor-Mor kəndi
44-47. Qasımova Reyhan, Gədəbəy şəhəri
48-49. Nəbiyeva Dilbər, Daryurd kəndi
50-53. Qasımova Reyhan, Gədəbəy şəhəri
54. Sadıqov Hüseyn, Əlismayıl kəndi
55-57. Qasımova Reyhan, Gədəbəy şəhəri
58-59. Nəbiyeva Dilbər, Daryurd kəndi
60. Qasımova Reyhan, Gədəbəy şəhəri
61. Bayramova Sürayyə, Arabaçı kəndi
62. Qasımova Reyhan, Gədəbəy şəhəri
63-64. Nəbiyeva Dilbər, Daryurd kəndi
65-67. Qasımova Reyhan, Gədəbəy şəhəri
68. Nəbiyeva Dilbər, Daryurd kəndi

69-70. Qasımova Reyhan, Gədəbəy şəhəri
71. Bayramova Sürayyə, Arabaçı kəndi
72-74. Qasımova Reyhan, Gədəbəy şəhəri
75-77. Nəbiyeva Dilbər, Daryurd kəndi
78-80. Qasımova Reyhan, Gədəbəy şəhəri
81. Nəbiyeva Dilbər, Daryurd kəndi
82-84. Qasımova Reyhan, Gədəbəy şəhəri
85. Nəbiyeva Dilbər, Daryurd kəndi
86. Bayramova Sürayyə, Arabaçı kəndi
87. Ələkbərov Razim, Fərzalı kəndi
88. Nəbiyeva Dilbər, Daryurd kəndi
89-92. Qasımova Reyhan, Gədəbəy şəhəri
93. Nəbiyeva Dilbər, Daryurd kəndi
94-97. Qasımova Reyhan, Gədəbəy şəhəri
98. Bayramova Sürayyə, Arabaçı kəndi
99. Nəbiyeva Dilbər, Daryurd kəndi
100-101. Qasımova Reyhan, Gədəbəy şəhəri
102. Nəbiyeva Dilbər, Daryurd kəndi
103-104. Qasımova Reyhan, Gədəbəy şəhəri
105. Nəbiyeva Dilbər, Daryurd kəndi
106-107. Qasımova Reyhan, Gədəbəy şəhəri
108. Nəbiyeva Dilbər, Daryurd kəndi
109. Qasımova Reyhan, Gədəbəy şəhəri
110. Nəbiyeva Dilbər, Daryurd kəndi
111-112. Qasımova Reyhan, Gədəbəy şəhəri
113. Bayramova Sürayyə, Arabaçı kəndi
114-115. Nəbiyeva Dilbər, Daryurd kəndi
116. Qasımova Reyhan, Gədəbəy şəhəri
117-119. Bayramova Sürayyə, Arabaçı kəndi
120-122. Qasımova Reyhan, Gədəbəy şəhəri
123. Kərimova Səkinə, Söyüdlü kəndi
124-125. Qasımova Reyhan, Gədəbəy şəhəri

**Deyimlər**

1. Abdullayev Zaman, Rüstəm Əliyev kəndi
2-4. Qasımova Reyhan, Gədəbəy şəhəri
5. Qurbanova Gülüzə, Mor-mor kəndi
6. Qasımova Reyhan, Gədəbəy şəhəri
7. Nəbiyeva Dilbər, Daryurd kəndi
8-9. Qasımova Reyhan, Gədəbəy şəhəri
10. Qurbanova Gülüzə, Mor-mor kəndi
11. Bayramova Sürayyə, Arabaçı kəndi
12-13. Nəbiyeva Dilbər, Daryurd kəndi
14. Qasımova Reyhan, Gədəbəy şəhəri
15. Nəbiyeva Dilbər, Daryurd kəndi
16. Qasımova Reyhan, Gədəbəy şəhəri
17. İmanquliyev Dəmir, Böyük Qaramurad kəndi
18. Nəbiyeva Dilbər, Daryurd kəndi
19. Qasımova Reyhan, Gədəbəy şəhəri
20-23. Nəbiyeva Dilbər, Daryurd kəndi
24. Qasımova Reyhan, Gədəbəy şəhəri

# SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT

Abbasov Hümbət Səyad oğlu, doğum tarixi 1930, orta təhsilli, yerli, Böyük Qaramurad kəndi. Mətnlər 2013-cü ildə toplanıb. *Söylədiyi mətnlər:* Nağıllar – 17; Lətifələr – 26; Aşıqlar – 4. *Topladı: Ramiz Ələkbərov*

Abdullayev Zaman Cavad oğlu, doğum tarixi 1920, dil-ədəbiyyat müəllimi, yerli, Rüstəm Əliyev kəndi. Mətnlər 2012-2014-cü illərdə toplanıb. *Söylədiyi mətnlər:* Rəvayətlər – 27; Lətifələr – 21; Deyimlər – 1. *Topladı: Gülnarə Tahirova*

Abdullayeva Gülnaz Əmiraslan qızı, doğum tarixi 1962, orta təhsilli, evdar qadın, gəlmə, Zəhmət kəndi. Mətnlər 2012-2014-cü illərdə toplanıb. *Söylədiyi mətnlər:* Lətifələr – 11, 24. *Topladı: Gülnarə Tahirova*

Allahverdiyev İsa Allahverən oğlu, doğum tarixi 1928, orta təhsilli, Gədəbəy şəhəri. Mətnlər 2012-ci ildə toplanıb. *Söylədiyi mətnlər:* Mifoloji mətnlər – 5, 9, 36; Lətifələr – 4; Etnoqrafik mətnlər – 35-37. *Topladı: Ramin Allahverdiyev*

Allahverdiyev Novruzəli İsa oğlu, doğum tarixi 1957, orta təhsilli, Gədəbəy şəhəri. Mətnlər 2012-ci ildə toplanıb. *Söylədiyi mətnlər:* Rəvayətlər – 17; Etnoqrafik mətnlər – 25, 33, 39, 62; Atalar sözləri və məsəllər – 31-32. *Topladı: Elçin Qaliboğlu (İmaməliyev)*

Allahverdiyeva Fatma Qədim qızı, doğum tarixi 1932, bağçada işləyib, Gədəbəy şəhəri. Mətnlər 2012-2014-cü illərdə toplanıb. *Söylədiyi mətnlər*: Bayatılar – 81-87. *Topladı: Gülnarə Tahirova*

Allahverdiyeva Raya İsmayıl qızı, doğum tarixi 1954, orta təhsilli, Gədəbəy şəhəri. Mətnlər 2012-ci ildə toplanıb. *Söylədiyi*

*mətnlər:* Mifoloji mətnlər – 16-17, 31, 35, 38; Rəvayətlər – 31; Lətifələr – 22; Etnoqrafik mətnlər – 4, 19, 43, 47-48, 50, 64, 66, 69. *Topladı: Elçin Qaliboğlu (İmaməliyev)*

Alıyeva Zöhra Oruc qızı, doğum tarixi 1932, orta təhsilli, Dəyirmandağ kəndi. Mətnlər 2012-ci ildə toplanıb. *Söylədiyi mətnlər:* Lətifələr – 19; Etnoqrafik mətnlər – 11, 28-29, 38; Bayatılar – 203-204. *Topladı: Ramin Allahverdiyev*

Alıyeva Mərizə Hüseyn qızı, doğum tarixi 1962, Şəkərbəy kəndi. Mətnlər 2012-2014-cü illərdə toplanıb. *Söylədiyi mətnlər:* Lətifələr – 15-18. *Topladı: Gülnarə Tahirova*

Aşıq İslam, Çalburun kəndi. Mətnlər 1984-1989-cu illərdə toplanıb. *Söylədiyi mətnlər:* Etnoqrafik mətnlər – 26-27. *Topladı: Muxtar Kazımoğlu (İmanov)*

Bayramova Sürayyə Qələndər qızı, doğum tarixi 1956, doğum yeri Mor-mor kəndi, yaşayış yeri Arabaçı kəndi. Mətnlər 2014-cü ildə toplanıb. *Söylədiyi mətnlər:* Nağıllar – 3; Etnoqrafik mətnlər – 8, 14-15; Atalar sözləri və məsəllər – 5, 14-15, 61, 71, 86, 98, 113, 117-119; Deyimlər – 11. *Topladı: Aynur Qəzənfərqızı*

Bayramova Leyla Nəməstan qızı, doğum tarixi 1928, Mor-mor kəndi. Mətnlər 2010-cu ildə toplanıb. *Söylədiyi mətnlər:* Etnoqrafik mətnlər – 21; Bayatılar – 97-100. *Topladı: Aynur Qəzənfərqızı*

Cavadova Solmaz Hümbət qızı, doğum tarixi 1934, Şəkərbəy kəndi. Mətnlər 2012-2014-cü illərdə toplanıb. *Söylədiyi mətnlər:* Bayatılar – 132-135. *Topladı: Gülnarə Tahirova*

Əhmədov Hüseyn, doğum tarixi 1933, Şınıx kəndi. Mətnlər 2013-cü ildə toplanıb. *Söylədiyi mətnlər:* Mifoloji mətnlər – 1, 4. *Topladı: Aynur Qəzənfərqızı*

Ələkbərov Razim, doğum tarixi 1959, Fərzalı kəndi. Mətnlər 2013-cü ildə toplanıb. *Söylədiyi mətnlər:* Aşıqlar – 9; Atalar sözləri və məsəllər – 87. *Topladı: Aynur Qəzənfərqızı*

Ələsgərqızı Mürəstə, 98 yaşında, təhsilsiz, doğum yeri Şınıx kəndi, yaşayış yeri İvanovka kəndi. Mətnlər 1997-ci ildə toplanıb. *Söylədiyi mətnlər:* Mifoloji mətnlər – 27; Rəvayətlər – 13; Etnoqrafik mətnlər – 6, 49; Bayatılar – 130-131. *Topladı: Zəfər Fərhadov*

Əliyev Səməndər İsmayıl oğlu, doğum tarixi 1895, təhsilsiz, Əlismayıl kəndi (köhnə adı Alnabat). Mətnlər 1997-ci ildə toplanıb. *Söylədiyi mətnlər:* Mifoloji mətnlər – 18, 28; Rəvayətlər – 26; Aşıqlar – 8, 10; Etnoqrafik mətnlər – 5, 56-57. *Topladı: Zəfər Fərhadov*

Əliyev Əli Musa oğlu, doğum tarixi 1949, ali təhsilli, yerli, doğum yeri Böyük Qaramurad kəndi, yaşayış yeri Bakı şəhəri. Mətn 2013-cü ildə toplanıb. *Söylədiyi mətn:* Aşıqlar – 11. *Topladı: Ramiz Ələkbərov*

Əliyeva Südabə İbrahim qızı, doğum tarixi 1937, evdar qadın, satıcı-müdir işləyib, yerli, Gədəbəy şəhəri. Mətnlər 2012-2014-cü illərdə toplanıb. *Söylədiyi mətnlər:* Mifoloji mətnlər – 21, Etnoqrafik mətnlər – 18, 22, 30-32, 51, 68; Bayatılar – 65-80. *Topladı: Gülnarə Tahirova*

Əsədov Mehdi Oruc oğlu, doğum tarixi 1935, orta təhsilli, doğum yeri Qərbi Azərbaycanın Kotayık (Kənəkir) rayonunun Məngüs kəndi, 1948-ci ildən Gədəbəy şəhərində yaşayır, sürücü işləyir. Mətnlər 2013-cü ildə toplanıb. *Söylədiyi mətnlər:* Mifoloji mətnlər – 10-13, 26, 30, 32, 37; Rəvayətlər – 33; Lətifələr – 28; Etnoqrafik mətnlər – 12, 45, 63, 67. *Topladı: Elçin Qaliboğlu (İmaməliyev)*

Əskərov Qədir Bayram oğlu, 96 yaş, təhsilsiz, Kiçik Qaramurad kəndi. Mətnlər 1997-ci ildə toplanıb. *Söylədiyi mətnlər:* Mifoloji mətnlər – 2, 6; Rəvayətlər – 11-12, 16, 23, 25, 28, 29; Nağıllar – 6, 8; Etnoqrafik mətnlər – 53; Bayatılar – 118-120; Tapmacalar – 15-20. *Topladı: Zəfər Fərhadov*

Hacıyev Qəzənfər Hüseyn oğlu, doğum tarixi 1945, orta təhsilli, İvanovka kəndi. Mətnlər 1997-ci ildə toplanıb. *Söylədiyi mətnlər:* Rəvayətlər – 2; Aşıqlar – 2. *Topladı: Zəfər Fərhadov*

Həsənova Zəhra, doğum tarixi 1926, təhsilsiz, İvanovka kəndi. Mətnlər 1997-ci ildə toplanıb. *Söylədiyi mətnlər:* Bayatılar – 121-129; Sayaçı sözləri – 1-4. *Topladı: Zəfər Fərhadov*

Həsənov Bəşir Mansur oğlu, doğum tarixi 1927, Mor-Mor kəndi. Mətn 2010-cu ildə toplanıb. *Söylədiyi mətn:* Lətifələr – 20. *Topladı: Aynur Qəzənfərqızı*

Həsənov Şahmalı Məhər oğlu, doğum tarixi 1950, ali təhsilli, doğum yeri Miskinli kəndi, yaşayış yeri Bakı şəhəri. Mətnlər 2013-cü ildə toplanıb. *Söylədiyi mətnlər:* Rəvayətlər – 10; Nağıllar – 9, 20, 29. *Topladı: Ramiz Ələkbərov*

Həsənov Hüseyn, doğum tarixi 1954, Fərzalı kəndi. Mətnlər 2013-cü ildə toplanıb. *Söylədiyi mətnlər:* Mifoloji mətnlər – 3; Rəvayətlər – 7; Nağıllar – 16. *Topladı: Aynur Qəzənfərqızı*

Hüseynov Səməd İsgəndər oğlu, doğum tarixi 1927, Zəhmət kəndi. Mətnlər 1984-1989-cu illərdə toplanıb. *Söylədiyi mətnlər:* Mifoloji mətnlər – 19, 23, 34. *Topladı: Muxtar Kazımoğlu (İmanov)*

Hüseynov Seyid Fərhad Səməd oğlu, doğum tarixi 1937, 8-ci sinfədək oxuyub, Şınıx kəndi. Mətn 2012-ci ildə toplanıb. *Söylədiyi mətn:* Nağıllar – 10. *Topladı: Səbinə İsayeva*

İmanquliyev Dəmir Qasım oğlu, doğum tarixi 1938, orta təhsilli, yerli, Böyük Qaramurad kəndi. Mətnlər 2013-cü ildə toplanıb. *Söylədiyi mətnlər:* Lətifələr – 14; Deyimlər – 17. *Topladı: Ramiz Ələkbərov*

İskəndərov İskəndər Ziyad oğlu (aşıq), doğum tarixi 1947, orta təhsilli, yerli, Arıqıran kəndi. Mətnlər 2013-cü ildə toplanıb. *Söylədiyi mətnlər:* Mifoloji mətnlər – 39; Rəvayətlər – 19; Aşıqlar – 6, 7; Etnoqrafik mətnlər – 17, 52, 55, 65. *Topladı: Ramiz Ələkbərov*

İskəndərov Mehman Qədim oğlu, doğum tarixi 1945, orta təhsilli, Qaradağ kəndi. Mətnlər 2012-ci ildə toplanıb. *Söylədiyi mətnlər:* Nağıllar – 7, 13. *Topladı: Ramin Allahverdiyev*

Kərimova Səkinə Bayram qızı, doğum tarixi 1950, evdar qadın, Söyüdlü kəndi. Mətnlər 2012-2014-cü illərdə toplanıb. *Söylədiyi mətnlər:* Etnoqrafik mətnlər – 16; Atalar sözləri və məsəllər – 123. *Topladı: Gülnarə Tahirova*

Qarayeva Sürayyə, doğum tarixi 1945, Arıqıran kəndi. Mətnlər 2014-cü ildə toplanıb. *Söylədiyi mətnlər:* Etnoqrafik mətnlər – 1, 9-10, 59; Bayatılar – 109. *Topladı: Aynur Qəzənfərqızı*

Qarayeva Telli Mahmud qızı, doğum tarixi 1978, Arıqıran kəndi. Mətnlər 2014-cü ildə toplanıb. *Söylədiyi mətnlər:* Bayatılar – 110-111. *Topladı: Aynur Qəzənfərqızı*

Qasımova Reyhan Behbud qızı, doğum tarixi 1906, ibtidai təhsilli, Gədəbəy şəhəri, 1990-cı ildə rəhmətə gedib. Mətnlər 1984-1989-cu illərdə toplanıb. *Söylədiyi mətnlər:* Mifoloji mətnlər – 33; Nağıllar – 1, 2, 5, 11, 26; Lətifələr – 25; Etnoqrafik mətnlər – 23-24, 34, 42; Bayatılar – 167-196; Atalar sözləri və

məsəllər – 1, 3-4, 6-8, 10-13, 16-19, 21-27, 30, 33-35, 38-41, 44-47, 50-53, 55-57, 60, 62, 65-67, 69-70, 72-74, 78-80, 82-84, 89-92, 94-97, 100-101, 103-104, 106-107, 109, 111-112, 116, 120-122, 124-125; Deyimlər – 2-4, 6, 8-9, 14, 16, 19, 24. *Topladı: Muxtar Kazımoğlu (İmanov)*

Quliyev İman, doğum tarixi 1947, Arabaçı kəndi. Mətnlər 2013-cü ildə toplanıb. *Söylədiyi mətnlər:* Mifoloji mətnlər – 25; Nağıllar – 22, 30, 31. *Topladı: Aynur Qəzənfərqızı*

Quliyev Nəriman Qədim oğlu, doğum tarixi 1939, orta təhsilli, yerli, Boyük Qaramurad kəndi. Mətnlər 2013-cü ildə toplanıb. *Söylədiyi mətnlər:* Lətifələr – 1, 2, 12, 13; Aşıqlar – 3, 12. *Topladı: Ramiz Ələkbərov*

Quliyeva Qəmər Kazım qızı, doğum tarixi 1933, Gədəbəy şəhəri. Mətnlər 1984-1989-cu illərdə toplanıb. *Söylədiyi mətnlər:* Bayatılar – 136-152. *Topladı: Muxtar Kazımoğlu (İmanov)*

Quliyeva Məlahət Əli qızı, doğum tarixi 1967, orta təhsilli, Yenikənd kəndi (köhnə adı Quldurlu). Mətnlər 2012-2014-cü illərdə toplanıb. *Söylədiyi mətnlər:* Bayatılar – 101-108; Tapmacalar – 5. *Topladı: Gülnarə Tahirova*

Qurbanova Gülüzə Məhəmməd qızı, doğum tarixi 1916, doğum yeri Göyçə mahalı Toxluca kəndi, yaşayış yeri Mor-mor kəndi. Mətnlər 2010-2015-ci illərdə toplanıb. *Söylədiyi mətnlər:* Mifoloji mətnlər – 14-15, 24; Nağıllar – 4, 14; Etnoqrafik mətnlər – 20; Bayatılar – 1-11; Tapmacalar – 7-14; Atalar sözləri və məsəllər – 42-43; Deyimlər – 5, 10. *Topladı: Aynur Qəzənfərqızı*

Qurbanova Rəhilə Firudin qızı, doğum tarixi 1957, ali təhsilli, coğrafiya müəllimi işləyib, doğum yeri Arabaçı kəndi,

yaşayış yeri Bakı şəhəri. Mətnlər 2013-cü ildə toplanıb. *Söylədiyi mətnlər:* Rəvayətlər – 6; Aşıqlar – 1; Etnoqrafik mətnlər – 7, 58, 61. *Topladı: Aynur Qəzənfərqızı*

Qurbanov Qəzənfər Qələndər oğlu, doğum tarixi 1951, doğum yeri Mor-mor kəndi, yaşayış yeri Bakı şəhəri. Mətn 2010-cu ildə toplanıb. *Söylədiyi mətn:* Rəvayətlər – 22. *Topladı: Aynur Qəzənfərqızı*

Mehdiyeva Səhər Məcid qızı, doğum tarixi 1937, Tağılar kəndi. Mətn 2014-cü ildə toplanıb. *Söylədiyi mətn:* Bayatılar – 94. *Topladı: Aynur Qəzənfərqızı*

Məmmədov Saməddin, doğum tarixi 1951, doğum yeri Şınıx kəndi, yaşayış yeri Fərzalı kəndi. Mətnlər 2013-cü ildə toplanıb. *Söylədiyi mətnlər:* Mifoloji mətnlər – 8; Rəvayətlər – 8. *Topladı: Aynur Qəzənfərqızı*

Mustafayev Eyvaz Bəşir oğlu, doğum tarixi 1939, İsalı kəndi. Mətnlər 2013-cü ildə toplanıb. *Söylədiyi mətnlər:* Bayatılar – 55-64. *Topladı: Aynur Qəzənfərqızı*

Nağıyeva Mərmər Səməd qızı, doğum tarixi 1930, təhsilsiz, yerli, Dəyirmandağ kəndi. (Rəhmətə gedib, mətn şəxsi dəftərindən götürülüb). *Söylədiyi mətn:* Rəvayətlər – 9. *Topladı: Gülnarə Tahirova*

Nağıyev Məhəmməd Aslan oğlu, doğum tarixi 1929, müəllim, Dəyirmandağ kəndi. Mətn 2012-ci ildə toplanıb. *Söylədiyi mətn:* Lətifələr – 3. *Topladı: Gülnarə Tahirova*

Nəbiyev Firudin Əli oğlu, doğum tarixi 1932, Arabaçı kəndi. (Mətnlər şəxsi dəftərindən götürülüb). *Söylədiyi mətnlər:* Nağıllar – 24, 25, 32. *Topladı: Aynur Qəzənfərqızı*

Nəbiyeva Dilbər Nəsib qızı, doğum tarixi 1976, orta təhsilli, Daryurd kəndi. Mətnlər 2010-2015-ci illərdə toplanıb. *Söylədiyi mətnlər:* Atalar sözləri və məsəllər – 2, 9, 20, 28-29, 36-37, 48-49, 58-59, 63-64, 68, 75-77, 81, 85, 88, 93, 99, 102, 105, 108, 110, 114-115; Deyimlər – 7, 12-13, 15, 18, 20-23. *Topladı: Aynur Qəzənfərqızı*

Nəcəfova Güldəstə Oruc qızı, doğum tarixi 1930, orta təhsilli, Dəyirmandağ kəndi. Mətn 2012-ci ildə toplanıb. *Söylədiyi mətn:* Etnoqrafik mətnlər – 41. *Topladı: Ramin Allahverdiyev*

Novruzova Səriyyə Məhəmməd qızı, doğum tarixi 1935, doğum yeri Göyçə mahalı Kəsəmən kəndi, yaşayış yeri Gədəbəy şəhəri. Mətnlər 2012-2014-cü illərdə toplanıb. *Söylədiyi mətnlər:* Lətifələr – 9-10; Bayatılar – 116-117. *Topladı: Gülnarə Tahirova*

Ocaqverdiyeva Dilşad Heydərəli qızı, doğum tarixi 1937, orta təhsilli, Dəyirmandağ kəndi. Mətn 2012-ci ildə toplanıb. *Söylədiyi mətn:* Mifoloji mətnlər – 29. *Topladı: Ramin Allahverdiyev*

Rüstəmova Südabə İbrahim qızı, doğum tarixi 1937, evdar qadın, Gədəbəy şəhəri. Mətnlər 2012-2014-cü illərdə toplanıb. *Söylədiyi mətnlər:* Bayatılar – 197-202. *Topladı: Gülnarə Tahirova*

Sadıqov Hüseyn İbrahim oğlu, doğum tarixi 1904, təhsilsiz, Əlismayıl kəndi. Mətnlər 1997-ci ildə toplanıb. *Söylədiyi mətnlər:* Rəvayətlər – 1, 5, 14-15, 21, 32; Nağıllar – 23; Lətifələr – 5; Etnoqrafik mətnlər – 46; Atalar sözləri və məsəllər – 54. *Topladı: Zəfər Fərhadov*

Sadiqov Salman Əli oğlu, doğum tarixi 1926, orta təhsilli, Plankənd kəndi. Mətn 2012-ci ildə toplanıb. *Söylədiyi mətn:* Nağıllar – 12. *Topladı: Ramin Allahverdiyev*

Sadıqova Kimya Fərəməz qızı, doğum tarixi 1945, Tağılar kəndi. Mətnlər 2014-cü ildə toplanıb. *Söylədiyi mətnlər:* Bayatılar – 95-96; Tapmacalar – 1-4. *Topladı: Aynur Qəzənfərqızı*

Sadıqova Aysel Vüqar qızı, doğum tarixi 1991, Fərzalı kəndi. Mətn 2013-cü ildə toplanıb. *Söylədiyi mətn:* Nağıllar – 15. *Topladı: Aynur Qəzənfərqızı*

Şahnazarov Tanrıverdi, doğum tarixi 1957, Şınıx kəndi. Mətn 2013-cü ildə toplanıb. *Söylədiyi mətn:* Etnoqrafik mətnlər – 3. *Topladı: Aynur Qəzənfərqızı*

Şamilov Mehman, doğum tarixi 1950, Cəfərli kəndi. Mətnlər 1997-ci ildə toplanıb. *Söylədiyi mətnlər:* Mifoloji mətnlər – 22; Rəvayətlər – 4; Aşıqlar – 5. *Topladı: Zəfər Fərhadov*

Tağıyev Bəylər (aşıq), doğum tarixi 1933, Daryurd kəndi. Mətnlər 1984-1989-cu illərdə toplanıb. *Söylədiyi mətnlər:* Etnoqrafik mətnlər – 40; Bayatılar – 153-166; Tapmacalar – 6. *Topladı: Muxtar Kazımoğlu (İmanov)*

Tağıyev Mahir Qalib oğlu, doğum tarixi 1991, Cəfərli kəndi. Mətnlər 2012-ci ildə toplanıb. *Söylədiyi mətnlər:* Nağıllar – 19; Lətifələr – 6-8, 29-30. *Topladı: Aynur Qəzənfərqızı*

Tağıyev Dəmir Namaz oğlu, doğum tarixi 1937, orta təhsilli, Dəyirmandağ kəndi. Mətnlər 2012-ci ildə toplanıb. *Söylədiyi mətnlər:* Mifoloji mətnlər – 7; Rəvayətlər – 3, 24, 30; Nağıllar – 21; Etnoqrafik mətnlər – 44, 54. *Topladı: Ramin Allahverdiyev*

Tağıyev Nemət Nüsrət oğlu, doğum tarixi 1991, Göyəlli kəndi. Mətn 2013-cü ildə toplanıb. *Söylədiyi mətn:* Rəvayətlər – 18. *Topladı: Aynur Qəzənfərqızı*

Tağıyev Səməd Cabbar oğlu, doğum tarixi 1933, doğum yeri Göyəlli kəndi, yaşayış yeri Qarabağlı kəndi. Mətn 2013-ci ildə toplanıb. *Söylədiyi mətn:* Etnoqrafik mətnlər – 13. *Topladı: Aynur Qəzənfərqızı*

Tağıyeva Minayə Nadir qızı, doğum tarixi 1944, doğum yeri Şınıx kəndi, yaşayış yeri Göyəlli kəndi. Mətnlər 2013-cü ildə toplanıb. *Söylədiyi mətnlər:* Mifoloji mətnlər – 20; Rəvayətlər – 20; Etnoqrafik mətnlər – 2, 60; Bayatılar – 112-115. *Topladı: Aynur Qəzənfərqızı*

Tağıyeva Reybə, doğum tarixi 1958, Tağılar kəndi. Mətnlər 2014-cü ildə toplanıb. *Söylədiyi mətnlər:* Bayatılar – 88-93. *Topladı: Aynur Qəzənfərqızı*

Tahirov Tahir Əşrəf oğlu, doğum tarixi 1960, mühəndis, Gədəbəy şəhəri. Mətnlər 2013-cü ildə toplanıb. *Söylədiyi mətnlər:* Nağıllar –18, 27, 28; Lətifələr – 27. *Topladı: Gülnarə Tahirova*

Verdiyeva Xədicə Nəsib qızı, doğum tarixi 1932, evdar qadın, telefonçu işləyib, yerli, Gədəbəy şəhəri. Mətn 2014-cü ildə toplanıb. *Söylədiyi mətn:* Lətifələr – 23. *Topladı: Gülnarə Tahirova*

Verdiyeva Məryam Vəli qızı, doğum tarixi 1961, Qumlu kəndi. Mətnlər 2013-cü ildə toplanıb. *Söylədiyi mətnlər:* Bayatılar – 12-54. *Topladı: Gülnarə Tahirova*

# SÖYLƏYİCİLƏRİN ŞƏKİLLƏRİ



**Qasımova Reyhan Behbud qızı,**
**Gədəbəy şəhəri**



**Qurbanova Rəhilə Firudin qızı,**
**Bakı şəhəri**




**Əskərov Qədir Bayram oğlu, Kiçik Qaramurad kəndi**



**Sadıqov Hüseyn İbrahim oğlu, Əlismayıl kəndi**




**Əliyev Səməndər İsmayıl oğlu, Əlismayıl kəndi**



Ələsgərqızı Mürəstə, İvanovka kəndi



Həsənov Şahmalı Məhər oğlu, Miskinli kəndi



Hüseynov Fərhad Səməd oğlu, Şınıx kəndi



İskəndərov İskəndər Ziyad oğlu, Arıqıran kəndi

## BAŞLIQLAR

**ÖN SÖZ.....................................................................3**
**MİFOLOJİ MƏTNLƏR**
Yerin-göyün binası..........................................13
Uğuzlar..............................................................15
Hal.....................................................................17
Cin.....................................................................21
Təpəgöz.............................................................25
Əzrayıl...............................................................26
İlan.....................................................................27
Hop-hop, Gültop, Nəsib, Yusuf.........................29
Göyərçin............................................................29
Mələykə gəlin....................................................29
Qara paltarlı qadın............................................30

**RƏVAYƏTLƏR**
**Peyğəmbərlər, dini şəxsiyyətlər, pirlər və ocaqlarla bağlı rəvayətlər**
Nuh peyğəmbər..........................................32
Süleyman peyğəmbər.................................34
Xıdır peyğəmbər........................................35
İsa peyğəmbər............................................36
Musa peyğəmbər........................................38
Məhəmməd peyğəmbər..............................39
Həzrət Əli...................................................42
Haça qaya...................................................44
Seyid Gözəl................................................47
Seyid Abbas................................................48
Məşəd Ağa..................................................48
Molla Zeynalabdin......................................49
**Müxtəlif mövzulu rəvayətlər**
Allah bundan betərindən saxlasın..............50

Əshabi-kəhf........................................................51
Dağ Yunusun pulları ..........................................51
Yaranmışam daşdan mən ....................................52
Loğman və şəyird...............................................53
Sağalmaz xəstə...................................................53
Daşa dönən çoban ..............................................54
Qeyb olan qız .....................................................55
Malın köşəyi.......................................................56

## NAĞILLAR

Qarğa ilə keçəl.........................................................57
Nardanxatın...............................................................63
Qıllıca.......................................................................76
Səbir daşı, qum bıçağı...............................................82
Məlikməhəmmədlə Məhəmməd...................................84
Nərbala .....................................................................99
İki qardaş.................................................................108
Balıq bilməsə, Xaliq bilər ........................................111
Padşah qızı və kasıb oğlan .......................................137
Səxavətli qız.............................................................143
Tənbəl Əhməd...........................................................154
Dörd bacı..................................................................160
Şahzadə və alın yazısı ..............................................162
Yazıya pozu yoxdur ..................................................165
Əzrayıl və tacir oğlu..................................................166
Əzrayıl və çoban .......................................................184
Üç ağıllı söz...............................................................185
Kösövün göyərməsi...................................................190
Allahın ədaləti ...........................................................192
Qocaların öldürülməsi................................................194
İnsanın tamahı ...........................................................196
Padşah və çoban.........................................................198
Padşah və çoxbilən....................................................202

Hefi ilə Sefi ........................................................... 203
Bal yedim, bəlaya düşdüm ........................................ 206
Ağıllı qardaşla dəli qardaş ......................................... 208
Sarımsağın qiyməti ..................................................... 211
Dad Xanpərinin əlindən .............................................. 214
Samanlıq toyu ............................................................. 219
Qartal və qızılquş ........................................................ 221

**LƏTİFƏLƏR**

**Molla Nəsrəddin lətifələri**

Kef mənim deyil? ................................................ 223
Sən məndən qeyrətlisən ...................................... 224
Mənim qızıma yaraşır ......................................... 225
Ondan bərk qaçar ................................................ 225
Molla Nəsrəddin və qəssab ................................. 225

**Ayrım lətifələri**

İndicə öldürmədimmi? ........................................ 226
Qarpız ağacı nə boyda imiş? ............................... 227
Ayrım və rus ........................................................ 227
Adin arı vız, druqoy arı dız ................................. 227
Hünərin var, çək .................................................. 228
Bəs uşaqlar nədir? ............................................... 228

**Gədəbəyin baməzə adamları**

Səninki pulsuzdur ................................................ 229
Xalastoya salmışam ............................................. 229
Un, üstəlik də qoç əti ........................................... 230
Səriyyə hamama gedir ......................................... 231
Qaloşları eşikdə çıxartmışam .............................. 231
Qonağın var? ....................................................... 232
Cinli Səriyyə ........................................................ 232

**Müxtəlif mövzulu lətifələr**

Olsa, yaxşıdır ...................................................... 233
Həsən çarığını tapdı ............................................ 234

Qanmaz qızı qanmaz ............................................ 235
Ucuz ətin şorbası olmaz ........................................ 236
Bizə də xəbər verərdin ......................................... 236
Heç qayıtma ........................................................... 236
Appanı ye, oppa gedək .......................................... 237
Qırx ildir baxıram ................................................. 237
İki qardaşla bir kürd ............................................. 238
Sənə xəbər eləmədimmi? ....................................... 240
Nə qədər istəyirsən, iç .......................................... 240
Saman düşdü, Zaman öldü ..................................... 241

## AŞIQLAR

Aşıq Ələsgər və Şəmkirli Aşıq Hüseyn ...................... 242
Aşıq Ələsgərin Naxçıvan səfəri ................................. 245
Aşıq Ələsgərin Xınna səfəri ....................................... 253
Yolçuların aşığı tanıması ........................................... 260
"Aparır" rədifli şeirin yaranması ................................ 262
Aşıq Ələsgər və çəkməçi ............................................ 263
Yumrusunu gətirim, yastısını? ................................... 264
Aşıq Ələsgərlə bağlı daha bir əhvalat ......................... 265
Növrəs İman ............................................................... 266

## ETNOQRAFİK MƏTNLƏR

Xıdır Nəbi ................................................................. 271
Çillələr ........................................................................ 274
Çərşənbələr ................................................................. 274
Novruz falları ............................................................. 277
Bəxti bayram .............................................................. 277
Ayın tutulması ............................................................ 278
Təknədə kökə saxlama ................................................ 278
Həmzad ...................................................................... 278
Qırx tökmə ................................................................. 279
Bədnəzər .................................................................... 279

Üzərlik........................................................................281
Qorxuluğu götürmə ....................................................282
İlan ağzı bağlama ......................................................284
Qurd ağzı bağlama .....................................................285
Dil-ağız bağlama ........................................................285
Qurd yağı....................................................................286
Tas qurma....................................................................286
Yel xəstəliyi ...............................................................286
Külək kəsdirmə ..........................................................287
Yağış, dolu kəsdirmə..................................................288
Yağış yağdırma ..........................................................289
Vurğun vurma ............................................................290
Çor xəstəliyi ...............................................................291
Toy adətləri ................................................................291
Yas adətləri..................................................................294

**BAYATILAR.............................................................301**
**SAYAÇI SÖZLƏRİ ...................................................319**
**TAPMACALAR.........................................................320**
**ATALAR SÖZLƏRİ VƏ MƏSƏLLƏR.........................322**
**DEYİMLƏR...............................................................328**

**Mətnlərin söyləyiciləri................................................330**
**Söyləyicilər haqqında məlumat...................................342**
**Söyləyicilərin şəkilləri ................................................352**

**Gədəbəy folklor örnəkləri**
**I kitab.**
Bakı, Elm və təhsil, 2016

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Nəşriyyat redaktoru:
**Ramiz Ələkbərov**

Kompyuterdə yığdılar:
**Məhsəti Süleymanova**
**Səfa Əliyeva**

Korrektor:
**Aynurə Səfərova**

Kompyuter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Kağız formatı: 60/84 1/32
Mətbəə kağızı: №1
Həcmi: 22,5 ç/v
Tirajı: 400

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompyuter Mərkəzində yığılmış, səhifələnmiş,
“Elm və təhsil” NPM-də ofset üsulu ilə
hazır deopozitivlərdən çap olunmuşdur.